Aərbaycan Milli Elmlər Akademiyası
Milli Azərbaycan Tarixi Muzeyi



MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ
– 2021 –

Bakı – 2021

Milli Azərbaycan Tarixi Muzeyinin
Elmi Şurasının qərarı ilə nəşr edilir

Təsisçi:
AMEA Milli Azərbaycan Tarixi Muzeyi

Redaksiya heyəti:
Nailə Vəlixanlı – AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru (baş redaktor), Gülzadə Abdulova – tarix üzrə fəlsəfə doktoru, dosent, Fərhad Cabbarov – tarix üzrə fəlsəfə doktoru, dosent (məsul katib), Firdovsiyyə Əhmədova – tarix üzrə fəlsəfə doktoru, dosent, Nərgiz Əliyeva – tarix elmləri doktoru, dosent, Əli Rəcəbli – tarix elmləri doktoru, professor, Səbuhi Əhmədov – tarix üzrə fəlsəfə doktoru, dosent, Nasir Quluzadə – tarix üzrə fəlsəfə doktoru, dosent, Məhfuzə Zeynalova - tarix üzrə fəlsəfə doktoru, dosent.

Redaksiyanın ünvanı:
Bakı şəhəri, H.Z.Tağıyev küçəsi, 4.
Tel: 012 493 23 87, Faks: 598 52 11
E-mail: aztarmuzey@science.az

Milli Azərbaycan Tarixi Muzeyi - 2021. Bakı, “Təhsil”, 2021,

İSBN

Nailə Vəlixanlı*

Zəngəzur bölgəsinin VII-XII əsrlər dövrü tarixinin tarixşünaslığına dair

Açar sözlər: *Zəngəzur, Qafqaz Albaniyası, Sünik-Sisəcan, Ərəb Xilafəti*

UOT 94 (479.24)

Azərbaycanda 1920-ci ildə baş verən aprel işğalından sonra hələ Xalq Cümhuriyyəti illərində Cavanşir, Şuşa və Cəbrayıl qəzaları ilə birlikdə Qarabağ general-qubernatorluğunu təşkil edən tarixi Azərbaycan ərazisi Zəngəzur yeni yaranmış Sovet Azərbaycanı tərkibinə ayrıca inzibati bölgə - XIX əsr Rusiya imperiyası dövründən qalma Zəngəzur qəzası adı ilə daxil oldu. Lakin bu vəziyyət çox çəkmədi. Həmin ilin noyabr ayının 29-da yaradılmış Ermənistan Sovet Respublikası ilk siyasi addımları ilə ermənilərin neçə illərdən bəri davam edən Zəngəzuru Azərbaycandan qoparmaq cəhdlərini bir qədər də artırdı. Çox keçmədən Rusiya bolşeviklərinin birbaşa köməyilə Zəngəzurun Qafan, Gorus, Mehri, Qarakilsə (Sisyan) rayonları Ermənistana ilhaq olundu. Azərbaycan torpaqlarında tarix boyu işğalçıların əli ilə vaxtaşırı həyata keçirilən parçalanma siyasəti burada da baş verdi. Tarixi Zəngəzur iki hissəyə bölündü; yeni tariximizə Azərbaycan İctimai Şura Cümhuriyyəti adı ilə daxil olan Sovet Azərbaycanı tərkibində onun yalnız şərq-Qubadlı, Zəngilan və Laçın rayonları qaldı.

Lakin 70 illik Sovet rejiminin süqutu tarixin mehvərini yenə də dəyişdi. 1992-1993-cü illərdə, Birinci Qarabağ müharibəsi dövründə yaranmış mürəkkəb siyasi vəziyyət, hərcmərclik və xaos Zəngəzurun bu torpaqlarını da erməni işğalına məruz qoydu. Və yalnız 27 il sonra, 44 günlük Vətən müharibəsi zamanı əldə edilmiş xalq -

*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin baş direktoru, akademik, tarix elmləri doktoru, aztarmuzey@mail.ru

dövlət – ordu vəhdətinin nəticəsində yaranan milli birlik sayəsində Qubadlı, Zəngilan və Laçın rayonları erməni işğalı altında qalan digər torpaqları mızla birlikdə düşmən tapdağından, nəhayət ki, xilas olundu. Qərbi Zəngəzurun Ermənistan ərazisində qalan Qafan, Gorus, Mehri, Qarakilsə (Sisyan) rayonları isə, hələ 1995-ci ildə, antik və erkən orta əsrlər Qafqaz Albaniyasına məxsus Sünik adı ilə inzibati-ərazi vahidi çərçivəsində ayrıca vilayət kimi birləşdirildi.

Bu gün mütərəqqi dünya hər bir dövlətin beynəlxalq hüquq normalarına əsaslanan ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını təmin edən müxtəlif hüquqi aktlarla, Birləşmiş Millətlər Təşkilatının müvafiq qərarları ilə təsbitlənən prinsiplərlə yaşayır. Azərbaycan Respublikası da özünün beynəlxalq siyasətində məhz bu prinsipləri rəhbər tutur; o heç bir ölkənin, heç bir torpağına iddialı deyil. Lakin ulların əmanəti olan, xüsusilə, işğala məruz qalan qədim torpaqlarımızın hər bir qarışı ona əzizdir. Məhz buna görə, Vətən tarixinin müdafiəsi, onun bütün dövrlərinin hərtərəfli, obyektiv tədqiqi günümüzün ən vacib, prioritet vəzifəsidir.

Təqdim olunan məqalədə sözsüz ki, biz də obyektivliyi və reallığı pozmadan, yalnız dürüst mənbələrə və qərəzsiz tarixçilərin yazdıqlarına əsaslanaraq, tarixi Azərbaycan ərazisinin bir hissəsi olan Zəngəzur bölgəsinin, o cümlədən, erkən orta əsrlər Qafqaz Albaniyasının vaxtılə bu bölgəni əhatə edən Sünik-Sisakan vilayətinin ərəb və monqol işğalları arasında qalan VII-XII əsrlər dövrü tarixinin tarixşünaslığını işıqlandırmağa çalışacağıq.

Cənubi Qafqazın cənub-qərb torpaqlarını əhatə edən, yazılı mənbələrdə Zəngəzur adı ilə XIV əsrdən məlum olan bu ərazi erkən orta əsrlərdə əsasən Qafqaz Albaniyasının sağsahil hissəsindəki vilayətləri – Sünik-Sisakanı bütövlükdə, Utik, Arsax və Paytakaranı isə qismən əhatə edirdi[1]. Vətən tarixşünaslığında Zəngəzur tarixinin tədqiqat obyektimiz olan olduqca mürəkkəb, monqol hücumlarına qədərki dövrü akademik Ziya Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə", AMEA-nın müxbir üzv Fəridə Məmmədovanın "Qafqaz Albaniyası və albanlar", Akif Muradverdiyevin "Zəngəzur-tariximizin yaddaşı", Musa Urudun "Zəngəzur (elmi-publisistik nəşr)" və AMEA A.Bakıxanov adına Tarix İnistitutunda kollektiv müəllif heyəti tərəfindən hazırlanmış "Qubadlı: Qədim Azərbaycan torpağı Zəngəzurun qapısı" (akademik Yaqub Mahmudovun elmi redaktorluğu ilə) əsərlərində bilavasitə həmin əsərlərin əhatə etdiyi mövzularla əlaqədar

[1] Məqalədə Qafqaz Albaniyasının antik və erkən orta əsrlər dövrü vilayətlərinin, o cümlədən Sünik vilayətinin adı müvafiq dövrün mənbələrində olduğu kimi Sünik, Sisakan, əs-Sisəcan adları ilə təqdim edilir.

işıqlandırılmışdır[1]. Lakin mövcud reallıq, xüsusilə, Sovetlər dönəmində müəyyən obyektiv səbəblərə görə Azərbaycan tarixşünaslığında bu sahədə yaranan boşluq, eləcə də, bu gün də davam etməkdə olan ərazi iddiaları, Zəngəzur mövzusunun da Qarabağ mövzusu ilə yanaşı daha ətraflı, dərin və sözsüz ki, obyektiv elmi tədqiqini zəruri edir.

Antik və erkən orta əsrlərin müxtəlifdilli (yunan, erməni, gürcü, ərəb, fars, türk və s.) mənbələrində Sünik, Syuni (Süni), Sisakan, Sisəcan (əs-Sisəcan), Sevnieti, Sivnik adlandırılan bu vilayət haqqında XIX əsrin, xüsusilə, ikinci yarısından başlayaraq, əsasən, erməni müəlliflərinin (O.Şahatunyans, A.Sedrakyan, S.Calalyans, M.Gümüşxanetsi, Q.Alişan, M.Smbatyans, N.Adonts və b.) əksəriyyəti erməni dilində yazılmış əsərlərində məlumat vardır[2].

XX əsrin 30-50-ci illərində, artıq Sovetlər dönəmində də, Sisakan-Sünik mövzusu yenidən erməni müəllifləri (A.Abraamyan, A.Utmazyan, B.Arutyunyan və b.) tərəfindən gündəmə gətirildi, lakin bu əsərlərin çoxu yenə ermənidilli oxucunu nəzərdə tutmuş, Sovetlər birliyi xalqlarının o vaxtlar əsas ünsiyyət dili olan rus dilində isə Sünikin timsalında başlıca olaraq bölgədə tarixən baş verən sinfi mübarizə və xalq hərəkatı problemləri işıqlandırılmışdır[3].

Ötən əsrin 60-cı illərinin ortalarında Sovet Ermənistanının siyasi mühitində baş verən ciddi dəyişikliklər erməni tarixşünaslığına da böyük təsir göstərmiş, Rusiya professoru V.A.Şnirelmanın sözləri ilə desək, "həmin vaxtdan başlayaraq, erməni tarixçiləri üçün ermənilərin Kiçik Asiya və Erməni yaylası ərazisində avtoxtonluğunu sübut etmək, onların dövlətçilik köklərini dərinləşdirmək, b.e.ə. I minilliyin ikinci yarısından 1915-ci ilədək ermənilərin Erməni yaylasında dominant əksəriyyəti təşkil etdiklərini sübut etmək xüsusilə mühüm oldu"[4].

[1] Буниятов З.М. Азербайджан в VII-IX века//В кн:. «Избранные сочинения» в 3-х томах.-Т.1, Баку, 1999 (bundan sonra: Буниятов. Азербайджан 7-9); Мамедова Фарида. Кавказская Албания и албаны.-Баку, 2003 (bundan sonra; Мамедова); Musa Urud. Zəngəzur (elmi-publisistik nəşr).-Bakı, 2005; Akif Muradverdiyev. Zəngəzur - tariximizin yaddaşı.-Bakı: Xəzər, 2007; Qubadlı: Qədim Azərbaycan torpağı Zəngəzurun qapısı.-Bakı, 2013.

[2] Şahatunyans O. Eçmiədzin kafedral kilsəsinin və Araratın beş havarının təsviri./C.2.-Eçmiədzin, 1842 (erm.dil.); Sedrakyan A. Yericək vilayətində doğma qədmi yerlər.-Vaqarşapat, 1872 (erm.dil.); Calalyans S. Böyük Ermənistanı səyahət./C.1-Tiflis, 1842; C.2-Tiflis, 1858 (erm.dil.); Gümüşxanetsi M. Sevan monastırının keçmiş hadisələrinə dair tarix.-Vaqarşapat, 1871 (erm.dil.); Alişan Q. Sisakan.-Venetsiya, 1893 (erm.dil.); Smbatyans M. Gexarkuni.-Vaqarşapat, 1895 (erm. dil.); Адонц Н. Армения в эпоху Юстиниана.-СПБ.1908 (bundan sonra: Адонц).

[3] Абраамян А.Г. Крестьянское движение в Сисакане.-Ист.записки./Инст. Ист. АН СССР, 1938, №3, s. 60-75; Арутюнян Б. Крестьянские волнения в Сюнии в X в./Уч.записки Ереванского Гос.Пед.Института, 1950, c.2, s. 14-36; Utmazyan A.M. Sünik IX-X əsrlərdə.-Yerevan, 1956 (erm.dil); Саакян Т.М. Крестьянские восстания в Сюнике в X веке./Изв. АН Арм. ССР, 1956, №3, s. 37-44.

[4] Шнирельман В.А. Войны памяти. Мифы, идентичность и политика в Закавказье.– Москва, ИКЦ «Академкнига», 2003, s. 68 (bundan sonra: Шнирельман).

Məhz həmin illərdə, Zəngəzur-Sünik tarixinin, xüsusilə, qədim və orta əsr dövrləri erməni dili ilə yanaşı (yenə də bu dildə yazılmış əsərlər üstünlük təşkil etsə də), rus, ingilis və başqa dillərdə yazılan araşdırmalarda bəzən əsas mövzu, bəzən isə digər mövzularla – çox vaxt erməni tarixçilərinin Ermənistanın Şərq diyarı adlandırdıqları Albaniya-Ağvan tarixi ilə bağlı tədqiqat obyekti oldu (T.X.Akopyan, A.Ş.Mnatsakanyan, B.A.Ulubabyan, T.M.Saakyan, Q.M.Qriqoryan, Robert Hevsen və b.)[1].

Adlarına və əsas tədqiqat mövzularına görə fərqlənən bu əsərlərdə Qafqaz Albaniyasının böyük bir hissəsi, o cümlədən Sünik-Sisakan "əzəli" erməni ərazisi kimi təqdim olunur. Erməni-sovet tarixçisi Q.M.Qriqoryanın Sünik-Sisakan haqqında rus dilində yazdığı əsərində irəli sürdüyü "Ermənistanın Şərq diyarı (Kür və Araz çayarası) ən qədim çağlardan əhalisi erməni olan erməni ərazisi olub..., Arsaxın, Utikin və Sünikin əsil əhalisi ta qədimdən erməni olub və indiyədək belə də qalıb..., nə "sünik" və ya "arsax" dilləri olmayıb..."[2] iddiaları da demək olar, bütün erməni tədqiqatçıları tərəfindən birmənalı qəbul olunub. Onu da qeyd edək ki, erməni tarixşünaslığında konseptual fikir kimi qarşılanan bu kimi müddəaları "tarixi həqiqət" qismində qəbul edən Q.M.Qriqoryan Azərbaycan alimləri Ziya Bünyadov, İqrar Əliyev, Davud Axundov, Fəridə Məmmədova və başqalarının Qafqaz Albaniyası, o cümlədən Sisakan-Sünikin siyasi tarixi və tarixi coğrafiyası, dili və mədəniyyətinə dair tədqiqatlarını "qeyri elmi" hesab etmiş, bu alimlərin real tarixi faktları "təhrif" etdiklərini sübut etməyə çalışmışdır"[3]. Belə ki, o, Süniki "elmdə ilk dəfə" (F.Məmmədova)[4], Albaniya vilayəti kimi təqdim edən akademik Ziya Bünyadovu tarixi faktları saxtalaşdırmaqda günahlandırır, onun tədqiq olunan mövzuya dair mülahizələrini "əsassız" hesab edir[5].

Özündən əvvəlki bir sıra tədqiqatçıların (Q.Alişan, T.Akopyan, A.Mnatsakanyan, B.Ulubabyan və b.) Utik, Arsax və başqa alban vilayətlərinə dair fikirlərini təkrar edən Q.Qriqoryan "Sünik heç vaxt Qafqaz Albaniyası hüdudlarına daxil olmayıb. O həmişə Ermənistanın tərkibində olub…" iddiasını

[1] Akopyan T.X. Sünik padşahlığı.-Yerevan, 1966 (erm.dil.); Мнацаканян А.Ш. О литературе Кавказской Албании.-Ереван, 1963; Ulubabyan B.A. Ermənistanın Şərq diyarı tarixinin oçerkləri (V-VII əsrlər).-Yerevan, 1981 (erm.dil.); Saakyan T.M. Sünik padşahlığının yaranması və onun XI əsrdə siyasi rolu.-TFJ, 1966, №3, s. 221-228 (erm.dil.); Григорян Г.М. Очерки истории Сюника IX-XV вв.-Ереван, 1990 (bundan sonra: Григорян. Очерки); Hewsen Robert H. Armenia: A Historical Atlas.-University of Chicago Press, 2001 (bundan sonra: Hewsen).

[2] Григорян. Очерки, s, 38.

[3] Yenə orada, s. 22; Qafqaz Albaniyası tarixinin mükəmməl araşdırıcısı olan professor Fəridə Məmmədova özünün alban tarixinə dair son tədqiqatında (Кавказская Албания…) B.A.Ulubabyan, Ş.V.Smbatyan, V.A.Arutyunova–Fidanyan, A.Ş.Mnatsakanyan, S.T.Yeremyan, Q.X.Svazyan, eləcə də Robert Hevsen və b.-nın Qafqaz Albaniyası, o cümlədən Sünikə dair iddialarını müvafiq mənbələrə əsaslanmaqla cavablandıra bilmişdir və bir çox hallarda təkrara ehtiyac yoxdur.

[4] Мамедова, s. 70.

[5] Буниятов З. Азербайджан, s. 117; Григорян Г. Очерки, s. 16.

irəli sürür[1], bununla yanaşı həmin müəlliflərlə birgə K.V.Trever[2], Y.Markvart[3], N.Adonts kimi görkəmli tədqiqatçıların da Qafqaz Albaniyasının sərhədlərinə dair bir sıra baxışlarını "səhv" hesab edir[4]. Antik və erkən orta əsr müəlliflərinin məlumatlarına əsaslandıqlarını qeyd edən "bütün erməni müəllifləri" kimi, o, da Kür çayının sağsahil hissəsinin b.e.ə. II əsrdən eramızın V əsrinədək "Erməni Ağvankı" adı ilə Böyük Ermənistan tərkibində olduğunu bildirir[5]. Yəni, Sünikqarışıq bütün sağsahil Albaniyasının (Utik və Arsaxla birlikdə) hələ b.e.ə. Ermənistana aidliyini iddia edir.

Yeri gəlmişkən qeyd edək ki, Sünik tarixinə, daha doğrusu, Sisakan nəslinin tarixinə xüsusi əsər həsr edən XIII əsr müəllifi Stepannos Orbelian "bizim ölkəmiz" adlandırdığı Sisakan haqqında yazmaq üçün "uzaq və yaxın ölkələrdə, monastırlarda və sandıqlarda, qədim tarixi əsərlərin saxlandığı yerlərdə bir çox axtarışlar apardığı, lakin bu ölkə haqqında heç bir rəvayət, və ya keçmiş hadisələr haqqında heç bir məlumat tapmadığını" bildirmişdir[6]. Görünür, Sünik-Sisakanın qədim tarixi haqqında bu məlumat kasadlığı, daha doğrusu yoxluğu, vətənində çox mühüm dini – mitropolit vəzifəsini tutan Stepannosun həmin dövrə dair başlıca mənbə kimi istinad etdiyi erkən orta əsr erməni tarixçilərinin (F.Buzand, M.Xorenatsi, Yeqişe, Gevond və b.) məlumatları ilə kifayətlənməsinə, həmin məlumatları təkrar etməsinə səbəb olmuşdur. Onu da qeyd edək ki, Sisakan adlı vilayətin "qədim abidələrdə" yoxluğunu N.Adonts da təsdiq etmiş, hətta Stepannos Orbelianın əsas mənbələrindən olan Moisey Xorenatsi tərəfindən eyniləşdirilmiş Sünik və Sisakan adlarının bir-birinə münasibəti məsələsinin, bu adların eyniyyət mənşəyinin qaranlıq qaldığını da bildirmişdir[7].

Bununla belə, erməni tarixşünaslığında Sünikin Ermənistan tərkibinə daxil edilməsi birmənalı olaraq yunan tarixçisi Strabonun b.e.ə. 189-cu ilə aid məlumatı ilə əlaqələndirilir. Bu məlumata görə, həyatlarını "ərazi işğallarına həsr etmiş"[8] iki erməni hökmdarı – Artaksi (Artaşes) və Zariadr (Zarex) "əvvəllər kiçik ölkə olan Ermənistanı" qonşu ərazilərin hesabına genişləndirə bilmiş, başqa yerlərlə bərabər midiyalıların tabeliyində olan, lakin o vaxtadək ermənilərin yaşamadığı[9]

[1] Григорян Г. Очерки, s. 16.

[2] Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании.- М.-Л., 1959 (bundan sonra: Тревер).

[3] Markwart J. Eransahr nach der Geographie Moses Chorenaci.-Berlin, 1901, s. 201.

[4] Григорян. Очерки, s. 18.

[5] Yenə orada.

[6] Степаннос Орбелиан. История рода Сисакан./Перевод с древне-арм. на русский Т.Тер-Григоряна.-Баку, 1949 (AMEA A.Bakıxanov ad.Tarix İnstitutunun arxivi, inv.1274, v. 3,5): (bundan sonra: С.т. Орбелиан).

[7] Адонц, s. 422-423.

[8] Шнирельман, s. 42.

[9] Yenə orada, s. 43.

"Kaspiana, Favnitida və Basoropedanı" da işğal etmişdilər[1]. Adları çəkilən bu ərazilər arasında Sünikin adı çəkilməsə də, erməni tədqiqatçıları Favnitida adını "Saunitis" kimi oxumuş, onu Süniklə eyniləşdirmişlər. Hətta ermənimənşəli Amerika tarixçisi Robert Hevsen hər iki ad arasındakı "fonetik uyğunsuzluğu" əlyazmanı köçürənin (nasixin) səhvi kimi qəbul etmişdir[2]. Strabonun bu məlumatına istinad edən V.Şnirelman erməni hökmdarının işğal siyasətinin Araz çayının solsahil ərazisini, o cümlədən Süniki (görünür ki, Sünik ilə eyniləşdirilən Favnitidanı nəzərdə tutaraq) əhatə etdiyini bildirir, lakin "bu işğal siyasətinin detallarının naməlum qaldığı"nı da xəbər verir[3]. Bununla yanaşı, o, erməni çarı II Tiqranın (b.e.ə. 95-55) dövrün iki böyük imperiyası–Parfiya ilə Roma arasındakı ziddiyyətlərdən istifadə edərək, Fərat çayı yanındakı Sofena əyalətindən başlayan ilk hücumundan sonra[4] başqa istiqamətlərlə yanaşı, həmçinin, şərqə doğru ərazilərini genişləndirməsinə dair məlumat verir, lakin bu hökmdarın Qafqaz Albaniyasını da işğal etməsi faktı haqqında "mənbələrin susduğu"nu etiraf edir[5]. Yeri gəlmişkən, Strabonun bəhs etdiyi hərbi yürüşlər dövründə rəqib tərəflər üçün səciyyəvi ola biləcək bir məlumat həmin dövrdə sürətlə cərəyan edən bir sıra mürəkkəb hadisələri qiymətləndirmək baxımından diqqəti cəlb edir. Belə ki, yunan müəllifi tarixi Azərbaycan ərazisinin cənub torpaqlarını əhatə edən Atropatena dövlətinin b.e.ə. I əsrdə "öz qüdrətli qonşuları – ermənilər və parfiyalılar tərəfindən dağıdıcı hücumlara məruz qaldığını" xəbər verir və buna "lakin onlar (atropatenalılar-*N.V.*) müqavimət göstərir və alınmış torpaqlarını yenidən geri qaytarırlar", məlumatını əlavə edir[6].

Erməni çarı II Tiqranın təsadüfi işğallar nəticəsində[7] yaratdığı, Qafqaz Albaniyasının tarixinə dair ilk maraqlı əsərlərdən birinin müəllifi K.V.Treverin təbirincə desək, "qüdrətli, lakin uzunmüddətli olmayan"[8] qurama dövlətin ömrü, həqiqətən də, çox olmadı: b.e.ə. 60-cı illərdə romalıların hücumları nəticəsində erməni hökmdarı, demək olar, bütün işğal etdiyi əraziləri itirdi. Buna baxmayaraq, erməni tarixşünaslığında zor gücünə alınmış qonşu torpaqları əlindən çıxan Ermənistan yenə də heç kəsdən asılı olmayan müstəqil dövlət kimi,həmin torpaqlar isə ermənilərə məxsus ərazi kimi təqdim edildi. V.Şnirelmanın haqlı

[1] Страбон. География в 17 книгах./Перевод и комментарии Г.А.Стратоновского.-М., 1964, XI, XIV, 5 (bundan sonra: Страбон).

[2] Hewsen, s. 190.

[3] Шнирельман, s. 42, 43.

[4] Bu haqda bax: История армянского народа./Под ред. М.Г.Нерсесяна.-Ереван, 1980, s. 42.

[5] Шнирельман, s. 42. Maraqlıdır ki, elə bu əsərinin IV fəslində (s. 62) V.Şnirelman əvvəl yazdığına zidd olaraq II Tiqranın "öz dövlətinə əsl şöhrəti" məhz Qafqaz Albaniyasının Kür və Araz çayarası ərazisində yerləşən Arsax və Utiki "ona birləşdirməsi" ilə gətirdiyini xüsusi vurğulayır.

[6] Страбон, XI, 13,2.

[7] Мамедова, s. 151.

[8] Тревер, s. 88.

qeydinə görə, hətta, məsələn, S.T.Yeremyanın xəritələrində[1] "Kür çayının sağsahil ərazisi Qoqarena, Sakasena, Arsax, Utik, Sünik və Kaspiana (Paytakaran) vilayətləri ilə b.e.ə. II əsrdən başlayaraq Böyük Ermənistanın hissələri kimi verilir. Başqa sözlə, Ermənistan dövlətinin tərkibinə müasir Gürcüstan və Azərbaycanın tərkibində olan torpaqlar daxil edilir"[2]. Halbuki, tarixən məlumdur ki, Roma ilə Parfiya imperiyaları arasında Yaxın Şərqdə hegemonluq uğrunda hələ b.e.ə. başlanan və uzun illər davam edən mübarizə artıq eramızın I əsrinin ikinci yarısında Parfiyada hakimiyyət başında olan Arşaqilərin bölgənin bir sıra ölkələrində, o cümlədən Qafqaz Albaniyasında, Ermənistanda və İberiyada da siyasi üstünlüyü əldə etmələri ilə nəticələnmiş, həmin ölkələrdə Arşaqilərin kiçik qolunun nümayəndələri hakimiyyətə gətirilmişdilər[3].

Alban müəllifi Moisey Kalankatuklu Qafqaz Albaniyasının Arşaqilər tərəfindən təyin olunmuş hökmdarı Aranın mənşəyi haqqında təqdim etdiyi mifoloji xarakterli məlumatda onun Nuh peyğəmbərin oğlu, bir çox xalqlarla (o cümlədən Qafqaz xalqları ilə) yanaşı müsəlman mənbələrində, həmçinin, türklərin də əcdadı sayılan Yafətin törəmələrindən Sisakın (Sisakanın) nəslinə mənsubluğunu bildirir, "Araz çayından başlayaraq Xunan qalasına qədər uzanan Alban ölkəsinin düzənliklərinin və dağlarının miras olaraq" ona verildiyini xüsusi qeyd edir[4]. Moisey Kalankatuklunun analoji məlumata görə isnad etdiyi erməni tarixçisi Moisey Xorenatsi isə (V-VI əsrin əvvəli) burada Sisakan nəslinin nümayəndəsi kimi adı çəkilən Aranın ermənilərin əfsanəvi əcdadı Haykın nəvəsi Gexamın oğlu Sisakın nəslindən olduğunu bildirir[5]. Moisey Xorenatsinin təqdim etdiyi bu əfsanəvi genealogiyaya əsaslanan erməni tarixşünaslığı Sisakan nəslinin, o cümlədən süniklilərin ermənimənşəli olduqlarını israr edir. Bu müəllifin məlumatını ilk mənbə kimi qəbul edən Moisey Kalankatuklu isə, yuxarıda gördüyümüz kimi, alban Arsaqilərinin ilk hökmdarı Aranın əcdadı kimi bilavasitə məhz Haykın deyil, bir çox xalqların daha qədim əcdadı hesab olunan Nuh oğlu Yafətin adını çəkir. İlk Albaniya hökmdarlarının "şübhəsiz yerli alban əyanlarının nümayəndələrindən olduğunu" əminliklə qeyd edən və bunun onların "qeyri-erməni və qeyri-iran adları (Oroys, Kozis, Zober)" ilə təsdiq olunduğunu

[1] Burada S.T.Yeremyanın 1951-ci ildə Yerevanda nəşr olunan "Erməni xalqının tarixi" (История армянского народа.-Ереван, 1951) kitabındakı xəritələri nəzərdə tutulur.

[2] Шнирельман, s. 63; Bax həmçinin: Мамедова, s. 213.

[3] Тревер, s. 145; Мамедова, s. 348.

[4] Kalankutuklu Moisey. Albaniya tarixi.-Bakı, 1993, s. 17 (bundan sonra: Kalankatuklu); Ərəb mənbələrinə görə də Nuhun oğlu Yafətin törəmələrindən olan Avmarın oğlu Lantadan doğulan Kasluhimdən arranlıların (albanların) ulu babası Aran və gürcülərin ulu babası Curzan dünyaya gəlmişlər (elə bu mənbəyə görə Lantanın o biri oğlu Ərməndir). Bax: Yaqut əl-Həməvi. Mucəm əl-buldən.-Beyrut, 1950, c. I, s. 198, 220; c. II, s. 58); həmçinin: Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər.-Bakı, 2016, s. 104-105 (bundan sonra: Vəlixanlı. Azərbaycan 7-12).

[5] Мамедова, s. 405, qeyd*.

bildirən K.V.Treverin fikrincə, bu əfsanəvi genealogiya, "görünür, b.e. I əsrinin ortalarında, bəlkə də axırlarında Parfiya Arşaqiləri siyasi məqsədlərə görə Zaqafqaziyanın bir sıra ölkələrində (Ermənistanda, Atropatenada, maskutların ölkəsində və Albaniyada) öz nəsillərinin nümayəndələrini taxta oturda bildikləri dövrdə yaranmışdı..."[1].

Aranın Sisak nəslindən olması əfsanəsinin "tarixi əhəmiyyət" daşımasına şübhə ilə yanaşan K.V.Treverin fikrincə eramızın I əsrinə aid olan bu rəvayətə Moisey Xorenatsi tərəfindən V əsrdə həmin hökmdarın Sisak nəslindən, Sisakın isə Hayk nəslindən (yəni erməni mənşəli) olmasının əlavə edilməsi, Sünik-Sisakan vilayətinin həmin dövrdə Albaniya ilə Ermənistan arasındakı qarşılıqlı siyasi münasibətlərdə böyük rol oynaması ilə izah oluna bilərdi. Bununla yanaşı, onun fikrincə, "Arşaqilər Ermənistan və Albaniya maraqlarının yaxınlaşdırılması məqsədilə alban dövlətçiliyinin erməni torpaqlarının əfsanəvi qurucusu Valarşakın birbaşa təsirilə təşəkkülü əfsanəsini yarada bilərdilər"[2].

Əlbəttə, rəvayət xarakterli belə məlumatlar real tarixilik baxımından, göründüyü kimi, dəqiq və əhəmiyyətli fakt qismində qiymətləndirilməsələr də (K.Treverin haqlı şübhəsi də bundan irəli gəlir), xalqın Nuh peyğəmbərdən başlayan nəsl-şəcərə tarixinin legitimləşdirilməsinə səbəb ola bilir. Bu öz müşahidələrində, adətən, elmi əsaslara söykənən A.Bakıxanovun da bir sıra Şərq (ərəb, fars, türk, çin və s.) mənbələrindən əxz etdiyi rəvayətlərin təhlilindən sonra irəli sürdüyü fikirlərdən də görünür. O, bu mənbələrə əsaslanaraq, Nuhun oğlu Yafəti bir varianta görə türk tayfalarının başçısı, digərinə görə İranın ilk mifoloji hökmdarı Keyumərzin müasiri olan ilk türk hökmdarı hesab edir, onun böyük oğlu və varisi Türkün ədalətli və insanpərvər padşah olduğunu bildirir[3]. Belə olan halda, obyektiv olaraq, "Yafətin nəslindən və Sisakan soyundan olan" Aranın türkmənşəliyi fikri də ortaya gələ bilir[4]. Hər halda, rəvayət də olsa, Sisakan nəslindən, yəni əsli Sünikdən olan Aranın, bütöv Qafqaz Albaniyasının hakimi təyin edilməsi, Sünikin bu ölkənin vilayətlərindən biri olduğunu, əhalisinin gəlmə erməni deyil, yerli albanmənşəliyini, eləcə də vilayətin özünün bölgədəki digər vilayətlərə nisbətən tutduğu fərqli mövqeyi (bəlkə də hərbi-siyasi gücü) ilə də izah oluna bilər.

Sünik-Sisakanı həmin dövrdə "Böyük Ermənistan"a aid vilayət hesab edən N.Adonts öz fikrini təsdiq etmək üçün IX əsr ərəb coğrafiyaşünas-səyyahları İbn Xordadbeh və İbn əl-Fəqihin məlumatlarına isnad edir. Lakin həmin mənbələrin dövrün digər mənbələri (əl-Yəqubi, əl-Bəlazuri) ilə müqayisəli təhlili onun hər iki məlumatda "Sisakan" kimi təqdim etdiyi toponimin İbn Xordadbehdə tamam

[1] Тревер, s. 145.

[2] Yenə orada, s. 146, 145.

[3] Бакиханов А. Гюлистани-Ирем.-Баку, 1991, s. 27.

[4] Vəlixanlı. Azərbaycan 7-12, s. 105.

başqa yerə aidliyini, İbn əl-Fəqihdə isə naşirin səhv konyekturasının nəticəsi olduğunu sübut edir[1]. Belə ki, N.Adonts birinci müəllifin Sasanilərin ilk şahənşahı I Ərdəşirin (224-241) ona tabe ölkə başçıları arasında adını çəkdiyi "sisəcanşah"ı səhvən Sisakan-Süniklə əlaqələndirir[2]. Halbuki, İbn Xordadbehin əsərində təqdim olunan əs-Sisəcan orta əsrlərdə Xorasana aid, müasir dövrdə Sistan adlanan vilayətdir və nə onun, nə də həmin mətndə adı çəkilən, Azərbaycana aid edilən Baraşanın N.Adontsun iddiasına zidd olaraq Ermənistana heç bir aidiyyəti yoxdur. İbn əl-Fəqihdə isə naşirin nöqsanlı konyekturası – Savşin-Şakaşin-Sakasena əvəzinə həmin toponimi Sisər kimi oxuması[3] N.Adontsun yenidən səhv etməsinə səbəb olmuş, bu məlumatların onun fikrini təsdiqləmək üçün istifadəsini əsassız etmişdir.

Onu da qeyd etməliyik ki, müxtəlifdilli mənbələrin verdikləri məlumatlarda erkən orta əsrlər dövrü Sünik-Sisakanı digər qonşu ölkələrlə yanaşı adı ayrıca vilayət kimi çəkilən, öz yerli knyazı tərəfindən idarə olunan müstəqil yer kimi təqdim edilir. Belə ki, hələ b.e. III əsrinin ortalarında romalılar üzərində qələbə sevincini Nəqşi-Rüstəmdə[4] – "Zərdüştün Kəbəsi" adlı qədim od məbədindəki üçdilli (fars, pəhləvi və yunan) kitabədə əbədiləşdirən ikinci Sasani hökmdarı I Şapurun (241-272) ona tabe olunan ölkələr (Atropatena, Armeniya, İberiya və Albaniya) sırasında adını çəkdiyi "Maxeloniya" toponiminin[5] pəhləvi variantında Se(a)kan (SYKN) kimi verilməsi tədqiqatçıların əksəriyyətinin burada söhbətin Sünik-Sisakandan getdiyini bildirməsinə səbəb olur (çox az tədqiqatçı "Maxeloniya" sözünü "Minqreliya" və ya inquşlara aid edilən "Məqqəl" kimi oxuyur)[6]. Belə olan təqdirdə, bu dövrdə siyasi baxımdan Sasanilərə tabe edilmiş vilayətlərdən olan Sisakanın, görünür, yalnız daxili müstəqilliyi öz təsdiqini tapa bilərdi.

Xilafətin hakimiyyəti və sonrakı dövrlərdə Sünik-Sisakanın Albaniya ilə qarşılıqlı münasibətlərini, Albaniya tarixində tutduğu xüsusi yeri XIII-XIV əsrin əvvəllərində yaşamış Stepannos Orbelianın təqdim etdiyi maraqlı bir fakt da təsdiq edir. Bu məlumata görə Sisakan işxanı Vahanın 911-ci ildə tikdirməyə başladığı, 1046-cı ildə vilayətin digər işxanı Smbat və qardaşı Qriqor tərəfindən tikintisi başa çatdırılan Vahanavəng monastırında "ağvan (alban) və Baqk çarları və çariçaları, eləcə də Sisakan ölkəsinin bir çox şöhrətli işxanları dəfn olunmuşdur"[7]. Q.Qriqoryanın həmin ərazidə apardığı arxeoloji tədqiqat işləri zamanı Sisakan işxanları Vahan, Cavanşir, Smbat, Qriqor və Sənəkərimin, alban hökmdarı İşxan

[1] Vəlixanlı. Azərbaycan 7-12, s. 193, 198 qeyd 17.

[2] Адонц, s, 218.

[3] Yenə orada, s. 421-422, qeyd 4.

[4] Nəqşi-Rüstəm – İran İslam Respublikasının Fars əyalətində, Persepolun 12 km şimal-qərbində arxeoloji abidə.

[5] Bax: Тревер, s. 134-136.

[6] Тревер, s. 135 qeyd 2.

[7] Ст.Орбелиан, v. 144.

adlı Sevadanın qızları Şahənduxt və Katanın, alban (Şəki) hökmdarı Atrnersehin arvadı Dinarın, alban katolikosu Stepannosun və bir çox başqalarının qəbirlərinin aşkar olunması Stepannos Orbelianın məlumatının həqiqət olduğunu təsdiq edir. Lakin bu məlumat eyni zamanda suallar da doğurur. Əgər Gorus şəhəri yaxınlığında erməni monastırı adı ilə bu gün də fəaliyyət göstərən Vahanavəngin, eləcə də Sünikin özünün Albaniyaya aidliyi yoxdursa, niyə görə orada yalnız alban hökmdarları, onların arvadları, din xadimləri (hətta katolikosu), eləcə də Albaniyanın Şəki vilayətinin məliki Atrnersehin diofiziliyi təbliğ edən arvadı Dinar dəfn olunmuşlar? Bu faktın özü demək olar, həmişə müstəqilliyə can atan Sünik-Sisakanın Albaniya ilə bağlılığını, onun dini-siyasi həyatında xüsusi yerini göstərmirmi?

Sünik-Sisakan vilayətinin "separativ meyilliyi" ilə fərqləndiyini təsdiq edən tədqiqatçılar bunu "şübhəsiz hər şeydən əvvəl, ölkənin etnik xüsusiyyətləri ilə izah edirdilər"[1]. Bu haqda ilk məlumat verənlərdən olan N.Adontsun sözlərilə desək, Sünikin "qövm (tayfa) müstəsnalığına ona bitişik dağlıq ölkələrdən gələn köçkün axınları kömək olur və bunu yeniləşdirirdi"[2]. Bu köçkünlərin izlərinin coğrafi adlarda qaldığını qeyd edən N.Adonts, məsələn, Balasakan adının etnik mənşəyinin, yəni, sak tayfaları ilə bağlılığının "heç bir şübhə" doğurmadığını xüsusi vurğulayır[3]. Bu məsələni araşdıran F.Məmmədova isə Sünikin "qövm müstəsnalığı"na "marlar adlanan kürdlərin" təsir etməsi fikrini irəli sürür[4].

Beləliklə, "separativ meyilliyi" ilə bölgənin digər vilayətlərindən seçilən erkən orta əsrlər Sisakanının yerli əhalisinin öz dili ilə də qonşularından fərqləndiyi görünür. VI əsrdə yaşamış siryani yazıçısı Zaxariya Ritor (Mitilenski) "şimal ölkəsi" adlandırdığı Cənubi Qafqazda yaşayan beş dindar xalqdan biri kimi "öz məxsusi dili olan Sisakan ölkəsi"nin adını çəkir, əhalisinin "dindar" olduğunu, "lakin aralarında bütpərəstlərin də olduğunu" bildirir. Bununla yanaşı, müəllif, Sisakanı Ermənistandan, Curzan adlandırdığı Gürcüstandan, eləcə də Arran-Albaniyadan ayırır, bunların hər birinin öz dili olsa da aralarında olan dini vəhdətliyi, yəni xristian olduqlarını xüsusi qeyd edir[5]. Həmin əsrin digər müəllifi - Bizans tarixçisi Prokopi Kesariyskı də "suni"lər adlandırdığı[6] süniklilərin "persərmənlərdən" (yəni Sasanilərə tabe Şərqi Ermənistan ərazisində yaşayan ermənilərdən) ayrı olduqları haqqında məlumat verir[7].

[1] Адонц, s. 421.

[2] Адонц, s. 423; həmçinin bax: Мамедова,s. 208-209.

[3] Yenə orada.

[4] Мамедова, s. 209.

[5] Bu haqda bax: Адонц, s. 218-221; Буниятов Азербайджан 7-9, s. 117; Мамедова, s. 263.

[6] XI əsr Azərbaycan şairi Qətran Təbrizi də Sünik-Sisakanı Syuni-Süni adlandırır (bu haqda bax: M.X.Şərifli. IX əsrin ikinci yarısı - Azərbaycan feodal dövlətləri. - Bakı, 1978, s. 203, qeyd 82).

[7] Адонц, s. 221.

Sünikin Ermənistana aidliyini qəbul etsə də, onun "coğrafi və etnik şəraitə görə Ermənistandan bir qədər kənarda qaldığını" bildirən N.Adonts, "bu uzaqlığın bəzən tamam ayrı ölkə təəssüratı yarada bildiyi" ilə razılaşmalı olur[1]. Və bu "ayrı"lığın əsas səbəbini, yenə də Sünikdə məskunlaşmış müxtəlif mənşəli və dilli etnosların varlığında görür.

Yazılı mənbələr və maddi mədəniyyət də bütövlükdə Qafqaz Albaniyası ərazisində eramızın I əsrindən başlayaraq hakim alban etnosunun "etnik rəngarənglik" şəraitində mövcud olduğunu təsdiq edir[2]. Bu baxımdan "siryani, Bizans və qismən erməni" mənbələrinə əsaslanan rus-sovet tarixçisi A.P.Novoseltsevin həmin dövrdə Sünik ərazisində yaşayan xalqlar haqqında fikirləri xüsusi maraq doğurur: o, da bu xalqların müxtəlifliyi və bir-biri ilə zəif əlaqəsi haqqında məlumat verir, "erməni etnosunun şimal-şərq, Sünik tərəfə və sonra Albaniyaya yayılmasının" yalnız VI əsrin ən son illərindən (591-ci il Bizans-İran müqaviləsindən sonra) gücləndiyini bildirir[3]. Yeri gəlmişkən, A.P.Novolseltsev erməni etnosunun Cənubi Qafqazın bu bölgəsində yayılmasına imkan verən səbəblərdən birini məhz burada olan (biz əlavə edərdik, polietnik Albaniyaya xas) "tayfa müxtəlifliyi"ndə görür. Bununla yanaşı, o, bölgədə erməni etnosunun yayılması nəticəsində yerli tayfaların tədricən assimilyasiyaya məruz qaldığı, lakin bu prosesin heç VI-VII əsrlərdə də hələ tamamlanmadığını, erməni və alban kilsələrinin həyata keçirdikləri xristianlaşdırma siyasətinin bu prosesi sürətləndirdiyini bildirir. Akademik Ziya Bünyadov da yerli əhali ilə qarışmış köçkün ermənilərin qriqorian kilsəsinin təlim və ehkamlarının yayılmasında bu təriqətin təbliğatçılarına böyük kömək olduqlarını xüsusi qeyd edir[4].

Həqiqətən də, istər yunan-roma, istərsə də dövrün digər mənbələri nəinki bu bölgəyə, eləcə də bütövlükdə ərəblərəqədərki Cənubi Qafqaz ərazisinin demək olar hər vilayətinə eramızın ilk əsrlərindən başlayaraq müxtəlif etnosların axını haqqında məlumat verir. Maraqlıdır ki, hələ eraların qovuşuğunda yaşayan Strabon, adlarını çəkməsə də, istər antik albanların, istərsə də iberlərin qoşunlarında hərbi əməliyyatlar zamanı, sözsüz ki, muzdlu döyüşçülər kimi vuruşan, bəzən isə onların dinc həyatına qarətçi basqınları ilə maneçilik törədən köçəri tayfaların olduğunu bildirir[5]. Erkən orta əsrlərə aid digər mənbələr də, ümumilikdə, çox vaxt "hun" adlandırılan həmin tayfaların Albaniya qarışıq bütün Cənubi Qafqaz vilayətlərini əhatə edən basqınlarına şahidlik edir[6]. Lakin

[1] Адонц, s. 221.

[2] Мамедова, s. 380.

[3] Новосельцев А.П., Пашуто В.Т., Черепнин Л.В.. Пути развития феодализма (Закавказье, Средняя Азия, Прибалтика. - Москва, 1972, s. 45.

[4] Буниятов. Азербайджан в 7-9 вв., s. 118.

[5] Страбон, XI, 4,5.

[6] Bax: Джафаров Юсиф. Гунны и Азербайджан.-Баку, 1993 (bundan sonra: Джафаров. Гунны.).

mənbələrdə böyük kompakt köçəri kütlələrinin bu ərazilərə köç etməsi, buralarda yerləşməsi, müəyyən müddətdən sonra həmin yerlərdəki dövlətlərin siyasi, iqtisadi və mədəni əlaqələr sferasına qoşulması haqqında məlumat da az deyil[1]. Bu baxımdan Moisey Kalankatuklunun hələ V əsrin 20-ci illərinə aid bir məlumatı – Qor və Qazan adlı iki qardaşın Sünik vilayətinə "böyük ordu ilə" gələrək, burada yurd salmaları və bununla yanaşı, həmçinin, xristianlığı da qəbul etmələri maraq doğurur[2]. Lakin alban və erməni din xadimlərinin geniş təbliğatlarına baxmayaraq bölgədə məskunlaşmış tayfaların heç də hamısı xristianlığı qəbul etmədi. Bunu, Zaxarıya Ritorun verdiyi məlumata görə, Sisakan əhalisi arasında hələ VI əsrdə "dindar"larla (burada: yəni xristianlarla) yanaşı bütpərəstlərin olması faktı da təsdiq edir. Həmçinin, onu da qeyd etməliyik ki, Sünik-Sisakanın ərəblərəqədərki "tayfa müxtəlifliyi" sonrakı yüzillərdə, Cənubi Qafqazın çox yerində olduğu kimi, Zəngəzur bölgəsində də məskunlaşmış Şimaldan gələn xəzər türklərinin, cənubdan gələn qıpçaqların, "mütəğəllib" (qalib gəlmiş) adlandırılan müsəlman ərəblərin, dövrün mənbələrində "skif türkləri", "türkmanlar" kimi təqdim edilən türkdilli tayfaların hesabına daha da artmış oldu.

Bütün bunlara baxmayaraq, digər erməni tədqiqatçıları kimi Süniki "əzəli" erməni ərazisi hesab edən Q.M.Qriqoryan akademik Ziya Bünyadovun Qafqaz Albaniyasının Sünik və Arsax vilayətlərinin (əlavə edərdik ki, xristian əhalisinin) xeyli hissəsinin ermənileşməsinin "XII əsrin əvvəlində baş verməsi" məlumatını[3] səhv hesab edir[4] və həmçinin, digər tədqiqatçıların da (məs. S.Yeremyan, V.Şnirelman və b.) təsdiq etdikləri "ermənileşmə" prosesinin ümumiyyətlə olmadığını bildirir[5]. O, VII əsr müəllifi Stefan Sünikliyə əsaslanaraq, "onun dövründə Sünikdə və Arsaxda sünik və arsax dillərində danışırlar" məlumatı ilə çıxış edən Fəridə Məmmədovanı həmin yerlərin əhalisini erməni deyil, alban hesab etdiyinə görə qərəzçilikdə və tarixi faktları saxtalaşdırmaqda günahlandırır[6], "Ermənistanın Şərq diyarı", "Ağvank" adlandırdığı sağsahil Albaniyasının xristian əhalisinin "islamlaşma və qriqoryanlaşma üçün səbəblərinin olmadığı", bu səbəbləri izah edən Azərbaycan tarixçilərinin fikirlərinin əsassız olduğunu təkid edir. Halbuki, elə tədqiq olunan dövrün mənbələrində yalnız albanlarınn deyil, elə ermənilərin özlərinin də bu və ya digər hallarda islamı qəbul etmələri, müsəlman adlarını daşımaları haqqında məlumat az deyil. Belə ki, tarixçi Asogikin Sünik vilayətlərindən olan Qoxtənin

[1] Bu haqda bax: Azərbaycan tarixi, c. 2, s. 26-34; Джафаров. Гунны, s. 88, 89.

[2] Kalankatuklu, s. 31.

[3] Буниятов. Азербайджан 7-9, c. I, s. 117, qeyd 98.

[4] Григорян. Очерки, s. 22.

[5] Məsələn V.Şnirelman da (s. 103) albanların bir hissəsinin ermənileşməsi haqqında yazır: "Ərəb işğalından və islamlaşmadan sonra xristian qalan və Kür çayının sağ sahilində yaşayan albanlar tezliklə ermənileşdirildilər, Alban xristian kilsəsi erməni kilsəsinə birləşdi".

[6] Григорян. Очерки, s. 33.

əmiri müsəlman Əbu Duləfin erməni vilayəti Vaspurakana hücumu zamanı müharibə meydanında öldürülmüş erməni döyüşçülərinin xristianlıqdan dönmə müsəlman olduqlarını utanclıqla, "bu haqda heç danışmaq da olmur"[1], deməsi xristian ermənilərin islamlaşmasını təsdiq etmirmi? Maraqlıdır ki, təəssübkeş xristian olan Asogik bu dönmüşlərin məğlub olma səbəbini də onların bu əməllərinə görə "Allahın qəzəbinə gəlmələri"ndə görür[2]. Yaxud katolikos İohann Drasxanakertsinin 314 (926-927) cü ildə əmir Yusifin bölgəyə müvəqqəti olaraq öz yerinə hakim göndərdiyi Nasrı Dəbildə qarşılayan 40-dan artıq əyanı "kafir" (burada: "xristianlığa etiqad etməyən") adlandırması şəhərin bu sakinlərinin müsəlman olduğunu bildirmirmi?[3]

Onu da deməliyik ki, arsax və sünik dillərinin ümumiyyətlə mövcudluğunu inkar edən Q.Qriqoryan bu dilləri "ümummilli erməni dilinin yerli dialektləri" adlandırır; nəhayət, "ermənilər yenidən ermənileşə bilməzlər" deməklə, ümumiyyətlə real və obyektiv "qriqorianlaşma" və "ermənileşmə" proseslərinin olmadığını iddia edir[4]. Və, bütün bu iddiaları ilə müxtəlifdilli (ərəb, erməni və s.) mənbələrdə və ədəbiyyatda (N.Adonts, A.Novoseltsev və b.) antik və erkən orta əsrlər Sünik-Sisakan əhalisinin yuxarıda haqqında məlumat verdiyimiz etnik fərqliyini – "qövm müstəsnalığı"nı unudur və əslində inkar edir. Hətta Sünikin Mərkəzi Ermənistandan əlahiddə və müstəqil mövqeyini onun böyük hərbi gücü və fərqli siyasi çəkisi ilə izah edir[5]. Q.Qriqoryanın iddiasına görə N.Adontsun Sünikin "qövm müstəsnalığı" və "etnik fərqliyi" fikirlərini də başqa, fərqli dil kimi deyil, erməni dilinin dialekti anlamında başa düşmək lazımdır[6].

Onu da qeyd edək ki, akademik Z.Bünyadovun öz fikrini təsdiqləmək məqsədilə XIII əsrdə yaşamış Gəncəli Kirakosun "Tarix" əsərindən gətirdiyi bir fakt "ermənileşmə" prosesinə, onun müddətinə aydınlıq gətirə bilir. Məlumatdan görünür ki, hətta Kirakosun yaşadığı dövrdə də qriqorianlaşma nəticəsində tədricən ermənileşmiş albanların yalnız əyanlarının çoxu erməni dilində danışa bilirdi[7]. Belə çıxır ki, qriqorian məzhəbini qəbul etmiş sadə xristian albanlar, o

[1] Асогик, Всеобшая история Степаноса Таронского Асох'ика по прозванию-писателя XI столетия./ Пер. с древне-арм. Н.Эмин.-Москва, 1864. s. 133 (bundan sonra: Асогик).

[2] Yenə orada, s. 133.

[3] Драсханакертци О. История Армении ./Пер. с древне-арм. М.О.Дарбинян-Меликян.-Ереван, 1984, s. 180. A.N Ter-Gevondyan. həmin adamların əksərən erməni olduğunu bildirir və bunu sparapet Aşotun bu şəhərdə qaldığı bir neçə il ərzində ermənilərin buradakı sayının arta bilməsi ilə izah edir. Lakin katolikos İohann açıq-aşkar həmin adamların "kafir", yəni xristian olmadıqlarını xüsusi qeyd edir.

[4] Григорян. Очерки, s. 33.

[5] Yenə orada, s. 32; Daha ətraflı bax: Мамедова, s. 264, 379-391.

[6] Yenə orada, Очерки, s. 33.

[7] Буниятов. Азербайджан 7-9, s. 118; Мамедова, s. 92-93; bax həmçinin: История Армении Киракоса Гандзакеци.-Москва, 1976, с. 133 (bundan sonra: Гандзакеци).

cümlədən xristian süniklilər arasında nəinki XII əsrin əvvəllərində, hətta ondan çox sonralar da ermənileşmə prosesi hələ tam başa çatmamışdı. Bölgədə tez-tez baş verən, erməni tarixçilərinin "feodal cəmiyyətdə olan mərkəzdənqaçma meyilləri" ilə izah etdikləri[1] təriqət çəkişmələrinə də, görünür, yalnız siyasi-ideoloji təsirlər deyil, mövcud mənşə ayrılığı da səbəb olurdu. Sünik-Sisakan əhalisinin "öz məxsusi", fərqli dilinin olması V əsr erməni müəllifləri Koryunun və Moisey Xorenatsinin[2], eləcə də eyni məlumatı verən Moisey Kalankatuklunun[3] alban əlifbasının yaradılması haqqında məlum informasiyalarından da görünür. Həmin məlumata görə, erməni və gürcü əlifbaları ilə yanaşı, alban əlifbasını da yaratmaq təşəbbüsü ilə çıxış edən Mesrop Maştos (V əsr) bu məqsədlə alban hökmdarı Arsvagenlə görüşdükdən sonra Sünik vilayətinin hakimi Vasaq tərəfindən göndərilən və görünür, həm erməni, həm alban dillərini bilən "istedadlı tərcüməçi" sünikli Veniaminlə qarşılaşır; məhz bu sünikli tərcüməçinin köməkliyilə Mesrop alban tayfalarından olan qarqarların "boğaz səslərilə zəngin", 52 fonemli alban əlifbasını yaradır[4].

Bu məlumatda nəzəri cəlb edən, alban əlifbasının yaradılması məqsədilə Sünik hakimi Vasaqın yepiskop Anani vasitəsilə "Sünik vilayətindən olan" tərcüməçi Veniamini dəvət etməsi, onun bu əlifbanın yaradılmasında bilavasitə iştirakıdır. Koryun və Moisey Xorenatsinin əsərləri əsasında hələ orta əsrlərdə tərtib olunmuş "Psevdo Koryun" adlanan yeni redaksiyadakı bir qədər fərqli məlumata istinad edən K.V.Trever, Veniamini "alban mənşəli" rahib kimi təqdim edir, Mesrop Maştosun "yad alban danışığı" ilə onun vasitəsilə tanış olduğunu bildirir[5]. Bu məlumatda süniklilərin öz dili haqqında heç bir açıqlama olmasa da "alban mənşəli", "sünikli" Veniaminin bir tərcüməçi kimi Sünik hakimi Vasaqın xidmətində olması və erməni Maştosun köməyinə də bir tərcüməçi kimi göndərilməsi onun öz doğma sünik dilindən başqa, görünür, eləcə də çoxsaylı alban tayfalarının dillərini bilməsi ilə izah oluna bilər. Veniaminin həm "alban mənşəli", həm "sünikli" adlandırılması isə "fərqli" sünik dilini alban tayfalarına məxsus dillərdən biri kimi qiymətləndirmək imkanı verir. Bununla yanaşı bu dilin xristian daşıyıcılarının "Kiçik Sünik" adlandırılan Qarabağın xristianlığı qəbul etmiş alban əhalisi kimi sonradan ermənileşdiyini təsdiq etmək olur. Qafqaz Albaniyasının başqa vilayətlərində olduğu kimi hər iki vilayətin islamı qəbul etmiş alban əhalisi isə tədricən türkləşərək, burada yaşayan digər müsəlman türkdilli tayfalara qarışmışlar.

---

[1] Григорян. Очерки, s. 32.

[2] Тревер, s. 308.

[3] Вах: История Агван Моисея Каганкатваци, писателя X века.–/Пер. с древне-арм. К.Патканова. Санкт-Петербург, 1861. s, 89.

[4] Тревер, s. 308.

[5] Yenə orada.

Sözsüz ki, tədqiq etdiyimiz mövzuya, xüsusilə, erməni tarixşünaslığında geniş miqyas almış bu kimi fərqli yanaşmalar oxucularda haqlı olaraq bu və ya digər faktın izahının düzgün olub-olmaması sualını doğura bilər. Məhz buna görə müəllif üçün ən vacibi mübahisəli məsələlərin qərəzsiz mənbələrə, eləcə də ifrat pafos və şovinizmdən uzaq obyektiv tədqiqatçılara əsaslanmaqla təqdim edilməsidir.

Onu da qeyd edək ki, Zəngəzur bölgəsi, onun böyük bir hissəsini əhatə edən Sisakan-Sünik vilayətinin orta əsrlər dövrü tarixi haqqında müxtəlif mənbələrdə olan məlumatın təhlili bu bölgənin zaman-zaman tərkibində olduğu Sasanilər dövləti, Ərəb Xilafəti, Azərbaycanın IX-X əsrlər feodal dövlətləri, Böyük Səlcuq imperiyası, Eldənizlər dövləti ilə, eləcə də qonşu xalqlarla qarşılıqlı əlaqədə öyrənilməsini zəruri edir. Bu isə Cənubi Qafqaz xalqlarının taleyüklü VII-XII əsrlər dövründə qarşılıqlı münasibət məsələlərinin nəticələrini müəyyən qədər də olsa aydınlaşdırmaq imkanı verir.

Mənbələr və ədəbiyyat:

1. Azərbaycan tarixi. - Bakı, 1998, c. 2.
2. Kalankutuklu Moisey. Albaniya tarixi.-Bakı, 1993.
3. Muradverdiyev A. Zəngəzur tariximizin yaddaşı.-Bakı: Xəzər, 2007.
4. Musa Urud. Zəngəzur (elmi-publisistik nəşr).-Bakı, 2005.
5. Şərifli M.X. IX əsrin II yarısı-XI əsrdə Azərbaycan feodal dövlətləri.-Bakı, 1978.
6. Vəlixanlı Nailə. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər.-Bakı, 2016.
7. Абраамян А.Г. Крестьянское движение в Сисакане.-Ист.записки./ Инст. Ист. АН СССР, 1938, №3
8. Адонц Н. Армения в эпоху Юстиниана.-СПБ.1908
9. Асогик, Всеобшая история Степаноса Таронского Асох'ика по прозванию-писателя XI столетия./ Пер. с древне-арм. Н.Эмин.-Москва, 1864.
10. Бакиханов А. Гюлистани-Ирем.-Баку, 1991, s. 27.
11. Буниятов З.М. Азербайджан в VII-IX века//В кн:. «Избранные сочинения» в 3-х томах.-Т.1, Баку, 1999
12. Григорян Г.М. Очерки истории Сюника IX-XV вв.-Ереван, 1990
13. Джафаров Юсиф. Гунны и Азербайджан.-Баку, 1993
14. История Агван Моисея Каганкатваци, писателя X века.–/Пер. с древне-арм. К.Патканова. Санкт-Петербург, 1861.
15. Мамедова Фарида. Кавказская Албания и албаны.-Баку, 2003.
16. Мнацаканян А.Ш. О литературе Кавказской Албании.-Ереван, 1963.

17. Степаннос Орбелиан. История рода Сисакан./Перевод с древне-арм. на русский Т.Тер-Григоряна.-Баку, 1949 (AMEA A.Bakıxanov ad.Tarix İnstitutunun arxivi, inv.1274).
18. Страбон. География в 17 книгах./Перевод и комментарии Г.А.Стратоновского.-М., 1964.
19. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании.- М.-Л., 1959.
20. Шнирельман В.А. Войны памяти. Мифы, идентичность и политика в Закавказье.–Москва, ИКЦ «Академкнига», 2003.
21. Hewsen Robert H. Armenia: A Historical Atlas.-University of Chicago Press, 2001.
22. Markwart J. Eransahr nach der Geographie Moses Chorenaci.-Berlin, 1901.
23. Yaqut əl-Həməvi. Mucəm əl-buldən.-Beyrut, 1950, c. I.

Naila Velikhanli
On historiography of history of 7th -12th centuries of Zangezur region

Summary

Keywords: *Zangezur, Caucasian Albania, Syunik-Sisajan, Arab Caliphate*

The paper studies historiography of history of Zangezur region, which is a part of historical territory of Azerbaijan, between the period of Arab and Mongol invasions. Biased and contradictory claims, misconceptions concerning the history of Early Middle Ages of Zangezur in Armenian and Russian historiography are refuted. The paper clarifies conceptions in historiography regarding historical geography, political history, language and religion of population of Syunik (Sisakan, Sisajan) province that covers a great part of Zangezur region and is a part of Caucasian Albania.

Наиля Велиханлы
К историографии истории Зангезурского региона в VII-XII вв.

Резюме

Ключевые слова: *Зангезур, Кавказская Албания, Сюник-Сисаджан, Арабский Халифат*

В статье исследуется историография истории одной из областей исторической территории Азербайджана, Зангезурского региона, в период между арабским и монгольским завоеваниями. Опровергаются некоторые предвзятые и противоречивые аргументы армянской и российской историографии, связанные с раннесредневековой историей Зангезура. В статье рассмотрены вопросы исторической географии, политической истории, языка и религии населения области Сюник (Сисакан, Сисаджан), охватывавшей значительную часть Зангезурского региона и входившей в состав Кавказской Албании.

Исмаил Умудлу*

О генеалогическом аспекте средневековых азербайджанских источников по истории

UOT 94 (479.24)

Ключевые слова: *Азербайджан, Кавказская Албания, Огуз хакан, Огузнаме, Каракойунлу, Аккоюнлу, Абубакр Техрани, Гасан бек Румлу, Искендер бек Туркман*

Постановка вопроса. В работе рассмотрен генеалогический аспект средневековых азербайджанских источников по истории. Хотя азербайджанские исследователи-генеалоги время от времени ссылаются на те или иные источники, представленная работа является первой попыткой краткого обзора сопутствующего им генеалогического аспекта за указанный период в русле истории национальной генеалогии.

Цель представленной статьи – показать глубокие корни азербайджанской генеалогии на основе местных и общетюркских письменных источников и тем самым предпринять попытку создания исторической картины отечественной генеалогической традиции. Обращение к данному вопросу вызвано желанием обосновать многовековые традиции изучения родословий, составление родословных таблиц и передачу их от поколения к поколению. Тема вызывает научный интерес с точки зрения наглядного представления истоков отечественной генеалогии, путей его развития, богатую информационную базу.

Изложение. Если провести исторический анализ источников, начиная с Моисея Каланкатуйского (VII век) до поздних средневековых азербайджанских авторов, мы сталкиваемся с неизменной традицией историков в качестве первоочередной задачи изложить, обосновать благородное происхождение

* Научный сотрудник отдела исторической этнографии Института археологии и этнографии НАНА; ismail.umudlu@mail.ru

правящей династии, как основание для их легитимности. В этнокультурной среде, в особенности среди знатных фамилий страны, также придавали значение ведению своих родословий, и для долговечности обычно выполняли их на обработанной шкуре джейрана.

Наличие богатого материала по ведению родословий, внимания к аспектам родословных в рассматриваемых источниках является доказательством тому, что на протяжении многих веков генеалогия, как общечеловеческая традиция, всегда была в ареале интересов правящих династий и историков различных крупных государств с азербайджанским центром.

В упомянутой выше «Истории Албании» Моисея Каланкатуйского подробно изложены родословные двух правящих династий Кавказской Албании – Араншахов и Мехранидов, которые сменяли друг друга. Согласно автору, династия Араншахов свою генеалогию начинала от сына Ноя Яфета. Автор завершает повествование о династии Араншахов следующими словами: «Мы различных родословий объяснили до этого» [10, стр.14-17]. Это говорит о существовании практики работы с родословными, о том, что авторы того времени придавали особое значение этому аспекту.

Местные родословные традиции и использование родословных в управленческой практике также находят подтверждение в ранних арабских источниках. После присоединения к Арабскому Халифату (VII век) новые хозяева первым делом обратили внимание на «родословные таблицы» о происхождении населения Азербайджана (Ибн ал-Факих, ад-Димашкийя, Якут) [13, стр. 61]. К представленным в «Албанской летописи» (XII в.) Мхитаром Гошем родословным патриархов албанской апостольской церкви, начиная с апостола Елисея, прибывших сюда из Иерусалима [10, стр. 242-245], надо подходить также с точки зрения сложившихся культурных традиций в области местной генеалогии. Генеалоги христианской Албании не могли не знать труды античных авторов, которые представляют первые образцы родословий, и не могли не обратить внимание на родословный аспект Библии.

Как ранний общетюркский источник, известный труд Махмуда Кашгари (XI век) также содержит богатые генеалогические сведения, где автор указывает, что в прошлом тюрки состояли из двадцати племен и их родословная уходит корнями к Тюрку – сыну Яфета, который, как известно из легенды, был сыном Ноя [7, стр.77].

Ценнейший источник «Ахбар ад-даулат ас-Селджукийя» («Сведения о государстве Селджукидов») арабоязычного автора XIII века Садраддина Хусайни содержит богатую генеалогическую информацию о султанах могущественной империи Сельджукидов, с азербайджанским центром [16].

Опираясь на этот первоисточник, академик Зия Буниятов в конце своего труда «Государство Атабеков Азербайджана» представил родословные азербайджанских атабеков и других правящих фамилий того времени как по родам, так и по линии династии, в виде отдельных таблиц. Здесь последовательно представлены таблицы родословных азербайджанских атабеков, иракских Сельджуков, династии грузинских царей, халифов, Великих Сельджукских султанов, Ширваншахов, Мосульских атабеков, Хорезмшахов, атабеков Фарса, правителей Мараги и Руин-Дежа, мамлюков правителей Иракского Аджама [18, s.233-237].

1905-ci ilin dekabrında Tehran bazarında tacirlərin vali tərəfindən döyülməsi yeni etirazlara səbəb oldu. Etirazçılar Əbdüləzim türbəsinə sığındılar [18, s.82-88]. Tarixi ədəbiyyatda bu, "hicrəti-suğra" (kiçik köç) adlanır. Etirazçılar xarici məmurların istefasını, Milli Məclis və Ədalətxana qurulmasını tələb edirdilər [5, s.53]. Bir ay davam edən etirazlardan qorxuya düşən şah tələblərin yerinə yetiriləcəyi vədini verəndən sonra etirazçılar Əbdüləzim türbəsini tərk etdi. Şah da Tehran valisini istefaya göndərdi [33, s.56-59] və İranın bütün şəhərlərində Ədalətxanaların qurulması haqqında 10 yanvar 1906-cı ildə fərman verdi [18,

s.97; 13, s.435]. Lakin Eynüddövlə tərəfindən fərmanların icra edilməməsi yeni narazılıqlar yaratdı. M.Təbətəbai və A.Bihbehani məscidlərdə, xalqın qarşısında çıxış edir, ədalətxananın, məclisin əhəmiyyətindən danışır, xalqı mübarizəyə səsləyirdilər. Xalq arasında zalım hökumətə qarşı cihadı təbliğ edən vərəqələr paylanırdı [18, s.108-110]. Qorxuya düşən sədrəzəm Eynüddövlə ölkədə komendant saatı tətbiq etdi. Baş verən izdihamlarda məscidlərə toplaşan etirazçılara atəş açıldı və öldürülənlər də oldu [18, s.130]. A.Bihbehani, S.M.Təbətəbai və s. etirazçı ruhanilər Tehranı tərk edib Quma getdilər [18, s.135]. Bu hadisə tarixi ədəbiyyatda "hicrəti-kübra" (böyük köç) adlanır [5, s.53].

A.Bihbehaninin İngiltərə səfirliyi ilə olan anlaşması sayəsində 500-dən çox çadırda on mindən çox etirazçı səfirliyin həyətinə sığındı və etirazçı ruhanilərin geri qayıtması, ədalətxananın açılması istəklərini yenilədilər və ilk dəfə məşrutə və parlament tələb etdilər [18, s.134-136, 140-142]. Mütərəqqi ruhanilərin xalq azadlıq hərəkatındakı fəaliyyətini M.Ə.Rəsulzadə də təqdir etmişdi [21, s.58].

Sədrəzəm Eynüddövlə isə xalqa məşrutə verilərsə, respublika istəyəcəklər deyərək şahı qorxudurdu [18, s.138]. Vəliəhd Məhəmmədəli Mirzə sədrəzəm Eynüddövlənin onun vəliəhdliyinə qarşı olduğunu bildiyindən, şaha etirazçıları dəstəkləyən bir teleqram çəkdi. Onun əmri ilə Təbriz ruhaniləri – müctəhid Hacı Mirzə Həsən ağa, imam-cümə Hacı Mirzə Kərim ağa [18, s.163] şaha teleqram çəkib etirazçıları dəstəklədilər [18, s.143-145]. Bu teleqramın sonunda sədrəzəm vəzifədən azad edildi və ruhanilər Qumdan geri qaytarıldı. Lakin Britaniya səfirliyinə sığınan 14 mindən çox etirazçı mütərəqqi ruhanilərin də dəstəyilə məşrutə tələbindən əl çəkmədi [18, s.142-143].

Lakin mürtəce ruhanilərə rəhbərlik edən müctəhid Fəzlullah Nuri qatı şəriət tərəfdarı idi [35, s.28]. O, məşrutə əvəzinə "məşruə" (şəriət-Ə.F.), "Milli Məclis" əvəzinə "İslam məclisi" sözünü tələb edirdi [36, s.355; 34, s.388-393].

Məşrutəçilərin təzyiqi ilə şah 5 avqust 1906-cı il tarixində məşrutə fərmanını imzalamağa məcbur oldu [1, s.282]. 9 sentyabr 1906-cı il tarixində isə Şura Məclisinin təsis edilməsi haqqında fərmanı da təsdiq etməyə məcbur oldu [18, s.152]. Beləliklə, İran parlamentli şahlıq ölkəsinə çevrildi. Beləliklə, məşrutə hərəkatına gedən proses Tehranda qələbə ilə nəticələndi. Ə.Kəsrəvi yazır ki, məşrutə hərəkatı Tehranda yarandı, lakin onun inkişafını Təbriz boynuna götürdü [18, s.156].

Vəliəhd Məhəmmədəli Mirzə Rusiyadakı inqilabi hərəkatın bir bənzərinin nəinki Təbrizdə, heç İranda təkrarlanmasını istəmirdi, hər şəkildə etirazları boğmağa çalışırdı. O, Tehrandakı məşrutə hərəkatını da sədrəzəm Eynüddövləni işdən çıxartdırmaq üçün müvəqqəti dəstəkləmişdi. Lakin vəliəhd öz arzusuna nail olandan sonra Təbriz ruhanilərini aldadaraq sakitləşdirdi [18, s.184-185]. Tehranda əldə edilən azadlığı, yaradılan məclisin bir bənzərini Təbrizdə açıb, reallaşdırmağa çalışan xalq 1906-cı ilin sentyabrında kütləvi etiraz nümayişinə, mitinqlərə başladı [3, s.302]. Etirazçıların səyi nəticəsində bazarlar bağlandı və sentyabrın 20-də

600 nəfərdən çox etirazçı konsulluğun həyətinə və onun yanındakı Səmsam xan məscidinə toplanıb bəstə oturdu [1, s.282]. Müctəhid Hacı Mirzə Həsən ağa, İmam-cümə Hacı Mirzə Kərim ağa və digər böyük ruhanilər də etirazçılara qoşuldu. Xalq öz aralarındakı məzhəb-təriqət mücadiləsini unudub məşrutə üçün birləşdilər [18, s.190, 192]. Nəhayət bir ay sonra, vəliəhdin gizli etirazlarına baxmayaraq, şah hökuməti Təbrizdəki məşrutəçilərin də tələbini qəbul etməyə məcbur qaldı [40, s.162-164]. Şahın razılığı və vəliəhdin fərmanı ilə məscidə sığınanlara ümumi əfv verilib, Təbrizdə Milli Şura Məclisinə deputat seçkilərinin keçirilməsinə icazə verildi [18, s.195-196; 1, s.282]. Beləliklə, Cənubi Azərbaycan məşrutəyə qovuşmuş oldu, Təbriz Əncüməni fəaliyyətə başladı [40, s.183].

Əncümən məşrutənin ruhuna xəyanət edən radikal din xadimlərinə qarşı da mübarizə aparırdı. Bu istiqamətdə vəliəhdlə gizli danışıqlara gedib məşrutəçilərə xəyanət etdiyinə görə pişnamaz-molla Mir Haşim Dəvəçi 1906-cı ilin oktyabrında Təbrizdən qovuldu [40, s.171]. Mir Haşimin məşrutə əleyhindəki fəaliyyəti "Molla Nəsrəddin" jurnalında da öz əksini tapmışdır [6, s.3]. Özünü yalandan məşrutəçi kimi göstərən imam-cümə Hacı Mirzə Kərim ağa da vəzifədən və Təbrizdən qovuldu [18, s.206].

30 dekabr 1906-cı il tarixində İran tarixində ilk dəfə Müzəffərəddin şah və vəliəhd Məhəmmədəli Mirzə Məclisin hazırladığı Əsas qanuna - konstitusiyaya imza atdılar və İranın ilk konstitusiyası təsdiqlənmiş oldu [40, s.187-188; 14, s.513; 3, s.302]. Lakin Müzəffərəddin şahın uzun sürən xəstəlikdən vəfat etməsindən sonra 19 yanvar 1907-ci il tarixində vəliəhd Məhəmmədəli Mirzə şah oldu [40, s.198, 201; 18, s.235-236, 239]. O, atasının imzaladığı konstitusiyanı tanımaq istəmirdi. O, məşrutə düşməni radikal ruhanilərlə də birləşmişdi və belə deyirdi ki, guya məşrutə şəriətə ziddir [18, s.240-241]. "Molla Nəsrəddin" jurnalı da şahın məşrutə əleyhinə fəaliyyətini qeyd edir [9, s.5-6; 20, s.351-352].

1907-ci ilin aprelində müctəhid Mirzə Həsən ağa xalqazidd əməllərinə görə məşrutəçilər və sosail-demokrat "Mərkəz-e qeybi" təşkilatı tərəfindən Təbrizdən qovuldu [5, s.25]. Bu son hadisə məşrutəçilərlə şiə din xadimləri arasındakı ziddiyyəti tamamilə böyütdü və məşrutəçilər arasında dünyəvilik artmaya başladı [18, s.184, 291-295]. Bunun nəticəsində bəzi din xadimlərinin də məşrutəyə qarşı şübhəsi artdı, ikitirəlik gücləndi [18, s.310-311]. Müctəhidin Təbrizdən qovulması haqqında "Molla Nəsrəddin" jurnalı da geniş məlumat verir [8, s.6; 9, s.5-6; 28, s.2-3; 20, s.161, 172, 351]. Təbrizdən qovulan müctəhid Mirzə Həsən ağa Fəzlullah Nuri ilə birləşərək açıq-aşkar məşrutəni pisləyir, məşrutə əvəzinə məşruə tələb edirdi. F.Nuri məşrutəçilərin konstitusiyaya əqidə azadlığı maddəsini salmaq istəməsini islama vurulan zərbə adlandırır, buna imkan verməyəcəyini deyirdi [18, s.346-347].

Məşrutəçiləri qoruyan ancaq müctəhid S.M.Təbətəbai, A.Bihbehani, Axund Xorasani, Siqqətülislam kimi mütərəqqi ruhanilər idi [18, s.423-425]. Onların fəaliyyətini Ə.Hüseynzadə də təqdir edirdi [11, s.4; 13, s.209]. Ə.Kəsrəvi göstərirdi

ki, məşrutə əleyhdarı ruhanilər bütün azadlıq tərəfdarlarını babi, bəhai adlandırır, onların islam düşməni olduqlarını vurğulamağa cəhd edirdilər [18, s.341-342]. Sonda F.Nurinin tələbilə parlamentdə qanunların qəbulunda son söz 5 nəfər müctəhiddən ibarət nəzarətçi fəqihlər orqanına tapşırıldı. S.H.Tağızadə başda olmaqla Azərbaycan deputatları – "Biz məşrutə tələb edirik, məşruə (şəriət) yox" [13, s.415] desələr də, etirazları qəbul edilmədi [18, s.438-442].

Şeyx Fəzlullahın bu qələbəsinə baxmayaraq, o, şah hökumətinin dəstəyilə məşrutəni sonuna qədər ləğv etmək istəyirdi. O, babilikdə ittiham etdiyi bütün məşrutəçilərin qətl edilməsinin vacibliyi haqqında fitva vermişdi[18, s.482, 488-495, 509-510; 23, s.417]. S.M.Təbətəbainin və A.Bihbehaninin Şeyx Fəzlullahla görüşməsi nəticəsiz qaldı, sonda Şura Məclisi tərəfindən F.Nurinin məşrutəyə düşmən və sarayın cinayətkar əməllərinə ortaq olduğu, şeyxin tərəfdarlarının da xalq düşməni olduğu elan edildi [18, s.444-447]. Nəcəf ruhaniləri də məşrutəyə qarşı düşmənçilik edən sədrəzəm Atabəyi küfrdə ittiham etdilər [40, s.438]. Sonda Atabəy təbrizli Abbas ağa tərəfindən küçədə qətl edildi. [18, s.541]. Bu sui-qəsd şah sarayında böyük qorxu yaratdı. Nəticədə 7 oktyabr 1907-ci il tarixində Məhəmmədəli şah Şura Məclisinin konstitusiyaya demokratik əlavələrini təsdiq etdi və məşrutəçilərin demokratik islahatlar arzusunu yerinə yetirməyə məcbur oldu [40, s.465-467; 14, s.513; 3, s.303]. Dinindən asılı olmayaraq bütün iranlıların qanun qarşısındakı bərabərliyi təsdiq olundu, sünni, xristian, yəhudi və zərdüştilərin haqları artırıldı, lakin burada yeganə istisna babilər və bəhailər oldu. Həmçinin əyalət əncümənlərinin idarəetmədəki hüquqları tanındı. S.H.Tağızadənin başçılıq etdiyi Azərbaycan deputatları bu demokratik qanunların təsdiqində xüsusi rol oynadılar [26, s.110].

28 fevral 1908-ci il tarixində şaha qarşı sui-qəsd təşkil olundu [40, s.542], lakin şaha bir zərər gəlmədi. Bu hadisə şahın məşrutəçilərlə arasının yenidən açılmasına səbəb oldu [18, s.631-633]. Şahın əmri ilə müctəhid Mirzə Həsən ağa məşrutəçilərin dinsiz olması haqqında fitva verdi. Şah da Məclisin qanunazidd olması və etiraz edənlərin cəzalandırılacağı haqqında fərman verdi [18, s.720-721, 723-725].

23 iyun 1908-ci il tarixində səhər çağı [40, s.631; 14, s.513] şahın əmri ilə Liyaxovun komandanlığı ilə İranın kazak briqadası Məclisi mühasirəyə alıb hücumla dağıtdılar [18, s.732-738]. Onlara müqavimət edən mücahidlər də kazakların əli ilə vəhşicəsinə qətl edildilər [18, s.738-743]. Demək olar ki, Tehranla eyni vaxtda Təbrizdə də şahın Təbrizdəki Molla Mir Haşimə və müctəhid Mirzə Həsən ağaya göndərdiyi teleqram ilə şəhərin cənub məhəllələrində məskunlaşan məşrutəçilərə qarşı hökumət qüvvələri döyüşü başlatmışdı [18, s.777; 13, s.411]. Mir Haşimin mənsub olduğu Təbrizin Dəvəçi məhəlləsi radikal ruhanilərin və şahpərəstlərin əsas silahlı qiyam mərkəzi idi [5, s.132]. "Molla Nəsrəddin" jurnalı da Mir Haşimin məşrutəyə zidd cinayətkar fəaliyyəti haqqında məlumat verir[15, s.6-7].

Ruhanilər məşrutəçiləri babi elan edib qanlarını da halal elan etmişdilər.

Məşrutəçi mücahidlərə hərbi rəhbərliyi Səttarxan və Bağırxan edirdi [38, s.205; 18, s.779, 783]. Səttarxan Mirzə Əli Siqqətülislamla da yaxın idi [10, s.386; 32, s.50-51].

"Molla Nəsrəddin" jurnalı 12 iyul 1908-ci ildə şah ordusunun Təbrizə hücumu ilə əlaqədar belə yazırdı: "Hacı Mirzə Həsən Təbriz meşələrində ot otlayan müsəlmanları inandırıb ki, məşrutiyyət istəyənlərin hamısı babidir. Dəxi qurtardı getdi. "Dədəm mənə kor deyib". "Al-gəldi, qırın bu babiləri!" Budur Təbriz davası! [2, s.2].

Nəcəf ruhaniləri Təbrizə dəstək məqsədilə "Məşrutəyə qarşı çıxmaq Yezidə itaət etmək kimidir. Məşrutəni bərqərar etmək cihad etməkdir. Təbrizlə müharibə aparmaq İmam Zamanla (Mehdi) müharibə etmək kimidir" [40, s.729-730] deyə fitva vermişdilər. N.Nəsibli yazır ki, "şiə müctəhidləri şahla mübarizə edəcək qədər güclənmiş, ölkənin həqiqi sahibi olmuşdular" [46, s.145-146]. Səttarxan da dəfələrlə bildirmişdi ki, "Mən Nəcəf ruhanilərinin hökmünü icra edirəm" [40, s.730]. Lakin Qacar ordusu şaha tabe olmağı seçmişdi [18, s.838-839]. Ə.Kəsrəvi qeyd edir ki, məşrutəçiləri babi və ya dinsiz adlandıran radikal ruhanilərə qarşı Nəcəf ruhanilərinin fitvaları olmasaydı, məşrutəçilərə az adam kömək edərdi. Təbrizə yardım edənlər məhz bu fitvalara arxalanırdılar [40, s.730]. Türkiyə və Qafqazdakı məşrutə tərəfdarları, xüsusilə Bakıda N.Nərimanovun rəhbərliyi altında yaranan Qafqaz iranlılarının "İctimaiyun-amiyyun" partiyası da təbrizlilərə yardım göndərirdilər [18, s.458-463]. Hər yerdə Səttarxanı Sərdari-əzəm (böyük baş komandan) [40, s.771] və Allahın Təbrizə göndərdiyi ilahi yardım sayırdılar [18, s.884]. M.Ə.Rəsulzadə yazırdı ki, "Konstitusiyaya qarşı çıxan dikbaş şah qarşısında yaraqlı Azərbaycanı buldu" [22, s.22].

Öz vətəndaşlarını qorumağı bəhanə edən Rusiya 29 aprel 1909-cu ildə Təbrizi işğal etdi [40, s.906]. Beləliklə, şah ordusuna qarşı layiqli mübarizə aparan Təbriz mücahidləri məğlub oldular. Məğlubiyyətə baxmayaraq, məşrutəçilər mübarizəni davam etdirib Məhəmmədəli şahı hakimiyyətdən qovdular. Lakin İranda monarxiya zülmü bitmədi. Məşrutəçilərin yolunu görkəmli inqilabçı, məşrutəçi din xadimi Məhəmməd Xiyabani davam etdirdi [19, s.239]. M.Xiyabaninin tələbəsi olan Ə.Kəsrəvi onun ərəbcəsini, dini biliyini, ictimai-siyasi nüfuzunu mədh edir [39, s.17; 7, s.16]. 1920-ci ilin aprelində M.Xiyabani Cənubi Azərbaycanda demokratik, din və vicdan azadlığına əsaslanan Azadistan hökumətini qurdu [7, s.12, 63]. M.Xiyabaninin lideri olduğu bu hərəkat sonda məğlub edilsə də, onun azadlıq ideyaları yaşadı və davam etdi.

Nəticə olaraq deyə bilərik ki, Qacar hökmdarlarının xalqazidd siyasət aparması ölkədə dini, dünyəvi islahatların aparılmasına mane oldu. Bu siyasətdə Məhəmmədəli şahı və mürtəce ruhani Fəzlullah Nurini dəstəkləyən azərbaycanlı din xadimləri - müctəhid Hacı Mirzə Həsən ağa, Hacı Mirzə Kərim ağa, molla Mir Haşim və digərləri mənfi rol oynadılar. Müctəhid A.Bihbehani, Axund Xorasani,

S.M.Təbətəbai, azərbaycanlı M.Ə.Siqqətülislam kimi mütərəqqi ruhanilərin dəstəyinə baxmayaraq, ölkədə mütərəqqi dini, dünyəvi islahatlar baş tutmadı, məşrutə hərəkatı qələbə ilə nəticələnmədi. M.Xiyabaninin bu inqilabi mübarizəni davam etdirməsi də nəticəsiz qaldı. Bu da dövlətin sonunu gətirdi. 1925-ci ildə Pəhləvilər İranda hakimiyyəti zəbt etdilər. Ə.Kəsrəvi İranın modernləşə bilməməsində mürtəce ruhanilərin rolunu xüsusi qeyd edir [40, s.7-8; 18, s.23]. Bu fikir əksər azərbaycanlı ziyalılar tərəfindən də təsdiqlənir. Ə.Ağaoğlunun haqlı olaraq qeyd etdiyi kimi – İran inqilabını hazırlayan və Qacarların süqutunu sürətləndirən əsas səbəblər - davamlı dini mücadilələrlə yanaşı "idarəçilikdə uyğunsuzluq və sui-istifadə, hakimiyyətin xalqa etdiyi zülm" oldu [42, s.51].

Mənbələr və ədəbiyyat:

1. Azərbaycan Milli Ensiklopediyası, "Azərbaycan" xüsusi cildi. Bakı, 2007.
2. Babilər // "Molla Nəsrəddin", №26, 1908, s.2.
3. Cənubi Azərbaycan // Azərbaycan Milli Ensiklopediyası. V cild, Bakı, 2014, s.301-316.
4. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). Məsul red: Ə.S. Sumbatzadə. Bakı, 1985.
5. Çingizoğlu Ə. Məşrutə hərəkatında ruhanilərin rolu. Bakı, 2018.
6. Ədəbiyyat // Molla Nəsrəddin, № 42, 1908, s.3.
7. Əhməd V. Ş.M.Xiyabaninin həyatı, mühiti və ədəbi fəaliyyəti. Bakı, 2010.
8. Gülmək // "Molla Nəsrəddin", №20, 1907, s.6.
9. Həqiqət // "Molla Nəsrəddin", №52, 1908, s.5-6.
10. Həsənzadə T. "Qacarlar dövrünün titulları" // Tarix və onun problemləri, № 1-2, 2009, s. 385-392.
11. Hüseynzadə Ə. "Ey qələm" // Həyat, №127, 1906, s.4.
12. Hüseynzadə Ə. "Vəqayeyi-aləmə bir nəzər" // "Füyuzat", №2, 1906, s.17-21.
13. Hüseynzadə Ə. Seçilmiş əsərləri. Bakı, 2007.
14. İran inqilabı (1905-1911) // Azərbaycan Sovet Ensiklopediyası, IV cild, Bakı, 1960, s.513.
15. İran işləri // "Molla Nəsrəddin", №9, 1908, s.6-7.
16. İranın Batum konsuluna başıbağlı məktub // "Molla Nəsrəddin", №39, 1906, s.3-6.
17. İttihad // "Molla Nəsrəddin", №31, 1908, s.2-3.
18. Kəsrəvi Ə. İranın məşrutə inqilabının tarixi. Tərc. ed. A.Ə.Haşimi. Essen, 2003.
19. Mədətli E. İranda Azərbaycan tarixi məsələləri. Bakı, 2020.

20. Məmmədquluzadə C. Əsərləri. II cild. Bakı, 2004.
21. Rəsulzadə M.Ə. "İranda inqilab" // Əsərləri. (1903-1909), I cild, Bakı, 2014.
22. Rəsulzadə M.Ə. İran türkləri. Bakı, 2013.
23. Rəsulzadə M.Ə. Əsərləri. I cild (1903-1909). Bakı, 2014.
24. Şahtaxtlı M. Hər gün bir az // Şərqi-Rus, № 1310, 1904.
25. Şahtaxtlı M. Seçilmiş əsərləri. Bakı, 2006.
26. Şəfiyeva Ə.H. İranın modernləşməsində S.H.Tağızadənin rolu. Bakı, 2013.
27. Tərbiyət M. Danişməndani-Azərbaycan. Bakı, 1967.
28. Tərcümanın fitvası // "Molla Nəsrəddin", №17, 1907, s.2-3.
29. Березин И.Н. Путешествие по Востоку-2: Путешествие по Северной Персии. Казань, 1852.
30. Algar H. Ahund Molla // TDV İslam Ansiklopedisi, II cild, İstanbul, 1989, s.185-186.
31. Barijough S.M. İranda siyasi ve ekonomik çıkar çatışmaları (1921–1950), Bitlis, 2015.
32. Bolat G. İran Meşrutiyet Hareketinin Türk Liderleri: Settar ve Bâger Hanlar // Zeitschrift für die Welt der Türken Journal of World of Turks, Vol. 5, No. 1 (2013), p.47-64.
33. Dilek K. İranda meşrutiyet hareketi ve dönemin siyasi gelişmeleri // Akademik Orta Doğu, Cilt 2, Sayı 1, 2007, s.50-68.
34. Hanioğlu M.Ş. Meşrutiyet // TDV İslam Ansiklopedisi, 29-cu cild, Ankara, 2004, s. 388-393.
35. Kurtuluş R. 1906-1911 İran meşrutiyet hareketinde Osmanlı etkisi. İstanbul, 2010.
36. Uçar K. Şia alimleri biyografisi. I cilt. Berlin, 2007.
37. Uçar K. Şia alimleri biyografisi. II cilt. Berlin, 2008.
38. Browne E.G. The Persian Revolution of 1905-1909. London, 1910.
39. Kəsrəvi Ə. Qiyam-e Şeyx Məhəmməd Xiyabani. Tihran, 1998.
40. Kəsrəvi Tarixe-məşruteye-İran. Tihran, 1343.
41. Tərbiyət M. Danişməndane-Azərbaycan. Tihran, 1314.
42. Ağaoğlu Ə. İran və inqilabı. Bakı, 2009 // http://www.history.az/pdf.php?item_id=20110816051607293&ext=pdf
43. Hüseynzadə Ə. Siyasəti-fürusət. Bakı, 1994 // https://ebooks.az/view/nVHTcRtx.pdf
44. Karaman H. Cemaleddin Efgani // https://islamansiklopedisi.org.tr/efgani-cemaleddin
45. Məmmədli P. Məşrutə inqilabı illərində demokratik ənənələrin formalaşması (1905-1911) // http://www.achiq.info/yazi%204/pm%202dL.pdf
46. Nesibli N. Kuzey ile Güney Azerbaycan sorunları. Ankara, 2017. URL:

https://www.avetruthbooks.com/2020/05/nesib-nesibli-guney-ile-kuzey-azerbaycan-sorunlari-2017.html
47. Uçar K. Ahund-u Horasani // http://www.caferilik.com/kutuphane/book/%C5%9Fia-alimleri-biyografisi-c-2#Tab3-30279_76_238

Али Фархадов
Роль духовенства в революционном движении в Каджарском Иране в начале XX века

Резюме

Ключевые слова: *Гаджары, Иран, Южный Азербайджан, религия, революция*

В XIX и начале XX веков Гаджарский Иран был ареной ряда религиозных восстаний. Восстания Бабидов XIX века, табачное восстание, конституционная революция начала XX века и движение Хиябани ослабили Гаджарский Иран. Основной причиной этих восстаний было угнетение народа шахским режимом, реакционным духовенством и чиновниками-тиранами. Восстания Бабидов и табачное восстание не решили проблемы людей в Иране и Южном Азербайджане. Прогрессивное духовенство и интеллектуалы сыграли важную роль в Конституционной революции начала XX века и в итоге призвали народ к борьбе против реакционного духовенства и шахского режима. По инициативе Дж. Афгани серия восстаний против шаха привела к конституционной революции, и хотя и временно, но народ победил. Особую роль в этой победе сыграли Саттархан и Багирхан. Но в конце концов они потерпели поражение. Хиябани установил в Южном Азербайджане демократическое автономное правительство, которое тоже потерпело поражение. Однако падение Гаджаров ускорилось, и Гаджары потеряли власть. К власти пришли Пехлеви. Как указывали А. Касрави, А. Агаоглу, А. Гусейнзаде, М.Э. Расулзаде, Дж. Мамедгулузаде, основной причиной неудачи были препятствия на пути религиозных и светских реформ со стороны реакционных священнослужителей и официальных лиц.

Ali Farhadov

The role of religious figures in the revolutionary movement in Qajar Iran in the early 20th century

Summary

Key words: *Qajars, Iran, South Azerbaijan, religion, revolution*

Qajar Iran became the scene of a number of religious uprisings in the 19th and early 20th centuries. The Babi rebellions in the 19th century, tobacco revolts, the constitutional revolution and the Khiabani movement weakened Qajar Iran in the early 20th century. The main reason for these uprisings was the Shah's regime, the people's oppression by reactionary clergymen and tyrannical officials. The Babi uprisings and tobacco rebellion did not solve the problem of the people in Iran and Southern Azerbaijan. The progressive clerks and intelligentsia played an important role in the constitutional revolution of the early 20th century and called on the people to fight against the reactionary clergymen and the Shah's regime. With the initiative of J. Afghani, a number of uprisings against the Shah resulted in a constitutional revolution, and the people won, albeit temporarily. Sattarkhan and Baghirhan played a special role in this victory. But in the end, they were defeated. Although, M. Khiabani created a democratic autonomy government in southern Azerbaijan, it was also defeated. But it accelerated the fall of Qajars and Qajars lost their power. The Pahlavi came to power. The main reason for this failure was the obstruction of religious and secular reforms by reactionary clergy and officials as A. Kasravi, A. Agaoglu, A. Huseynzade, M.A.Rasulzade and J. Mammadguluzade pointed out.

Азиза Назарли*

Действия XI Красной Армии в Нахчыване в 1920 году в воспоминаниях турецкого генерала Вейсала Унувара

UOT 94 (479.24)

Ключевые слова: *Азербайджанская Республика, Нахчыван, XI Красная Армия, оккупация, Унувар*

После образования в мае 1918 года Азербайджанской, Грузинской и Армянской республик дашнакское правительство при поддержке Англии и США начало проводить политику присоединения Нахчывана к Армянской Республике. Однако при помощи посланных в регион турецких солдат и сопротивления местного населения территориальные притязания Армении не осуществились [4, с.342]. В обороне Нахчывана от агрессии армянских военных формирований большая заслуга принадлежит командующему I Кавказским корпусом Османской Армии Казыму Карабекир Паше [4, с.220]. Но по Мудросскому договору (октябрь 1918 г.) Турция вывела свои войска из Нахчывана. В ноябре 1918 г. в Нахчыване была провозглашена Аразская Тюркская Республика. Однако, после ликвидации данной республики, в начале мая 1919 г. английское командование временно, до решений Парижской конференции передало Нахчыванский регион под контроль армянского правительства. После же ухода английских войск из Азербайджана в конце июля 1919 г., в результате активного сопротивления населения Нахчывана, армянское управление здесь было ликвидировано [4, с.43].

В апреле 1920 г. Азербайджанская Республика потеряла свою политическую независимость ввиду её оккупации со стороны РСФСР. С

*Ведущий научный сотрудник Института истории им.А.А.Бакиханова НАН Азербайджана, доктор философии по истории, доцент; kazimovar@mail.ru

помощью оккупационной XI Красной Армии здесь была установлена Советская власть, и начались бесчинства военных на всей тер¬ритории вновь провозглашённой Азербайджанской Советской Социа¬листи-ческой Республики. Бесчинства привели к народным восстаниям во всех регионах республики. Но они были жестоко подавлены XI Красной Армией.

Ситуация в Нахчыванском крае в 1920 г. также была очень тяжёлой. 28 июля 1920 г. I Кавказский полк XI Красной Армии захватил Нахчыванский уезд, а 29 июля командир полка телеграфировал С.Кирову о прибытии в Нахчыван. В этот день был организован Нахчыванский Ревком, в который вошли коммунисты и беспартийные. Председателем Ревкома был избран Мирза Али Бекташев. В состав Нахчыванского ревкома вошли А.Кадымов, И.Аскеров, Г.Казиев, Г.Бабаев и другие. В сентябре-октябре 1920 г. Ордубад, в ноябре-декабре Шарур также были оккупированы XI Красной Армией [3, с.23]. 3 августа 1920 г. от министра иностранных дел Армянской Республики А.Оганджаняна на имя дипломатического представителя Армении в Азербайджане Т.Бекзадяна из Эривани была направлена телеграмма, в которой говорилось: «Вчера Начальником Армянских войск, занимающих район Шахтахты, была получена из Нахичевани следующая бумага: «28 июля 1920 года красные войска РСФСР, а также союзные наши войска Красной Турции в силу данного приказа вступили в совершенно оставленный жителями город Нахичевань и его район, не имея целью военных действий против Армении. По имеющимся сведениям, вверенные Вам войска намерены провести наступление на город Нахичевань для предания его огню и мечу. Во избежание недоразумения и бесцельного пролития крови, могущих повлечь за собой последствия государственной важности, ставим Вас в известность о занятии нами Нахичевани и его окрестностей 30 июля 1920 г. Город Нахичевань. Командующий объединёнными войсками Российской Социалистической Федеративной Советской Республики и Красной Турции, занимающий город Нахичевань и его окрестности Тарханов». Сообщаем для сведения и протеста пред Кировым и Чичериным» [10, л.27,53].

Большой исторический интерес и научную ценность для изучения истории Нахчывана в этот период имеют мемуары генерала Вейсала Унувара. Они были изданы в Турции в 1948 и 1997 годах под названием «Восемь месяцев с большевиками в борьбе за независимость (1920-1921)». А под названием «Naxçıvan: təlatüm və burulğanlar (1920-1921)» («Нахчыван: волнения и водовороты» (1920-1921) они были опубликованы в Азербайджане в 2006 году [1]. В 1918 г. В.Унувар приехал в Нахчыван в составе армии Казыма Карабекира, в 1920-1921 ггг. он находился в Нахчыване в статусе временного чрезвычайного представителя Турции. Воспоминания турецкого генерала являются важным источником для изучения малоизвестных страниц из

истории Нахчывана начала 1920-х годов. Будучи очевидцем и участником ряда политических и исторических событий, он показал свой особый взгляд на них. Основное место в его мемуарах уделено борьбе против армянской агрессии и установлению, по заданию турецкого правительства, миролюбивых отношений с советской властью в лице прибывших в Нахчыван русских чиновников и военных. В целях защиты и укрепления границ Нахчывана от дашнаков генерал В.Унувар расширил военную работу, объявил мобилизацию, организовал военный трибунал.

Мемуары проливают свет на тёмную сторону общественно-полити¬ческих событий и включают новые сведения и факты.

Особенный интерес вызывают рассказы автора мемуаров о поведении и действиях русских военных, оккупировавших Нахчыван в 1920 году. Генерал описал их реальное отношение к местному населению. Основным орудием политики русских оккупантов мемуарист назвал голод и преследования.

Активный участник борьбы за независимость Турции, в 1920-1921 гг. находившийся в Нахчыване в качестве Чрезвычайного представителя Турции генерал Вейсал бей Унувар писал в своих мемуарах, что здесь никто не имел понятия об истинном большевизме. Местные люди наивно полагали, что большевизм – это уничтожение в стране голода и нищеты, обращение с каждым человеком достойным образом. Население Нахчывана поверило и приняло в качестве лозунга распространяемую большевиками идею «человеческого» (гу¬манного) отношения. Большевики на первых порах в глазах местного населения олицетворяли собой справедливость, совесть и милосердие и яко¬бы намеревались создать мировой рай и золотой век [1, с.25]. Коммунисты обещали, как писал турецкий генерал, что земля превратится в рай, «люди станут ангелами», в мире не останется человека, совершающего беззаконие. Когда им указывали на то, что это сделать невозможно, большевики отвечали, что, конечно, это очень трудно сде¬лать, также как спустить звезду с неба на землю, и по этой причине их символом является звезда [1, с.27].

Генерал Унувар в своих мемуарах характеризует большевистский гнёт, который заставил забыть армянские насилия, так как намного превышал их [1, с.32]. Вейсал бей писал о том, что большевики реквизировали всё продовольствие для собственных нужд. Были захвачены также транспортные средства. Вся хозяйственная жизнь по вине большевиков была разрушена [1, с.54].

Генерал описал поведение русских солдат. Например, однажды два красноармейца ворвались в женскую баню, но солдаты военной полиции (турки) их вытащили из бани и избили. Однако большевистский бригадный командир не был даже оповещён об этом факте [1, с.54]. Так, солдаты XI Красной Армии не считались с национальными традициями азербайджанского народа и не

уважали его обычаи.

Вейсал бей пишет о том, что русские большевики, захватив Нахчыван, не считались с условиями жизни и интересами его населения. Вместо этого они предлагали народу вступить в компартию, дабы не умереть от голода [1, с.57].

Турецкий генерал Вейсал бей Унувар, будучи свидетелем событий в Нахчыване, в своих мемуарах коснулся вопроса о том, как проходили выборы в ревкомы. Он писал о том, что в целях внедрения большевистской политики в местную жизнь, в органах управления нужны были люди-марионетки. В деревне Джахри, например, представителей большевиков и Унувара тепло встретил и отвёл в свой дом 70-летний местный житель. У него спросили, кто из жителей села самый бедный. Привели пастуха, которому в приказном тоне объявили, что с этой минуты он является председателем ревкома. Пастух долго не соглашался, ссылаясь на то, что он безграмотный и ничего не знает. По выражению Унувара, откуда было знать несчастному, что рядовые люди не должны были быть образованными. Как раз, наоборот, они должны были быть необразованными, чтобы установилось большевистское управление. Отказ пастуха принять должность продемонстрировало уважение к знанию и науке, которые культивировались независимым национальным правительством Азербайджанской Республики в 1918-1920 годах. Однако насильственным образом пастуха назначили председателем ревкома. Со слов мемуариста, большевики считали, что, вкусив сладость должности и преподносимых ему подарков, он попадётся на крючок и в будущем не станет противодействовать приказам [1, с.62-63]. Дальнейшие события подтвердили «правомерность» тактики большевиков.

Унувар указывает в мемуарах, что на первом этапе оккупации русские оккупанты распространяли среди местных жителей теорию о большевистском намерении разделить с бедняком кусок хлеба поровну. Местные жители ждали и не дождались претворения этой теории в жизнь. На втором этапе население убедилось совершенно в обратном, увидев, что имеющееся у народа отнимают и отдают членам компартии. Народ, разочаровавшись в политике большевиков, перешел к сопротивлению [1, с.64].

В Нахчыване, как известно, вспыхнуло антисоветское восстание, охватившее Абракунус (сёла Сураб, Аразин, Абракунус) и Шахбузский район (село Кечили и др.). Оно было подавлено с большой жестокостью. Из 89 арестованных повстанцев 50 были расстреляны, остальные – приговорены к лишению свободы на различные сроки, а 3 человека (из них двое с семьями) сосланы [2, с.103].

Слова большевиков о действиях во имя гуманизма расходились с их делами, и это вызвало ненависть к ним. Из Нахчывана большевики увозили золото, уничтожили ценных людей и подвергли население голоду. Был даже

вопиющий случай, когда расстреляли бедняка за то, что тот требовал возместить убыток и заплатить деньги за унесённые военными вещи [1, с.93, 94]. Инструментом русской политики В.Унувар назвал голод и преследование [1, с.95].

30 сентября 1920 г. между Г.Орджоникидзе (Баку) и Б.Легграном (Тифлис) состоялся разговор по проводу (Морзе). Б.Легран сказал, что ввиду присутствия турок в Нахчыване необходимо принять все меры, чтобы сделать невозможным какое-либо нападение их оттуда, т.к. Нахчыван по договору находится под охраной Красных войск. «Это очень важно, прошу на это обратить особое внимание XI армии… Если турки мешают, им надо предложить удалиться из Нахичеванского уезда», - сказал Г.Орджоникидзе. Б.Легран ответил, что «теперь важно держать в руках турецкие отряды в Нахичевани. В настоящий момент это – главное» [10, л.153, 153об.]

28 января 1921 г. в селе Джахри, а 18 февраля в селе Гарачух Тиркеш Начхыванского уезда местное население выступило против новой советской власти. Но народные восстания были немедленно подавлены. Возглавил подавление председатель Нахчыванского ЧК Б.Велибеков и член АКП(б), «представитель бакинских рабочих» Ханджан Гусейнов [3, с.24].

Предревком Нахреспублики А.Кадымов в телеграмме от 23 марта 1921 г. командующему А.Геккеру и члену Реввоенсовета Г.Орджоникидзе сообщал о том, что Нахчыванский край представлял из себя «груды развалин». «В хлебной полосе края, в Шаруре хлебные злаки унесены дашнаками, а Нахчыванский уезд все свои запасы отпустил наводнившим его беженцам и красноармейцам. Скот и даже многие домашние вещи в 1920 году отобраны от населения на нужды армии. Таким образом, красный Нахчыванский край ко времени признания его самостоятельной единицей экономически очутился в крайне безвыходном и критическом положении». В телеграмме говорилось, что не было ни одного уголка республики, где не были бы слышны душераздирающие стоны умирающего от голода крестьянина. Между тем, через территорию Нахчыванского края перебрасывали из Персии для Армении десятки тысяч пудов пшеницы, из которых на нужды Нахчывана не выделялось ничего [9, с.58].

В оккупационный период Азербайджанскую ССР наводнило огромное количество беженцев, в основном разорённых крестьян, пострадавших от армянской агрессии. Беженский отдел комиссариата труда возглавлял Ахмед бек Пепинов, который приложил немало усилий для улучшения их положения. Бежотдел дал инструкции закупать зерно и раздавать беженцам. Однако продовольственные органы на местах не разрешали уполномоченным бежотдела закупать зерно. По инициативе А.Пепинова в начале августа 1920 года было созвано совещание под председательством

заместителя председателя Азербайджанского Ревкома М.Д.Гусейнова, Продовольственной комиссии XI Армии и Народного комиссариата по продовольствию для обсуждения вопроса о снабжении беженцев продуктами. На этом совещании выяснилось, что заготовку зерна Продовольственная комиссия XI Армии разрешить не может, так как вся республика снабжала XI Красную Армию. А.Пепинов выступил с докладом на коллегии комиссариата и Малом Совете Азревкома, где привёл доводы о необходимости уделить хотя бы минимальное количество зерна для снабжения беженцев и выдачи на засевание. Он просил военное ведомство отвести бежотделу определённый район для заготовок или выдать из своих складов некоторое количество продуктов. Однако и на этот раз Продовольственная комиссия XI Армии ответила категорическим отказом. Бежотдел вынужден был с согласия Коллегии и санкции Азревкома перейти к денежной помощи (1000 руб. взрослым и 500 руб. детям) [5, л.35].

К несчастью, денежная помощь не оказалась эффективной. В условиях дефицита, дороговизны, голода, болезней азербайджанский народ потерял десятки тысяч своих соотечественников-беженцев из Зангезура, Шамахи, Гарабаха, Мугани, Ираванской губернии, Карской области, чудом спасшихся от агрессии армян, но погибших из-за тяжёлых условий жизни. К этому приложила руку, без сомнения, и бесчинствующая оккупационная XI Красная Армия, не подавшая беженцам руку помощи.

Беженцы Зангибасара, Ведибасара, Аралаха, Шарурского, Сурмалинского и отчасти Нахчыванского уездов, Карской области численностью до 1 млн. людей, убежали в Персию, где от голода и болезней ежедневно умирало до 300 человек. С 1 по 7 августа 1920 г. на берегу Араза было обнаружено до 6000 трупов умерших от голода, укусов змей и насекомых. В сентябре 1920 г. ЦК АКП (б) послал своего представителя в город Нахчыван, снабдив его 10 миллионами рублей для оказания помощи беженцам, а наркомат здравоохранения – своего представителя с необходимыми медикаментами [7, л.30, 31, 34]. Так, увидев эти чудовищные последствия, компартия предприняла хоть какие-то запоздалые меры.

Однако виновными выставили работников Бежотдела. «За халатное, преступное отношение к народному достоянию» работники Беженского отдела А.Пепинов, Брон и Плавинский были преданы Верховному Революционному Трибуналу. Следствием было установлено 23 случая безотчётного распоряжения мануфактурой и одеждой, которые выдавались беженцам этими сотрудниками иногда по устным требованиям [6, л.17].

Последствия советской оккупации были настолько тяжёлыми, что положение Нахчывана ещё долгое время оставалось критическим. Политические события 1920 г. сказывались на судьбах людей в Нахчыване

спустя много лет. Так, при посещении Закавказья в марте 1925 г. председатель СНК СССР А.И.Рыков был поражён разрухой и нищетой Нахчыванской Автономной Советской Социалистической Республики, назвал её состояние «советским беспорядком» и призвал власти Азербайджана срочно принять меры, чтобы эта автономная республика служила идеям мировой революции, стала образцом Советской республики, а для стран Ближнего Востока – наглядной агитацией за Советскую власть. Вместо оказания должной помощи бедствующей республике руководство Азербайджана, уходя от ответственности, истолковало причины «советского беспорядка» захватом в Нахчыванской АССР государственной власти «ханско-бекским элементом». В конце марта 1925 года туда была направлена Особая комиссия с неограниченными полномочиями под председательством наркома внутренних дел Азербайджанской ССР М.Дж.Багирова. Секретарь Заккрайкома Г.К.Орджо¬никидзе предоставил комиссии право «действовать со всей решительностью». Из «чёрного списка» в составе 50 ответственных работников были репрессированы 48 человек. Своим решением Комиссия исключила из партии 13 руководителей, 40 человек были арестованы и в специальном вагоне препровождены в Баку. Аресты были произведены в ночь с 5-го на 6-е апреля 1925 г., дабы привести семьи в ужас, напоминающий «Варфоломеевскую ночь». Насильственное приобщение разорённого и обнищалого советского Нахчывана к пролетарскому образу жизни успеха не имело. «Нашествие» Особой комиссии на мирный Нахчыван лишь ещё больше опорочило советскую власть [9, с.2].

Таким образом, советская оккупация 1920 года умножила несчастья населения Нахчывана. «Интернациональная помощь и освободительная миссия» XI Красной Армии, как об этом с гордостью пропагандировали советские идеологи, на самом деле привела к нищете, разрухе, потере исторических земель и репрессиям. Эти тяжёлые последствия насильственной советизации Нахчывана продолжались и в последующие годы. Репрессии середины 1920-х годов – тому яркое свидетельство.

Источники и литература:

1. General Veysəl Ünüvar. Naxçıvan: tələtüm və burulğanlar (1920-1921). Naxçıvan, 2006.
2. Qasımov C. Yaddaşın bərpası. Bakı, 1999.
3. Mədətov Q. Naxçıvanda Sovet hakimiyyətinin qurulması və Naxçıvan MSSR-nin təşkili // Azərbaycan kommunisti, 1957, №8, c.21-27.
4. Naxçıvan Ensiklopediyası. Bakı, 2002.
5. Архив Политических документов Управления Делами Президента

Азербайджанской Республики (АПД УДП АР): ф.1, оп.1, д.49.
6. АПД УДП АР, ф.1, оп.1, д.97.
7. АПД УДП АР, ф.1, оп.1, д.246.
8. Гейдаров Н. В горах Зангезура. Воспоминания о годах борьбы за победу и укрепление Советского строя. Баку, 1968.
9. Иванов Р.Н. Нашествие. Печальная быль о бесчинствах и расправе большевиков на советской земле древнего Нахчывана. Москва, 2009.
10. Российский Государственный архив социально-политической истории: ф.64, оп.1, д.21.

Əzizə Nəzərli

XI Qızıl Ordunun 1920-ci ildə Naxçıvanda əməlləri türk generalı Veysəl Ünuvarın xatirələrində

Xülasə

Açar sözlər: *Azərbaycan Respublikası, Naxçıvan, XI Qırmızı Ordu, işğal, Ünuvar*

Məqalədə türk generalı Veysəl Ünuvarun xatirələri əsasında 1920-ci ildə qədim Azərbaycan torpağı olan Naxçıvanda işğalçı XI Qızıl Ordunun əməlləri işıqlandırılmışdır. General Veysəl Ünüvarın memuarları Türkiyədə 1948 və 1997-ci illərdə "Müstəqillik uğrunda mübarizədə bolşeviklərlə səkkiz ay (1920-1921)"adı ilə nəşr olunmuşdur. "Naxçıvan: tələtüm və burulğanlarda (1920-1921)" adı altında isə 2006-cı ildə Azərbaycanda çap olunmuşdur. 1918-ci ildə Ünüvar Kazım Qarabəkir ordusunun tərkibində Naxçıvana gəlmiş, 1920-1921-ci illərdə isə Naxçıvanda Ankara hökumətinin müvəqqəti fövqəladə nümayəndəsi olmuşdur. Türk generalının memuarları 1920-ci illərin əvvəllərində Naxçıvanın az öyrənilmiş tarixinin tədqiq edilməsi üçün mühüm mənbədir. Bir sıra siyasi və tarixi hadisələrin şahidi və iştirakçısı olan Ünüvar öz memuarlarında əsas yeri erməni təcavüzünə qarşı mübarizəyə və Türkiyə hökumətinin tapşırığı ilə Naxçıvana gəlmiş rus məmurları və hərbçilərinin simasında sovet hakimiyyəti ilə sülhsevər münasibətlər qurulmasına həsr etmişdi.

Aziza Nazarli

The actions of the XI Red Army in Nakhchivan in 1920 in the memoirs of the Turkish General Veysal Unuvar

Summary

Keywords: *Republic of Azerbaijan, Nakhchivan, XI Red Army, occupation, Unuvar*

The article highlights the actions of the occupying XI Red Army in the ancient Azerbaijani land of Nakhchivan in 1920 according to the memoirs of the Turkish General Veysal Unuvar, which are of great historical interest and scientific value. The memoirs of General Veysal Unuvar were published in Turkey in 1948 and 1997 under the title "Seven Months with the Bolsheviks in the Struggle for Independence (1920-1921)". And under the title ("Nakhchivan: unrest and whirlpools (1920-1921)" they were published in Azerbaijan in 2006. In 1918, Unuvar came to Nakhchivan as part of the army of Kazim Karabekir, and in 1920-1921 he was in Nakhchivan in the status of a temporary extraordinary representative of Turkey. The memoirs of the Turkish general are an important source for the study of the little-studied history of Nakhchivan in the early 1920s. An eyewitness and participant in a number of political and historical events, Unuvar devoted the main place in his memoirs to the struggle against Armenian aggression and the establishment of peaceful relations with the Soviet authorities on the instructions of the Turkish government in the person of Russian officials and military who arrived in Nakhchivan.

Gülzadə Abdulova*

Milli Azərbaycan Tarixi Muzeyinin Qarabağ irsinin tədqiqi və təbliği sahəsindəki fəaliyyəti

UOT 94 (479.24)

Açar sözlər: *Qarabağ, xalça, geyim, tikmə, musiqi alətləri, sərgi, ekspozisiya*

Qarabağ təkcə Azərbaycanın deyil, ümumiyyətlə, dünyanın çox qədim tarixə malik olan bölgələrindəndir. Bölgə 1,2 mln il əvvəl qədim insanın yadığı Azıx mağarasının, dünya arxeologiya elmi tərəfindən ilkin mədəniyyət mərkəzi kimi qəbul edilən "Quruçay mədəniyyəti"nin, Qafqazda ilk şəhər tipli yaşayış məskəni hesab olunan Üzərliktəpənin tarixi vətənidir.

XX əsrin 90-cı illərindən üzü bəri bölgə dünyada həm də münaqişə ocağı kimi tanınmış, zorla cəlb olunduğumuz müharibə Qarabağ həqiqətlərini, haqlı davamızı dünyaya bəyan etmək üçün Qarabağın tarixinin, mədəni irsinin dərindən öyrənilməsi və təbliği günün tələbinə çevirmişdir. Bu sahədə ölkənin ilk muzeyi olan 101 yaşlı Milli Azərbaycan Tarixi Muzeyi zəngin material bazası və təbliğat obyektlərindən biri rolunu oynamışdır.

Milli Azərbaycan Tarixi Muzeyində Qarabağa aid ən qiymətli material hesab edilən, 350-400 min il yaşı olan azıxantropun alt çənə sümüyündən tutmuş XXI əsrin əvvəllərinə qədərki dövrü əhatə edən yüzlərlə material toplanmışdır. Muzeyin bütün fondlarında Qarabağın tarixinə, mədəni irsinə aid materiala rast gəlmək mümkündür. Bu fondlar arasında ən zəngini Etnoqrafiya fondudur. Fondun xalça kolleksiyasında Qarabağa məxsus 140 saxlama vahidi xalça və xalça məmulatı qorunur. Bütün bu xalçalar 2013-cü ildə "Qarabağ xalçaları" adı altında kataloq şəklində nəşr olunmuşdur (3). Elmi redaktoru akademik Nailə Vəlixanlı olan kataloqun mətnində Qarabağ xalçalarının tarixi Qarabağdan əldə edilən

*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya elmi-fond şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent, abdulovaaxundova@gmail.com

arxeoloji tapıntılar əsasında araşdırılır və belə nəticəyə gəlinir ki, bəhs olunan bölgə Qafqaz xalçalarının vətənidir (3, s.4). Burada yerli qoyun cinslərinin verdiyi bol xammal, boyaq maddələrinin və bitkilərin zəngin çeşidi, əhalinin yaradıcılıq qabiliyyətinin, empirik biliklər sisteminin xalçaçılığın inkişafında oynadığı müsbət rol işıqlandırılmışdır. Kataloqun əhəmiyyətli cəhətlərindən biri burada xalçaçılıqla Qarabağın əzəli sakinlərinin - türklərin məşğul olmasının faktlarla əsaslandırılmasıdır. Azərbaycan xalçalarının ermənilər tərəfindən saxtalaşdırılması, özününküləşdirilməsi kataloqda tutarlı faktlarla sübut edilir.

Qarabağ xalçaları haqqında alternativ kataloqlar nəşr olunsa da, yeganə olaraq Milli Azərbaycan Tarixi Muzeyinin kataloqunda ilk dəfə xalçaların boya analizi təqdim edilmişdir. Boya analizləri Türkiyə Respublikası Kültür vakfının dəstəyi ilə professor Receb Karadağ və doktor Türkan Yurdun tərəfindən aparılmışdır.

Kataloqun nəşrindən keçən müddətdə kolleksiyaya Qarabağ xalçalarının yeni nümunələri daxil edilmişdir. Onlar arasında Bakı əsilli İsrail vətəndaşı Rauf Salikoyeviç Zarbailovun muzeyə hədiyyə etdiyi XIX əsrə aid Malıbəyli xalçası böyük maraq cəlb edir (8). Muzey qaydalarına əsasən hər hansı bir əşya kolleksiyaya daxil edilərkən onun bədii və tarixi əhəmiyyəti əsas etalon kimi götürülür. Hədiyyə olunan xalçanın ilkin forması yüksək bədii və tarixi dəyərə malik olsa da, hal-hazırkı vəziyyəti onun muzey kolleksiyasına qəbul olunmasına imkan vermirdi. Belə ki, xalça çox işləndiyi üçün xovu tamamilə yeyilmişdi. Lakin onun mənəvi dəyərinin misilsiz dərəcədə yüksək olması xalçanın kolleksiyaya daxil edilməsini şərtləndirdi. Dünyanı dolaşan xalça belə bir fikri simvollaşdırırdı: sanki vətəndən kənarda ömür sürən insanlar kimi yurd həsrəti çəkmiş, son nəfəsini yurdunda vermək üçün səbrlə gözləmiş və nəhayət, yurduna dönmüşdü (eynilə onu dünyaya ötürən torpağın sakinləri kimi). Digər tərəfdən vaxtilə Bakıdan öz istəyi ilə köçən bir sabiq vətəndaşımız Azərbaycana məhəbbətini, minnətdarlığını nümayiş etdirirdi. İsrail dövlətinin Azərbaycan müstəqilliyini elan etdikdə onu ilk tanıyan dövlətlərdən biri olmasında, bu gün Azərbaycanın haqq işinə öz qardaşlıq köməyini göstərməsində şübhəsiz ki, Azərbaycanda yaradılmış münbit multikultural mühitin, digər etnik azlıqların sırasında dağ yəhudilərinə göstərilən dövlət qayğısının, onların yerli əhali ilə dost və qardaşlıq şəraitində yaşamalarının müəyyən rolunun olması danılmazdır. Xalça İsrail-Azərbaycan dostluğunu özündə bariz şəkildə təcəssüm etdirir.

Kataloqdan başqa, Etnoqrafiya fondunun kolleksiyasında olan Qarabağ xalçaları ayrı-ayrı tədqiqat əsərlərində işıqlandırılmış, radio-televiziya verilişlərində, digər mətbuat orqanlarında onların haqqında dəfələrlə bəhs edilmişdir. Xüsusən iki xalça öz süjetinə görə daha çox müraciət olunan materiallardandır. Çünki bu xalçalar günün reallıqları ilə səsləşir. Süjetinə uyğun olaraq onlardan biri "Türk komandanları" (9), digəri isə "Balama qurban"(10) adlandırılmışdır. Qarabağ xalça məktəbinə məxsus süjetli xalçaların nadir bir variantı kimi bu xalça 1918-ci ildə Azərbaycan Cümhuriyyəti hökumətinin dəvəti ilə erməni daşnakları tərəfindən azərbaycanlılara

qarşı törədilən soyqırımın qarşısını almaq üçün gələn türk ordusuna minnətdarlıq əlaməti olaraq toxunmuşdur. Xalçanın haşiyələrindən birinə naməlum şairin fars dilində yazdığı şeir toxunmuşdur. Şeir xalça üzərinə toxunarkən texniki qüsurlara yol verildiyindən mətn tam oxunmur. Şerin Azərbaycan dilində mətni belədir:

"Zəmanə içrə... mövcud edib səni yaradan,
Ənvərin adı ilə düşmənin qəlbi parçalanır,
Mərdliklə əlinə parlayan qılıncını alıb ildırım kimi vurub.
Tək canıyla bağırıb nərildəyir: Allahu Əkbər
Mərdliklə hücum edir düşmənə, salır onların canına titrətmə
Böyük bir meydanda at çapdırır,
Qırıb düşmənin başın töküb meydana."

Digər haşiyədə isə Qarabağın məşhur nəlbəkigülü toxunmuş, mərkəzi hissəsinə 1916-cı ilə aid fotoşəkil olduğu kimi həkk olunmuşdur. Xalçanın üzərindəki mətnə əsasən fotoşəkildəkilərin "Cənabi möhtərəm Ənvər bəy əfəndi", "Cənab Şevkət Paşa həzrətləri", "Cənab Yusif İzzətdin", "Sultan Məhəmməd Rəşidxan Xamis həzrətləri" olduğu aydınlaşır (3, s.8). "Balama qurban" xalçasının üzərində isə yuxarı başda kiril hərfləri ilə "Balama qurban olum" ifadələri yazılmış, mərkəzdə türk paşalarının rəsmləri toxunmuşdur. "Balama qurban olum" ifadələri məhz türk komandanlarının, əsgərlərinin Azərbaycanda xilaskarlıq fəaliyyəti ilə əlaqədar olaraq onlara ünvanlanmışdır. Bu ifadələr xalçanın yaşlı qadın tərəfindən toxunduğuna dəlalət edir, eyni zamanda qədirbilən Qarabağ əhalisinin öz xilaskarlarına minnətdarlıq hissinin nümayişinin ilmələrin dili ilə təcəssümüdür. 102 il əvvəl Türkiyənin Azərbaycana göstərdiyi qardaşlıq yardımı 2020-ci ildə yenidən təkrar edildi və bu gün də xalqımız və dövlətimiz həmin köməyi yüksək səviyyədə dəyərləndirir. Təəssüf ki, xalçanın üzərində ərəb əlifbası ilə yazılmış mətnin oxunmasına ayrı-ayrı mütəxəssislər tərəfindən cəhd göstərilsə də, nəticə hasil olunmamışdır. Hər iki xalça yüksək bədii və texniki göstəricilərə malik olmasa da, misilsiz tarixi-mənəvi dəyərə sahibdir. Məhz bu cəhətlərinə görə muzeyin kolleksiyasına 2008-ci ildə daxil olan bu nümunələrə digər xalçalara nisbətən məlumat daşıyıcısı kimi daha çox müraciət edilmişdir. Qarabağ zəfərindən sonra Şuşada açılan sərgidə nümayiş üçün muzeyin kolleksiyasından vətəninə ilk "səfər edən" də məhz dövrün ruhuna uyğun məlumat yükünə malik həmin xalçalar oldular.

Etnoqrafiya fondunun zəngin kolleksiyası arasında geyimlər xüsusi yer tutur. Geyimlər maddi mədəniyyətin elə bir növüdür ki, onun vasitəsilə təkcə xalqın maddi-mədəni səviyyəsini, zövqünü deyil, həm də etnogenezini öyrənmək mümkündür. Bu baxımdan Qarabağ əhalisinin XIX-XX əsrin əvvəllərində istifadə etdiyi geyimləri öyrənməklə onların maddi-mədəni səviyyəsini, qonşu xalqlarla ticarət-iqtisadi, etno-mədəni əlaqələrini, eyni zamanda azərbaycanlıların bu torpaqların əbədi

sakinləri olduğunu söyləmək mümkündür. Milli Azərbaycan Tarixi Muzeyinin geyim kolleksiyası sadaladığımız məsələlərin öyrənilməsində çox mühüm elmi bazadır. Bütün ölkə muzeyləri ilə müqayisədə yeganə olaraq Milli Azərbaycan Tarixi Muzeyində ənənəvi xalq geyimlərinin zəngin kolleksiyası toplanmışdır. Bu kolleksiyanın böyük hissəsini Qarabağ geyimləri təşkil edir. Fondda mühafizə olunan 99 qadın arxalığından 59-u, 61 çəpkəndən 50-si məhz Qarabağa aiddir. Kolleksiyanın tərkibinə Qarabağ xanı İbrahimxəlil xanın nəvəsi Xurşud Banu Natəvana məxsus tumanlar (11), başmaqlar (12), köynək (13), arxalıqları (14; 15) və s., yenə də xan ailəsinə məxsus geyim dəsti (16), çuxa (17), çəpkən (17), Azərbaycan opera sənətinin banisi Üzeyir Hacıbəylinin anası Şirin xanıma məxsus kostyum (19) və çəpkən (20), Kəbirlinskilər ailəsinə məxsus çəpkənlər (21), eyni zamanda fondun nadir materiallarından hesab olunan cıqqalar (kəkillər) (22), Əfşarlara məxsus çəpkən (23), Mehmandarovlar ailəsinə məxsus çuxa (24) və s. daxildir. Qeyd edək ki, Xurşud Banu Natəvana aid şəxsi əşyalar 2012-ci ildə onun 180 illik yubileyi ilə əlaqədar ilk dəfə kataloqlaşdırılmışdır (2). Kataloqa daxil olan 28 əşyadan 9-u geyim elementidir.

MATM Arxeologiya, Etnoqrafiya və Xüsusi fondlarında yer alan Qarabağa aid geyim kolleksiyası və bəzəkləri Azərbaycan Prezidenti yanında Elmin İnkişafı Fondunun "Şuşa qrantı" layihəsi çərçivəsində ilk dəfə kataloqlaşdırılmışdır (46). Kataloqa ümumilikdə muzeyin fondlarından 243 saxlama vahidi geyim və geyim bəzəyi daxil edilmişdir. Ölkənin aparıcı Azərbaycan Milli Xalça Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi və Qarabağın tarix diyarşünaslıq muzeyləri (Ağcabədi, Bərdə) üzrə toplanan materiallar arasında Milli Azərbaycan Tarixi Muzeyinin materialları böyük üstünlük təşkil edir.

MATM Etnoqrafiya fondunda mühafizə olunan faktik materiallar əsasında ilk dəfə tərəfimizdən Bakı-Şirvan və Qarabağ çəpkənlərinin fərqi aşkara çıxarılmışdır. Bu geyimlər bədəninin uzunluğuna və çapıqlarının formasına görə bir-birindən fərqlənir. Qarabağ çəpkənlərinin ümumi uzunluğu 43 sm-dən 57 sm-ə qədər, yan çapıqları (yarmacları) 2 sm-dir. Bakı-Şirvan çəpkənlərinin boyu 56-63 sm-ə qədər, yan çapıqları isə 8-10 sm-ə çatır. Əgər diqqət yetirilsə, Bakı-Şirvan çəpkənləri çapıqlarının formasına görə Osmanlı saray kaftanlarına çox yaxındır, başqa sözlə, atma qollarını çıxmaq şərtilə onların gödəldilmiş formasıdır. Qarabağ çəpkənləri isə qədim dövr çəpkənlərinin (kaftanın) formasını özündə yaşadır. Dövr baxımından daha qədim olan, bütün orta əsrlər boyunca istifadə olunmuş uzunətək çəpkənlər XIX əsrin əvvəllərində ətəyi kəsilərək gödəldilmiş, artıq XIX əsrin sonlarından etibarən isə sıradan çıxmış, arxalıqlar ön plana keçmişdir.

Fondda qorunan Qarabağ arxalıqlarının, eyni zamanda bölgəyə aid fotoşəkillərin müqayisəli analizi sayəsində bu vaxtadək elmi ədəbiyyatda Qarabağ arxalığı kimi təqdim olunan oyma yaxalı arxalığın daha qədim növü tərəfimizdən aşkarlanmış və elmi dövriyyəyə daxil edilmişdir (25). Elmi ədəbiyyatda bəzən oyma yaxalı

arxalıqla zanbaq yaxalı arxalıqlar eyni geyim kimi təqdim olunur. Əslində isə oyma yaxalı arxalıqlar dövr etibarilə daha qədimdir və digər arxalıqdan fərqlənir. Fond materialı əsasında müəyyən olundu ki, Qarabağ arxalıqlarının ilkin forması oyma yaxalı, uzun və büzmə ətəkli olmuşdur. Etnoqrafiya fondunda mühafizə olunan arxalığın timsalında fikrimizi təsdiqləyə bilərik. Arxalığın yaxası geniş, dairəvi formadadır, ətəyi digər Qarabağ arxalıqlarına nisbətən uzun (22 sm) və büzməli qolu isə dirsəyə qədərdir. Ətək biçimi fondun nadir materiallarından biri olan Xurşud Banu Natəvanın arxalığı ilə identikdir. Geyimin bu əlaməti digər bölgələrə xas arxalıqlarla da (Bakı-Şirvan, Quba arxalıqları da uzun büzməli ətəyə sahibdir) oxşardır. Fotoşəkillərdə arxalığın uzun qollu formasına da rast gəlinir (eynilə Bakı-Şirvan arxalıqları da büzməli uzun ətəyə malikdir). Arxalığın əl tikişi ilə ərsəyə gətirilməsi onun digər arxalıqlara nisbətən daha qədim olduğunu göstərən tutarlı faktlardan biridir. Digər bir əlamət arxalığın yaxa kəsiyinin eynilə kişi çuxaları və digər bölgələrə xas qadın arxalıqları və küləcələrlə eyni biçim üsulunda olmasıdır. Belə ki, arxalığın yaxa kəsiyi zanbaq yaxalı arxalıqlardan fərqli olaraq bütöv, yəni düzyaxa biçimlidir, ön laylar boyundan ətəyə kimi çatır, büzmələr yaxa kəsiyinə birləşərək bel dairəsi boyunca uzanır.

Fond materialları Qarabağ arxalıqlarının inkişaf dinamikasını əyani şəkildə izləməyə imkan verir. Belə ki, Qarabağda XIX əsrin əvvəllərində oyma yaxalı, büzmə və uzun ətəkli, düzyaxa biçimli, daha sonra zanbaq yaxalı, uzun ətəkli və uzun, sadə qollu, XIX əsrin sonlarından isə zanbaq yaxa, gödək (10-12 sm) və qatlama ətəkli, nilufər və ya Avropa biçimli qola malik arxalıqlar dəbdə olmuşdur.

XIX əsrin sonlarına doğru oyma yaxalı arxalıqlar həm qadın, həm də kişi geyim dəstindən çıxmış, kişi arxalıqları daha ciddi, qadın arxalıqları isə daha müasir forma kəsb etmiş, qol, ətək və yaxasına Avropa elementləri əlavə olunmuşdur. Zanbaq yaxalı arxalığın XIX əsrin sonlarından dəbə gəlməsi fikrinə fond materiallarının əyani şəkildə analizi və dövrə aid fotoşəkillər əsasında gəlinmişdir. Fondda mühafizə olunan 50-dən çox zanbaq yaxalı arxalıqların demək olar ki, hamısı tikiş maşını ilə tikilmişdir. Bölgəyə aid fotoşəkillərin hamısında yenə də zanbaq yaxalı arxalıq müşahidə olunur. Fotoşəkillərin XIX əsrin sonları, əsasən də XX əsrin əvvəllərinə aid olması fakt olaraq fikrimizi təsdiqləyir. Həmin arxalıqlar yığcamlığı, uzun tumanla geyilmək üçün mütənasib biçimliliyi ilə seçilirdi. Onu digər bölgələrin, eyni zamanda bölgənin özünün eyni adlı geyim tiplərindən üç əlamət ayırır: yaxasının buta və ya zanbaq formalı olması və ona xırda qırçınların əlavə edilməsi, qatlama ətəyi və nilufər qolları. Bu dövr istifadə olunan arxalıqların yaxası Osmanlı sarayında geniş yayılmış "lalə dövrü" incəsənətinin təsiri altında yaranan geyimlərin formasına uyğun olub, lalə və ya zanbaq yaxalıdır. Ətək forması isə 10-12 sm uzunluğunda qatlamalardan ibarətdir. Bu arxalıqların "nilufər" adlanan qolu isə Avropa biçim üsulundadır. Qeyd edək ki, Azərbaycan milli qadın geyim dəstində Avropalaşma meylləri ilk olaraq Qarabağ arxalıqlarında öz əksini tapmışdır. Ətəyi


qatlamalı olduğu üçün bəzən "çərkəzi arxalıq" adlandırılan Qarabağın son dövr arxalıqlarını əslində həmin geyimlərlə heç bir əlamət bağlamır. Qarabağa aid bu arxalıqların əksəriyyətinin yaxasına 1-2 sm enində eyni materialdan (nadir hallarda güpürdən) xırda qatlamalı qırçın əlavə olunur. Bu qırçınlar bəzən qol ağzına da verilərək (4-5 sm) geyimdəki həmahəngliyi tamamlayır.

Etnoqrafiya fondunda mühafizə olunan geyimlərin araşdırılması sayəsində belə bir qənaət əldə olundu ki, qadın arxalıqları ilə kişi arxalıqları arasında əksər hallarda cüzi fərqlər vardır və ya əksinə, bəzi hallarda qadın arxalıqları kişi arxalıqlarını təkrarlayır. Q.Qaqarinin çəkdiyi "Qarabağ bəyi" rəsmində müşahidə olunan dördkünc yaxalı, uzunətək arxalıq Bakı-Şirvan qadınlarının geyim dəstində XX əsrin əvvəllərinə kimi əsas yer tutmuşdur (1, s.83-84). Etnoqrafik ədəbiyyatda kişi geyimi kimi qeydə alınan "oyma yaxalı" arxalıqlar isə qeyd etdiyimiz kimi Qarabağın, eləcə də Şirvanın qadın geyim dəstində yer almışdır. Fondda qorunan 1 saxlama vahidi Qarabağa aid yeganə kişi oyma yaxalı arxalığı (27) haqqında bəhs etdiyimiz 3669 inventar saylı arxalıqla eyni biçimdədir (kişi arxalığının sinə kəsiyi nisbətən kiçikdir).

Arxalıqların əsasən tikiş maşını ilə tikilməsi də fikrimizi bir daha təsdiq edir. Məlumdur ki, sənaye istehsalı olan tikiş maşınları Azərbaycana XIX əsrin sonlarından etibarən gətirilməyə başlamışdı. Faktik materialların araşdırılması maraqlı bir cəhəti ortaya çıxarır. Çəpkənlərin böyük əksəriyyəti əl tikişi ilə, arxalıqlar isə tikiş maşını ilə tikilmişdir. Bu isə onu göstərir ki, XIX əsrin sonlarında artıq çəpkənlər dəbdən düşmüş, zanbaq yaxalı arxalıqlar əsas geyim elementinə çevrilmişdir. XIX əsrin sonlarından etibarən arxalıqlar dəbə düşmüşdür. Bu fikri həmin dövrə aid fotoşəkillər də təsdiqləyir. Bu dövrə aid fotoşəkillərdə məhz arxalıqlarla rastlaşırıq, nadir hallarda çəpkən və küləcə müşahidə olunur.

Orta əsrlərdən XIX əsrin ikinci yarısına kimi geyim mədəniyyətində önəmli yerə sahib olan çəpkən türk xalqlarının ortaq mənəvi və maddi dəyərlərə sahiblik etdiyini göstərən əsas maddi faktlardan biridir. Bu geyim növü formasındakı, naxış elementlərindəki fərqliliyi nəzərə almasaq, tipoloji cəhətdən türk xalqları arasında geniş yayılan eyniadlı geyimin bir növüdür. Azərbaycan, eləcə də türk dünyasının geyim mədəniyyətinin öyrənilməsində Etnoqrafiya fondunda qorunan XVIII əsrə aid çəpkən nümunəsi (23) çox böyük önəm daşıyır. Əfşar çəpkəni kimi tanınan bu geyim Cənubi Azərbaycanda da istifadə olunmuşdur. Qacar dövrü rəsmlərində, Metropoliten muzeyində geyimin analoqlarına rast gəlmək mümkündür. Geyim elmi ədəbiyyatda çəpkən-nimtənə (6, s.99) kimi də qeyd olunur. Tarixi əhəmiyyəti, yüksək bədii dəyəri nəzərə alınaraq geyim nadir incilər sırasında muzeyin 90 illiyi ilə əlaqədar nəşr olunmuş kitab-alboma arxalıq adı ilə daxil edilmiş (45), lakin bölgəsi qeyd olunmamışdır. Bundan əvvəl geyim 1972-ci ildə nəşr olunmuş kitab-alboma (4) Bakı arxalığı kimi daxil edilmişdir. Lakin geyimin forması onun arxalıq olduğunu qəti şəkildə təkzib edir. Geyimin

yan çapıqları, atma qolları çəpkənə xasdır. Bakı çəpkəni ilə Qarabağ çəpkənləri arasındakı fərqləri nəzərə alsaq geyim tamamilə Qarabağ çəpkənləri ilə eyniyyət təşkil edir. Bundan başqa Qarabağda apardığımız çöl tədqiqatları əsasında əldə etdiyimiz məlumatlar da fikrimizi təsdiqləyir. Məlumata görə imkanlı təbəqənin üzvləri, saray mühitində yaşayan dövlət adamları dizə qədər uzun, dəbdəbəli çəpkənlər geyinirdilər. Əfşarların Azərbaycan ərazisində əsas məskunlaşma ərazisinin Qarabağ olduğunu da nəzərə alsaq geyimin məhz Qarabağa aid olması haqqındakı fikrimiz məntiqli olar.



Muzeyin nadir incisi Londonda nəşr olunan jurnalın üz qabığında. MATM EF inv.№ 3571

Qarabağın zəngin mədəniyyətə sahib olduğunu beynəlxalq aləmdə təbliğ etmək məqsədilə çəpkənin tərəfimizdən İngiltərədə nəşr olunan "The Journal of Dress History" jurnalının üz qabığında nəşr olunmasına nail olunmuşdur. Jurnalda fotoşəkillə yanaşı geyim haqqında qısa annotasiya da verilmiş, geyimin bütün türk dünyasında geniş yayılması, türk dünyasının tərkib hissəsi olan Qarabağda da istifadə olunması vurğulanmışdır.

Geyim mədəniyyətinin formalaşması və inkişafı həmçinin etnik-mədəni və ticarət-iqtisadi əlaqələrin durumundan da asılı olmuşdur. Qarabağ Azərbaycanın dəb mərkəzi olmuş, burada yerli əhalinin istifadəsində olan geyimlər ətraf bölgələrin geyim mədəniyyətinə öz təsirini göstərmişdir. Fond materialları belə deməyə əsas verir ki, Qarabağa məxsus arxalıqlar Qərbi Azərbaycanın Dərələyəz mahalında da istifadə olunmuşdur. Bölgənin Kədikvəng kəndinə aid XIX əsrin sonu - XX əsrin əvvəllərində istifadə olunan arxalığa yerli detallar əlavə olunsa da, forma baxımından Qarabağ arxalığını eynilə təkrarlayır (26). Geyimin adının "büzmə" adlanması da Qarabağ etnoqrafik leksikası ilə uyğundur. Qarabağda qadın arxalığının formasına uyğun olan kişi çuxaları da "büzmə"(5, s.98-99) adlanırdı. Yuxarıda qeyd edildiyi kimi, qadın arxalıqları ilə kişi arxalıqları eynidir.

Göründüyü kimi, gətirdiyimiz faktlar Qarabağın geyim mədəniyyətinin ümumtürk, ümumazərbaycan geyim mədəniyyətinin tərkib hissəsi olduğunu göstərir. Qarabağ geyimlərinin, ümumilikdə mədəni irsinin öyrənilməsində isə MATM kolleksiyasının mühüm əhəmiyyət daşıdığı danılmazdır.

Fond kolleksiyasında yer alan Qarabağ geyimləri dəfələrlə beynəlxalq sərgilərdə nümayiş olunmuş (Çexiya, Almaniya, Norveç), Qarabağ mədəniyyətinin dünyaya

çatdırılması yolunda maddi dəlil kimi istifadə edilmişdir. Bununla yanaşı, Qarabağ xalçaları, tikmələri, bəzəkləri ilə yanaşı bölgəyə məxsus geyimlərin bir qismi də Heydər Əliyev Fondunun Qarabağ mədəni irsi ilə bağlı hazırladığı kataloq üçün təqdim olunmuşdur.

Fondun zəngin tikmə kolleksiyasında da Qarabağa məxsus materiallar öz orijinallığı, yüksək bədii dəyəri ilə diqqət cəlb edir. Bu nümunələr arasında yüksək ustalıqla, məxmər parça üzərində güləbətin tikmə üsulu ilə naxışlanmış divar bəzəyi (28), eyni üsulla ərsəyə gətirilmiş Qarabağ xanlarına məxsus yəhərüstülər (29), muncuq tikmə üsulu ilə yerinə yetirilmiş çəpkən qolçağı (30) və s. onlarla misilsiz sənət əsəri Azərbaycan mədəni irsini zənginləşdirən nümunələrdir. Fondda qorunan Şuşada hazırlanmış iki ədəd tikmə nümunəsi isə öz kreativliyi ilə seçilir. Onlardan biri baramalarla bəzədilmiş quranqabı (31), digəri təbii insan tükü, ceyran dərisi və ipək parçalarla qondarma tikmə üsulunda hazırlanmış divar bəzəyidir (32). Quranqabının üzərinə bəzək tərtibatının verilməsində baramalardan kəsilmiş müxtəlif fiqurlarla (gül ləçəyi, yarpaq, gül və s.) yanaşı məlilə və piləklərdən də istifadə edilmişdir. Divar bəzəyi dahi bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasından kiçik bir səhnənin təsviridir. Məcnun obrazının yaradılmasında təbii insan tükündən, ceyran dərisi və ipək parçadan, Leyli obrazının yaradılmasında isə yenə də ipək parça və təbii insan tükündən istifadə olunmuşdur. Bütün bunlar o dövr tikmə sənəti üçün bir yenilik idi və Azərbaycan muzeylərinin kolleksiyasında onların analoquna rast gəlinmir.

Qarabağda, xüsusən Şuşada tikmə yaradıcı sənət sahəsi kimi inkişaf etmişdi. Tikmə sənəti ilə əsasən yüksək təbəqə nümayəndələri məşğul olurdu. Etnoqrafiya fondunda qorunan Xurşud Banu Natəvana məxsus əl işləri fikrimizi təsdiq edir. Onun əl işləri Azərbaycan tikmə sənətinin gözəl nümunələri hesab edilə bilər. 7 s.v. nümunədən ibarət olan bu tikmələr X.B.Natəvana həsr olunmuş adı çəkilən kataloqa daxil edilmişdir. Bundan başqa, Tiflisdə keçirilən sərgidən bəhs edən A.S.Piralov şuşalı Böyükxanım Əbrəxanovanın ərsəyə gətirdiyi çox nəfis güləbətin tikməli bir namazlığın adını heyranlıqla çəkir (48, s.49). Həmin tikmənin müəllifi Şuşanın məşhur Əbrəxanovlar ailəsinin üzvü idi.

Muzeyin zəngin kolleksiyası arasında Qarabağa məxsus musiqi alətləri də yer alır. Kolleksiyaya dünyaca məşhur muğam sənətimizin korifeylərindən Cabbar Qaryağdıoğlunun (33) və Xan Şuşinskinin (34) qavalları, Şərqdə ilk operanın müəllifi dahi bəstəkar Ü.Hacıbəylinin əlyazması (44), maestro Niyazinin tarı (38) və s. şəxsi əşyaları, Zülfüqar Hacıbəyovun kamançası (35) və tarı (39), bundan başqa Qarabağda hazırlanmış tarbəndlik sənətinin misilsiz nümunələri (36) mühafizə olunmaqdadır.

Fondda, ümumiyyətlə, Azərbaycanda ən qədim hesab edilən bir tar nümunəsi (37) isə xüsusilə diqqəti cəlb edir. İnventar kitabında yazılan qeydə görə tarın üzərində ərəb əlifbası ilə "1744"-cü il tarixi, ustanın adı "Samson" və "Şuşa

şəhəri" yazılmışdır. Tarı tədqiq edən mütəxəssis S.Abdullayeva həmin qeydi təəssüf ki, analiz etmədən elmi dövriyyəyə daxil etmişdir (47, s.76). Əslində isə qeyd edilən məlumat tarın üzərində yoxdur. İnventar kitabda yazılan məlumatda bir neçə şübhəli məqam vardır. Birinci, tarixi mənbələr Şuşanın bünövrəsinin qoyulmasını 1750-1751-ci illərə, əhalinin məskunlaşmasını isə 1756-cı ilə aid edir (7, s.20-22). Yalnız şəhər kimi formalaşdıqdan sonra ətraf ərazilərdən müxtəlif sənət sahibləri Şuşa şəhərinə axışmağa başlamış, muğam sənəti XIX əsrdə yüksək səviyyədə inkişaf etmişdir. Həm də ilkin dövrlərdə şəhər Pənahabad, sonralar isə Şuşa adlandırılmışdır (7, s.22). İkincisi, qeydin ərəb əlifbası ilə yazılmasının göstərilməsi də şübhə doğurur. Belə bir yazı olsaydı yəqin ki, erməni əlifbasında olardı. Ən mühüm məqam isə tarın pərdə və simlərinin Sadıqcanın XIX əsrin ortalarında təkmilləşdirdiyi tara uyğun olmasıdır. XVI-XVIII əsrlərə aid bütün miniatürlərdə iri çanaqlı, diz üstə çalınan tarlar müşahidə edilir. Xatırladaq ki, tar 1956-cı ildə Bakı şəhərində yaşayan A.Avanesyandan satınalma yolu ilə alınmışdır. Ola bilsin ki, məlumat da inventar kitaba bir erməni saxtakarlığı nəticəsində daxil edilmişdir.

Ümumiyyətlə, MATM kolleksiyasında qorunan bütün bu sənət nümunələri Qarabağın zəngin bir mədəniyyətə sahiblik etdiyinin, ümumazərbaycan, ümumtürk mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğunun faktik materiallarla isbatıdır.

Qarabağ mədəni irsinin təbliğatı ekspozisiya və sərgilər vasitəsilə mütəmadi olaraq həyata keçirilmişdir. Belə ki, ekspozisiya zallarında Qarabağa məxsus materialların nümayişi daim diqqət mərkəzində saxlanılır. Daimi ekspozisiyada yer alan Qarabağ xanı Pənahəli xanın başdaşı, İbrahimxəlil xanın şeşpəri (41), Şuşa qalasının açarı (42), Pənahəli xanın zərb etdirdiyi "pənahabadi" adlı sikkə (40), Mehdiqulu xana hədiyyə olunan bayraq (43) və s. materiallar Qarabağ tarixinin öyrənilməsində, bölgənin türklərə məxsusluğunun tutarlı bir sübutu kimi, çox böyük tarixi əhəmiyyətə malik mənbələr olaraq daimi ekspozisiyada nümayiş etdirilir. Bundan başqa istər ekspozisiyada, istərsə də sərgilərdə müxtəlif mövzuların təqdimatı zamanı Qarabağa aid materiallara daim üstünlük verilir.

Qarabağın mədəni irsinin geniş şəkildə nümayişi 2010-cu ildə təşkil olunmuş "Qarabağ- Azərbaycanın qədim mədəniyyət ocağı" sərgisndə həyata keçirilmişdir. Etnoqrafiya elmi fond şöbəsinin ideyası və təşkilatçılığı, akademik Nailə Vəlixanlının rəhbərliyi ilə həyata keçirilmiş sərgidə Azıx mağarasından başlamış Qarabağ müharibəsinə qədərki dövr öz əksini tapmışdır. Sərgi "Qarabağın arxeologiyası", "Qarabağ xalçaları", "Qarabağ zərgərlik sənəti", "Qarabağın milli geyimləri", "Qarabağın musiqisi xəzinəsi", "Qarabağ tikmələri", "Qarabağ sikkələri", "Qarabağ atı", "Qarabağ rəsm əsərlərində və fotolarda", "Qarabağ nəşrlərdə", "Qarabağ müharibəsi" tematik planı əsasında qurulmuşdu. Sərgidə Etnoqrafiya fondundan seçilən 100-ə qədər eksponatdan başqa, Arxeologiya, Hədiyyələr və xatirə əşyaları, Xüsusi, Neqativ, Sənədli mənbələr, Silahlar və

bayraqlar, Faleristika və qliptika fondlarının, həmçinin muzeyin nəzdində fəaliyyət göstərən kitabxananın kolleksiyasından 100-dən çox material nümayişə çıxarıldı. O vaxtadək muzeyin kolleksiyasında yalnız bir Qarabağ şəhidinin materialı mövcud idi. Qarabağ müharibəsində Azərbaycanın haqlı mövqeyini sərgi vasitəsilə xarici qonaqların diqqətinə çatdırmaq imkanından yararlanmaq üçün belə materiallara ehtiyac vardı. Bu məqsədlə sərginin təşkili gedişində daha 3 şəhidin materialı muzeyə cəlb edildi və nümayişə çıxarıldı.

Azərbaycan muğamının beşiyi hesab edilən Qarabağda bu sənətin ənənəvi olaraq nəsillərdən-nəsillərə ötürülməsi ideyasını təlqin etmək üçün sərginin açılışına Azərbaycan Respublikasının xalq artisti, "Şərəf" ordenli Mənsum İbrahimov, gənc nəslin nümayəndəsi, əməkdar artist, I muğam müsabiqəsinin qalibi, I muğam festivalının qran-prisinin sahibi Təyyar Bayramov və Mənsum İbrahimovun tələbəsi, 9 yaşlı muğam ifaçısı Mirpaşa Şükürov dəvət edildi(2012-ci il televiziya muğam müsabiqəsinin qran-prisinin sahibi) və simvolik olaraq muğam korifeylərindən biri Cabbar Qaryağdıoğlunun adı çəkilən qavalı ilə "Qarabağ şikəstəsi" ifa olundu.

Nəhayət, 2020-ci ilin 27 sentyabrında yenidən alovlanan müharibə Azərbaycanın böyük zəfərilə başa çatdı və hələ 44 günlük müharibənin gedişində şəhid materiallarının toplanmasına başlanıldı. MATM rəhbərliyi tərəfindən hələ müharibənin gedişi dövründə Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin müdiri Səbuhi Əhmədovun təklif etdiyi "Anadır arzulara hər zaman Qarabağ" adlı sərginin təşkilinin təmin olunması üçün şəhid materiallarının toplanması işinə bütün muzey əməkdaşlarının cəlb edilməsi haqqında göstəriş verildi. Az bir müddətdə muzeyə daxil olan materialların çoxluğu və müxtəlifliyi Vətən Müharibəsi Fondunun yaradılması zərurətini ortaya qoydu. Bu baxımdan muzeyin Elmi şurası muzeydə tarixi qələbəmizi əks etdirən bu materialların toplanması, qorunması, öyrənilməsi və təbliği üçün yeni fondun yaranması ilə bağlı mühüm qərar verdi və 2021-ci ilin yanvar ayında MATM-da Vətən Müharibəsi Fondu təsis edildi. Qısa müddət ərzində muzeyin müxtəlif şöbə və fondlarının əməkdaşları sosial şəbəkədə əhaliyə müraciət etdilər və eləcə də ölkəmizin müxtəlif bölgələrindən olan şəhidlərimizə aid şəxsi əşyaların, hərbi geyimlərin, sənədlərin, fotoların və s. toplanması işinə başladılar (49). Eyni zamanda ANAMA, Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə danışıqlar nəticəsində Gəncə və Bərdə rayonlarına atılan raketlərin qalıqları muzeyə cəlb edildi. Muzeyin fotoqrafı, Azərbaycan Fotoqraflar Birliyinin sədri Mirnaib Həsənoglu müdriyyət tərəfindən cəbhə bölgəsinə ezam olundu və onun çəkdiyi orijinal fotolar sərginin materialları arasına daxil edildi. Muzey rəhbərliyi və əməkdaşların gərgin əməyi sayəsində 19 may 2021-ci il tarixində sərginin açılışı baş tutdu.

Sərgidə 2020-ci ilin iyulunda baş vermiş Tovuz döyüşlərinin iki qəhrəmanı - general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev, həmçinin Vətən müharibəsinin 101 şəhid və qazisinə məxsus şəxsi əşyalar, Müdafiə Nazirliyi,

Dövlət Təhlükəsizik Xidməti, Dövlət Sərhəd Xidməti, DİN Daxili Qoşunları, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Mina Təmizlənmə Agentliyi tərəfindən təqdim edilmiş hərbi sursat qalıqları (cəmi 557 s.v.), 204 ədəd fotoşəkil nümayiş edildi (50).

Bərdə, Tərtər rayonlarına, Gəncə şəhərinə atılan raketlər erməni faşizminin, ölkəmizə qarşı təcavüzünü, eyni zamanda qarayaxmalarının həm gənc nəslə, həm də xarici turistlərə, siyasətçilərə və diplomatlara qonaqlara çatdırılması üçün tutarlı əşyayi-dəlillərdir. Beləliklə, bu vaxta qədər Qarabağın mədəni irsinin, tarixinin öyrənilməsində zəngin elmi baza olan Milli Azərbaycan Tarixi Muzeyi öz kolleksiyasını zənginləşdirdi və gələcək nəsillərə Qarabağ müharibəsi tarixinin çatdırılması, eyni zamanda tədqiqatçılara maddi dəlil bazası yaradılması sahəsində də çox önəmli iş görmüş oldu. Bununla belə, muzey kollektivi Qarabağın tarixi və mədəniyyətinin təbliği, tədqiqi sahəsindəki fəaliyyətini dayandırmır, bu sahədə növbəti tədbirlərin yerinə yetirilməsini planlaşdırır. Növbəti illərdə Şuşanın 270 illiyinə həsr olunmuş sərgi və kataloqun nəşri, Qarabağın görkəmli şəxsiyyətlərinə məxsus materialların kataloqlaşdırılması, Qarabağın tarixi və mədəniyyətinə həsr olunmuş respublika elmi konfransının keçirilməsi, Qarabağ müharibəsi şəhidlərinin xatirəsini əbədiləşdirmək üçün kataloqların və xatirə kitablarının hazırlanması, "Qarabağ müharibəsi qəhrəmanlarını tanıyaq" layihəsi çərçivəsində görüşlərin, seminarların, dəyirmi masaların, şagirdlərin yaradıcılıq işləri müsabiqələrinin keçirilməsi, "Qarabağın maddi və mənəvi mədəniyyəti" layihəsi çərçivəsində elmi seminarların, dərslərin və kvestlərin təşkili və s. fəaliyyətlər nəzərdə tutulur.

Muzey işinin ən önəmli istiqamətlərindən biri toplama işi və muzey kolleksiyasının zənginləşdirilməsidir. Qarabağın işğalından keçən bütün dövr ərzində muzey rəhbərliyi şəhid, qazi materialları ilə yanaşı, bölgənin mədəni irsinə, tarixinə aid materialların toplanmasına da çox böyük önəm vermiş, xeyli maddi mədəniyyət nümunəsinin əldə olunmasına nail olmuşdur. Beləliklə, bu vaxta qədər Qarabağın mədəni irsinin, tarixinin öyrənilməsində zəngin elmi baza olan Milli Azərbaycan Tarixi Muzeyi öz kolleksiyasını 30 illik münaqişə dövründə də zənginləşdirdi və gələcək nəsillərə Qarabağ müharibəsi tarixinin çatdırılması, eyni zamanda tədqiqatçılara maddi dəlil bazası yaradılması sahəsində çox önəmli iş görmüş oldu. Bu materiallar Qarabağın maddi-mənəvi mədəniyyətinin mühüm göstəricisi kimi çox böyük önəm daşıyır və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, Azərbaycan tarixi və mədəni irsinin öyrənilməsində, Azərbaycan dövlətinin ərazi bütövlüyü ilə bağlı mübahisəli məsələlərin həllində tutarlı faktik materiallar kimi istifadə olunur və olunacaqdır.

Mənbələr və ədəbiyyat:

1. Abdulova G. Azərbaycan milli kişi geyimləri. Bakı, 2020.
2. Abdulova G. Xurşud Banu Natəvan -180. Kataloq. Bakı, 2012.
3. Abdulova G. Qarabağ xalçaları. Kataloq. Bakı, 2013.
4. Azərbaycan milli geyimləri. Kitab-albom. Bakı, 1972.
5. Çəmənzəminli Y.V. Məşədi və kərbəlayı // Seçilmiş əsərləri. 3 cilddə. I cild. Bakı, 2004.
6. Dünyamalıyeva S. Azərbaycan milli geyimlərinin bədii-dekorativ xüsusiyyətləri. Bakı, 2013.
7. Mahmudov. Y., Mustafayev C. Şuşa Pənahabad. Bakı, 2012.
8. MATM EF inv .№ 9968. Malıbəyli. Qarabağ. XIX əsr.
9. MATM EF inv. № 9392. Xalça. Türk komandanları. Şuşa. 1920.
10. MATM EF inv. № 9471. Xalça. Balama qurban. Şuşa. 1920.
11. MATM EF inv. № 3477, 3476. Tuman. Qaz parçadan. Şuşa. Xurşud Banu Natəvana məxsus. XIX əsr.
12. MATM EF inv. № 4382, 3367. Başmaq. Muncuq tikməli. Xurşud Banu Natəvana məxsus. XIX əsr.
13. MATM EF inv. № 3366. Köynək. Zərxara. Şuşa. Xurşud Banu Natəvana məxsus. XIX əsr.
14. MATM EF inv. № 8788. Arxalıq. Məxmər, güləbətin. Şuşa. Xurşud Banu Natəvana məxsus. XIX əsr.
15. MATM EF inv. № 3475. Zanbaq yaxalı, uzunətək arxalıq. Zərxara. Şuşa. Xurşud Banu Natəvana məxsus. XIX əsr.
16. MATM EF inv. № 3364. Tuman. Xara; MATM EF inv. №3365. Arxalıq. Xara. Cavanşirlər nəslinə aid. XIX əsr.
17. MATM EF inv. № 4068. Çuxa. Mahud. Cavanşirlər nəslinə aid. XIX əsr.
18. MATM EF inv. № 4019. Çəpkən. Kəmxa. İbrahimxəlil xanın nəticəsinin xanımına məxsus. Şuşa. XIX əsr.
19. MATM EF inv. № 8861. Köynək. Atlas; inv. №8860. Tuman. Atlas. Şuşa. XX əsrin əvvəli.
20. MATM EF inv. № 8859. Çəpkən. Tirmə. Şuşa. Üzeyir Hacıbəyovun anası Şirin xanıma məxsus. XIX əsrin sonu.
21. MATM EF inv. № 1721. Çəpkən. Zərxara; inv. №1713. Çəpkən. Tirmə. Şuşa. Kəbirlinskilər ailəsinə məxsus. XIX əsr.
22. MATM EF inv. № 1722; 1723. Cıqqa. Şuşa. Kəbirlinskilər ailəsinə məxsus. XIX əsr.
23. MATM EF inv. № 3571. Çəpkən. Məxmər, güləbətin. Əfşarlara məxsus. XVIII əsr.
24. MATM EF inv. № 1801. Çuxa. Mahud, zərxara. Şuşa. Mehmandarovlar ailəsinə məxsus. XIX əsr.

25. MATM EF inv. № 3639. Oymayaxa arxalıq. Tirmə. Şuşa. XIX əsr.
26. MATM EF inv. № 6126. Arxalıq. İpək. Dərələyəz mahalı, Kədikvəng kəndi. XX əsrin əvvəli.
27. MATM EF inv. № 56. Oymayaxalı kişi arxalığı. Pambıq. XIX əsrin sonu.
28. MATM EF inv. № 4390. Divar bəzəyi. Məxmər, güləbətin. Şuşa. XIX əsr.
29. MATM EF inv. № 2347. Yəhərüstü. Mahud, güləbətin. Şuşa. XIX əsr.
30. MATM EF inv. № 2305. Qolçaq. Muncuq tikmə. Şuşa. XIX əsr.
31. MATM EF inv. № 6776. Quranqabı. Qondarma tikmə. Şuşa. XX əsrin əvvəlləri.
32. MATM EF inv. № 9752. Divar bəzəyi. Şuşa. XX əsrin əvvəlləri.
33. MATM EF inv. № 5809. Qaval. Cabbar Qaryağdıoğluna məxsus. XX əsrin əvvəlləri.
34. MATM EF inv. № 5597. Qaval. Xan Şuşinskiyə məxsus. XX əsr.
35. MATM EF inv. № 1504. Kamança. Zülfüqar Hacıbəyova məxsus.
36. MATM EF inv. № 3552. Kamança. EF inv. №7290. Tar. Qarabağ. XIX əsr.
37. MATM EF inv. № 4379. Tar. Şuşa. XIX əsr.
38. MATM HXƏF inv. № 4894. Tar. Maestro Niyaziyə məxsus.
39. MATM HXƏF inv. № 708. Tar. Zülfüqar Hacıbəyova məxsus.
40. MATM NF inv. №1481. Gümüş pənahabadi. 4,3 qr. Qarabağ xanlığı. Pənahabad (Şuşa), 1227 = 1812/1813.
41. MATM SBF inv. № 704. Şeşpər. Dəmir, qızıl işləməli. Şuşa. İbrahimxəlil xana məxsus. XVIII əsr.
42. MATM SBF inv. № 498. Şuşa qalasının açarı, güləbətin qotazlı. XVIII əsr.
43. MATM SBF inv. № 469. Bayraq. İmperator I Aleksandrın Qarabağ xanı Mehdiqulu xana fəxri hədiyyəsi.1807.
44. MATM SMF inv. № 569/2. Üzeyir Hacıbəyovun Azərbaycanın 10 illiyinə həsr etdiyi "Himno" əsərinin not yazısının əlyazması.
45. Milli Azərbaycan Tarixi Muzeyinin inciləri. Bakı, 2010.
46. Vəliyev F., Abdulova G. Qarabağ geyimləri. Kataloq. Elmin İnkişafı Fondu. Bakı, 2016.
47. Абдуллаева С. Народный музыкальный инструментарий Азербайджана. Баку, 2000.
48. Пиралов А.С. Краткий очерк кустарных промыслов Кавказа. Тифлис, 1900.
49. https://www.facebook.com/azhistorymuseum/photos/a.481685738539489/5979162515458423.
50. https://science.gov.az/az/news/open/16317

Gulzade Abdulova
Activities of the National History Museum of Azerbaijan in the field of research and promotion of Karabakh heritage

Summary

Keywords: *Karabakh, carpet, chapken, arkhalyk, tar, exhibition*

Following the Karabakh war that we were forcibly involved in, attention has increased to the study and popularisation of the history and culture of Karabakh, which is the ancient cultural center of Azerbaijan. The article highlights the activities of the National Museum of History of Azerbaijan during the occupation period of Karabakh and the after 44-day war. Also, the research of materials concerning Karabakh preserved in the museum's and demonstration of those materials through exposition and exhibitions and their importance of conveying the truth about Karabakh to the world and educating young people in the spirit of patriotism have been studied. Also, the history of the famous Karabakh tar preserved in the Museum's collection was analyzed, and ideas on some mistakes were expressed. Thanks to a comparative analysis of the clothes in the museum's clothing collection, the development dynamics of women's clothing was tracked, and the older type of Karabakh arkhaligs was introduced into scientific circulation for the first time, the differences between arkhaligs with round and lily-shaped collars were proved. The research provides brief information about the rich samples of Karabakh carpets, embroidery and musical instruments in the museum's collection.

Гюльзаде Абдулова
Деятельность Национального музея истории Азербайджана в сфере исследования и пропаганды карабахского наследия

Резюме

Ключевые слова: *Карабах, ковер, чекмень, архалук, тар, выставка*

После Карабахской войны, в которую наша страна была насильственно вовлечена, возросло внимание к изучению и популяризации истории и культуры Карабаха, считающегося одним из древних очагов культуры Азербайджана. В статье освещается деятельность Национального музея истории Азербайджана в области исследования, хранящихся здесь материалов по истории и культуре Карабаха периода его оккупации, послевоенному периоду, а также

отображению этих материалов в экспозиции и выставках Музея. Особое внимание уделено вопросам доведения до мировой общественности правды о Карабахе, воспитанию молодежи в духе патриотизма. Также была проанализирована история знаменитого карабахского тара, хранящегося в коллекции музея, и высказаны соображения о некоторых ошибках по этому вопросу. Благодаря сравнительному анализу одежды в коллекции национальной одежды музея была прослежена динамика развития женской одежды, и впервые в научный оборот был введен более старый тип карабахских архалыгов, были доказаны различия между архалыгами с круглыми и лилейными воротниками. Исследование содержит краткую информацию об образцах карабахских ковров, вышивки и музыкальных инструментов из богатой коллекции Национального музея истории Азербайджана.

Али Раджабли*, Ирада М.Наджафова**, Айгюн Мамедова***

К вопросу о монетах Юлия Цезаря в Национальном музее истории Азербайджана

UOT 737

Ключевые слова: *Рим, Кавказская Албания, монеты, Юлий Цезарь, музей*

Введение

Римские монеты в коллекции Фонда нумизматики (далее – ФН) Национального музея истории Азербайджана (далее – НМИА) хронологически относятся к периоду как Римской республики, так и Римской империи, при заметном преобладании монет Империи. Ранее внимание авторов привлекли монеты Октавиана Августа [7.335] (далее – Август). В этой связи нельзя обойти вниманием и политического предшественника Августа (и его родственника) – знаменитого полководца и государственного деятеля Гая Юлия Цезаря (100-44 гг. до н.э.) (далее – Цезарь), монеты которого и стали предметом данного исследования.

Римские республиканские монеты в НМИА

Римские республиканские монеты в НМИА датируются концом III в.

*Заведующий научно-фондовым отделом нумизматики и эпиграфики Национального музея истории Азербайджана НАНА, доктор исторических наук, профессор

**Ведущий научный сотрудник Института археологии, этнографии и антропологии НАНА, доктор философии по истории, доцент; ira_najafova@hotmail.com

***Заведующий Фондом нумизматики Национального музея истории Азербайджана НАНА, доктор философии по истории; aygunmamedova@yahoo.com

до н.э. – 40-ми гг. I в. до н.э. и представлены они, в основном, серебряными денариями.

Даже небольшое количество римских монет указанного периода (числом более сотни), наряду с многочисленными монетами Селевкидов, Парфии и др. стран, уже опровергают тезис Страбона о том, что жители Албании «обычно не употребляли чеканной монеты и занимались меновой торговлей» [9.XI.4.4]. К тому же, согласно исследованиям археологов и нумизматов, уже давно известно, что денежное обращение в Албании возникло с III в. до н.э. [1.154-155], а местные серебряные монеты (подражания монетам Александра Македонского и др. правителей) в Албании начали чеканить с III-II вв. до н.э. [6.18; 8.28].

Интересно, что римские республиканские монеты в НМИА выступают источниками подтверждения наличия римско-албанских торговых отношений ещё задолго до восточных походов современников Цезаря – Лукулла и Помпея в 70-60-х гг. I в. до н.э., после которых постепенно активизировались экономические отношения между этими странами.

Интересен и тот факт, что Цезарь также планировал восточный поход в 40-х гг. до н.э., который не состоялся из-за его убийства. Согласно плану похода, двигаясь из Парфии вдоль Каспийского моря к Кавказу, Цезарь не мог бы не пройти и через территории Албании и Мидии-Атропатены [4.299-300].

Подводя же итог этому параграфу, отметим, что римские республиканские денарии, обнаруженные в Мингечауре, Габале и др. регионах Азербайджана, хоть и не доминировали на местном рынке, но были распространены [1.156,164], и таким образом могли быть вовлечены в торгово-денежный процесс.

Монеты Цезаря в НМИА

Монеты Юлия Цезаря в НМИА немногочисленны. К тому же, несколько монет, указанных в каталоге как монеты Цезаря, при изучении оказались монетами других персон. В частности, отмеченная в музейном каталоге монета ФН № 37027 как денарий Цезаря [4.300], при изучении оказалась денарием приемника Цезаря – Октавиана Августа [7.338]. Некоторые же монеты из-за плохой сохранности, не дали возможность уточнить их принадлежность именно к Цезарю.

В итоге, среди серии монет, исследованных авторами, к данному моменту можно констатировать принадлежность Цезарю лишь следующих трёх серебряных денариев. Здесь нужно отметить, что при изучении монет Цезаря в НМИА, были рассмотрены и похожие монеты в коллекции Британского музея (далее – БМ), представленной на официальном сайте музея [12].

Нижеследующие монеты Цезаря из НМИА будут представлены в последовательности их инвентарных номеров, с фотографиями, описанием и комментарием.

Монета ФН № 37025

	———	
Денарий Цезаря, серебро, ФН №37025, аверс		*Денарий Цезаря, серебро, ФН №37025, реверс*

ФН №	аверс	реверс	диаметр, вес, толщина	дата и место зготовления	аналог в БМ№
37025	голова Цезаря в венке, под крывалом, вправо; надпись справа: AES[AR], надпись слева: [DICT PER] PETVO	Венера, стоя влево, держит Викторию в правой руке и скипетр в левой руке, внизу щит, надпись справа: [P SEP] VLLIV[S] надпись слева: MACER	д-1,7 см в-3,3 г т-0,1 см	44 г. до н.э. Рим	R.9064

Монета ФН №37026

	———	
Денарий Цезаря, серебро, ФН №37026, аверс		*Денарий Цезаря, серебро, ФН №37026, реверс*

ФН №	аверс	реверс	диаметр, вес, толщина	дата и место изготовления	аналог в БМ№
	голова Венеры в диадеме, вправо	Эней, стоя влево, держит палладиум в правой руке, Анхиза на левом плече, надпись справа CAESAR	д-1,8 см в-2,4 г т-0,1 см	47-46 гг. до н.э. Африка	R.8923

Известно, что Цезарь получил от сената право ставить и изображение богини Венеры на свои монеты [10.117]. В данном случае, как видно (ФН № 37026), помещён условный «портрет» богини Венеры, а на предыдущей монете (ФН № 37025) её условное изображение во весь рост.

Таким образом, этот тип монет продолжает вышеуказанную тему «происхождения» рода Цезаря от богини Венеры. Тема продолжена и на реверсе монеты: согласно мифологии, Эней (сын богини Венеры) вынес на

плечах своего отца Анхиза из горящей Трои. От сына Энея (т.е. внука Венеры и Анхиза) Юла и «происходит» род Юлиев [3.278].

Помимо представления особого «божественного» происхождения рода Цезаря, монета должна была напомнить современникам о соблюдении семейных ценностей, в частности, почитание и заботу о старших.

Монета ФН №55442

		
Денарий Цезаря, серебро, ФН №55442, аверс		*Денарий Цезаря, серебро, ФН №55442, реверс*

ФН №	аверс	реверс	диаметр, вес, толщина	дата изготовления	аналог в БМ№
55442	слон, топчущий змею (либо дракона), надпись внизу: CAESAR	символы понтифика	д-1,8 см в-3,75 г т-0,1 см	50-49 гг. до н.э.	1985,0421.18

Интересно, что данная монета (ФН № 55442) была найдена в 1978 году проф. И.Бабаевым при раскопках рыночной площади в столице Албании городе Габала [4.299], наряду с монетой Публия Клодия 42 г. до н.э. [5.210]. Таким образом, устанавливается интересный факт об этих двух римских республиканских монетах как реальных средствах оплаты в Габале во 2-ой половине I в. до н.э.

Монеты с изображением слона (т.е. условного изображения внушительной политической фигуры Цезаря), топчущего змею (либо дракона) символически показывали масштабность личности и победу Цезаря над врагом и чеканились, в основном, для Галлии [4.300], которую Цезарь завоевал к 49 г. до .э. [3.307]. На реверсе же данной монеты помещены атрибуты должности понтифика – ковш, аспергиллум, топор, шапка. Таким образом и здесь заметно совместное указание на монете на политическую и религиозную деятельности Цезаря.

Заключение

На основании вышеизложенного, можно высказать мнение о том, что, наряду с римскими республиканскими монетами, и монеты Цезаря могли участвовать в денежном обращении Албании (принимая во внимание и их потертость, и обнаружение одной из них на рыночной площади Габалы). Причём малочисленность нахождения монет Цезаря заметна не только в Албании, но и в соседней Иберии [11.249].

Несмотря на столь малое число монет Цезаря в НМИА, они имеют важное значение для характеристики экономических контактов Албании и Рима I в. до н.э. Наряду с монетами других монетариев этого периода (монеты которых есть в коллекции НМИА), устанавливается историческая и экономическая последовательность обращения монет Рима в Албании, в частности, в период от Цезаря к Августу.

Источники и литература:

1. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. - III в. н.э. Баку, 1990.
2. Гай Светоний Транквилл. Жизнь двенадцати Цезарей / Перевод М.Л.Гаспарова. Москва, 1990.
3. Машкин Н.А. История древнего Рима. Москва, 1948.
4. Наджафова И.М., Бабаев И.А. К вопросу о восточной политике Юлия Цезаря // Lanterna nostra. К юбилею проф. И.Л.Маяк. Санкт-Петербург, 2014.

5. Наджафова И.М., Раджабли А.М. Римские монеты из Габалы // Milli Azərbaycan Tarixi Muzeyi – 2012. Bakı, 2012.
6. Раджабли А.М. Нумизматика Азербайджана. Баку,1997.
7. Раджабли А.М., Наджафова И.М., Мамедова А.М. О коллекции монет Октавиана Августа в Национальном музее истории Азербайджана // Milli Azərbaycan Tarixi Muzeyi – 2020. Bakı, 2020.
8. Сейфеддини М.А., Бабаев И.А., Расулова М.М., Алиев З.М., Дадашова С.Х. Нумизматика Азербайджана. Том I. Баку, 1998.
9. Страбон. География в 17 книгах / Перевод Г.А.Стратановского. Москва, 1994.
10. Savio A. Monete Romane. Roma, 2001.
11. Sherozia M. Monetary circulation in Iberia in the 1st century B.C.- 1st century A.D. // Iberia and Rom. The excavations of the palace at Dedoplis Gora and the Roman influence in the Caucasian Kingdom of Iberia / Edited by A.Furtwängler, I.Gagoshidze, H.Löhr, N.Ludwig. Langenweißbach. 2008.
12. www.britishmuseum.org

Əli Rəcəbli, İradə M.Nəcəfova, Aygün Məmmədova
Milli Azərbaycan Tarixi Muzeyində
Yuli Sezarın sikkələri məsələsinə dair

Xülasə

Açar sözlər: *Roma, Qafqaz Albaniyası, sikkələr, Yuli Sezar, muzey*

Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında Yuli Sezara aid sikkələr çox deyil. Müəlliflər tərəfindən araşdırılan bir neçə sikkədən yalnız 3 ədəd gümüş denarinin məhz Yuli Sezarın adı ilə kəsildiyi məlum olmuşdur.

Muzeydə Sezarın adı ilə bağlı bu sikkələrin az sayda olmasına baxmayaraq, onlar Albaniya və Roma arasında e.ə. I əsrdə olan iqtisadi əlaqələrin xarakteristikası üçün mühüm əhəmiyyət kəsb edir. Muzeyin kolleksiyasında Roma Respublikasının e.ə. I əsri əhatə edən digər sikkələri ilə yanaşı, Sezara aid sikkələr də ola bilsin ki, Albaniyanın pul dövriyyəsində iştirak etmişdir (sikkələrin çox sürtülməsi və onlardan birinin Albaniyanın paytaxtı Qəbələ şəhərinin bazar meydanında aşkar olunması (№55442) bu fikri söyləmək üçün əsas verir).

Ali Rajabli, İrada M.Najafova, Aygun Mammadova

On the question of the coins of Julius Caesar in the National Museum of History of Azerbaijan

Summary

Key words: *Rome, Caucasian Albania, coins, Julius Caesar, Museum*

The coins in the collection of the National Museum of History of Azerbaijan pertaining to Julius Caesar are not numerous. Only 3 silver denarii out of several coins studied by the authors were identified to be minted especially with the name of Julius Caesar.

Despite such a small number of the coins of Julius Caesar in the National Museum of History of Azerbaijan, they are important for characterizing the economic contacts between Albania and Rome in the 1st century BC. Along with the other coins of the Roman Republic in the collection of the Museum covering the 1st century BC, coins of Caesar were also likely to be involved in the monetary circulation of Albania (this assumption is backed by scuffing of coins and discovery of one of them on the market square (No.55442) of the Gabala city – the capital of Albania).

Sevinc Nəsirova*

Toxuculuq məmulatları üzərində quş motivi

UOT 39

Açar sözlər: *toxuculuq, xalça, parça, quş motivi, mifologiya*

Azərbaycan xalqı özünün çoxəsrlik tarixi boyunca zəngin sənət irsi yaratmış və onun da böyük bir hissəsi nəsildən-nəsilə keçərək zəmanəmizədək gəlib çatmışdır. Xalqın maddi və mənəvi mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan toxuculuq məmulatları milli dəyərimiz, milli sərvətimiz olaraq tarixən formalaşmış peşələr içində daima xüsusi yer tutmuşdur. Azərbaycan xalqının rəngarəng və dolğun mədəniyyətinin öyrənilməsi baxımından toxuculuq sənəti qədər bu sənət nümunələri üzərində rast gəlinən naxış və təsvirlərin araşdırılması da mühüm əhəmiyyət kəsb edir.

Toxuculuq nümunələri üzərində çox rast gəlinən təsvirlərdən biri quş təsvirləridir. Hazırda tətbiqi-dekorativ sənət nümunələrində bəzək elementi kimi təsvir olunan quşlar keçmişdə simvolik məna kəsb etmişdir. Araşdırmalar göstərir ki, qədimdə bir sıra quş obrazları qədim dini ayin və mifik təsəvvürlərlə, orta yüzilliklərdə isə daha çox xalq nağılları, rəvayətləri, təmsilləri, bir sözlə, folklorla bağlı olmuşlar (2, s. 28). Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar zamanı quş təsvirli keramika nümunələri aşkar edilmişdir. Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda Beyləqan, Bəndovan, Qədim Gəncə, Qəbələ şəhərlərindən aşkar olunmuş quş təsvirli şirli qablar qorunur (4, s. 217). İçəri Şəhərdə aparılmış arxeoloji qazıntılardan aşkar olunan dulus məmulatının xeyli hissəsi, əsasən boşqab

*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin elmi katibi, tarix üzrə fəlsəfə doktoru; s.nasirova30@mail.ru

və kasalar həndəsi və nəbati ornamentlərlə, habelə heyvan, quş, balıq, çox nadir hallarda isə insan təsvirləri olan rəsmlərlə naxışlanmışdır (12, s. 125).

Muzeyin etnoqrafik kolleksiyasını araşdırarkən xüsusilə ipək parçalar, qələmkarlar, xalça və xalça məmulatı üzərində bu təsvirlərdən daha çox istifadə olunduğunu görmək mümkündür. Qələmkarlar üzərində daha çox iri simurq quşları təsvir olunmuşdur. Muzeyin Etnoqrafiya fondunda mühafizə olunan qələmkarlar (EF, inv.1682, 7134, 7576, 7689, 7691, 7766, 7800, 7801, 8105, 8467, 8511) üzərində təsvir olunmuş simurq quşları buna bariz misaldır. Simurq qədim Azərbaycan mifologiyasında insanı axirət dünyasından işıqlı dünyaya çıxaran xeyirxah bir quş kimi təsvir olunur (1, s.89). Simurqla əlaqədar türk xalqlarının müxtəlif rəvayətləri mövcuddur. Qeyd edək ki, Türkiyə türkcəsində simurq "anka quşu" adlanır. Boynu halqa halında bəyaz tüklərlə örtüldüyü üçün ona anka deyilir [anka-gərdanlıq mənasındadır] (16, s. 158). Qələmkarlar üzərində təsvir olunmuş simurqlar olduqca rəngarəngdir. Misir əfsanələrində yer alan bu quşun üzərində otuz növ quşun rəngi olduğu üçün iranlılar buna "sirenk", yəni "simurq" demişlər (14, s. 158). Türkiyəli alim Y.Çoruhlu Hüma yaxud yakutlarda Umay, bəzən isə İmu adlanan tale quşunun anka, yaxud zümrüdü anka ilə əlaqəsi olduğunu yazır (11, s. 132). Bütün türk xaqlarının rəvayətlərində Umay quş obrazında təsvir edilir. Bir rəvayətdə isə bütün dünyanın Umay adlı qu quşunun yumurtasından çıxması yazılır (7, s. 163). Yakutlarda uşaqsız qadınlar yaxalarına Umay ilahəsinin simvolu kimi tozağacı qabığından düzəldilmiş quş şəklində kiçik muncuq taxırdılar (7, s. 163). Azərbaycan etnoqrafı Q.Qeybullayev də Azərbaycanın müxtəlif bölgələrində tapılmış erkən orta əsrlərə aid quş təsvirləri haqqında məlumat verir (6, s. 65). Hətta türk xalqları arasında qu quşunu öldürmək böyük günah sayılmışdır. Bunun ən böyük cəzası isə körpə ölümü olmuşdur (16 s.16). Daha sonrakı əsrlərdə xalq yaradıcılığında, klassik ədəbiyyatda vaxtilə müəyyən qəbilənin, qəbilə birləşməsinin onqonu olan Umay dövlət, xoşbəxtlik bəxş edən müqəddəs quş kimi vəsf olunmuşdur (9, s. 247). Bu inancın qalıqlarına sonralar el arasında işlənən "başına dövlət quşu qondu" ifadəsində rast gələ bilərik.



Şəkil 1. Xalça. Qazax. MATM EF inv. 7186

Quş təsvirlərini xalça

və xalça məmulatları üzərində tez-tez görmək olar. Etnoqrafiya fondunda bütün xalça məktəblərinə aid nümunələr üzərində quş təsvirlərinə rast gəlinir. Qazax xalça məktəbinə aid olan xalçalardan birinin mərkəzi bütünlüklə müxtəlif quşlarla bəzədilmişdir. Burada əfsanəvi ikibaşlı quşlar, iri və xırda quşlar təsvir olunmuşdur (EF, inv.7186). Ümumiyyətlə, qeyd edək ki, üzərindəki təsvirlərə görə sözügedən xalça bəzən "Ağaclı" da adlanır. Xalçanın mərkəzində Qazax və Qarabağ xalçaları üçün səciyyəvi olan romb fiquru toxunmuşdur. Simmetrik şəkildə ox başlı fiqurun içərisində ağac təsvirləri, xalçanın sağ və sol üst künclərində isə əfsanəvi ikibaşlı quş təsvirləri var. Eyni zamanda xalçanın kompozisiyası bir-birinə əks istiqamətdə dayanmış iki at təsviri ilə tamamlanır. Mərkəzdə isə qarmaq naxışı ilə haşiyələnmiş səkkizgüşəli həndəsi fiqurun içərisində türk xalqlarının nəzərdən qorunma inancı ilə bağlı olan stilizə olunmuş "iç-çi" naxışı toxunmuşdur. İlk baxışdan ağaca bənzəsə də, əslində şaman fiquru-nun bir əlində ruhunu göyə daşımaq üçün quş, digər əlində stilizə olunmuş çərxifələk elementi tutduğu aydın görünür (8, s. 172). Hətta şaman davulları üzərində bu gün də quş təsvirləri öz var-lığını qoruyub saxlamışdır. O.Çernyavskaya İrkutsk Etnoqrafiya Muzeyində çox sayda şaman libasının şəklini vermişdir (17, s. 70). Hətta bu libaslara qanadlar belə toxunmuşdur. Əlbəttə, göy-lərlə yer arasında vasitəçi olan şaman üçün quş olduqca önəmli bir simvol idi. Xalça türk mifoloji dünyagörüşünü özündə əks etdirən ən bariz süjetlərdən birinə malikdir. Xalça "doqqazlı" toxunmuşdur. Aşağı və yuxarı hissələrdən bir növ cənnət bağına açılan darvaza süjeti öz əksini tapmışdır. Xalçaçı alim L.Kərimov müxtəlif xalça və xalça məmulatları üzərində 53 növ quş təsviri qeydə almışdır (5, tablolar). O, xalça, vərni və zililərimiz üzərində təsvir olunmuş aşağıdakı quş adlarını müəyyən etmişdir: tovuz, ördək, qaz, toyuq, qırqovul, çalağan, cücə, kəklik, sarı bülbül, bülbül, qəjələ, tutuquşu, həştərxan toyuğu. Həmçinin, alim, xalçalarda qoşa quşların adını da çəkmişdir. Burada bir-birinə simmetrik toxunmuş ikibaşlı quşlar nəzərdə tutulur. Eyni zamanda alim butaların da quş təsviri-tovuz quşu təsviri olduğunu yazır. Şübhəsiz ki, tovuz quşu rəsmləri türk xalqları üçün xarakterikdir. Belə ki, hələ XII əsrdə böyük Azərbaycan şairi N.Gəncəvi "İsgəndərnamə" poemasında Nüşabənin Bərdədəki sarayını təsvir edərkən bir neçə dəfə ipək parçalar üzərinə salınmış tovuz quşu rəsmlərindən və onların sırf türk xalqlarına xas olduğundan bəhs etmişdir (3, s. 30). Xalça üzərində türk xalqları üçün xarakterik olan ikibaşlı qartal toxunmuşdur. İkibaşlı qartal, yaxud toğrul alıcı quş kimi türk xalqları arasında sıx istifadə olunan element olmuşdur.



Şəkil 2. Xalça. Qazax.
MATM EF 7186

Tarixi Azərbaycan torpaqlarında yaşayan kaspilər və maqların mifik təsəvvürlərində alıcı quşlar mühüm yer tuturdular (6, s. 134). Strabon yazırdı ki, maqlar və kaspilər cənazələri uzaq çöldə torpağın üzərinə qoyub kənardan müşahidə edərdilər: əgər yırtıcı quşlar onun üzərinə qonarlarsa, deməli, ölənin ruhu o dünyada rahatlıq tapacaqdır (7, s. 134). Maqların atəşpərəstlik dininə sitayiş etdiyini və bu dinin özlüyündə şamanizmin izlərini daşıdığını nəzərə alsaq, xalça üzərindəki şamanın əlindəki ikibaşlı quşdan onun ruhunu göyə daşıması üçün istifadə etdiyi nəticəsinə gələrik. İkibaşlı quşlar xalçalara məhz mifoloji dünyagörüşünün təcəssümü kimi toxunmuşdur. Belə ki, Sibir və Altayda çadırların yaxınlığında bir sırıq olardı və bu sırığın üzərində ağacdan yonulmuş bir quş yapışdırılardı. Bu quş, adətən, ikibaşlı qartal şəklində olardı (13, s. 179). Türk xalqlarında ikibaşlı təsvir edilən və simvolik məna ifadə edən quş məhz qartal olmuşdur. Dolqanlara görə "qartal göyün qapılarını qanadları ilə tuturdu", yakut türklərində isə qartal "Tanrının qüvvəti və ərki "nin simvolu idi (13, s. 179). Qartal Aşşur dövlətində də geniş istifadə olunmuş bir simvol olmuşdur. Hətta o, Aşşur silindrlərində Allah qismində çıxış edir. Qartal başlı Allah ən çox Aşşurnazirpalın barelyefi üzərində və həyat ağacı olan silindrlərdə təsvir olunur (18, s. 384).

Tovuzquşu təsvirli xalıların ən qədimi XV yüzilliyə aid edilən və hazırda Stokholm Tarix Muzeyində saxlanılan Qazax xalçasıdır (3, s. 127). Bu xalça üzərindəki təsvir Azərbaycanın bir çox xalçaları üzərində təkrarlanır. Şirvanın "Çuxanlı" xalçası üzərində, mərkəzdə aşağı və yuxarı hissələrdə tovuz quşu təsvirləri vardır ki, bunlar üz-üzə təsvir edilmişdir (EF, inv.3779). XVIII əsrə aid digər bir xalça üzərində tovuz quşları və onların üstündə kiçik ölçülü quşlar təsvir olunmuşdur (EF, inv.3724). Bu xalçanın özünəməxsusluğu haşiyələrdə ikibaşlı, başları taclı quşların toxunmasıdır. Quba-Şirvan qrupuna aid, əlvan rəngləri ilə seçilən xalça üzərində ana göllərdən birinin içərisində səkkiz üz-üzə dayanmış tovuz quşu toxunmuşdur (EF, inv.7229). Xalçanın özünəməxsusluğu onun üzərindəki səkkiz ədəd üz-üzə təsvir olunmuş tovuz quşlarının haşiyələrlə ana zəmini sərhədləndirməsidir. Bu quşların üz-üzə təsvir olunmasının simvolik bir mənası var. Üz-üzə durmuş quş təsvirləri sevgililəri rəmzləndirir.



Şəkil.3. Xalça. Şirvan. MATM EF 7215

Quş təsvirlərinin xalq arasında geniş yayılması "Quşlu" adı altında xalçaların toxunmasına təkan vermişdir. Qarabağ xalçaçılıq məktəbinə aid olan "Quşlu" xalçası üzərində iki sırada üz-üzə düzülmüş quşlar və onların üzərində müxtəlif at, maral

və it kimi heyvan təsvirləri verilmişdir (EF, inv. 9465). Quşların təsvir edilməsi baxımından Şirvan xalçalarından biri daha maraqlıdır. Xalça özlüyündə unikal təsvirlərlə zəngindir (EF, inv.5169). Belə ki, burada quşlar digər xalçalarda olduğu kimi üz-üzə, yaxud tək təsvir olunmayıb. Xalçada həyat ağacı üzərində üç quş sıra ilə arxası bir-birinə olmaqla toxunmuşdur. Ağac və ya budaqlar üzərində təsvir olunmuş quş təsvirlərinə Muzeyin Etnoqrafiya fondunda mühafizə olunan XVI və XVIII əsrlərə aid parçalar üzərində də rast gəlinir (EF, inv.3235, 3529). Bu nadir ipək parçalar üzərində tutuquşu təsvirləri var. Azərbaycanda tutuquşunun simvolik mənaları çox araşdırılmasa da, Türkiyə elmi ədəbiyyatında bu quşla bağlı müxtəlif fikirlər mövcuddur. Bəzi müəlliflər tutuquşunun bir-birinə könül bağlamış iki nəfəri simvolizə etdiyini (10, s.36), bəziləri isə bu motivin erkəkliyi, igidliyi və döyüşkənliyi simvolizə etdiyini yazır (15, s.359).

Muzeydə quşların təsvir olunduğu XIX əsrə aid Şirvan xalçası daha maraqlıdır (EF, inv.7215). Burada ana göllərdən dördünün haşiyəsi boyunca iyirmi quş təsvir olunmuşdur. Ümu-miyyətlə, xalça üzərində çoxlu sayda quş təsvirləri var. Onlar içərisində üz-üzə dayanan quşlar da var. Buradakı quşlar üçayaqlı təsvir olunmuşdur. Qeyd edək ki, quşların belə üçayaqlı və yeddi-ayaqlı təsvir olunması xalçalarımız üçün xarakterik detallardan biridir.

Bəzi xalçalar üzərində isə quşlar sırf təsərrüfat həyatı ilə bağlı və adətən doldurucu element kimi toxunmuşdur. Belə xalçalardan biri üzərində dən yeyən toyuqlar da daxil olmaqla, tovuz quşları-nadək müxtəlif quşlar təsvir olunmuşdur (EF, inv. 3501). Mərkəz zəmilərdə dən yeyən toyuqlar toxunmuşdur. Mərkəzi hissənin kənarlarında isə daha çox Qarabağ və Qazax xalçalarında istifadə olunmuş quş təsvirləri yer almışdır. Xalça üzərində həm də ördək təsvirləri var. Urmiyada toxun-muş məşhur "Açma-yumma" xalçası üzərində dən yeyən toyuq əsas təsvir elementlərindəndir (EF, inv. 9390).

Maraqlı quş təsvirlərindən biri də Xızıda toxunmuş zili üzərindədir (EF, inv.4016). Bu zili üzərində quş təsvirləri müxtəlif cür verilmişdir. Belə ki, zili ayrı-



Şəkil 4. Zili. Xızı. MATM EF 4016

ayrı xanalara bölünmüşdür. Hər xananın içərisində isə əfsanəvi iri, dördayaqlı, ikibaşlı heyvanlar və onların üzərində, digər xalça və xalça məmulatlarında olduğu kimi, daha kiçik quşlar təsvir edilmişdir. Bu, bir növ, Azərbaycan xalçaçılığı üçün quşların xarakterik təsviridir. Mərkəzin alt və üst xanalarında quşların iri quyruğu və başında tacı ilə təsvir olunmasına əsasən quşların tovuz quşu olduğunu demək olar. Hər xanada daha kiçik, lakin, yenə taclı quşlar təsvir olunmuşdur. Ən maraqlı təsvir isə xanaların tam mərkəzində verilmişdir. Burada iki qulplu vazanın içindən həyat ağacı bitmiş, lakin ağaclar üzü yuxarı istiqamətdə olduğu kimi, həm də üzü əks istiqamətdə, yəni aşağıya doğru təsvir edilmişdir. Bu vazanın sağ və solunda isə yenə taclı, kiçik ölçülü quşların təsviri verilmişdir. Xanalardan birində isə quşların başında taca bənzər, bərəkət rəmzi olan üç üstəgəl təsviri var. Zilinin üzərindəki bu mistik təsvirlər onun mifoloji dünyagörüşü və inanclarla bağlı toxunduğunu deməyə əsas verir (EF, inv.4016).

Xovsuz xalça məmulatlarından məfrəşlər üzərində quş təsvirlərinə demək olar ki, az rast gəlinsə də, at və dəvə çulları üzərində müxtəlif quş təsvirləri olduqca çox saydadır. At və dəvə çulları üzərində tovuz quşu, kəklik, ikibaşlı əfsanəvi quşların təsvirlərini görmək mümkündür (EF, inv. 2135, 2755, 3441, 5604, 6659, 6736, 6799, 6831, 7065, 7510, 8140). Xalça məmulatlarından bəzən heybələrin də üzərində məhəbbət təcəssümü olan üz-üzə toxunmuş quş təsvirlərinə rast gəlinir. Muzeydə mühafizə edilən qırmızı mahud parçadan hazırlanmış heybə üzərinə tikmələrlə quş təsvirləri salınmışdır (EF, inv. 2375).

Milli Azərbaycan Tarixi Muzeyinin toxuculuq məmulatları araşdırılan zaman onlar üzərində quşların əsasən mifoloji dünyagörüşünü təcəssüm etdirən simvolik mənada təsvir olunması qənaətinə gəlmək olar. Lakin bəzən doldurucu element kimi və təsərrüfat həyatı ilə bağlı cücə, toyuq kimi ev quşlarının da təsvirlərinə rast gəlinir. Üz-üzə, qoşa təsvir olunmuş quşlar məhəbbəti, səadəti simvolizə etdiyi halda, bəziləri sırf təsərrüfat həyatı ilə bağlı toxunmuşdur. Quş təsvirləri bir çox dünya xalqları tərəfindən istifadə olunsa da, bu təsvirləri ən çox türk xalqlarına məxsus dekorativ-tətbiqi sənət nümunələri üzərində görmək olar. Göy tanrı inancına əsasən, yuxarıda da qeyd etdiyimiz kimi, ilahələr belə quş cismində təsvir olunmuşdur (Humay ilahəsi). Quş təsvirləri nəinki şaman davullarının, hətta libaslarının da bir hissəsi olmuşdur. Toxuculuq məmulatları üzərində isə quşlar müxtəlif məna ilə toxunmuşdur. Bəziləri sevgi, məhəbbət, bəziləri Tanrının qüdrətinin simvolu kimi mənalar ifadə etmişdir. Sonralar isə mifoloji dünyağörüşünün təsiri ilə stilizə olunaraq bir neçə ayaqlı yaxud bir neçə başlı şəkildə təsvir olunmuşlar.

Mənbələr və ədəbiyyat:

1. Avşarova N.İ. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı [e.ə.XIV-VII əsrlər]. Bakı, 2007.

2. Əfəndi R. Azərbaycanın maddi mədəniyyət nümunələri dünya muzeylərində. Bakı, 1980.
3. Əfəndi R. Azərbaycan dekorativ-tətbiqi sənətləri (orta əsrlər). Bakı, 1976.
4. İsmayılova A. Səlcuq dövrü quş təsvirli şirli qabların bədii işlənmə texnikası. / IV Uluslararsı Türk el dokumları ve gelenekli sanatları kongresi. Sanat etkinlikleri. Bakı, 2012.
5. Kərimov L. Azərbaycan xəlçəsi. Leninqrad, 1961.
6. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nikah II hissə. Bakı, 1994.
7. Qurbanov A. Damğalar, rəmzlər, mənimsəmələr. Bakı, 2013.
8. Nəsirova S. Azərbaycan xalçalarında türk mifologiyasının izləri. // Xəbərlər. Tarix, fəlsəfə, hüquq seriyası. N 1, 2014.
9. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 1983.
10. Buğrul H. Hakkaride evlilikle bağlantılı geleneklerin el sanatlarına yansımaları. Haziran-sayı 16.
11. Çoruhlu Y. Türk mitolojisinin ana hatları. İstanbul, 2000.
12. İbrahimov K. Bakü'den tespit edilmiş çömlekçi mamulü üzerindeki imgeler ve onların dokuma sanatı ile ilişkisi. II Uluslararası türk sanatları, tarihi ve folkloru kongresi/ sanat etkinlikleri. Bosna, 2015.
13. Kalafat Y. Kodlar-kültler 1. Ankara, 2009.
14. Uraz M. Türk mitolojisi. İstanbul,1994.
15. Ünsal M. Duyğuların sərgiləndiyi kilim dokumada Van örneği. Sosyal Bilimler Enstitüsü Dergisi. Sayı 38.
16. Бисенбаев А.К. Мифы древних тюрков. Алматы, 2008.
17. Чернявская О.А. Шаманский костюм. Иркутск, 2004.
18. Ward H.W. The seal cylinders of western Asia. Washington, 1910.

Sevinj Nasirova
The bird motif on weaving materials

Summary

Key words: *weaving, carpet, fabric, bird motif, mythology*

The article examines images of birds on weaving, their reflection in the worldview and mythological thinking of the people. The research was carried out on the basis of weaving products stored in the ethnography fund of the National Museum of the History of Azerbaijan. The research involved fabrics of the 16th and 18th centuries, carpets and rugs. The bird images found on many of these items were examined in parallel with the overall storyline. At the same time, parallels

were drawn with images on ancient Assyrian cylinders. The article concludes that the image of birds, previously associated with religious beliefs and mythological worldview, later turned into a stylized decoration and an element of filling the space on the embroidery. Many peoples of the world had various beliefs associated with birds. Among the Turkic peoples, these images symbolized the goddess Umay in rituals associated with childbirth, and with the spread of Islam love and paradise.

Севиндж Насирова
Изображение птиц на ткацких изделиях

Резюме

Ключевые слова: *ткачество, ковер, ткань, орнитологический мотив, мифология*

В статье исследуются изображения птиц на ткацких изделиях, их отражение в мировозрении и мифологическом мышлении народа. Исследование проводилось на основе ткацких изделий, хранящихся в Фонде этнографии Национального музея истории Азербайджана. К исследованию были привлечены ткани XVI и XVIII вв, ковры и ковровые изделия. Изображения птиц, имеющиеся на многих из этих изделий, были исследованы параллельно с сюжетом в целом. Одновременно проводились параллели с изображениями на древних ассирийских цилиндрах. В статье сделан вывод, что изображение птиц, ранее связанное с религиозными верованиями и мифологическим мировоззрением, впоследствии превратилось в стилизованное украшение и элемент заполнения пространства на вышивке. У многих народов мира имелись различные поверья, связанные с птицами. У тюркских народов эти изображения символизировали богиню Умай в обрядах, связанных с деторождением, а с распространением ислама – любовь и рай.

Афет Рустамбекова*

К атрибутации золотой диадемы из Хыныслы

UOT 39
UOT 902

Ключевые слова: *гунны, Хыныслы, диадема, полихромный стиль, гранаты, филигрань, золото*

Введение. В эпоху раннего средневековья на огромных евразийских просторах господства гуннов в связи с общеисторическими изменениями произошла смена культурных традиций и универсализация материальной культуры. Культурная интеграция привела к трансформации и качественно новому состоянию во многих сферах жизни народов, живущих на разных социально-экономических уровнях. И сложившимся цивилизациям Востока и Европы было, что воспринять у кочевников. Так, согласно Прокопию Кесарийскому, во времена Юстиниана византийцы перенимали от гуннов моду на ношение накидок, штанов и обуви. Византийский двор и сановники пытались подражать гуннским вождям, на фоне которых их одеяния меркли (15, с.13; 19, с.82; 17, с. 327).

Характерной чертой ювелирного дела периода Великой Миграции было сочетание красных камней, напоминающих кровь, с блеском золота. Яркие, и в декоре стилистически близкие украшения полихромного стиля – художественного направления, объединенного общим характером декора, сочетающим металл со вставками из камней, были по вкусу не только кочевой,

*Заведующий Реставрационной лабораторией Национального музея истории Азербайджана НАНА, доктор философии по истории, доцент; afet-rustam@mail.ru

но и местной аристократии. Основной схемой изготовления украшений, как и в предшествующий период, являлась ковка литой заготовки с высокими степенями обжатия, резка отдельных деталей, тиснение и пайка, филигрань и сборка украшений из множества деталей. По способу крепления на украшение камней – чаще гранат, агат и др., так же существовали такие способы, как изготовление посадочного места способом вырезания сквозного отверстия, или крепления камней в глухие и ободковые оправы.

Данный художественно-технический стиль хоть и являлся своеобразным сплавом ахеменидских, скифских, греко-сарматских и сасанидских ювелирных традиций и мотивов, но стал маркером гуннской культуры, так как именно в данную эпоху он получил дальнейшее распространение и развитие вплоть до Центральной и Юго-Восточной Европы.

Многочисленные письменные источники присутствия гуннов на территории Азербайджана подтверждаются представительным вещественным археологическим комплексом, включающим украшения, предметы вооружения и быта. Национальный музей истории Азербайджана НАНА обладает бесценным собранием из археологических золотых предметов полихромного стиля, представленных 20-ю образцами из 17-ти погребальных комплексов Азербайджана - Гаха, Мингечевира, Шамахы, Исмайыллы (5, с. 6; 18, с.147-149). Разнообразные комбинации технических и художественных приёмов создают на изделиях тот или иной полихромный стиль. В одних случаях гладкая поверхность изделия декорирована вставками из круглых и овальных камней-кабошонов в напаянных гнездах (Особый фонд, инв. № 41- I в до н.э.; ОФ, инв. № 39 - I-III вв.; ОФ, инв. №89 - III-I вв.). В других изделиях вставки сочетаются с россыпью на поверхности из мельчайшей зерни, или зернь образует треугольные формы (ОФ, инв. № 166 - III-I вв. до н.э.; ОФ, инв. № 25, 327, 362 - III-IV вв.). В следующих, гнезда вставок окаймлены поясками зерни (ОФ, инв. № 24, 40 - I-III вв.). И последний вариант, как на объекте нашего исследования, когда композиция из рядов каменных вставок усложняется орнаментальной проволокой (ОФ, инв. № 118 – IV-V вв.).

Следовательно, изделия, выполненные в технике инкрустации из цветных камней в сочетании с зернью, встречаются на территории Азербайджана за несколько сотен лет до Великой Миграции народов. И по одной из существующих версий, данный художественно-технический ювелирный стиль возник на Ближнем Востоке, в Иране в первые века н.э. (20, с.13; 19, с.84).

Хыныслинская диадема и ее символизм. Исследуемый статусный артефакт – диадема (фото1), обнаружена 6 октября 1967 г. археологом Джаббаром Халиловым в захоронении знати в селении Хыныслы, когда-то крупного города с тысячелетней историей, находящегося в 1-1,5 км от древнего города Шамаха (Камахея Клавдия Птолемея) - культурно-экономического

центра Кавказской Албании (1, с.31-37;2, с. 36-38; 3, с.78-88; 21, 98-109; 22, с.250; 23, с.97-98).

Могильник №70 представлял собой каменный ящик, каменное перекрытие которого находилось на глубине 0,7 м. Толщина вертикально поставленных каменных блоков составляла 0,7 м, высота южной стенки 0, 75 м, а северной 0,4 м. Ширина камеры 0,8 м, а длина 2,1 м. Каменное перекрытие могильника отсутствовало. На дне могильного ящика был обнаружен скелет в вытянутом положении, расположенный на правом боку, ориентированный на юго-восток. Перед погребенным располагались три кувшина - один чернолощёный, два красноглиняных. Здесь же были обнаружены золотая диадема и одна пара золотых серег (ОФ, инв. № 119). В юго-западном углу могильной камеры обнаружены перемешанный скелет, пара бронзовых браслетов, пара колец печаток, один из которых серебренный, и три бронзовые подвески (2, с. 36-38).

Диадема (ОФ, инв. №118) общей длиной 34,2 см состоит из трех прямоугольных пластин - 12х6,5х12 см, и скорее всего, служила налобным украшением. Мелкие отверстия, расположенные по краям пластины, служили для пришивания ее к мягкой основе высокого головного убора (рис. 1).

Края тонкого листового золота загнуты внутрь и плотно прилегают к оборотной стороне, на бронзовую основу. Шарниры, когда-то соединяющие пластины, были утрачены. Листовое золото декорировано гранатовыми вставками 54х66х72 в четыре параллельных ряда. Гнезда-ячейки изготовлены из узкой полоски с заходящими друг за друга концами, напаянной ребром на поверхность золотой пластины. Центральный фриз, вырезанный вместе с основанием из одной пластины, также декорирован гранатовыми и по вертикали двумя зелеными (изумруд?) вставками (5, с. 17).

Композиционное решение усложняется комбинацией двух разновидностей ленточной плетенки, окаймляющей диадему (фото 2). Двурядная штампованная плетенка, состоящая из положенных параллельно витых «верёвочек» и центральной гладкой проволочки, орнамент в виде «ёлочки» (рис.2) обрамляют края пластин диадемы. А центральный фриз обрамлен рубчатым пояском, имитирующим «жемчужный» орнамент (фото 3, рис.3).

Центр венечного фриза, судя по клювовидной форме боковых «отростков», напоминает двуглавую хищную птицу. Данный декоративный элемент хыныслинской диадемы имеет параллели только в восточной части степи - в погребении постгуннского времени (вторая треть V - вторая треть VI вв.) в Шипово (Южный Урал) (11, с.36-37; 10, с.17-18) и в Керчи на горе Митридат (Украина) (13, с. 258; 12, с.152-157). Но в отличие от хыныслинской, на которой зеленые камни поставлены по центру фриза и вертикально, на схожих

двух диадемах на боковых «отростках» венца с клювовидным окончанием, птичьи глаза выделены симметрично расположенными круглыми зелеными вставками. Фриз на хыныслинской диадеме, как и на шиповской, не смыкается с верхним краем диадемы, что еще более подчеркивает их смысл как изображение птичьих голов.

Но фриз диадемы с округлой верхушкой-кроной и боковыми ветвями одновременно воспроизводит и сюжет «Мирового древа». Так, существующий у древних шумеров миф о Мировом древе и его охранителях (24, с.121), нашел отражение и в хыныслинской диадеме. И по нашему представлению, фриз диадемы, в которой слились воедино образ мирового древа и его крылатых охранителей, несет информацию о наличии священного символа связи и соприкосновения верхнего (птичий) и нижнего (дерево) миров. Орел, образ двуглавой птицы, известный в цивилизациях Шумерского, Ассирийского, Мидийского и Хеттского царств, символизировал божественную силу и могущество. В скифской мифологии птица обычно небесный предок, а в китайской мифологии - один из четырех охранных животных (30). У египтян птицы символизировали душу, бессмертие и т.д. Следует отметить, что птичья тематика является одним из наиболее излюбленных изображений на археологических украшениях Азербайджана с эпохи средней бронзы и вплоть до недавнего этнографического прошлого. Большое количество археологических находок, обнаруженных в Азербайджане, имеет мотив в виде птиц на шпильках для волос, фибулах, парных птиц на деталях серег и нагрудных украшениях.

Древнейший пласт духовной культуры сохранился в различных поверьях в Азербайджане и по сей день. Отголосками таких верований является почитание повсеместно деревьев - каркаса, чинара, дуба, тутового, инжирового, орехового, вязи, мастикового дерева и др. Представление о родстве между людьми и тотемами-деревьями, нашло отражение в тотемических мифах и эпосе "Книга Деде Коркута» (6, с.411). Сакрализация птиц, нашедшая свое отражение и в «Авесте», в мифологии азербайджанцев, как и у многих восточных народов встречается в образе птицы Хумай (4, с.218; 16, с. 12-16, 79). Как и многие народы, тюрки почитали птиц как символ силы и мощи, олицетворяющей солнце (7, с. 50; 8, 176).

И данный декоративный элемент, «венчающий» гуннские диадемы, встречается и на диадемах хуннского и сармато-аланского периода, которые являлись предшественниками гуннов (25, с. 110; 29, с.116). Существует и версия, что «Мировое древо» имеет шаманское значение (30). Иными словами, данная диадема, несет мироощущение и идеологию многих цивилизаций.

Диадем гуннской эпохи всего было обнаружено более двух десятков

(9, с.56), которые были типологизированы И. Ковригом, и за основу приняты И.П. Засецкой. Но хыныслинская диадема не была включена в классификацию гуннских диадем. И исходя из того, что трехчастная диадема без гранулирования и покрытая камнями треугольной, ромбической и округлых форм, которые близко посажены в несколько прямых рядов в изолированных гнездах, то данную диадему можно отнести к группе 2б типологизации Коврига. В число диадем этой подгруппы входят находки в Бухэни (Buhăieni), Енджиховице (Höchricht - Jędrzychowice), Будапеште (26, с.143, 171), Дульчанке (Dulceanca)- Румыния (28, с. 42), Геразени (Gherăseni), в Совхозе Калинина. Плоские вставки камней имеются также на диадемах из Черны (Csorna) и Шурбанца (группа Ковриг 2с). (25, с. 124, 126; 10, с. 56). Но более сходны композиционным решением, техническим исполнением с трехчастной с фигурным фризом хыныслинской диадемой всего два – Шипово и Керчь.

Диадема в контексте определения «маркера статусности». В исследуемый период золотые изделия выступали прежде всего маркером имущественной и аристократической верхушки, и связаны были с рангом их хозяина в обществе. Золотые предметы (пояса, оружие, диадемы) являлись атрибутом, подчеркивающим принадлежность к "золотому дому правителя" в его широком понимании, то есть к "государству" (14, с. 77). Например, аналогичная ситуация была в Византии с ранговыми золотыми поясами (15, с. 28). Также известен факт того, что у персов было "запрещено носить золотые перстни, пояса, пряжки или что-либо подобное, если это не пожаловано царем" (15, с. 53).

Сходная картина существовала и у кочевников, что свидетельствовало о признаках государственной организации, в которой именно представители власти должны были четко выделяться из общества. Запрет на нарушение этой вертикали, в которой даже люди имущие не могли позволить себе ни одного золотого "рангового" знака в уборе, указывает на хорошо развитую, давно функционирующую систему социальной организации общест- ва (14, с. 77).

Следует отметить, что дорогие, столь статусные золотые изделия – диадемы принадлежали к набору дипломатических даров, выполненных "специальной, постоянно функционирующей византийской мастерской, изготавливающей подарки для варваров" (14, с.36). Так, в 400 г. н. э. «вождь и царь самых диких скифов, держащихся по другую сторону Эвксинского моря, живущих на Маэотиде и Танаисе, а так же на Босфоре и до реки Фазис, послал корону, покрытую золотом и усыпанную камнями». Примечательно, что здесь речь идет о короне, покрытой, а не сделанной из золота (27, с. 297).

Великолепные золотые диадемы типа хыныслинской, вне всякого

сомнения, работа государственных столичных ювелиров. Их изготовление для вождей и знати кочевников могло быть санкционировано только на высшем уровне. Например, согласно византийскому законодательству, жестко поставившему под государственный контроль ювелирное и оружейное ремесло, заказ мог поступать только со двора и однозначно "дворцовым ремесленникам" (artifices palatini). В этом контексте сочетание в ювелирных изделиях византийских и варварских элементов делалось намеренно, подчеркивая варварское происхождение собственника (14, с.36).

Заключение. Описанная выше хыныслинская диадема, различаясь техническими приёмами, орнаментацией и формой, тем не менее является частью единой группы ювелирных изделий полихромного стиля, бытовавших с конца IV в. до середины V в. н.э. на обширных просторах Евразии. Сравнительный метод их исследования показал и индивидуальный характер диадемы, но дал возможность типологизировать её по совокупности признаков. Обнаруженные диадемы гуннского периода имеют идентичные стилистические особенности и поэтому являются звеньями одной цепи, имея сходства и отличительные особенности. Общность композиционных и технических особенностей диадем указывает на моду времени, эстетические нормы и знаки отличия местной аристократии и представителей власти в огромном ареале господства гуннов.

Таким образом, хыныслинская диадема принадлежит к редкому социально значимому головному убору женщины не просто из знати, а правящей семьи. Культурная принадлежность и этническая идентификация невозможна, но в декоре диадемы явно ощущается гуннский стиль и влияние имперских мод Востока. Интересно, что диадемы характерны для элитарной культуры только обозначенного хронологического периода и не использовались в постгуннское время. Заметна четкая географическая привязка в системе знаковой репрезентации европейской степи, со Средиземноморьем, с племенами Северного и Центрального Казахстана. Обнаруженные аналогии сюжетного, композиционного и образного характера с диадемами данных регионов, и дальнейшее определение и сравнение химического состава данных археологических находок сформирует круг для дальнейших исследований.

Результаты рентген флуоресцентного анализа диадемы:
Au - 67,0654; Ag - 28,7314; Cu -3,9613; Fe - 0,1125; Ti - 0,1294

Источники и литература:

1. Xəlilov C.Ə. Xınıslıda arxeoloji qazıntıların ilk nəticələri // Azərbaycanın maddi mədəniyyəti, VI cild, Bakı, 1965.
2. Xəlilov C.Ə. Xınıslı arxeoloji ekspedisiyasının 1967-1968-ci illərdə apardığı qazıntıların hesabatı / AMEA Etnoqrafiya institutunun elmi arxivi, h.49.
3. Xəlilov M.C. Qədim Samexiyanin (Kamexiyanin) kəşfi // Azərbaycan Arxeologiyası, 17-ci cild, Bakı, 2013.
4. Qafarlı R. Azərbaycan türklərinin mifologiyası. Bakı, 2010.
5. Rüstəmbəyova A.M. Azərbaycanın arxeoloji qızıl və gümüş əşyaları. Bakı, 2013.
6. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 1983.
7. Resul Çatalbaş. Türklerde hayvan sembolizmi ve din ilişkisi / Turan-Sam, 3 cild, 2011.
8. Ахундова Г.К. Украшения Азербайджана античного периода. Баку, 2020.
9. Засецкая И.П. Золотые украшения гуннской эпохи. По материалам Особой кладовой Государственного Эрмитажа. Ленинград, 1975.
10. Засецкая И.П. Культура кочевников южнорусских степей в гуннскую эпоху (конец IV – V вв.). Петербург, 1994.
11. Засецкая И.П. Полихромные изделия гуннского времени из погребений Нижнего Поволжья. Ленинград,1968.
12. Казанский М.М. Гуннская диадема с горы Митридат и ее культурно-исторический контекст / Боспорские чтения, XXI, Симферополь-Керчь, 2020.
13. Казанский М.М. Начало эпохи великого переселения народов на Боспоре киммерийском: итоги и перспективы / Боспорские чтения, XX, Симферополь-Керчь, 2019.
14. Комар А.В. Перещепинский комплекс в контексте основных проблем истории и культуры кочевников восточной Европы VII – нач. VIII в. // Степи Европы в эпоху средневековья, 5, 2006 // http://dspace.nbuv.gov.ua/handle/123456789/14221.
15. Прокопий Кесарийский - Тайная история, пер. А. А. Чекаловой, 1993 // http://www.vostlit.info/Texts/rus / Prokop/framepers11.htm.
16. Рзаева С.Ш. Древние культы и символика Азербайджана (в доисламский период). Баку, 2010.
17. Ростовцев М.И. Скифия и Боспор // Критическое обозрение памятников литературных и археологических, Москва, 2012.
18. Рустамбекова А.М. Полихромные серьги "ay sırğa" в коллекции Национального музея истории Азербайджана // Azərbaycan

arxeologiyasının inkişafında professor Qafar Cəbiyevin rolu, Bakı, 2021.
19. Рябцева М.Л. К вопросу о происхождении полихромного стиля эпохи великого переселения // Иресиона. Античный мир и его наследие. Выпуск IV: сборник научных трудов к 50-летию проф. Н.Н. Болгова, Белгород, 2015.
20. Фурасьев А.Г. Эпоха Меровингов: орлы Рима и вороны Вотана. Санкт-Петербург, 2007.
21. Халилов Дж.А., Бабаев И.А. О городах древней Кавказской Албании // Советская археология, №4, 1974.
22. Халилов М. Дж. Золотые изделия IV-VII вв. завезенные в Кавказскую Албанию. Азербайджан в многовековых многогранных культурных взаимосвязях // Сборник докладов четвертого Бакинского Международного Симпозиума, 4-6 июня1998. Баку, 1999.
23. Халилов Дж. А. Материальная культура Кавказской Албании (IV до н.э.- III н.э.). Баку, 1985.
24. Чернов М.А. К вопросу о семантическом прочтении композиции каргалинской диадемы. Древности Жетысу. Памятники археологии Жамбылского района // Сб. статей под ред.: А. Садуакасулы, Б.А. Байтанаев, Б.А. Железняков, Алматы, 2016.
25. Kovrig I. Das Diadem von Csorna. 1985. T. XXXVI.
26. Margit Mage. A Hun-Age Burial With Male Skeleton and Horse Bones Found in Budapest // Neglected Barbarians. Edited by F. Curta. Studies in the Early Middle Ages Vol. 32. Turnhout, 2010.
27. Otto J. Maenchen-Helfen. The world of the Huns. Los Angeles, London, 1973.
28. Vladimir Dumitrescu / Ein neuer Beleg für die Anwesenheit der Hunnen in Muntenien:Bruchstück cines hunnischen Golddiademsvon Dulceanca. Dacia, 5, 1961.
29. Zsófia Masek. A Fresh Look at Hunnic Cauldrons in the Light of a New Find from Hungary. Budapest, 2017.
30. Waszlavik László: About the symbolics of the kargalinka diademfile // about_the_symbolics_of_the_kargalinka_di.pdf.

Afət Rüstəmbəyova
Xınıslı qızıl diademin atributasiyasına dair

Xülasə

Açar sözlər: *hunlar, Xınıslı, diadem, polixrom üslub, süleyman daşı, şəbəkə, qızıl*

Hun dövründə (IV-V əsrlər) Avrasiyanın böyük coğrafi məkanında müxtəlif

etnosların qarşılıqlı təsiri və əlaqəsi prosesi yeni bir mədəniyyətin yaranması ilə nəticələndi. Bu mədəniyyətin parlaq inikasını daha çox zərgərlik sənəti, eləcə də özünəməxsus çoxrəngli (polixromlu) üslubun yaranması və inkişafında görmək mümkündür.

AMEA Milli Azərbaycan Tarixi Muzeyində Hun dövrünün zərgərlik kolleksiyası da mühafizə olunmaqdadır. Həmin kolleksiyada yer alan Şamaxı rayonunun Xınıslı kəndində 1967-ci ildə arxeoloq Cabbar Xəlilov tərəfindən aşkarlanmış qızıl diadem tarixi-mədəni baxımından böyük dəyərə malikdir. Məqalədə bu arxeoloji tapıntının özəlliyi, zərgərlik üslubu, kompozisiyası və simvolları açıqlanaraq, sinxron dövrün oxşar üslublu nümunələri ilə analogiyalar aparılır. Müqayisəli təhlil nəticəsində Xınıslı diademinin fərdi üslubu müəyyənləşdirilməklə yanaşı, onun polixrom üslublu zərgərlik qrupunun bir hissəsi olduğu üzə çıxarılır. Bu diademin üslub xüsusiyyətlərinin öyrənilməsi beynəlxalq təsnifata uyğun olaraq, qrupunun müəyyənləşməsinə imkan verir. Məqalədə bu qadın baş bəzəyi "zadəganların inteqrasiya mədəniyyətinin" bir elementi, yüksək statusun rəmzi və hakimiyyətin atributu kimi öyrənilir.

Afet Rustambeyova
On the attribution of the Khynysly golden diadem

Summary

Keywords: *Huns, Khynysly, diadem, polychrome style, garnet, filigree, golden*

Due to the mutual influence and interaction of various ethnic groups, a new culture was formed in jewelry and expressed the creation and development of a peculiar polychrome style in the Hunnic period.

The National Museum of History of Azerbaijan contains a lot of Hunnic antiquities. The most valuable among them is a golden tiara discovered in 1967 by archaeologist Jabbar Halilov in the village of Khynysly, Shamakhi region of Azerbaijan. There are considered the compositional, technical, and semantic features of the Khynysly diadem in the article. There also are shown analogies with the stylistically similar tiaras of the synchronous period. As a result of comparative analysis, the individual characteristics of the jewelry as a part of a single group of polychrome-style jewelry were identified. The study of the stylistic features of this diadem made it possible to typology it according to the internationally accepted classification. This unique female headdress-diadem is an element of the "integration culture of the nobility" as a determinant of status and power.

Иллюстрации



Фото 1




Рис.1



Фото 2



Рис.2



Фото3



Рис.3

Mircavid Ağalarov*

Qədim Gəncənin şirli keramikasında heksoqram təsviri (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)

UOT 902

Açar sözlər: *orta əsrlər, fayans, cızma üsulu, simvol, arxeoloji*

Azərbaycanın orta əsr şirli keramikasında rast gəlinən bəzək elementləri özünün forma və məzmun zənginliyinə, eləcə də rəng çalarlarına görə həmişə mütəxəssislərin diqqətini cəlb etmişdir. Həmin bəzək elementlərinin araşdırılması istiqamətində indiyədək müəyyən tədqiqatlar həyata keçirilmişdir (19;20;24). Buna baxmayaraq, araşdırılmasına ciddi ehtiyac duyulan məsələlər qalmaqdadır. Belə məsələlərdən biri də heksoqram təsvirlərinin mənşəyi və onların keramikaya həkk edilməsini şərtləndirən səbəblərdir. Bütün bu və ya digər səbəblərə aydınlıq gətirmək üçün tədqiqat obyekti kimi üzərində heksoqram təsviri olan və 1938-1940-cı illərdə Qədim Gəncədə aparılan arxeoloji qazıntılar zamanı tapılmış şirli keramika nümunələri seçilmişdir. Əlbəttə ki, Qədim Gəncədə qeyd edilən tarixdən istər əvvəl, istərsə də sonra arxeoloji tədqiqatlar aparılmış və şirli saxsı qablar əldə edilmişdir. Lakin, həmin axtarışlar 1938-1940-cı illərin qazıntıları ilə müqayisədə bir qədər qısa müddətli olmuşdu. Ən əsası isə istər keçən əsrin 30-cu illərinin ortalarında (17, s. 30), istərsə də 1981-1982-ci illərdə (22;23) Qədim Gəncə abidəsindən arxeoloji araşdırmalar zamanı tapılmış keramika nümunələrinin aqibəti bizə məlum deyil. Bu baxımdan bizə əlçatan olan və Milli Azərbaycan Tarixi Muzeyinin (bundan sonra - MATM) arxeoloji kolleksiyasına daxil olan 1938-1940-cı illərdə Qədim Gəncədən tapılmış şirli keramika nümunələrinə müraciət edilmişdir.

*AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya elmi fond şöbəsinin böyük laborantı; agalarovmircavid@gmail.com

Qədim Gəncənin xarabalıqları Gəncəçayın hər iki sahilində, indiki Gəncədən təxminən 7-9 km. şimal-şərqdə yerləşir. Şəhər yerində Orta əsrlərə aid mədəni təbəqə, şəhərin qala divarları, çaykənarı bəndlər, uçmuş körpülər, türbələr, o cümlədən Nizami Gəncəvinin qəbri, daha sonrakı dövrlərə aid qəbirstanlıqlar, İmamzadə kompleksi və digər abidələr qalmaqdadır (13, s. 313). Qədim Gəncənin xarabalıqlarında ilk sistematik arxeoloji tədqiqatlar 1938-1940-cı illər ərzində görkəmli arxeoloq İshaq Cəfərzadənin rəhbərliyi altında aparılmışdır. Bu tədqiqatlar, İ.M. Cəfərzadə tərəfindən şərti olaraq adlandırılmış Birinci şəhər, İkinci şəhər və sənətkarlar məhəlləsində, habelə şəhərin qala divarları, çayqırağı bəndlər və qəbiristanlıqlar olan əraziləri əhatə etmişdir (17, s. 30-36). X-XIII əsrlər boyu Gəncə Azərbaycanın ən böyük orta əsr şəhərlərindən biri idi. Böyük ipək yolunun üzərində olması Gəncənin geniş ticari əlaqələrə malik olmasına təsir etmişdir. Bunun nəticəsində Gəncə şəhərində sənətkarlıq da kifayət qədər inkişaf etmişdi.

Qədim Gəncə tapıntılarının, xüsusilə də şirli keramikasının öyrənilməsi səviyyəsinə gəldikdə burada qeyri-qənaətbəxş məqamlar var. Belə ki, tədqiqata cəlb etdiyimiz tapıntıların müəllifi İ.M.Cəfərzadə öz qazıntılarının nəticələrini ümumiləşdirərək, Gəncənin tarixi-arxeoloji tədqiqi formasında 1949-cu ildə çap etdirmişdir (17).

İ.M.Cəfərzadə 1938-ci il qazıntılarından çıxan keramika məmulatını ümumi olaraq 12 qrupa bölmüş və onlardan ikisini (sferokonus və fayans tipli qabları) istisna etməklə, digər bütün qruplara aid olan nümunələrin Qədim Gəncə istehsalı olduğunu irəli sürmüşdür. Bunu isə həmin iki kateqoriyaya aid materialların zay nümunələrinin tapılmaması ilə izah etmişdir (18, s. 35). Burada bir məqama diqqət çəkmək vacibdir. Düzdür, 1938-ci ildə ağ gildən (fayansdan) zay məhsul tapılmasa belə, 1939 və 1940-cı illər qazıntılarında zay fayans nümunələri aşkar edilmişdir (s/q 329, s/q 414, s/q 137 və s.). Belə olduqda, İ.M.Cəfərzadənin yerli istehsalı səciyyələndirmək üçün istifadə etdiyi metodu əsas götürərək, deyə bilərik ki, ağ gildən olan məmulat da Qədim Gəncə şəhərində istehsal olunurdu. Qeyd edilən tədqiqat işində Qədim Gəncənin orta əsrlər tarixi haqqında bir sıra təməl məsələlərə aydınlıq gətirilsə də, ümumilikdə bir çox, xüsusilə tədqiqat mövzumuza aid məsələlər qaranlıq qalmışdır.

Qədim Gəncənin keramikasına həsr olunmuş daha bir tədqiqat isə 1940-cı ildə işıq üzü görmüşdür. Bu tədqiqatda maraqlı məsələlər öz əksini tapır, lakin, yenə mövzumuza aid suallar toxunulmamış qalmışdır (18). Digər tərəfdən isə, heksoqram naxışının Azərbaycan keramikasındakı inikası haqqında da vahid bir tədqiqat mövcud deyildir. Ayrı-ayrı əsərlərdə Azərbaycan keramikasının semantikası çərçivəsində bəzən heksoqram simvoluna da yer verilmişdir. Amma bu əsərlərdə sadəcə olaraq heksoqram naxışının mövcudluğu vurğulanmışdır. Bu məqalənin əsas məqsədi, yuxarıda qeyd olunan hər iki boşluğun doldurulmasıdır. Yəni Qədim Gəncənin bir qrup keramikasının təsvirini vermək və heksoqram naxışının Qədim

Gəncənin şirli keramikasındakı inikası və mənşəyi haqqında bir nəticəyə gəlməkdir.

Konkret olaraq tədqiqata cəlb etdiyimiz əşyavi mənbələrə gəldikdə, MATM-nin arxeoloji kolleksiyasında mühafizə olunan Qədim Gəncənin keramika nümunələrinin yeddi ədədi üzərində heksoqram motivi mövcuddur. Bu o demək deyil ki, başqa heç bir şirli keramikanın üzərində heksoqram naxışı yoxdur. Ehtimal ki, başqa fraqmentlərin üzərində də heksoqram təsviri mövcuddur. Sadəcə heksoqram kompozisiyasının tam olaraq izlənilməməsi səbəbindən onlara bu məqalədə yer verilməmişdir. Digər tərəfdən, şirsiz keramika nümunələrinin üzərində də kifayət qədər heksoqram təsviri mövcuddur. Amma məqalənin həcmini nəzərə alaraq, şirsiz keramika nümunələri tədqiqat obyekti kimi seçilməyib.

Hazırlanma texnikasına və bədii tərtibatına nəzər saldıqda demək olar ki, heksoqram təsvirli şirli keramika nümunələri yerli mənşəli olub, elə Qədim Gəncənin dulusçuları tərəfindən istehsal edilmişdir. Bu keramika məmulatının yeddisi qırmızı gildən hazırlanmışdır. Yalnız biri fayansdır. Materialların hamısı süfrə qabı kateqoriyasına daxildir. Bütün materiallar dulus çarxı vasitəsi ilə hazırlanmış, gilləri bərabər dərəcədə bişirilmişdir. Qırmızı gildən olan fraqmentlərə baxıldıqda, ümumi olaraq onların kasa formalı olduqlarını söyləmək olar. Dövrü tərtibat baxımından bu nümunələr IX-XII əsrləri əhatə edirlər. Aşağıdakı cədvəldə həmin keramika nümunələrinin tərkib və dövr baxımından statistikası verilmişidr:

Qırmzı gildən IX-X əsrlər	Qırmzı gildən XI əsr	Qırmzı gildən XII əsr	Fayans XII əsr
2	1	3	1

Heksoqram naxışlı bu yeddi keramika nümunəsi natamam olub, fraqment və ya bir neçə fraqment birləşməsi şəklindədir. Qırmızı gildən olan nümunələr şəffaf (açıq sarı) və yaşıl rəngli, fayans nümunəsi isə mavi rəngli şirlə örtülmüşdür. Bu nümunələrin hər birində heksoqramın orta hissəsi oturacağın mərkəzində yerləşməklə, bucaqları gövdəyə tərəf uzanır. Fayans fraqmentində isə heksoqram yalnız oturacaq hissəsində təsvir edilmişdir. Haqqında bəhs etdiyimiz heksoqram təsvirli nümunələr aşağıdakılardan ibarətdir:

1. Kasa fraqmenti (AF15480, Şəkil 1). 1939-cu ildə B sahəsindən tapılmış bu materialın daxili səthində heksoqramın üç qolu aydın, digər iki qolu isə yarımçıq formada görünür. Heksoqram naxışı qazıma yolu ilə bir dairənin içində təsvir edilmişdir. Onun orta hissəsinin daxilində də dairə təsvir edilmişdir. Bucaqlarının yanı isə əyri xətlərlə naxışlanmışdır. Çox ehtimal ki, bu əyri xətlər yazı imitasiyasıdır. Material yaşıl şir ilə şirlənmişdir. Gilinin tərkibində ağ və qara əlavələr mövcuddur.

Dövrünə görə bu qab IX-X əsrlərə aiddir (1).

2. Oturacaq fraqmenti (S/q 787, Şəkil 2). 1940-cı ildə E sahəsindən tapılmış bu fraqmentin üzərində heksoqramın üç bucağını aydın şəkildə görmək mümkündür. Digər üç bucaq olan hissə mövcud olmasa da, onların başlanğıc nöqtəsini izləmək mümkündür. Heksoqram qazıma üsulu ilə fraqmentin üzərinə bir dairənin daxilində təsvir edilmşdir. Materialın bədii tərtibatında heksoqramdan başqa naxış istifadə olunmayıb. Yaşıl rəngli şirlənmiş bu materialın gilinin tərkibində ağ və qara əlavələr mövcuddur. Dövrü IX-X əsrlərə aiddir (9).

3. Oturacaq fraqmenti (s/q 184, şəkil 3). 1939-cu ildə B sahəsində tapılmışdır. Bu nümunənin bədii tərtibatı digər iki nümunədən fərqlənir. Belə ki, materialın daxili səthinə, ağ anqob üzərində cızma üsulu ilə çəkilmiş heksoqramın iki bucağı aydın şəkildə görünür. Həmçinin, şiraltı boyalanma üsulu ilə tünd-sarı və yaşıl rənglər ilə bucaqların içində simvolik formada quş təsviri çəkilmişdir. Sarı və yaşıl rənglər bucaqların içində bir-birlərini izləyirlər. Sonda material şəffaf (açıq-sarı) şirlə şirlənmişdir. Gilinin tərkibində ağ və qara əlavələr mövcuddur. Dövrü XI əsrə aiddir (8).

4. Oturacaq fraqmenti (AF 2124, şəkil 4). 1939-cu ildə A sahəsindən tapılmışdır. Heksoqram şiraltı cızma üsulu ilə çəkilmişdir. Tərtibatı şiraltı marqans və yaşıl rənglərlə zənginləşdirilmiş bu nümunədə dairə motivindən də çox geniş istifadə edilmişdir. Belə ki, heksoqramnın mərkəzində, bucaqların daxilində və arasında dairə təsvir edilmişdir. Erkən dövrə aid olan nümunələrdən fərqli olaraq, burada heksoqram dairənin içində təsvir edilməmişdir. Dövr etibarilə bu nümunə XII əsrə aiddir. Şəffaf-açıq sarı şirlə şirlənmiş bu nümunənin gilinin tərkibində ağ və qara əlavələr mövcuddur (5).

5. Oturacaq fraqmenti (AF 2896, şəkil 5). Bu material 1940-cı ildə A və V sahələrinin arasından tapılmışdır. Digər nümunələrdən fərqli olaraq, bu nümunin daxili səthində 3 heksoqram bir-birinin içində təsvir olunmuşdur. Sonuncu heksoqramın daxilində qrafik formada quş təsviri var. Heksoqramlar və quş cızma üsulu ilə həkk edilmişdir. Fraqmentə, həmçinin, marqans və yaşıl rənglərlə şiraltı naxış vurulmuşdur. Qab şəffaf-açıq sarı rəngli şirlənmişdir. Gilinin tərkibində ağ və qara əlavələr mövcuddur. Fraqment XII əsrə aiddir (4).

6. Oturacaq fraqmenti (AF 2028, şəkil 6). Material 1938-ci ildə B sahəsindən tapılmışdır. Onun daxili səthində ağ anqob üzərində şiraltı cızma üsulu ilə heksoqram təsvir edilmişdir. Bədii tərtibatı isə şiraltı rəngləmə üsulu ilə daha da zənginləşdirilmişdir. Şiraltı rəngləmədə marqans və yaşıl rənglərdən istifadə edilmişdir. Bu rənglər vasitəsi ilə heksoqramın bucaqları növbəli şəkildə boyanmışdır. Rənglənmiş hissənin içində isə dairələr həkk edilmişdir. Heksoqramın mərkəzindəki dairənin ətrafına çəkilmiş nöqtələr vasitəsi ilə günəş təsvir edilmişdir. Material ağ (açıq-sarı) rəngli şirlənmişdir. Gilinin tərkibində ağ və qara əlavələr mövcuddur. Dövrü XII əsrə aiddir (2).

7. Oturacaq fraqmenti (AF 2360, şəkil 7). 1939-cu ildə A sahəsindən tapılmış bu fraqment ağ gildən hazırlanmışdır. Ağ anqob üzərində cızma üsulu ilə heksoqram təsvir olunmuşdur. Təsvir bəsit və kiçik ölçülüdür. Material mavi rəngli şir ilə şirlənmişdir. Gilinin tərkibində ağ əlavələr mövcuddur. Dövr etibarı ilə XII əsrə aiddir (3).

Heksoqram təsvirli şirli keramika təkcə Qədim Gəncə materialları ilə məhdudlaşmır. Belə ki, Qəbələdən (6), Beyləqandan (7) və başqa abidələrdən tapılmış şirli keramika nümunələrində heksoqram təsvirinə rast gəlmək mümkündür. Bundan əlavə heksoqram təsvirli şirli keramika nümunələri Azərbaycanın hüdudlarından kənarda da məlumdur. Məsələn, Metropolitan muzeyində qorunan, Suriya istehsalı olan, XI-XII əsrlərə aid fayans qab üzərində də qazıma üsulu ilə heksoqram təsvir edilmişdir (28). Marağı cəlb edən bir başqa nümunə də, Metropolitan muzeyində qorunur (şəkil 8). Bu heksoqram təsvirli zərfayans kasadır. XI əsrin ikinci yarısına aid Suriya istehsalı olan qabın firuzəyi rəngli şirinin üstündə qızılı rəngli zər vasitəsi ilə heksoqram təsvir edilmişdir. Heksoqramın mərkəzində günəş, onun bucaqlarının daxilində üçbucaqlar, arasında isə fərqli simvollar çəkilməklə qabın bədii tərtibatı daha da zənginləşdirilmişdir (29). Sonuncu nümunədə günəş təsviri yuxarıda verdiyimiz Qədim Gəncə fraqmenti ilə oxşarlıq təşkil edir (2). Viktoriya və Albert muzeyində qorunan qırmızı gildən hazırlanmış polixrom şirli kasanın üzərində də cızma üsulu ilə heksoqram təsvir olunmuşdur. Bu heksoqramnın yanında dörd, kasanın qıraqlarında isə altı ədəd dairə təsvir edilmişdir. Bu material X əsrdə Nişapur şəhərində istehsal olunmuşdur (30).

Qədim Gəncənin şirli keramikası üzərində təsvir olunmuş heksoqramın semantik mənasını tam müəyyənləşdirməyə gəldikdə, bu o qədər də asan məsələ deyil. Belə ki, altıguşəli ulduz qədim zamanlardan bəri fərqli coğrafiyalarda özünə yer etmiş bir simvoldur. Hələ qədim Babildə altıguşəli ulduz tanrı İştarın simvolu olaraq qəbul edilmişdir. Heksoqram altıguşəli ulduzun xüsusi bir növü kimi çıxış edir və iki bərabər tərəfli üçbucağın birləşməsindən ibarətdir. Heksoqram müasir dövrdə, əsasən, "Davud ulduzu" və "Süleyman peyğəmbərin möhürü" kimi adlandırılaraq, İsrail dövlətinin rəsmi simvolu olma səbəbindən yəhudilərlə bağlansa da, əvvəlki dövrlərdə bir çox xalq tərəfindən istifadə edilmişdir. Reallıqda heksoqramın birbaşa olaraq yəhudiliyə heç bir aidiyyatı yoxdur. XIX əsrin ikinci yarısına qədər heç bir alim və ya kabbalist bu simvolun yəhudi xalqının keçmişi ilə bağlı hər hansı bir "ideya" daşımasına işarə etməmişlər (26, s. 243-244).

Qədim cəmiyyətlər heksoqram ilə ümumi olaraq kosmoqonik dünyagörüşlərini ifadə etmişlər. Bundan əlavə bir-birinə keçmiş iki üçbucaqda kainatın dişi və erkək başlanğıcı təsəvvür edilirdi (16, s. 52). Heksoqram, həmçinin, kimyagərlikdə mistik mənalara malik bir işarə kimi də istifadə edilirdi. Belə ki, heksoqram kimyagərlik simvolu kimi istifadə ediləndə onun mərkəzində dairə təsvir edilirdi. Bunun da Hindistan ilə Tibetin mandala ənənəsinin təsiri altında formalaşdığı iddia edilir (25,

s. 281-282).

İslam coğrafiyasında altıguşəli ulduza xüsusi bir önəm verilirdi və bu işarənin cinlər üzərində təsirə malik olduğu haqqında bir inanc mövcud idi. İslam dininin müqəddəs kitabı Qurani-Kərimdə ulduzlar haqqında deyilir: "Biz aşağı göyü ulduzlarla bəzədik və onu şeytanlardan, hər cür bəladan hifz etdik" (14, s. 477). Bir başqa ayədə isə ulduzun şeytana qarşı olması deyilir: " Lakin (şeytanlardan) kim (mələklərin söhbətinə) xəlvəti qulaq assa, onu odlu bir axan ulduz təqib edər" (14, s. 262). Cin surəsinin səkkizinci ayəsində də cinlərin ulduzlardan çəkindiklərini görmək olar: "Biz (cinlər yuxarı aləm əhlinin söhbətinə qulaq asmaq üçün oğrun-oğrun qulaq asmaq üçün) göyə qalxmaq istədik (səmanı yoxladıq), amma onun (mələklərdən ibarət) güclü gözətçilər və yandırıb-yaxan (axan) ulduzlarla dolu olduğunu gördük" (14, s. 571).

Yaxın Şərq regionundan bütün dünyaya yayılmış "Min bir gecə" nağıllarında da heksoqramın cinlər üzərindəki təsiri haqqında maraqlı bir motiv mövcuddur. Belə ki, onu azad edənin üç arzusunu yerinə yetirəcək cini çıraqda məhkum edən qüvvə elə məhz heksoqram tilsimidir. Heksoqram həmçinin cadularda çox geniş istifadə edilirdi (15, s. 231-232). MATM Arxeologiya fondunda 3759 nömrəli inventar altında qorunan fal tasının üzərindəki heksoqram da (11) bu simvoldan mistik təcrübələrdə istifadə olunduğunu təsdiq edir. Digər tərəfdən, bəzi tədqiqatçıların fikrinə görə, heksoqram simvolu İslam coğrafiyasına Çinin mədəni təsiri altında yayılmışdır (27, s. 13)

Qurani-Kərimin başqa bir ayəsində deyilir: "Allah göylərin və yerin nurudur. Onun nuru, içində çıraq olan bir taxçaya bənzər, taxçadakı o çıraq bir qəndilin içindədir, o qəndil isə, sanki parlaq bir ulduzdur" (14, s. 353). Bu ayədə diqqəti cəlb edən cəhət Allah ilə ulduz arasında aparılan paraleldir. Belə olduqda Allahı simvolizə etmək üçün ulduzdan istifadə edilməsi təəccüb doğurmur. Digər bir maraqlı motiv isə Qurani-Kərimdə ulduza da and içilməsindən ibarətdir (14, s. 525, 535).

Beləliklə, heksoqram işarəsinə iki formada baxmaq olar. Birincisi, cin və şeytanlardan, ümumi surətdə isə bütün şər qüvvələrdən qoruyan bir simvol kimi, ikincisi isə islami bir simvol kimi. Heksoqrama bəd qüvvələrdən qoruyan bir simvol-həmayil kimi baxılması üçün hələ ki, əlimizdə kifayət qədər dəlil mövcud deyil. İlk öncə onu qeyd etmək lazımdır ki, heksoqram təsvirli qabların bədii tərtibatına və formasına bənzər kifayət qədər nümunələr mövcuddur (misal üçün AF15380, AF2091 v.s.) (10;12). Göstərilənləri nəzərə alaraq heksoqramın bu tip qablar üçün səciyyəvi xarakter daşımadığını və sadəcə naxış kimi onların üzərində təsvir edildiyini görə bilərik. Demək ki, heksoqram naxışına islami rəmz kimi baxmaq daha doğru olar.

Digər bir maraqlı məqam isə materialların üçündə heksoqramın mərkəzində dairənin çəkilməsidir. Yuxarıda qeyd edildiyi kimi içində dairə təsvir edilmiş

heksoqram kimyagərlik simvolu kimi istifadə edilmişdir, amma yenə də bu qabların bir başa kimyagərlikdə istifadə olunduğu ilə bağlı kifayət qədər məlumat mövcud deyil. Bu qabların da heç bir özünəməxsus forması yoxdur. Bundan əlavə həmin qabların üzərində kimyagərlikdə istifadə olunan digər simvollara rast gəlinmir (21, s. 111).

Şirli keramika məmulatının bədii tərtibatında heksoqram naxışı ilə bərabər həndəsi dairələrdən də istifadə edilib. Dairə naxışı islam sənətkarlığında ən geniş yayılmış naxışlardandır. Dairə naxışı keramika məmulatından başqa digər sənətkarlıq nümunələrinin üstünə də vurulmuşdur. Ümumilikdə, dairə naxışı spesifik bir mənaya malik olmayıb, sadə estetik bir naxış kimi çıxış edir. Dairə naxışının da heksoqram ilə birlikdə paralel istifadə olunması, onun da sadə bir naxış olmasını iddia etməyə əsas verir.

Yuxarıda verilən bütün fikirləri ümumiləşdirərək belə bir vahid nəticəyə gəlmək olar ki, Qədim Gəncənin şirli keramikası üzərində təsvir olunan heksoqram naxışının nə mistik mənasını, nə kimyagərlik simvolu ilə əlaqəsini, nə də ki, Çin mədəniyyətinin təsiri altında formalaşmış bir işarə olmasını təsdiqləyən kifayət qədər sübut mövcud deyil. Belə olan vəziyyətdə, Qədim Gəncənin şirli keramikası üzərində təsvir olunan heksoqram naxışını sadəcə ümumi bir estetik naxış kimi saymaq ən doğrusu olardı.

Mənbələr və ədəbiyyat:

1. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu, AF15480.
2. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu, AF2028.
3. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu, AF2360.
4. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu, AF2896.
5. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu, AF2124.
6. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu, AF2011.
7. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu, s\q309.
8. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu, s\q184.
9. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu, s\q787.
10. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu İnventar kitabı N4.
11. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu İnventar kitabı N7.
12. AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondu İnventar kitabı N20.
13. Cəbiyev Q.C. Azərbaycan arxeologiyasının əsasları. Bakı, 2018.
14. Qur'ani Kərim və tərcüməsi/ Tərcümə və məalı Bünyadov Z.M.,

Məmmədəliyev V.M. Ankara,2016.
15. Баешко Л.С., Гордиенко А.Н., Гордиенко А.Н. Энциклопедия символов/ под ред. О.В.Перзашкевича. Москва, 2007.
16. Бидерман г. Энциклоклопедия символов : Пер. с нем./ Общ. ред. и предисл. Свенцицкой И.С. Москва, 1996.
17. Джафарзаде И. М. Историко-археологический очерк Старой Гянджи. Баку,1949.
18. Левиатов В.Н. Керамика Старой Гянджи. Баку,1940.
19. Наджафова Н.Н. Художественная керамика Азербайджана XII-XV вв. Баку, 1964.
20. Новрузлу А.И. Средневековая керамика Азербайджана (IX-XVII вв.). Баку, 1993.
21. Рабинович В.Л. Алхимия как феномен средневековой культуры. Москва,1979.
22. Халилов Дж. Археологические исследования в Гяндже в 1981// Археологические и этнографические исследования в Азербайджане(1980-1981), Баку, 1986.
23. Халилов Дж. и др. Археологические раскопки на городище средневековой Гянджи в 1982 году// Археологические и этнографические исследования в Азербайджане (1982), Баку,1990.
24. Якобсон А.Л. Художественная керамика Байлакана(Орен-кала).// Материалы и исследования по археологии СССР,1959,№67.
25. Cirlot J.E. A dictionary of symbols : Translated from Spanish by Sage J., second edition . London,2001.
26. Graham O.J. The six-pointed star : its origin and usage. Washington. 2001.
27. Islamic Art and Geometric Design ACTIVITIES FOR LEARNING. The Metropolitan Museum of Art, New York, 2004.
28. The Metropolitan Museum. Acession number : 23.162.3\ https://www.metmuseum.org/art/collection/search/447680?searchField=All& sortBy=Relevance&deptids=14&when=A.D.+1000-1400&where=Syria&what=Ceramics&ft=*&offset=20&rpp=20&pos=26
29. The Metropolitan Museum. Acession number : 24.274.1\ https://www.metmuseum.org/art/collection/search/451772
30. Victoria and Albert Museum. Acession number : C-17.1956\ https://collections.vam.ac.uk/item/O73581/bowl-unknown/

Mirjavid Aghalarov

Hexogram depiction in the glazed ceramics of Ancient Ganja (Based on materials of the National Museum of History of Azerbaijan)

Summary

Keywords: *medieval, fiance, drawing method,symbol, archaeological*

Urban culture in Azerbaijan reached the highest stage of development in the Middle Ages. In the Middle Ages, Baku, Barda, Beylagan, Shabran, Shamakhi, Shamkir, Ganja and others were included in the list of large cities of Azerbaijan. The heyday of Ganja covers the IX-XIII centuries. During this period, the production of ceramics in Ganja reached a very high level of development. Different patterns and symbols have been widely used in the artistic design of ceramics, especially glazed ceramics. One of such symbols is the hexagram symbol. It is difficult to say with certainty the origin of the hexagram symbol and the reason for its use. There are a number of theories about its origin: a symbol of alchemy, a symbol with a mystical meaning, a symbol of the Jewish people and religion, and so on. None of these considerations has a database that can explain the origin and purpose of the hexagram depicted on the glazed ceramics of Ancient Ganja. In this case, it would be more correct to consider the image of the hexogram depicted on the glazed ceramics of Ancient Ganja as a simple aesthetic pattern.

Мирджавид Агаларов

Изображение гексаграммы на глазурованной керамике Старой Гянджи (По материалам Национального музея истории Азербайджана)

Резюме

Ключевые слова: *средневековье, фаянс, метод гравировки, символ, археологический*

Городская культура в Азербайджане достигла высшей ступени развития в средние века. В этот период самыми крупными городоми Азербайджана были Баку, Барда, Бейлаган, Шабран, Шамаха, Шамкир, Гянджа и другие. Расцвет Гянджи приходится на IX-XIII века. В этот период производство керамики в Гяндже достигло очень высокого уровня развития. В художественном оформлении керамики, особенно глазурованной, широко использовались

различные узоры и символы. Одним из таких символов является символ гексаграммы. Трудно с уверенностью сказать о происхождении и о причине использования символа гексаграммы. Существует ряд теорий о его происхождении: символ алхимии, символ с мистическим значением, символ еврейского народа и религии и т.д. Ни одно из этих соображений не имеет базы данных, которая могла бы объяснить происхождение и назначение гексаграммы, изображенной на глазурованной керамике Старой Гянджи. В этом случае правильнее было бы рассматривать гексаграмму, изображенной на глазурованной керамике Старой Гянджи, как простой эстетический узор.



şəkil 1




şəkil 2




şəkil 3



şəkil 4



şəkil 5



şəkil 6



şəkil7



şəkil 8

*Nardanə Yusifova**

Natiq Fərəcullazadənin "Şəmkir yaxınlığında döyüş" əsəri tarixi anlamda

Açar sözlər: *N. Fərəcullazadə, əməkdar rəssam, batal janrı, realizm, litoqrafiya*

Milli Azərbaycan Tarixi Muzeyinin Təsviri materiallar fondunun unikal eksponatları arasında Natiq Fərəcullazadənin "Şəmkir yaxınlığında döyüş" adlı əsəri mühafizə olunur. (TMF 537. Kətan, yağlı boya. Ölçüləri:100x140 sm.). Məlumat üçün qeyd edək ki, əsərin müəllifi N. Fərəcullazadə 1960-cı ildə Bakıda anadan olmuş, 1979-cu ildə Ə. Əzimzadə adına Rəssamlıq Məktəbini, 1984-cü ildə indiki Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirmişdir. 2018-ci ildə "Azərbaycan Respublikasının Əməkdar rəssamı" fəxri adına layiq görülmüşdür. Əsərləri müxtəlif muzeylərdə və şəxsi kolleksiyalarda saxlanan rəssam Natiq Fərəcullazadənin yaradıcılığının əsasını natürmort, portret, mənzərə, süjetli əsərlər təşkil edir.

Bu əsəri ilkin olaraq 1826-cı ildə rus rəssamı M. Meşerski işləmişdir. Lakin 2009-cu ildə rəssam N.Fərəcullazadə həmin əsəri litoqrafiyadan yağlı boya ilə yenidən işləmişdir. Rəssamlıqda başqa fırça ustasının əsərinin üzünü köçürmək də böyük ustalıq tələb edir. Bu əsərdə isə aydın səmanın top atəşlərindən çıxan tüstüylə örtülməsi, atlıların gərgin döyüşü orijinalda olduğu kimi canlı və inandırıcıdır. Batal janrında işlənilmiş əsərdə, N.N. Fərəcullazadə öz yanaşma metodundan istifadə edərək yeni ifadə üsullarıyla bədiiləşməyə nail ola bilmişdir.

Bəzən rəssamlar dəyərli bir əsərin üzünü köçürərkən rəng hesabına bir çox anlaşılmayan sahələri ört-basdır edə bilirlər. Yaxud əsəri olduğu kimi birə-bir köçürürlər. N. Fərəcullazadə bu əsərin milli şüurumuzda dərk olunması üçün xüsusi texnikadan istifadə etmiş, kətan üzərində bir neçə müstəvi arasındakı

*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Təsviri materiallar fondunun müdiri, memarlıq üzrə fəlsəfə doktoru, dosent; narisrafil@mail.ru

sahələri duyulası anlamda dəqiqliklə göstərmişdir. O, qrafik tabloda öz dəsti-xəttini səciyyələndirən üsuldan uğurla istifadə edərək, əsərə bədii aydınlıq verir və onu tamaşaçı üçün dolğun estetik qaynağa çevirir. Rəssam "Şəmkir yaxınlığında döyüş" əsərində, üfüqi kompozisiyada bədii təzadlardan məntiqlə istifadə edə bilmişdir. Bu ikiölcülü kətan səthli müstəvi üzərində batal janrında işlənən həcmli kompozisiyada ağ ranglə nəinki zamanın, həm də fəzanın ikiyə bölünməsini qarışıq görüntü ilə verə bilməsi rəssamın istedadının göstəricisidir.

Əsərdə tarixi hadisələrlə yanaşı, həm də tarixi memarlıq tikilisi olan Şəmkir qülləsi xüsusi olaraq diqqəti cəlb edir. Bu tikili Azərbaycan memarlığının şah əsəri kimi XIX yüzilin ikinci yarısına qədər öz əzəmətli görünüşü ilə hər kəsi



TMF 537.Şəmkir uğrunda döyüş. Kətan,yağlı boya.
Ölçüləri 100x140 sm. Rəssam N.Fərəcullazadə.

heyrətləndirə bilmişdir. Hazırda həmin qüllə tamailə dağılıb yox olmuş və indi yalnız yazılı təsvirlərdən və rəsmlərdən öyrənilən nadir Azərbaycan abidələrinin siyahısına daxil edilmişdir. Şəmkir qülləsi memarlıq üslubu baxımından kub, prizma, silindr kimi həcmli həndəsi fiqurların dəqiq həndəsi qaydalar əsasında ahəngdar düzümü əsasında inşa edilmişdir. Qüllənin tək azan verilən hissəsi bir qədər mürəkkəb biçimli, daha dekorativ həlli ilə seçilirdi. Bütün bunlar araşdırılan əsərin gözəl realistik ifadəsindən də aydın görünür. Şəmkir qülləsini həm də bir gözətçi məntəqəsi olaraq Böyük Səlcuq İmperiyasının müxtəlif şəhərlərində cümə məscidləri yanında ucaldılan minarə tipi saymaq olar. Səlcuqlu minarələrinin

altlığı hər vaxt kub formasında inşa edilirdi. XI əsrdən başlayaraq Azərbaycanın hər bir bölgəsində geniş yayılan silindr gövdəli minarələr qabarıq kərpic naxışlarla sıx bəzədilirdi. Bu baxımdan Şəmkir qülləsi də İsfahan, Savə və başqa şəhərlərdəki Səlcuq minarələrinə nisbətən saya bəzəkli olmuşdur. Zirvəsinin fənər ilə tamamlanması isə o dövrün Güney Azərbaycan, İran, Anadolu və Orta Asiya minarələri üçün də səciyyəvidir. Tikilmə tarixi XI-XII yüzillərin qovşağına aid edilən Şəmkir qülləsi Səlcuqlar dövrü tikilisi kimi əzəmətli və bitkin memarlıq həlli olan cümə məscidinin, ya da dini kompleksin dominantı sayılır. Hər halda orta əsr Şəmkir şəhərinin dini və hətta ola bilsin ki, ticarət mərkəzi də bu minarənin ətrafında olmuşdur. Əsərin əsas məzmunu 1826-cı ilin iyul ayında başlanan ikinci Rusiya-İran müharibəsidir. Bu müharibədə İranın əsas məqsədi Tiflisi tutmaq, rus ordusunu Cənubi Qafqazdan çıxarmaq idi. Rus qoşunlarının başlıca zərbəsi isə Təbrizə yönəlmişdi. Qoşunların sayına görə üstünlük İranın tərəfində idi. Rusiya Xüsusi Qafqaz korpusunun qüvvəsi sayca böyük deyildi. Savaşın başlanğıcı Rusiya üçün uğursuz oldu. Sonradan rus qoşunları yeni alaylar hesabına gücləndirildi. Avqustun sonunda isə İran qoşunları gürcü şahzadəsi Aleksandrın başçılığı altında Şəmkir yaxınlığında toplandılar. Abbas Mirzənin oğlu Məmməd Mirzə yeni qoşunla Şəmkiri tutdu.Sentyabrın 3-də Şəmkir yaxınlığındakı Zəyəm dağı ətəyində İran və Rusiya qoşunları arasında döyüş oldu. Bu döyüşdə ruslar qalib gəldilər. İran qoşunu 1500 döyüşçü itirərək Gəncəyə çəkildi.

Bütün bu tarixi hadisəni rənglərin dili ilə gələcəyə ötürə bilən rəssamın yaradıcılığı mövzu və janr baxımından kifayət qədər müxtəlif olsa da, onun tarixi hadisələrə bədii yanaşması maraqla qarşılanmaqdadır. Bütünlükdə tarixi mövzuda əsər yaratmağın elə də asan olmadığını vurğulamaqla, bu vacib estetikanı kolorit özünəməxsusluğu ilə yaradan əsərlərin dövrün dəyişməsindən asılı olmayaraq hər vaxt aktual olması danılmazdır.

Nardana Yusifova
Painting "Battle for Shamkir" by Natiq Farajullazade in the historical aspect

Summary

Keywords: *N.Farajullazade, honored artist, battle genre, realism, lithography*

In the Fine Materials Foundation the paint The Battle near Shamkir by Natig Farajullazade is preserved. This unique work of art was originally created by the Russian artist M. Meshersky in 1826, and in 2009 N. Farajullazade made its copy. Copying the other work in painting also requires great skills from the creative

person. Often, artists can obscure some specific areas at the expense of color when copying any valuable work. Another way is to copy the work one by one in full format. N. Farajullazade successfully used the method in this graphic work that characterizes his own view, gave artistic clarity to the work and turned it into a full esthetic source for the audience.

Нардана Юсифова
Картина «Битва за Шамкир» Натика Фараджуллазаде
в историческом аспекте

Резюме

Ключевые слова: *Н. Фараджуллазаде, заслуженный художник, батальный жанр, реализм, литография*

В Фонде изобразительных материалов хранится работа Натига Фараджуллазаде «Битва за Шамкир». Это уникальное произведение искусства изначально было создано русским художником М. Мещерским в 1826 году, а в 2009 году Н. Фараджуллазаде сделал его копию. Копирование других работ в живописи также требует от творческого человека больших навыков. Часто художники скрывают определенные области за счет цвета при копировании работы. Другой способ - скопировать работу в полном формате. Н. Фараджуллазаде удачно применил в этой графической работе прием, характеризующий его собственный взгляд, придал работе художественную ясность и превратил ее в полноценный эстетический источник для зрителей.

Ramiyə İsmayılova*

Səfər camının qabı

UOT 94 (479.24)

Açar sözlər: *səfər camının qabı, "şanıkap/çınakap", dəriişləmə sənəti, türk maddi mədəniyyət nümunəsi*

Milli Azərbaycan Tarixi Muzeyinin zəngin fondlarında müxtəlif tarixi dövrlərə aid özünəməxsusluğu ilə digərlərindən seçilən eksponatlar mühafizə olunmaqdadır. Onlardan biri səfər camının qabıdır. Maraqlı təyinatı, orijinal forması, nadir tərtibatı ilə seçilən bu qabın muzeydə iki nümunəsi qorunur – Etnoqrafiya fondunda və Silahlar və bayraqlar fondunda.

Muzeyin Etnoqrafiya fondunda qorunan birinci qab (EF, 1062) əsas və qapaq hissədən ibarət olub, dəridən düzəldilib. Eksponatın ümumi uzunluğu 42,5 sm-dir. Diametri 18,5 sm olan əsas hissə yan tərəfdən baxdıqda günbəzvari formadadır. Günbəzin dərinliyi 6 sm-dir.

Qapaq hissə əsas hissəyə aşılanmış gön-dəridən hazırlanan saçaqlar vasitəsilə bərkidilir. Bərkidilməni hər iki hissənin aşağı, sağ və sol tərəflərindəki xüsusi dəliklər vasitəsilə həyata keçirirdilər. Qapaq hissəsini əsas hissəyə birləşdirən daha bir element qalın dəri qayışdır.

Qabın bədii tərtibatında diqqət çəkən məqamlardan biri onun üzərindəki naxışlardır. Belə ki, "qondarma" və ya "oturtma" texniki üsulu ilə hazırlanmış naxışlar eksponatın üzərini örtməkdədir. Etnoqrafların fikrincə, bu üsul köçəbə elat məişəti üçün səciyyəvi olmuşdur (1, s. 92). Tətbiqi dekorativ sənətin ilk nümunəsi olan "qurama" üsulu ilə xırda doğranmış həndəsi və nəbati naxışlar formasında mis hissəciklər müəyyən qaydada məmulat üzərinə bəndlənmiş və lazımi bəzək

*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin baş mütəxəssisi; ramiya.hasanova@gmail.com

motivi əldə edilmişdir. Günbəzvari hissənin üzərində günəş təsvirini (solyar nişanı) görmək olar. Günbəzin mərkəzi hissəsində halqa ilə bəzədilmiş yeddişüalı günəşi xatırladan naxışlar həkk olunub.

Su qabının qapağının daxili hissəsi parçadan hazırlanmışdır. Parçanın üzərində 20-dən çox rombvari həndəsi naxışlar təsvir olunmuşdur. Romblar simmetrik olaraq iki hissəyə bölünmüş və onların bir hissəsi qırmızı rəngə boyanmışdır. Bu da öz növbəsində ustaların iş prosesi zamanı su qabının həm xarici, həm də daxili estetik görünüşünə xüsusi diqqətlə yanaşdıqlarından xəbər verir.

Silahlar və bayraqlar fondunda mühafizə olunan ikinci nümunə (SBF, 570) eyni quruluşa malikdir. Bu qabın birincisindən fərqi onun həm ölçülərində, həm də üzərindəki naxışlardadır. Eni 16,5 sm, günbəzvari hissənin dərinliyi 6 sm olan eksponat tünd qara rəngə boyanmış dəridən hazırlanmışdır. Günbəzvari hissənin bədii tərtibatı olduqca zəngindir. Müxtəlif kompozisiyalar şəklində olan tərtibat gümüş düyməciklər və eyni məftillərlə yaradılıb. Mərkəzi hissədə altışüalı günəşi xatırladan element və nazik dəri qayışlardan hörülmüş topa bərkidilmişdir. Hər bir "şüa"nın daxilində 12 gümüş düyməcik var və onlar da öz növbəsində 3-6-3 ədəd olmaqla üç sırada düzülmüşdür.

Üstdən baxdıqda su damlasını xatırladan qapaq hissəsi də nazik gümüş məftillər və 50-dən çox düyməciklə işlənmişdir. Həmçinin qapaq hissədə çərtmə üsulu ilə əlavə olunmuş ornamentləri də müşahidə etmək mümkündür.

Bu qabın üzərində hər iki hissəni bir-birinə sıx şəkildə bərkitmək üçün dəlik yerləri mövcud olsa da, birinci eksponatda təsvir etdiyimiz dəri saçaqlara rast gəlinməmişdir. Çatışmayan elementlərdən biri də asılma üçün nəzərdə tutulmuş əsas hissədəki qalın qayışdır. Öz növbəsində qapaq hissədəki qayış zədəli də olsa mövcuddur.

Səfər camı qabının təyinatını onun adından görmək olar. Məlumdur ki, Azərbaycanda qədim dövrlərdən səfərdə su daşımaq üçün gil (saxsı) qablar – matralar və mis (tunc) qablar istifadə edilirdi. Lakin bu tip qablar səfər arabalarında daşımaq üçün münasibdir, at belində olanda isə ağır idi və çevik hərəkətlərə, böyük sürətlə at çapmasına mane olurdu. Orta əsrlər dövründə mis qablarla bərabər dəri tuluqlar geniş istifadə edilirdi. Lakin təkbaşına hərəkət edən atlı, həmçinin qoşunların süvari döyüşçüləri hərəkətlərə maneçilik törədən mis qab və ağır tuluqlar daşıya bilməzdilər. Onlara istənilən təbii (çay, göl, bulaq) və süni (hovuz, su quyusu) su götürməyə, həmçinin başqa maye maddələr (xüsusən süd, bal və s.) götürməyə imkan verən, eyni zamanda yüngül və münasib olan qab lazım idi. Bu qab saxsı (çini) cam və ya piyalə idi. Lakin yürüşdə saxsı (çini) qab sına bilərdi. Buna görə onu xüsusi qabda daşımaq ehtiyacı yaranmışdır. Dəridən düzəldilən qablar saxsı qab üçün etibarlı müdafiə idi. Qab uzaq məsafəyə yürüş zamanı uc hissəsindəki qalın qayış vasitəsilə atın yəhərinə bərkidilirdi. Düşərgəyə çatanda isə həmin qayışlar vasitəsilə onu çadırın divarındakı dayaqlarda asmaq olurdu. Günbəzvari

hissənin dərin kip şəkildə bərkidilən qapaq hissə isə hərəkət zamanı qabların ziyan görməməsinin qarşısını alırdı.

Qabın dəridən düzəldilməsi heç də təsadüfi deyil. Köçəri və yarımköçəri həyat sürən xalqların həyatında dəridən hazırlanmış müxtəlif məmulatlar məişətin əvəzedilməz hissəsinə çevrilib. Belə dəri məmulatlarından biri də yuxarıda təsvir edilən səfər camının qabıdır.

Maraqlıdır ki, dünyanın müxtəlif muzeylərində qorunan oxşar qablar birmənalı olaraq türk xalqlarının mədəniyyətinə aid məişət əşya sayılır.

Rusiya Elmlər Akademiyası Böyük Pyotr adına Antropologiya və Etnoqrafiya muzeyində (Kunstkamera) yuxarıda qeyd olunan qab növlərini görmək mümkündür (4). Kunstkameranın fondlarında oxşar formalı, lakin daha sadə qab da mövcuddur. Türk xalqlarının "şanıkap/çınakap" kimi qeydiyyata alınmış məişət əşyası iki – quru çubuqlardan toxunmuş günbəzvari və milli ornamentlərlə işlənmiş qapaq hissələrdən ibarətdir.

Qazaxstan Respublikasının Kustanay vilayət tarix-diyarşünaslıq muzeyinə XIX əsrin ortalarına aid "kesekap" və ya "darkez" adlanan piyalənin saxlanması üçün istifadə olunan qab mühafizə olunur. Metal sap, tikmə və basma üsullarla işlənmiş dəri eksponat zadəgan qazax nəslinə aid olmuşdur (2).

"Kesekap" – piyalənin daşınması üçün nəzərdə tutulmuş daha bir qab nümunəsi Şərqi Qazaxıstan vilayət memarlıq-etnoqrafik və tarixi-landşaft muzey-qoruğunda nümayiş olunur (5).

Özbəkistan Respublikasının muxtar ərazisi olan Qaraqalpaqstan Respublikasının İ.V.Saviçkov adına Dövlət İncəsənət Muzeyində "şınıkab" adı ilə oxşar qab mühafizə olunur. Piyalə və çayniklərin uzun məsafəyə daşınması üçün istifadə edilən bu dəri qabın hazırlanmasında nazik mis məftillər kişi ustalar tərəfindən məharətlə işlədilirdi. Üzərindəki işləmələrə əsaslanaraq eksponatın XIX əsrin sonu -XX əsrin əvvəllərinə aid olduğu ehtimal edilib (3).

Belə nəticəyə gəlmək olar ki, Milli Azərbaycan Tarixi Muzeyində qorunan iki səfər camının qabı türk xalqlarının yaşadığı ərazilərdə yayılmış, əsasən köçəri həyat tərzi sürmüş əhali tərəfindən istifadə edilmişdir. Ehtimal etmək olar ki, bu qablar Azərbaycandakı tərəkəmə əhalisinin məişət əşyası olmuşdur.

Ədəbiyyat

1. Mustafayev A.H. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı, 2009.
2. Даркез - http://kraeved-kst.kz/ru/fondy-muzeya/fondy-muzeia/darkez.html
3. Народно-прикладное искусство - http://museum.kr.uz/ekspoziciya/narodno-prikladnoe-iskusstvo/

4. Футляр для перевозки пиал - http://www.kunstkamera.ru/kunst-catalogue/items/item-view.seam?c=KAZAH&id=297888&cid=1684199
5. Этнографическое наследие казахов Восточного Казахстана - http://www.vkoem.kz/index.php/exposition/etnotrafiya-kazahov-vko/123-etnograficheskoe-nasledie-kazaxov-vostochnogo-kazaxstana

Ramiya İsmailova
Travel glasswarecase

Summary

Key words: *Travel glassware case, shanykap, leather art, Turkish material and cultural sample*


The submitted article provides information on two exhibits "Travel glassware case" preserved in the "Ethnographic Fund" and "Weapons and Flags" fund of the National Museum of History of Azerbaijan. The Turkic peoples are given a description of these material and cultural samples and compared with similar exhibits stored in the museums of Kazakhstan and Uzbekistan in order to detemine their purpose of use and period.

Рамия Исмаилова
Футляр для стеклянной посуды, используемый в путешествии


Резюме

Ключевые слова: *футляр для стеклянной посуды, кожевенное ремесло, "Шаныкап/чынакап", образец тюркской материальной культуры*

В статье представлена информация о двух экспонатах – кожаных футлярах для стеклянной посуды, используемых в путешествии, которые хранятся в Фонде эногрфии и Фонде оружия и знамён Национального музея истории Азербайджана. Даётся описание этих предметов материальной культуры тюркских народов, а также их предназначение, время изготовления. Проведено сравнение с аналогичными экспонатами, хранящимися в музеях Казахстана и Узбекистана.







Fəridə Xəlilova*

Kustar ipəkçilik sənətində istifadə edilən alət və dəzgahlar haqqında (MATM Etnoqrafiya fondunun materialları əsasında)

UOT 39

Açar sözlər: *ipək, Etnoqrafiya fondu, alət, istehsal, toxuculuq*

Məlum olduğu kimi, Azərbaycanda ipəkçilik sənəti inkişaf etmiş sənət sahələrindən biri olmuşdur. Şamaxı, Şəki, Gəncə, Bərdə, Təbriz, Quba, Qazax, Ərdəbil, Naxçıvan və bir çox şəhərlərdə ipək sap istehsalı, ipəkdən müxtəlif məmulatın hazırlanması geniş yayılmışdır. İlk növbədə əlverişli iqlim, münbit təbii-coğrafi şərait baramaçılığın inkişafı üçün Azərbaycanda (tut bağlarının salınması, barama qurdlarının yetişdirilməsi) lazımi zəmin yaratmışdır. Təbii ki, bu işdə əhalinin sənətkarlığın müxtəlif sahələrinə marağı, sənətkarlıq sahələrinin nəsildən-nəslə ötürülmə ənənəsi, xüsusilə də qadınların əksəriyyətinin toxuculuq, tikmə sənəti növləri ilə məşğul olması öz təsirini göstərmişdir. Təsadüfi deyil ki, xam ipək və o cümlədən, ipəkdən hazırlanmış məhsullar zaman-zaman beynəlxalq ticarətdə üstün mövqeyə malik olmuş, hətta vergi vasitəsi kimi də istifadə edilmişdir. Şamaxı ipəyi Böyük İpək yolu vasitəsilə dünyanın müxtəlif ölkələrinə aparılır, saray adamlarının və din xadimlərinin təmtəraqlı geyimlərinin, ev və məişət bəzəklərinin mühüm tərkib hissəsini təşkil edirdi (4, s.158). İpək məmulatı dəbdəbə, zənginlik ünsürünə çevrilmişdir. Geyimlərdən tutmuş müxtəlif məişət əşyalarına (xalça, cecim, geyim bəzəkləri və s.) qədər ipək parçalardan istifadə edilirdi. Həm zərurət (əkinçilik və maldarlıq üçün yararlı olmayan ərazilərdə), həm də tələbatdan irəli gələrək xam ipək istehsalı və ipək məmulatın toxunması sənaye üsulu müəssisələrin yaranmasına qədər, yəni demək olar ki, XIX əsrin ortalarına qədər öndə olan fəaliyyət sahələrindən biri olmuşdur. Həmin dövrdə Şəki kümdarları il ərzində 15 min puda qədər xam ipək hasil edirdilər. Bu,

*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya elmi-fond şöbəsinin böyük laborantı; faridakhalilova0@gmail.com

bütün Cənubi Qafqazda istehsal edilən ipəyin yarısına bərabər idi (23, s.43-44). Ağır zəhmət, uzun zaman və dərin təcrübə tələb edən ipək istehsalı kustar şəkildə və ya kiçik manufaktura tipində uzun əsrlər Azərbaycanda nəinki öz varlığını qoruyub saxlaya bilmiş, hətta beynəlxalq ticarətdə liderlik etməyə belə müvəffəq olmuşdur. Azərbaycan Osmanlı, Rusiya, Avropa ölkələri ilə ipək ticarətində fəal rol oynamışdır.

Azərbaycanda ipəkçilik sənəti erkən orta əsrlərdə təşəkkül tapdığı güman edilsə də, toxuculuq ənənələri hələ qədim dövrlərdən mövcud olmuşdur. İlk dövrlər, kətan, yun, pambıq lifləri əyrilmişdir. Lakin müxtəlif məmulatın toxunması ənənəvi alətlər vasitəsilə həyata keçirilmişdir. Toxuculuq prosesindəki ilkin mərhələ olan xam ipəyin və keci sapın əldə edilməsi böyük zəhmət, uzun istehsal prosesi hesabına meydana gəlmişdir. Kustar ipək istehsalında primitiv əl alətlərindən tutmuş, uzun dövrlər ərzində təkmilləşmə prosesi keçmiş toxucu dəzgahlarına qədər əksər vasitələrdən istifadə edilmişdir. Təəssüflə qeyd etməliyik ki, ölkəmizdə toxucu dəzgahları sənaye inqilabından sonra daha da təkmilləşmək əvəzinə istehsal prosesindən tamamilə çıxmışdır. Bu səbəbdən də artıq minillərin tarixini adlayan toxuculuq alətləri demək olar ki, unudulmuşdur. Bu nöqteyi-nəzərdən kustar toxuculuq, o cümlədən, ipəkçilikdə istifadə edilən alətlərin öyrənilməsi müstəsna əhəmiyyətə malikdir. Unutmaq olmaz ki, toxuculuq Azərbaycan xalqının mövcud olduğu ən erkən dövrlərdən bəri əsas məşğuliyyət sahələrindən biri olmuşdur. Artıq erkən orta əsrlərdən başlayaraq isə ipəkçilik ölkəmizdə böyük şöhrət qazanmışdır. Türkiyəli alim Şahin Yüksel Yoğan Jozef Strzygonskinin "türklər daşdan binalar yaratmamışlar, çadıra və bütün mebellərə dəyən lif meydana gətirmişlər" fikrinə əlavə edərək yazır ki: "toxuculuq türklərin qədim vətənlərində ən önəmli sənətləri olmuşdur" (26, s.63).

Milli Azərbaycan Tarixi Muzeyinin (MATM) Etnoqrafiya fondunda da həm ipək sap istehsalında, həm də ipək məmulatının toxunmasında istifadə edilən bir sıra əmək alətləri, toxucu dəzgahı və onun hissələri qorunub saxlanmaqdadır. Bu alətlərin bəziləri yun, pambıq toxuculuğunda da istifadə edilmişdir. Nəzərə almaq lazımdır ki, Azərbaycan ərazisində yun parça toxuculuğu daha erkən tarixə malikdir. Bunu ilk növbədə zəngin dağlıq ərazilərə malik Azərbaycanda maldarlığın ilkin təsərrüfat məşğuliyyəti növləri arasında olması ilə əlaqələndirmək lazımdır. Bu səbəbdən də toxuculuq artıq miladdan öncə fəaliyyət sahəsi kimi təşəkkül tapmışdır. Kültəpə qədim yaşayış məskənində tapılmış ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucluqları, bizlər və s. kimi arxeoloji materiallar da fikrimizi bir daha təsdiqləyir (7, s.43).

Həm yun, həm də ipək sap əyrilməsində istifadə edilən unikal əmək alətlərindən biri əl iyi olmuşdur. İpəkçilikdə əl iyi keci sap hazırlanmasında istifadə edilirdi. Pilə (çıxdaş baramaların bişirilməsi ilə əldə olunan kütlə) "bişirilib" hazır olandan sonra evdar qadınlar əl iyi (teşi, əyircək, tağalaq, diyir,

fırlağan) vasitəsilə onu əyirib keci sap halına salardılar (22, s.63). Bu sadə və primitiv görünən texnologiya ibtidai icma dövründən, demək olar ki, XX əsrə qədər qadınlar tərəfindən yun, pambıq, ipək sap hazırlanmasında ən ümdə metod olmuşdur. MATM Etnoqrafiya fondunda da əl iyinin keçmiş məişət tarixinə bələdçilik edən bir sıra nümunəsi qorunub saxlanılır. Bu alət təxminən 30-40 sm uzunluğunda ağacdan hazırlanmış və eynilə həmin materialdan ibarət başlığa malikdir. Muzeyin fondunda qorunan bəzi nümunələr başlıqsızdır. Amerikalı arxeoloq və dilçi Elizabet Vaylandın qənaətinə görə məhz ilkin əl iyləri başlıqsız formada olmuşdur: "Hələ neolit dövründə insanlar milin sallanmasını azaltmaq və fırlanma müddətini uzatmaq üçün kiçik bir başlıq əlavə etməyin faydalı olduğunu aşkar etdilər" (29).

Bu alət bir çox türk xalqlarında daha çox teşi və ya tağalaq olaraq adlanır. Görkəmli azərbaycanlı şair Məhəmmədhüseyn Şəhriyarın öz əsərlərinə verdiyi şərhlərdə teşi haqqında məlumat vardır: "Teşi-otdöyən şəklində olan bir növ toxuculuq alətidir ki, nazik bir çubuq vasitəsilə kənd qadınları onu fırladıb dizləri üzərində topladıqları ağ yun və ya pambığı əyirirdilər" (25, s.444).

İpəkdən hazırlanan əsas məmulat məhz xam ipəkdən əldə edilirdi. Xam ipək isə mancalıq vasitəsilə müxtəlif mərhələlərdən keçərək hazırlanırdı. Bu ipəklə əsasən bir sıra baş geyimləri (örpək, kəlağayı, çadra və s.), müxtəlif növ geyimlərin hazırlanmasında istifadə edilən ipək parça növləri (darayı, tafta, atlaz, qanovuz, mov) toxunurdu. Keci sap xam ipək telinə nisbətən xeyli yoğun olduğundan o xüsusi növ ipək məmulatının toxunmasına sərf olunurdu. Bunların arasında cecim, tətinlik, xasqırmızı, aloyşa, alaca, çuxa, şalvar, köynək mühüm yer tuturdu (21, s.48).

İp əyrilməsində ən məhsuldar alət cəhrə alətidir. MATM Etnoqrafiya fondunda bir neçə cəhrə nümunəsi qorunub saxlanılır. Bu primitiv, lakin kifayət qədər əhəmiyyətli alət ipəkçilik sənətində geniş istifadə edilmişdir. Çarx, dəstək və sap bərkidilən hissədən ibarət olan bu alət vasitəsilə sap əyrilirdi. Cəhrənin quruluşu düz taxta dirək üzərinə iki əlavə taxta dirək vasitəsilə bərkidilmiş təxminən 60 sm diametrində olan fırlanan çarxdan ibarətdir. Həmin taxta dirəyin digər ucunda isə iki kiçik taxta dirək vasitəsilə bərkidilmiş sap dolamaq üçün 30 sm uzunluqda dəmir mil mövcuddur. Sözügedən alət vasitəsilə sap əyrilməsi ağır zəhmət tələb etməsə də məhsuldarlıq yüksək çeviklik və dərin təcrübə hesabına əldə olunurdu. Bu səbəbdən də bu işlə daha çox səriştəli və bacarıqlı insanlar məşğul olurdu. Digər xalqlarda da cəhrənin müxtəlif formaları mövcud olmuşdur. XX əsrə qədər Azərbaycanın demək olar ki, bütün bölgələrində cəhrə alətindən istifadə geniş yayılmışdır. O zamanlar ən yaxşı cəhrələr Cavanşir qəzasında hazırlanan cəhrələr hesab olunurdu (27, s.14).

MATM Etnoqrafiya fondunda cəhrənin bir ədəd dik forması qorunub saxlanılır. Avropa tipli olan bu cəhrə XIX əsr - XX əsrin əvvəllərinə aid edilir. Belə cəhrələrin çarx hissəsi əl tutacağına paralel yerləşdiyi üçün daha kompakt hesab edilir.

"Cəhrə" sözünün etimologiyasına gəldikdə fars mənşəli olduğu bildirilir. Bizim

ləhcədə "cığırcıq" (cəhrənin çıxartdığı səslə, cırıltı ilə bağlıdır) işlədilib (31). Y.V. Çəmənzəminlinin əsərindəki nümunəyə əsasən belə adlanmanın məntiqəuyğun olduğunu bildirmək olar: "Arvadı cəhrə əyirirdi və cəhrənin qəmli cırıltısından hissə gəlib, ağı deyir ölənlərini birbir yadına salırdı" (5, s.173).

Onu da qeyd edək ki, Hindistan məişətində istifadə edilən oxşar alət "çakra" adlanmışdır. Fars və urdu dillərindəki "çarkxa" sözləri oxşardır və "çarxa"- təkər sözündən yaranıb, sanskrit dilində "dairə" mənasını verən "çakra" ilə bağlıdır (30). Lakin cəhrə sözünün sinonimlərinin də el arasında işlədildiyi hallarına rast gəlirik. Məsələn, "qız ana kirgənəsində ip əyirür, oğul ata süfrəsi salur" atalar sözündə "kirgənə" məhz cəhrə mənasını verir (2, s.285).

Toxuculuq, sap əyrilməsi Azərbaycan qadınının gündəlik həyatının mühüm bir hissəsi olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, erkən toxuculuq alətləri, o cümlədən, cəhrə aləti ilk vaxtlar əsasən yun sap əyrilməsi üçün istifadə edilirdisə, Azərbaycan məişətində ipəkçilik xüsusi çəkiyə malik olmuşdur. Nəzərə almaq lazımdır ki, keçmiş məişətdə insanlar demək olar ki, bütün istifadə edilən toxuma və tikmə ləvazimatlarını evdə özləri hazırlayırdılar. Bu səbəbdən ev işləri və uşaq tərbiyəsi ilə məşğul olan qadınlar zamanının böyük hissəsini də ip istehsalı, yun və ipək məmulatının toxunmasına, həmçinin tikmə sənətinə həsr edirdilər. Bunu qadınların gündəlik həyatını əks etdirən bir çox folklor nümunələri də sübut edir:

Altı aydı düşüb bir çuxa bəhsi,
Üç aydan bir gəlmir cəhrənin səsi
Paslanıbdır iyi, çıxmır düyçəsi,
Küllüklərdə gəzir corab milini (3, s.180).

Artıq məlum olduğu kimi, xam ipək mancalıq vasitəsilə əldə edilirdi. Burada ipək tellərin əldə edilməsi uzun, böyük zəhmət, bilik və bacarıq tələb edən proseslərdən keçirdi. MATM Etnoqrafiya fondunda da mancalıq dəzgahının, həmçinin xam ipək toxuculuğu prosesində istifadə edilən alətlərin hissələri qorunub saxlanılır. Mancalığın əsas hissələrinə mis və ya çuğun tiyan, kələf çarxı və onu hərəkətə gətirən qulabəndli təpkən daxil idi (21, s.77). Mancalıq əl və ayaq ilə hərəkətə gətirilmə prinspinə görə iki cür olurdu. Hər iki mancalıqda kələf çarxı istifadə olunurdu. Lakin ayaq mancalığında çarx əl ilə deyil, ona birləşdirilmiş təpkən aləti vasitəsilə ayaqla hərəkətə gətirilirdi. Sözügedən fondda 2 ədəd kələf çarxı nümunəsi və barama bişirilməsində istifadə edilən iki ədəd mis tiyan saxlanılır (11, 12, 14, 17). Çarxlardan biri dəmir, digəri ağac materialdandır. Çarxlar ox üzərinə keçirilmiş pərlərdən ibarətdir. Kələf çarxlarına bişirilən baramalardan açılan saplar kələfləndirdi. Ümumiyyətlə, xam ipək istehsalı prosesində ipək tellər bir neçə dəfə kələfləmə prosesindən keçməli olurdu. Bu səbəbdən kələf çarxları böyük əhəmiyyətə malik idilər. Həmçinin Etnoqrafiya fondunda əldə istifadə edilən

kələfləmə aləti də saxlanılır (9). Həmin alət dəmirdən düzəldilmişdir. Üç ədəd dəmir çubuqlar oval formada birləşir. Bu quruluş kələfin rahat çözülməsini təmin edirdi.

İpək istehsalında kələfləmə prosesi bir neçə dəfə təkrar edildiyindən ağac materialından hazırlanan küpü aləti müstəsna əhəmiyyətə malik idi. Qapalı bir çətiri xatırladan bu alət əsasən nəqqatlar tərəfindən işlədilirdi. Xam ipək istehsalının önəmli mərhələsini təşkil edən ipək tellərinin yararlı hissəsinin yararsızdan ayrılması ilə nəqqatlar məşğul olurdular. Nəqqat eyni zamanda çillə və ara ipəyi üçün bir neçə qatdan ibarət ayrıca ipək teli hazırlayıb küpü adlanan əmək aləti üzərinə sarıyırdı (21, s.83). Onu da qeyd etmək lazımdır ki, nəqqatlıqla əsasən qadınlar məşğul olurdular.

Xam ipək istehsalı yuxarıda göstərildiyi kimi, bir neçə mərhələdən keçirdi. Önəmli mərhələ olan toxuma prosesinə hazırlıq üçün ipək sapların nirə və şanaya düzülməsi əsas proses idi. Bununla tərrah adlanan sənətkarlar məşğul olurdular. Mütəhərrik ipək dəzgahlarında çillə düzümünün (paralel düzüm) alt və üst tayları nirə adlanan əmək alətinin köməyi ilə mütəmadi surətdə açılıb-örtülürdü. Çarpazların arasından keçirilən ara ipəyi şana vasitəsilə bir-birinin yanına sıxlaşdırılıb bərkidilirdi (21, s.114). Toxuculuq sənətində böyük irəliləyiş hesab edilən nirə və şananın MATM Etnoqrafiya fondunda bir neçə nümunəsi mühafizə olunur. Nirə və şana təxminən 150 sm uzunluqda iki ağac çubuq arasına perpendikulyar şəkildə bərkidilmiş kiçik metal çubuqlardan ibarətdir. İpək sapların nirə və şanaya düzümündən sonra toxuma prosesi başlanırdı. Son dərəcədə böyük diqqət tələb edən bu işdə səhv düzülüş məmulatın düzgün toxunmamasına səbəb olurdu. Bundan başqa hər bir ipək məmulatının fərqli ölçüləri və qalınlığı olduğundan ipək tellərin nirə və şanaya düzülməsi həmin məmulata uyğun qaydada icra edilirdi. Sözügedən əmək alətlərinin istifadə təyinatını əyani şəkildə MATM Etnoqrafiya fondunda mühafizə edilən kəlağayı dəzgahı vasitəsilə də görmək mümkündür (19).

Toxuma prosesində istifadə edilən əmək alətləri sadəliyi ilə seçilir. Onlardan biri kirkitdir. MATM Etnoqrafiya fondunda 8 ədəd kirkit nümunəsi qorunub saxlanılır. Bu kirkitlər buynuz və metaldan hazırlanıblar. Kirkitlər təxminən 23-28 sm uzunluqda olub bir tərəfi dilikli formadadır. Bir nümunənin hər iki tərəfi diliklidir (18). Kirkit toxuma prosesində məmulata növbəti arğacı saldıqdan sonra bərkitmək üçün istifadə edilirdi. Kirkit də digər əl alətləri kimi ilk öncə yun toxuculuğunda istifadə edilmişdir. Həvə və kirkitlə bağlı Naxçıvan ərazisində tanınmış epiqrafçı-alim Məşədixanım Nemət tərəfindən tədqiq edilən XVI əsrə aid qəbirüstü abidə maraq doğurur. Burada dik hananın ətrafında iki qadın təsviri vardır (28, s. 186). Qadınlardan biri əlində kirkit, digəri isə bir əlində həvə, digər əlində isə yun darağı tutmuşdur.

İpək parçalar Azərbaycan məişətində çoxlu sayda məmulatın hazırlanmasında istifadə edilirdi. Bir-birindən maraqlı, əsrarəngiz toxuculuq sənəti nümunələri

yaradan qadınlar ipəkdən xalça və xalça məmulatı, geyim və aksessuarlar, örtüklər, süfrələr, tuman bağı, müxtəlif geyim bəzəkləri toxuyur, həmçinin ipək saplarla göz oxşayan fərqli, rəngarəng naxışlar salırdılar. Unutmaq olmaz ki, bütün bu keçmiş məişət ənənələri, xalqın o zamankı dünyagörüşünü özündə əks etdirən ən kiçik məmulat belə böyük zəhmət hesabına başa gəlmişdir. MATM Etnoqrafiya fondunda təkcə xam ipək və keci sap hazırlanmasında istifadə edilən alətlər deyil, o cümlədən ipəkdən toxunan və məişətdə geniş istifadə edilən qaytanların toxunması üçün istifadə olunmuş balınc qaytan dəzgahı mövcuddur (13). Balınc qaytan iki hissədən ibarətdir. Oturacağı gildəndir, qaytan toxunan əsas üst hissəsi isə bütöv soyulmuş qoyun dərisindən hazırlanmış və saman doldurulmuşdur. Yuxarı hissəyə mismarla aşıxlar bağlanır. Dəzgahın işlənmə texnologiyası geniş tədqiqata cəlb edilməmişdir, lakin bu barədə məşhur pedaqoq, maarifçi-alim Rəşid bəy Əfəndiyevin çəkdiyi və MATM Etnoqrafiya fondunda mühafizə edilən təsviri vasitəsilə qismən məlumat almaq mümkündür (10). Müəllif təsvirdə aləti "qaytan-dağarı" adlandırır.

Geyimlərin, məişətdə istifadə edilən müxtəlif əşyaların kənarlarına, həmçinin üzərinə əsasən bəzək məqsədilə əlavələr edilirdi. Müxtəlif bəxyə, bafta, zəncirə, həşyə, güləbətin tikmə və muncuqdan ibarət olan bu əlavələr həm tikişlərin üstünü basdırır, eyni zamanda dekorativ-bəzək funksiyası daşıyırdı (1, s.90). Bu bəzəklər xüsusi bafta dəzgahında toxunurdu. Etnoqrafiya fondunda həmin dəzgahın yeganə bir nümunəsi qorunub saxlanılır. Dəzgah taxta dirək üzərində iki tərəfdən bərkidilən sütunlardan ibarətdir. Altdakı dirəkdə üç ədəd "göz" vardır. Baftalar ipək sap və güləbətinlə müxtəlif naxışlarla toxunur və üzərinə toxunan məmulata əsrarəngiz görünüş bəxş edirdi.

İpəkdən hazırlanan məmulat arasında tumanbağı xüsusi yer tuturdu. Qadın və kişilərdə tumanın, şalvarın belini bağlamaq üçün istifadə edilən tumanbağılar eyni zamanda geyimə bəzək verirdilər. Xalça, palaz, cecim kimi böyük ev əşyaları, geyimləri, həmçinin məişətdə istifadə edilən ən kiçik əşyalar qadınlar tərəfindən xüsusi zövq və bacarıqla toxunur, tikilir və onlara xüsusi bəzəklər verilirdi. Tumanbağılar da ipək iplik üzərində güləbətin qıy, pürçüm və qotazlarla bəzədilərək geyimləri tamamlayırdı. MATM Etnoqrafiya fondunda mühafizə edilən tumanbağı toxumaq üçün dəzgah dörd ədəd bir-birinə keçirilmiş ağacdan ibarətdir (16). Eksponatın üzərində yarımcıq toxunan tuman bağına kiçik ağac çubuqlar keçirilmişdir. Görünür ki, bu çubuqlar toxuma prosesi üçün istifadə edilirdi. Yeni eranın əvvəllərinə aid olan Mingəçevir və Babadərviş katakomba qəbirlərindən bağtoxuyan dəzgahın hissələri tapılmışdır (24, s.73). Tumanbağı toxuyan dəzgah haqqında dəyərli mənbələrdən biri MATM Etnoqrafiya fondunda saxlanılan R. Əfəndiyevin çəkdiyi təsvirdir (10). Buradan görünür ki, ipək tellərini halqavari dəzgaha sarıyan toxucu qadın bir tərəfdən ağac çubuqlar salaraq toxuma prosesini həyata keçirir. Təsvirdə sözügedən dəzgah "bağ-ağacı" adlandırılır. Şirvanın

dağətəyi və aran kəndlərində bu alət "bağtoxuyan", yaxud "çapara dəzgahı" adı ilə məlum olmuşdur (24, s.73).

MATM Etnoqrafiya fondunda qorunan əmək alətlərindən biri mancalıqda istifadə edilən əl ağacıdır (14). Alət quruluş etibarilə oraqı xatırladır. Rəşid bəy Əfəndiyevin çəkdiyi və MATM Etnoqrafiya fondunda mühafizə edilən təsvirlərdən birində bu alət qamçı adlanır. Təsvirdə mancalıqçı qamçı vasitəsilə kürədə bişirilən baramalardan sapı ayırır. Eyni alət MATM Etnoqrafiya fondunda qorunub saxlansa da, adlanması haqqında dəqiq məlumat yoxdur. Bu baxımdan müəllifin təsviri son dərəcə əhəmiyyətlidir (8, s.131). Fondda mühafizə edilən qamçı, həmçinin barama bişirilməsi üçün istifadə edilən mis tiyan 1963-cü ildə muzeyin əməkdaşları Maya Cəbrayılova və Ətiqə İzmayılova tərəfindən Nuxa ekspedisiyası zamanı əldə edilərək fondun kolleksiyasını zənginləşdirmişdir (15).

İpəkdən hazırlanan məmulatlar arasında kəlağayı xüsusi yer tuturdu. Özünəməxsus zərif görünüşə malik baş örtükləri olan kəlağayılar Azərbaycan milli geyimlərinin əsas atributuna çevrilmişdir desək yanılmarıq. Təsadüfi deyildir ki, kəlağayı sənəti 2014-cü ildə YUNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısı"na daxil edilib. Mürəkkəb toxunma prosesi keçən kəlağayılar qadınların həm gözəllik, həm ismət rəmzinə çevrilmişdir. Əbəs deyildir ki, artıq müasir dövrdə də kəlağayılar geyim ünsürü olaraq yenidən öz şöhrətini geri qaytarır. Lakin təəssüflə qeyd etməliyik ki, müasir dövrdə kustar üsulla əldə edilmiş qədim ənənələri özündə yaşadan kəlağayılara rast gəlmək artıq mümkün deyildir. Bu nöqteyi-nəzərdən kəlağayı dəzgahının öyrənilməsi böyük əhəmiyyətə malikdir.

Yuxarıda qeyd etdiyimiz kimi, MATM Etnoqrafiya fondunda bir ədəd kəlağayı dəzgahı qorunub saxlanılır. Dəzgah t.ü.f.d. Gülzadə Abdulova tərəfindən 2010-cu ildə İsmayıllı rayonu Basqal kəndinə etnoqrafik ezamiyyət zamanı əldə edilərək fonda daxil olunmuşdur. Ağac və metal hissələrdən ibarət olan dəzgah pəlkeş, nəvər, cangüzə, mətit, nirə, şana, külçə, hərləmə, saz və saz teli, xərək, yezbənd, qarqarlar və 3 ədəd qarğı adlanan hissələrdən ibarətdir.

Kəlağayı istehsalında işlənən dəzgah və alətlərin, demək olar ki, hamısını yerli ustalar düzəldirdilər (21, s.143). Belə dəzgahların ölçüsünün böyük olması daha çox yer tələb etdiyindən kustar emalatxanalarda az sayda yerləşdirilirdi. G.Abdulovanın verdiyi məlumata görə, 18 kv.m-lik otaqda yalnız 2 dəzgah yerləşdirmək mümkündür. Kəlağayı istehsalı daha çox kustar səciyyə daşısa da, bir o qədər keyfiyyətli və zəngin çeşidli olurdu. Xatırladaq ki, kəlağayı dəzgahlarında təkcə kəlağayılar deyil, digər baş örtükləri (örpək) və yorğanüzülər də toxunurdu.

Digər ipək məmulatdan fərqli olaraq kəlağayılar məhz toxunma prosesindən sonra boyanırdı. Öz naxışları ilə ad qazanan kəlağayılara basmaqəlib alətləri vasitəsilə daha çox haşiyə xarakterli naxışlar vurulurdu. Basmaqəlibi əllə kəsir və şəkli ona köçürmək üçün çox da böyük olmayan qarmağa bənzər qələm adlanan alət vasitəsilə üzərini oyurdular (20). Onu sol əldə, çəkici isə sağ əldə tutur və ehmalca

qələmi vurmaqla şəkli ağaca köçürürdülər (6, s.115). MATM Etnoqrafiya fondunda bir ədəd qələm aləti nümunəsi qorunub saxlanılır. Qələm ümumi uzunluğu 10 sm olan, əyri formada dəmir materialdan olub uc hissəsi yastılanmış formadadır.

Armud ağacından xüsusi qəlib ustalarına sifarişlə düzəltdirilmiş bu qəliblərin müxtəlif çeşnilərinə və hər bir çeşninin irili-xırdalı cürbəcür çeşidinə təsadüf edilirdi (21, s.148). MATM Etnoqrafiya fondunda müxtəlif formalı qəliblər saxlanılır. Bu qəliblərin üzərində həndəsi, nəbati naxışlar mövcuddur. Fondda mühafizə edilən qəliblər Gəncədə kustar üsulla hazırlanmışdır. Beləliklə, təbii boyalarla basmaqəlib üsulu ilə naxışlanan kəlağayılar uzun əsrlər boyu milli geyim mədəniyyətinin əsrarəngiz elementlərindən olmuşdur.

Sənətkarlıq sahələri hər bir xalqın keçmiş məişəti, ənənələrini özündə yaşadır. Nəzərə almalıyıq ki, Azərbaycanın Sovet imperiyasının tərkibində olduğu dönəmdə əsas diqqət zəruri olan xammal tədarükünə yönəldiyindən ayrı-ayrı kustar fəaliyyət göstərən emalatxanalara diqqət yetirilməmiş, yerli alətlərin təkmilləşdirilməsində hakimiyyət maraqlı olmamışdır. Yuxarıda da qeyd etdiyimiz kimi, XIX əsrdən etibarən bütün qüvvə sənaye üsulu istehsal fəaliyyətinə yönəldiyindən kustar alət və dəzgahlar sıradan çıxmağa başlamışdır. MATM Etnoqrafiya fondunda təkcə ipəkçilik deyil, sırf yun, pambıq toxuculuğunda da istifadə edilən alətlər qorunub saxlanılır. Ənənələrimizin tarixdən silinməməsi üçün bu alətlərin qorunması ilə bərabər öyrənilməsi də müstəsna əhəmiyyət kəsb edir.

Mənbələr və ədəbiyyat

1. Abdulova G., Vəliyev F. Qarabağ geyimləri. Bakı, 2016.
2. Atalar sözləri. Bakı, 2013.
3. Aşıq Ələsgər. Əsərləri. Bakı, 2004.
4. Babayev T., Şahbazov T. Basqalda ənənəvi ipəkçiliyin bəzi məsələlərinə dair /AMEA-nın Xəbərləri. İctimai elmlər seriyası. №2, 2015.
5. Çəmənzəminli Y.V. Əsərləri: 3 cilddə. I cild. Bakı, 2005.
6. Əliyev S. Azərbaycanda toxuculuq və onun məişətdə rolu. Tarix elmləri doktoru dissertasiyası. Bakı, 2009.
7. Hacıyeva S. Naxçıvanda sənətkarlıq. Naxçıvan, 2017.
8. Xəlilova F. Rəşid bəy Əfəndiyevin MATM Etnoqrafiya fondunda mühafizə edilən bəzi materialları haqqında / Milli Azərbaycan Tarixi Muzeyi -2017. Bakı, 2017.
9. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondu, inv. 119.
10. MATM EF, inv. 1108.
11. MATM EF, inv. 4350.
12. MATM EF, inv. 4351.
13. MATM EF, inv. 4483.

14. MATM EF, inv. 5325.
15. MATM EF, inv. 5325a.
16. MATM EF, inv. 7044.
17. MATM EF, inv. 8253.
18. MATM EF, inv. 8390.
19. MATM EF, inv. 9891.
20. Məlumat İsmayıllı rayonu, Zərnəva kənd sakini, 1956-cı il təvəllüdlü Adıgözəlov Qəhrəman Əbülhəsən oğlundan alınmışdır.
21. Mustafayev A. N. Azərbaycanda şərbaflıq sənəti (tarixi-etnoqrafik tətqiqat). Bakı, 1991.
22. Mustafayev A.N. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı, 2009.
23. Mustafayev A.N. Şəki sənətkarlar diyarıdır. Bakı, 1987.
24. Mustafayev A.N. Şirvanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tətqiqat). Bakı, 1977.
25. Şəhriyar M. Seçilmiş əsərləri. Bakı, 2005.
26. Yoğan Ş.Y. Türk el dokumacılığı. İstanbul, 1978.
27. Сборник материалов для описания местностей и племён Кавказа. Выпуск 11. 1891.
28. Немат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том 3. Баку, 2001.
29. https://booksvooks.com/womens-work-the-first-20000-years-women-cloth-and-society-in-early-times-pdf.html/
30. https://cottonrack.com/blogs/journal/where-did-the-charkha-spinning-wheel-come-from.
31. https://www.azleks.az/online-dictionary.

Farida Khalilova
Tools and weaving machines used for the production of silkworm handicrafts (based on the materials of the Ethnography Fund of NMHA)

Summary

Keywords: *silk, Ethnographic fund, tool, production, weaving*

The article provides information about handicraft silk-spinning tools and looms. Note that the rich collection of the Ethnographic fund of NMHA contains exhibits used for sewing woolen, silk, cotton products. In Azerbaijan, which has


rich traditions of silkworm breeding, primitive but effective means were used in the production of weaving products. In addition, the purpose of the mentioned tools is noted, which contributes to the study of materials from the Ethnography fund. It is extremely important to indicate the names of the guns, to provide information about the history of their use. The presence in our country since ancient times of these tools, which were used in weaving and in other regions, is the main factor proving the antiquity of the weaving traditions existing here. Given that these tools and machines have fallen out of use, their involvement in research is extremely important for the study of our traditions and the history of the craft.

Фарида Халилова
Об орудиях и станках, применявшихся в кустарном производстве шелка (на основе материалов Фонда этнографии НМИА)

Резюме

Ключевые слова: *шелк, Фонд этнографии, орудие, производство, ткацкое дело*

В статье даются сведения о кустарных шелкопрядильных орудиях и станках. Отметим, что в богатой коллекции Фонда этнографии НМИА хранятся экспонаты, применявшиеся для шитья шерстяных, шелковых, хлопчатобумажных изделий. В Азербайджане, имеющем богатые традиции шелководства, в производстве ткацких изделий применялись примитивные, но эффективные средства. Кроме того, отмечается назначение упомянутых орудий, что способствует изучению материалов Фонда этнографии. Указание названий орудий, предоставление информации об истории их применения исключительно важно. Наличие в нашей стране с древнейших времен этих орудий, использовавшихся в ткацком деле и в других краях, является основным фактором, доказывающим древность имеющихся здесь традиций ткачества. Учитывая то, что данные орудия и станки вышли из употребления, их привлечение к исследованию исключительно важно для изучения наших традиций и истории ремесла.



Cəhrə. EF inv. 4042




Kələfdolayan. EF.inv. 119




Əl iyi. EF inv. 2017



Balınc qaytan. EF inv. 4483.



Kələğayı dəzgahı. EF inv. 9891



Küpü. EF inv.666

Aygün Quliyeva*

Keçmiş Azərbaycan məişətində gəlinciklər, onların mənşəyi və dini-mifoloji dünyagörüşündə yeri

UOT 39

Açar sözlər: *mərasim, kukla, gəlincik, ayin, geyim*

Oyuncaqlar uşaqların inkişafında mühüm rola malik olmaqla yanaşı, onların fiziki, zehni və bədii cəhətdən tərbiyə edilməsində, estetik zövqünün formalaşmasında böyük əhəmiyyətə malikdir.

Tədqiqatlar zamanı məlum olmuşdur ki, qız uşağının sevib oynatdığı gəlincik-kuklalar çox qədim dövrlərdən dünyanın bir çox yerlərində istifadə olunaraq, yalnız uşaqlar üçün deyil, eyni zamanda böyüklərin də ona olan marağı, insanların duyğu və düşüncəsini dilə gətirməsi, dövrün eyni zamanda sənət anlayışını özündə yaşatması ilə əlaqədardır. Gəlincik-kuklalar, parça, gil, taxta, qaşıq, kağız, karton və başqa materiallardan hazırlanmış, əl, çubuq və ya iplərlə hərəkətləri idarə edilən fiqurlardır (18, s.3).

Yazılı mənbələrdə m.ö.II yüzillikdə Misirdə ipli kuklaların istifadə olunması haqqında məlumatlara rast gəlinir. Min illər öncə misirli uşaqlar daş, saxsı və ya ağacdan düzəldilmiş hərəkət edən üzvləri və süni saçları olan gəlinciklərlə oynamışlar. Qədim Yunanıstanda və Romada isə uşaqlar mum, gil-torpaq, ox və yaydan hazırlanan oyuncaq gəlinciklərdən istifadə etmişlər.

Qədim Yunanıstanda qız uşaqlarının öz uşaqlıq oyuncaqlarını allahlarına qurban vermək kimi adətləri var idi. Belə ki, toy ərəfəsində 14 yaşlı qızlar öz gəlinciklərini məbədə təqdim edərdilər ki, bu da o vaxtlar yeniyetməliyə keçid mərasimi sayılmışdır. İlk kukla izlərinə Qədim Yunanıstanda Dionis mərasimlərində Dionis heykəlinin tamaşaya gətirilməsi səhnəsində də rast gəlinir (19).

Gəlinciklərin yaranması qədim ayinlərin icrasından başlanğıc alaraq, oyun və

*Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya elmi-fond şöbəsinin elmi işçisi; a.quliyeva.1979@gmail.com

tamaşalara da sirayət etmişdir. Sibir türkləri arasında kukladan ibarət qoruyucu töslərin (tözlərin) mövcudluğu faktları da məlumdur (17, s.290).

Şaman rituallarında da qoruyucu ruhları təmsil edən və "emeget" adlanan kuklalardan geniş istifadə edilmişdir. İslamaqədərki dövrlərdə kuklalar magiyada əsas sehr vasitəsi kimi mühüm rol oynamış (7, s.106), şaman tipi olan bakşılar xəstələri sağaltma seanslarında onlardan yararlanmışlar. Altay və Orta Asiya kökənli kuklaların Qafqaz və Anadolu türklərində müxtəlif oyunlara vəsilə olması daha sonrakı inkişafla və qismən də qarşılıqlı təsirlə bağlıdır (7, s.109).

Kukla, Orta Asiya mədəniyyətinin bir qalığı olaraq şamanların dəfn ayinlərində də istifadə edilmişdir ki, bu zaman ölünün ruhuna yardım etmək məqsədilə daşdan və ya taxtadan "kukurcak" deyilən müqəvvalar hazırlanmışdır (18, s.4).

Kukla sözünün mənasına nəzər saldıqda, bu kəlmənin yaponca "kugutsu", türk və rusca "kukla" olması diqqəti cəlb edir (18, s.4). "Kukla" sözünün etimoloji mənalarından olan- kavurcak, kudevcik, kabarcuk, və s. adlar qədim türk ləhcələrindən (14, s.291) və Mahmud Kaşğarinin "Divani-Lüğəti-it-türk"əsərindən də məlumdur. Əsərdə, qız uşaqlarının insan şəklində düzəldərək oynadıqları kukla- "kudurçuk" kimi xatırlanır (9, s.479).

Türk xalqlarının mədəniyyətində kuklaların teatrlaşmadan əvvəl inanclardan gəldiyi bəhs edilir. Bu inam və ayinlərdə əcdad ruhunun tərənnümü kuklalarla həyata keçirilmiş, qoruyucu ruh kimi arzu və istəkləri həyata keçirməkdə bir vasitə olmuşdur. Qazaxıstan və Özbəkistanda yaxın adam öləndən sonra evdə onun xatirəsini yaşadan kuklalar düzəldib saxlamaq adəti də mövcuddur (14, s.291).

Eyni ayinlərə islamaqədərki dövrlərdə, XI əsr qədim Azərbaycanda, atəşpərəstlərin Deybamehr adı ilə icra etdiyi Muğ mərasimlərində rast gəlinir. Muğkoşi və ya Müğküşi adı ilə Dey ayının XV günü (3 yanvar) keçirilmiş bu mərasimdə, şənlik iştirakçıları xatirəsini yad etmək istədikləri ölülərin xəmir və ya gildən yapılmış fiqurlarını yol üstə düzür və ya taxtda oturdur, onlara bir müddət ehtiram və təzim etdikdən sonra, mərasimin sonunda yandırırdılar. Sonrakı dövrlərdə öz ilkin mahiyyətini itirmiş bu mərasim Ömərtoyu şəbih tamaşasına çevrilmişdir (2, s.147). Orta əsrlərdən bəri Abşeron kəndlərində mövcud olmuş Ömərtoyu mərasimində, xalqın ərəb xilafətinə qarşı mənəvi-ideoloji mübarizəsinə çevrilmiş məsxərə-tamaşa xarakterli şənlikdə də müqəvva düzəldilmişdir. Müxtəlif məzhəkəli oyunlar, şerlərlə yanaşı bu mərasim üçün hazırlanan xəlifə Ömərin müqəvvası da o zamanın oyun kuklalarını yaradan qadınlarımızın yaradıcı təxəyyülündən bəhrələnirdi (2, s.168).

Xalq mərasimlərində gəlinciklərin izinə Anadolunun bəzi əyalətlərində tilsim ünsürü kimi rast gəlinməkdədir. Ən geniş yayılmışı isə yağış yağdırılması məqsədilə keçirilən ayinlərdir ki, bu zaman yağışı təmsil edən kukla "gəlin" obrazını tərənnüm etmiş, ətraf bölgələrə yayıldıqca müxtəlif adlarla- "çaput adam, çömçə qadın, çömçə gəlin, çömçəcik, su gəlini, qodu gəlin"lə tanınmaqdadır. Məhz oyuncaq kuklanın

"gəlincik" adlanması da bu mərhələlərdən keçərək formalaşmışdır.

Mərasimlərə gəldikdə isə, Anadolu bölgəsində quraqlıq zamanı bir uşağın çömçədən kukla düzəldib xüsusi nəğmələr və türkülərin müşayiətilə kəndin ətrafında gəzdirməsi, insanlar tərəfindən evlərin damından kuklanın üzərinə su səpilməsi və uşağa müxtəlif yeməli şeylər verilməsi adəti (18, .s.4). Azərbaycanın Qərb bölgəsində və eləcə də Naxçıvanın Ordubad rayonunda "Çömçəxatun gəzdirmək", "Qodu-qodu" mərasimi adı ilə tanınmaqdadır. Lakin bu mərasimi kiçik uşaqlar deyil, gənclər, bəzən də yaşlı qadınlar icra etmişdir (3, s.5).

Mənşə etibarilə daha qədim olan Qodu-qodu oyunu günəşi çağırmaq ənənəsi ilə bağlı yaranıb, xalq arasında kütləvi hal almış, müəyyən mərhələdə mərasimlər sistemini yaratmışdır (15, s.139-140) .

Şəki bölgəsində icra olunan "Qodu-qodu" mərasimi yağışlı günlərdə oynanılırmış. Belə hesab edilmişdir ki, qodu-qodu gəzəndə yağış kəsilir. Uşaqlar müqəvva düzəldir, onu nəğmələr oxuya-oxuya əllərində gəzdirib, müxtəlif evlərə gedirdilər (6, s.32)

Daha maraqlı faktla Naxçıvan folklorunda rastlaşırıq. Naxçıvan bölgəsinin iqlimi kəskin kontinental olduğundan burada yağış yağdırma və günəşi çağırma ayinləri mövcud olmuşdur. Burada Qodu-qodu mərasimi yağışın kəsilməsinə görə niyyət olunurdusa, "Çömçəxatun" mərasimi yağış yağmasını niyyət edərək keçirilərmiş.

Qodu-qodu mərasimində bir budağı gəlin kimi bəzəyib, boynuna muncuq salar, uşağa verib gəzdirərmişlər. Kimlə rastlaşsa salam verilməli idi. Qodunu gəzdirənlər belə oxuyarmışlar:

Qodu-qodu gördüyünüz varmı?
Qoduya salam verdiyiniz varmı?
Qodu gedənnən bəri
Gün üzü gördüyünüz varmı?
Qodunu atdan düşürün,
Qoduya südlü aş bişirin,
Qodu sabah gün çıxartmasa,
Vırın atdan düşürün.

Deyilənə görə, bu nəğməni oxuyandan sonra hava oyalanar, gün düşər, yağış kəsərmiş (4, s.95).

Digər bir mənbədən əldə etdiyimiz məlumata görə, Qodu-qodu, vaxtilə Günəş tanrısına həsr olunaraq, yaşlılar tərəfindən göstərilən əsatiri tamaşa olmuş, getdikcə ilkin əhəmiyyətini itirərək XX yüzilin əvvəllərində subay gənclər və uşaqlar tərəfindən oynanılan hərəkətli, sözlü-nəğməli bir oyuna çevrilmişdir. Oyun iştirakçıları müqəvva Qodunu qapı-qapı gəzdirib onun şəninə təriflər deyir, məzəli səhnələrdə kuklanı çomaqla vurub "öldürür", sonra yenidən dirildir, oynadıb, atıb tutur, çalır, oxuyur, şənlənirdilər. Bəzi yerlərdə isə günəşin çıxmasını arzulayanlar

qırmızı ilə bəzədilmiş gəlin-kuklanı qucaqlarından asırdılar. Tələffüzdə bəzən "Godugodu" və "Güdügüdü" şəkilləri də mövcud olmuşdur (2, s.180-181). Digər məlumatda "Güdü", Azərbaycanda çubuqlu oyun kuklası kimi tanınaraq, mərasim oyunları ilə bağlı olan, boyu 120 sm.lik fiqur olmuşdur. Güdü, iki çubuq və ya bambuk ağacından çarmıxabənzər şəkildə hazırlanaraq, ona baş qoyulmuş və əyninə geyim keçirilmişdir. Belə kuklalar hərəkətsiz olub, əl-qollara bağlanan nazik uzun çubuqlar vasitəsilə hərəkətə gətirilmişlər (2, s.122).

Eyni zamanda "Güdul" vaxtilə Azərbaycanın şimal-şərqində yağış çağırmaq niyyətilə keçirilən bir mərasim tamaşası olmuş, mənşə etibarilə qədim su tanrıçasına pərəstişlə bağlı olub, bu tamaşa iştirakçıları bir oğlan uşağının bədəninə hər tərəfdən yaşıl ağac budaqları bağlayır, onu gül-çiçək və lentlərlə bəzəyirdilər. Sonra onunla küçələri gəzib nəğmə oxuyur, əl çala-çala haxışda və yallı oyunları ifa edərək yağışın yağmasını arzulayırdılar. Bir mülahizəyə görə bu ad Xıdır Nəbi mərasiminin bir başqa adıdır. Vaxtilə topla oynanılan bir uşaq oyunu da eyni adı daşımışdır (2, s.122). Qeyd etmək yerinə düşər ki, Abşeronun Maştağa kəndində də yaşlı insanlar tərəfindən gəlinciklər "güdul" adı ilə tanınırdı. Bu fakt, Qodu müqəvvasının tədricən uşaq əl oyuncaqlarına çevrilməsi prosesini özündə əks etdirir.

Kuklaların istifadəsi ilə icra edilən oyunlardan biri olan Çömçəxatun mərasimində isə uşaqlar bir yerə toplanır, bir-birindən yapışırmışlar. Guya ki quzudurlar. Quraqlıq keçəndə taxta çömçə götürüb, üstünə qara salır, bir-bir qapıları döyürmüşlər. Kim qapıdan çıxırsa, ondan pay istəyib, həmin qapıda bu mahnını oxuyarmışlar:

Çömçəxatun nə istər?
Tanrıdan yağış istər.
Qoyunlara ot istər.
Quzulara süd istər, mə-ə-ə.

Çömçəxatun nə istər?
Tanrıdan bol su istər,
Ağaclara bar-bəhər,
Çobana quzu istər, mə-ə-ə.

"Çömçəxatun" obrazının yaranmasına Naxçıvan folklorunda rast gəlinir. Mövcud olmuş əfsanəyə görə, Çömçəxatun adında pak, mömin, Allah yanında hörməti olan bir qız varmış. Bir dəfə il çox quraqlıq keçdiyindən camaatın məhsulu yanıb tələf olur. İnsanlar fəlakət qarşısında qalır, bütün ərzağı, mal-heyvanları yeyib qurtarırlar. Lakin yağış hələ də yağmır. Çömçəxatun işi belə görüb bir təpənin başına çıxır. Allahdan yağış yağdırmasını diləyir. Allah onun səsini eşidib o ki var yağış yağdırır. Qız yağışın altında çox durduğundan islanıb quruyur, ardıc ağacına

çevrilir (4, s.89).

Əfsanə bu qənaətə gəlməyə imkan verir ki, Qodunun qurumuş budaqdan hazırlanması heç də təsadüfi olmayıb, Çömçəxatunun ardıc ağacına çevrilməsi inancı ilə bağlıdır.

Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fonduna yeni daxil olmuş bu gəlincik əlimizdə olan çox dəyərli mənbədir. Xınalıqdan əldə edilmiş gəlinciyi XIX əsrin ortalarına aiddir. Ümumi uzunluğu 77 sm olan gəlincik taxta qaşıq üzərində müxtəlif parça qalıqları, metal bəzəklərdən- zınqrov, pərək, midaxil qotazdan ibarətdir. Gəlinciyin yuxarı, qabarıq hissəsinə ağ satin parça tikilərək, çökək hissəsinə ucları xırda rəngli, saçaqlı qotazları olan çubuq bərkidilmişdir. Bu qotazlar gəlinciyin başının üzərindən çıxaraq ağac budağını xatırladır. Başın arxa hissəsinə uclarında 1854, 1914-cü illərin 925 əyarlı gümüş sikkələri və qarasavad işləməli uzun qotazı olan zoğalı, qara rənli lentlər bağlanmışdır. Gəlinciyin üz hissəsi çömçənin arxa, yəni qabarıq tərəfi vasitəsilə formalaşdırılmış, gümüşü rəngli güləbətin qıy vasitəsilə gəlinciyin alın və üz dairəsi əhatəyə alınmış, ağız, burun, göz, qaş hissəsi isə qara qaytanla tikilib. Gəlinciyin o dövr üçün vacib elementlərdən olan birçəyi də nəzərdən qaçırılmamış, bu element də qara qaytanla icra olunmuşdur. Arxa tərəfinə ucları qotazlı tor örpək tikilmişdir. Ara-sıra örpəyin üzərinə nazik parça lentlər, ağ sapdan xırda gümüşü rombvari "midaxıl-qoşasərmə" (bəzək nümunəsi) bağlanıb. Qulaq hissədə aşağı əyarlı ləçəkli "piyaləzəng" sırğalar, boğazından isə 2 üst-üstə qotazı olan yumru bürünc zınqırov asılmışdır. Bədəninə əlləri əvəz edən 18sm.lik çubuq vurulmuş, üzərinə sarı butaları olan qırmızı qaz-qaz parça tikilmişdir. Çubuqların kənarına və ortasına rəngli qotazlar bağlanmış, arxadakı tor şalın kənarları da "əllərə" bərkidilmişdir. Çömçəxatunun belə hazırlanması onu deməyə əsas verir ki, gəlincik əldə gəzdirilmək üçün nəzərdə tutulmuş, üzərindəki bəzəklər xalqın metala inancı ilə bağlı olmuşdur. Bildiyimiz kimi, türk xalqları arasında metala inanc olmuş, onunla şər qüvvələrdən qorunmuş, günəş tutulması zamanı metal döyəcləmək ayini icra edilmişdir.

Ümumiyyətlə gəlinciklər elə bir sənət nümunəsidir ki, dövrümüzə qədər gəlib çatması çox nadir hallardandır. Onun zərif materiallardan hazırlanması, ictimai həyatda bəzən ona birmənalı olmayan münasibətlərdən irəli gələrək belə gəlinciklər yalnız ucqar bölgələrdə qorunub saxlanıla bilmişdir. Zaman keçdikcə yeni gəlinciklərin ixtirası və kütləvi istehsalı bu primitiv oyuncaqların məişətdə istifadəsini tamamilə sıradan çıxarılmış, bununla bərabər gəlinciklərin dini-mifoloji məzmunu da unudulmuşdur.

Azərbaycanda oyuncaqların istehsalını arxeoloqlar Erkən Tunc dövründən Orta əsrlərin axırlarına qədərki dövrə aid edirlər. 1936-2014-cü illərdə aparılmış qazıntılar zamanı gildən hazırlanmış müxtəlif formalı uşaq oyuncaqları aşkar edilmişdir. Digər materiallardan olan uşaq oyuncaqları torpaq altında sıradan çıxdığına görə dövrümüzə qədər gəlib çatmamış, əldə olunan oyuncaqların böyük

əksəriyyəti isə IV-VIII əsrlərə aid edilir (20, s.20-23).

İslam dininin yayılması ilə əlaqədar olaraq İslamdan əvvəlki etiqad mənbəyi olan bütlər də zaman keçdikcə bir oyuncağa çevrilmişdir. Qadınların məharətli əllərilə hazırlanan fiqurlar, gəlinciklər orta əsrlərdə istifadə olunan oyuncaqlar olmuşdur. Bu oyuncaqlar vasitəsilə uşaqlar məişəti daha yaxşı qavraya bilmişlər (8, s.61). Etnoqraf T.Şağani oyun və əyləncələr haqqında yazır ki, onların köməyilə uşaqlar ətraf aləmi və insanlar arasındakı qarşılıqlı münasibətləri mənimsəmişlər (17, s.254).

Bu gün əlimizdə olan, ana və nənələrimizdən yadigar qalmış oyuncaqlar ötən əsrin ab-havasını özündə saxlamaqla yanaşı, Azərbaycan qadınının ailəyə olan sevgisinin, nəsil artırmaq, övlad böyüdüb tərbiyələndirmək duyğusunun, estetik zövq və milli dəyərlərimizə olan bağlılığının bariz nümunəsidir. Gələcək xoşbəxt ailə arzusu, ana-övlad duyğusunun formalaşmasında gəlinciklərin rolu böyükdür. Azərbaycanlı ailəsində həddi-büluğa çatmağa hazırlaşan qız uşaqları özlərinəməxsus ssenari qurmaqla müxtəlif adlar altında gəlincik oyunları təşkil etmiş, zaman-zaman bu oyunlarda ailə-məişət qayğılarını həyata keçirmək, gələcəkdə bu işlərin öhdəsindən gəlmək bacarığını formalaşdırmışlar. Bu barədə məlumatlara H.Sarabskinin "Köhnə Bakı" kitabında da rast gəlinir (16, s.163). "Evcik-evcik" adlı ssenariləşmiş oyunun varlığına İrəvan Çuxuru bölgəsinin folklorunda da rast gəlinir. Qız uşaqları balaca vaxtlarında "evcik-evcik" oynamağı da çox sevmiş, torpaqdan, palçıqdan və müxtəlif əşyalardan özlərinə ev düzəldər, bir-birinə qonaq gedər, aş bişirər, gəlin köçürərdilər (5, s.455).

Fondun gəlinciklər kolleksiyasında daha primitiv hazırlanmış gəlincikləri - 1931-ci ildə Muzeyin direktoru olmuş Davud Şərifov Nuxaya (Şəki) ekspedisiyası zamanı əldə etmişdir (11, Ef-725, Ef-726(9ədəd)). Digər gəlincikləri 1938-ci ildə muzeyin etnoqrafı Rəxşəndə Babayeva (11, Ef-2696, 2697) muzeyə cəlb etmiş, 1944-cü ildə komisyon mağazadan alınmış(11, Ef-3512) və 1948-ci ildə Xaldan rayonunun Ocek kəndinə məxsus gəlincik də fondumuzda mühafizə olunur (11, Ef-3853).

Etnoqrafiya fondunda mühafizə olunan Ef-2696 invertar saylı gəlincik əl işidir. Təqribən 35 sm.lik taxta parçasına ağ çit parça sarınaraq tikilmiş, başı əvəz edən dairəvi taxta lövhəcik bərkidilmişdir. Gəlinciyin başına zoğalı rəngli zərxara parçadan yaylıq, bədəninə isə açıq qəhvəyi rəngli ipək parçadan tuman tikilib. Alt geyim kimi yerliyi qırmızı, qarışıq rəngli pambıq parçadan, üst geyim kimi isə qırmızı çit parçadan tuman tikilmişdir. Gəlinciyin qolları yoxdur, üz cizgiləri yerinə isə rəngli saplardan çarpaz toxunaraq rombvari bəzək elementi salınması müşahidə edilir (11, Ef-2696). Zaman keçdikcə üz cizgiləri yerinə saplarla salınmış naxışlar da cizgilərə çevrilmişdir. Muzeyin Etnoqrafiya fondunda mühafizə olunan gəlinciklərdə bu prosesi aydın izləmək mümkündür.

Uzunluğu 27sm. olan taxta çubuğa ağ çit parça sarınaraq tikilmiş, yuxarıdan

qollar və ağ parça sarınmış dairəvi taxta hissə də əlavə edilərək, gəlinciyə baş hazırlanmış, üzərinə qara və qırmızı saplarla üz cizgiləri, qara sapla kəkil də tikilmişdir. Gəlinciyin başına açıq qəhvəyi rəngli ipək yaylıq, əyninə bənövşəyi və yaşıl rəngin çalarında tafta parçadan köynək, zoğalı rəngli zərxara parçadan isə tuman geyindirilmışdir. Altdan ağımtıl rəngli fabrik istehsalı olan pambıq parçadan alt tumanı var (12, Ef-2697).

Gəlinciklərin hazırlanması xüsusi bacarıq da tələb edirdi. Onların baş geyimlərində müxtəlif materialda parçalardan yaylıq və dingələr daha sonra isə tor və qaz-qazı parçadan örtüklər diqqəti cəlb edir. Köynək və üst geyimlər sadə və primitiv olsa da, tumanlar qat-qat, bir neçə cür parçadan beli büzülmüş, bəzilərinin ətəyinə gümüş əyarlı saplardan hörülmüş şahpəsənd və ya nazik qaytanlar tikilmişdir. Gəlinciklərin hazırlandığı materialdan asılı olaraq ayağının bir və iki olmasına baxmayaraq, belinə qədər parça sarınıb tikilməsi milli geyim mədəniyyətimizdə qadına xas şalvar və darbalaq, o cümlədən şəltə, ara tumanı, "büzməli", "qatlamalı" üst tumanının vacib geyim elementi olmasını təsdiqləyir (1, s.94-95).

XX əsrin əvvəllərinə aid edilən, çox sadə hazırlanmış gəlinciklərin bəzən bir düz çubuqdan hazırlandığı üçün ayaqları olmurdu. İki nazik çubuğun üzərinə bir neçə qat parça tikilərək bədənə əlavə olunub qollar düzəldilirdi. Baş üçün müxtəlif üsullardan istifadə edilirdi. Bəzən xırda parça qırıqları düyünlənib yumrulanaraq, üzərinə düyünçə kimi başqa bir parça bağlanıb baş düzəldilirdi. Digər variant parçaya pambıq doldurulmaqla çubuğun ucuna geydirilib, üstünə dingə və yaylıq bağlanmışdır. Gəlinciklərlə tədqiqat zamanı daha bir maraqlı faktla - üz hissəsinin parçasına arxadan sikkə qoyulub tikilməsilə rastlaşdıq. Bu vasitə ilə üzün dairəvi və hamar olması cizgiləri çəkmək üçün də əlverişli idi. Qeyd etmək yerinə düşər ki, üz cizgilərini çəkmək və ya tikmək islam ənənəsinə görə yasaqdı. Belə ki, "canlı yaratmaq Allaha məxsusdur" inamı ilə üz hissə həmişə boş saxlanılırdı.

Belə rəvayətlərdən biri MATM-ın Elmi arxivində mühafizə olunan- 1938-ci ilin muzeyin Alqı komissiyasının sənədləri arasında rast gəlinən, Bakı sakini 90 yaşlı (doğum tarixi-1850) Ümbülnisə adlı qadının hazırladığı 2 gəlincik təsviri və onu təqdim edən Babayeva Rəxşəndənın verdiyi məlumatlardır (10,s.21).

Sənəddə məlumatçı nəql etdiyi rəvayətə əsasən belə fikir bildirir ki, "... o dünyada gəlin bizdən can istər, odur ki, biz də Allahdan qorxuruq. Onlara can verə bilmərik...". Bu inanc XX əsrin ortalarına qədər davam etmişdir. 1938-ci ildə Abşeron bölgəsindən əldə olunmuş məlumata görə, "...ancaq axır illərdə 50-60 il bundan qabaq qaşlı-gözlü gəlin hazırlamağa başlamışlar" (10, s.23).

Mövzu ilə əlaqədar olaraq, Abşeronun Maştağa qəsəbəsində aparılan etnoqrafik sorğular zamanı, 1949-cu il təvəllüdlü Mehdiyeva Leyla Məmməd qızının dedikləri bu fikri təsdiqləyir: "Mənim anam, Mələknisə Mirfəttah qızı, 1924-cü ildəndi. O danışardı ki, "mən uşaq olanda, şəhərdə yaşayan İsmayıl dayım mənimçün gəlincik alıb göndərmişdi. Onun üzü saxsıdan, bədəni parçadan idi. Çox gözəl gəlincik idi.

Mən onu həmişə əziz şey kimi qucağımda gəzdirirdim". Ancaq ailələri mövhumatçı olduqlarından dedilər ki,- "bu evdə gəlinciyin olmağı günah sayılır. Çünki, ona can verilməyib". Ona görə can verilməyən şey günah hesab olunur. Divarlardakı şəkillər o vaxtlar günah hesab olunurmuş. Rəssamları o vaxtlar günahlandırırmışlar, cəzalandırırmışlar ki, "can verə bilmirsənsə, niyə onu intizar qoyursan?". Ona görə onlar deyirdi ki, "namazqılınan evdə kukla günah hesab olunur. Həmişə evdə namaz qılanda kuklanın üzünü divara çevirirmişlər. "...Sonra da onu hələ-hələ onu it-bat ediblər ki, bu evə yaramaz, günahdır" (13).

Gəlinciklər tədqiq etmənin əhəmiyyəti bir də o səbəbdən çox vacibdir ki, onlar hər biri yarandığı dövrün tekstil məmulatlarını da özləri ilə daşıyırlar. Əlimizdə olan gəlinciklərə əsasən deyə bilərik ki, XIX-XX əsrin əvvəllərində xara, satin, çit, ipək, şal, qanovuz, tor, qaz-qazı və s. kimi parçalar Azərbaycanda geniş yayılmışdır. Bundan başqa gəlinciklər üzərində Azərbaycan milli geyim tərzi, geyimin detalları və geyim bəzəklərinin izləri özünü büruzə verməkdədir.

Təbii haldır ki, sosial vəziyyətindən asılı olaraq, varlı və kasıb ailəsindəki uşaq oyuncaqlarının dəyərində də fərqlər olurdu. Tədqiq olunan muzey eksponatlarından başqa, şəxsi kolleksiyalarda mövcud olan daha dəyərli parça nümunələrindən ibarət mükəmməl hazırlanmış gəlinciklər də mühafizə olunur. Bu gəlinciklər üzərində bəzən qiymətli işləmələr və ya zinət əşyalarına da rast gəlinir.

Hər bir dövrə aid gəlincik, onu yaradan qadının əl işindən, zövqündən və sosial vəziyyətindən də xəbər verməkdədir. Qeyd etmək yerinə düşər ki, zaman keçdikcə elm, texnika, istehsalatda yeniliklər baş verdikcə uşaq oyuncaqlarının da istehsalında sürətli inkişaf baş vermiş, yeni nailiyyətlər əldə edildikcə keçmiş ənənələr də unudulmamış, əksinə gəlincik hazırlanması işi bir tətbiqi sənət nümunəsi olaraq daha da inkişaf etmişdir. Bu gün dünyanın bir çox ölkələrində kukla muzeyləri yaradılmış, kukla sənəti ilə məşğul olan sənətkarlar öz yaratdıqları əsərləri ilə sərgilər təşkil edib, səyyar sərgilərlə öz əsərlərini digər ölkələrdə tamaşaçı kütləsinə təqdim etməkdədirlər.

Mənbələr və ədəbiyyat:

1. Abdulova G. Azərbaycan milli qadın geyim və bəzəklərinə dair /MATM-ın materialları əsasında/ AMEA Xəbərlər İctimai Elmlər seriyası 2015 № 4.
2. Aslanov E. El-oba oyunu xalq tamaşası Bakı, 1984.
3. Azərbaycan etnoqrafiyası III cild. Bakı, 2009.
4. Azərbaycan folklor antologiyası Naxçıvan folkloru-I Naxçıvan, 2009.
5. Azərbaycan folklor antologiyası x kitab İrəvan Çuxuru folkloru Bakı, 2004
6. Azərbaycan folklor antologiyası XIII-cild. Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən folkloru Bakı, 2005.
7. Bayat F. Şamandan səmazənə oyun və oyunçu Bakı, 2017.

8. Əhməd Ə. XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti /tarixi etnoqrafik araşdırma/ Elm-Bakı, 2012.
9. Kaşğari M. "Divani-lüğət-it-türk" IV cilddə I cild. Bakı, 2006.
10. MATM Elmi Arxivi qovluq 599 / inv№ 5290.
11. MATM Etnoqrafiya fondu Ef-2696.
12. MATM Etnoqrafiya fondu Ef-2697.
13. Məlumat 26/10-1949-cu il təvəllüdlü Sabunçu rayonu, Maştağa qəsəbə sakini Mehdiyeva Leyla Məmməd qızına məxsusdur.
14. Məmməd T. Xalq oyun –tamaşalarında kuklalar və maskalar //İslam coğrafiyasında və Azərbaycanda xalq oyunları və meydan tamaşaları Beynəlxalq elmi konfransın materialları. 15 iyul Bakı, 2016.
15. Nəbiyev A. El nəğmələri, xalq oyunları Bakı, 1988.
16. Sarabski H. Köhnə Bakı Bakı, 1982.
17. Səlimov T.S Abşeronlular Bakı, 1998.
18. T.C.Milli Eğitim Bakanlığı. Çocuk gelişimi ve eğitimi. Kuklalar Ankara-2013. Öyrenme fealiyyeti-1.
19. https://az.wikipedia.org/wiki//Oyuncaq.
20. Гулузаде Н. Фаянсовые игрушки древнего Азербайджана. İrs.Наследие. Heritage №3 (81), 2016.

Aygun Guliyeva
Maiden dolls in the old Azerbaijani everyday life, their origin and place in the religious and mythological worldview

Summary

Keywords: *ceremony, doll, maiden doll, ritual, clothing*

In our study, in addition to the dolls and props mentioned in many works, the representations, the origins of which go back to the ancient world, and are also present in the ancient rituals of the Turkic peoples, tells about dolls as favorite objects of girls' games. Their use in rituals and ceremonies of the Turkic peoples is also being studied since the time of shamanism. The article reports on the dolls used in rituals and ceremonies in Central Asia, as well as in some regions of Azerbaijan in the shapes of Godu and Chomchakhatun. The historical roots of these ceremonies are investigated, the sequential process of transforming play performances into games is shown. For the first time, legends and information about the girl's toy dolls involved in the research have been collected, the process of their manufacture

is described in detail.

The dolls stored in the collection of the National Museum of history of Azerbaijan have been investigated, their importance in the study of the ways of wearing national clothes is especially noted.

Айгюн Гулиева
Девичьи куклы в старом азербайджанском быту, их происхождение и место в религиозно-мифологическом мировоззрении

Резюме

Ключевые слова: *церемония, кукла, девичья кукла, обряд, одежда*

В нашем исследовании помимо упоминаемых во многих трудах кукол-игрушек и реквизита представлений, истоки которых восходят к древнему миру, а также присутствуют в древних обрядах тюркских народов, повествуется и о куклах, как любимых предметах девичьих игр. Изучается и их использование в обрядах и церемониях тюркских народов со времен шаманизма. В статье сообщается о куклах, использовавшихся в обрядах и церемониях в Средней Азии, а также некоторых регионах Азербайджана в образах Году и Чомчахатун. Исследованы исторические корни этих церемоний, показан последовательный процесс превращения игровых представлений в игры. Впервые собраны сказания и сведения о привлеченных к исследованию девичьих куклах-игрушках, обстоятельно описан процесс их изготовления. Исследованы куклы, хранящиеся в коллекции Национальный Музей Истории Азербайджана, особо отмечается их значение в изучении способов ношения национальной одежды.











Günel Eminova*

İslam dekorativ-tətbiqi sənət nümunəsi - qəndil

UOT 94 (479.24)

Açar sözlər: *qəndil, məscid lampası, məmlük incəsənəti, islam dekorativ-tətbiqi sənəti*

Tarixi, mədəni və ya elmi əhəmiyyəti olan əşyalar və artefaktların mühafizə edildiyi və öyrənildiyi Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında müxtəlif tarixi dövrləri əhatə edən, biri-birindən fərqli nadir eksponatlar qorunmaqdadır. Onlardan biri də muzeyin Etnoqrafiya fondunda qorunan və bədii tərtibatı baxımından diqqəti çəkən eksponat inv № 2467 olan qəndildir. Sarı misdən hazırlanmış və 3 hissədən ibarət olan qəndil 28 sm hündürlüyündədir. Alt hissəsi kasa formasında olan qəndilin bu hissəsinin diametri 17,5 sm, hündürlüyü isə 9 sm-dir. Üzərində islam ornamentlərində səciyyəvi üslüb kimi məşhurlaşmış oyma nəbati və həndəsi elementlər işlənmişdir. Burada əks tərəflərdə yerləşmiş iki iri, xüsusi formalı medalyon içərisində eyni naxışlar, əks tərəflərdə yerləşmiş 4 kiçik medalyon içərisində qıvrılmış budaqların üzərində çox zərif formada yarpaq təsviri və yenə əks tərəflərdə iki iri medalyon içərisində eyni olmayan ərəbcə yazılmış yazı var. Ərəb dilində yazılmış həmin yazı:

Əl-aləmu fin-niza.

Ən-nihal fil-ələm.

Tərcüməsi:

Aləm qovğa içindədir.

Düzgünlük ələm (qəm-qüssə) içindədir (Ərəbcədən t.ü.f.d. Əli Fərhadov çevirmişdir.)

*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin kiçik elmi işçisi; eminova33@gmail.com

Bu medalyonların alt və üst haşiyə qurşağı həndəsi ornamentlərlə naxışlanmışdır. Kasa formasında olan bu hissənin alt kənarı isə daha fərqli naxışlarla, üst platforma hissəsi isə 5 ədəd stilizə edilmiş quş fiquru və bir ədəd ehtimal ki, “minarənin başı” şəklində olan fiqurla bəzədilmişdir. Qəndilin alt hissəsi diametri 8 sm olan dairə şəklində açıqdır. Həmin çevrənin iki qarşı tərəfində 6x10 mm ölçüsündə düzbucaq şəklində kəsilmiş hissə var. Ehtimal ki, bu hissə qəndili işıqlandırmaq üçün yanacaqla doldurulmuş kiçik şamdan və ya çıraq yerləşdirmək üçün nəzərdə tutulmuşdur.

Sarı mis və şüşə materiallardan ibarət olan hissə qəndilin mərkəzi hissəsini təşkil edir. Burada 6 ədəd 6,6x6,1 sm ölçüsündə naxışlı sarı mis metal lövhələr birləşərək altıbucaqlı forma əmələ gətirmişdir. Metal lövhə içəri tərəfdən eni 3,3 sm və uzunluğu 4,7 sm ölçüsündə xüsusi formada doğranmış, yerdə qalan hissəsi oyma işi ilə bəzədilmiş və iç tərəfindən ornamentli, rəngli şüşə lövhələr əlavə edilmişdir.

Qəndilə fərqli görünüş verən şüşə lövhələr 3 rəngdədir: göy, qırmızı-qəhvəyi və yaşıl.

Qarşı-qarşıya olan iki göy rəngli şüşə bir ədəd iri çiçək formalı, digərləri kiçik ölçülü beşgüşəli ulduza bənzər formada ornamentlidir.

Qarşı-qarşıya olan iki qırmızı-qəhvəyi rəngli şüşə bir neçə iri ölçülü birləşmiş şəkildə çiçək ornamentlidir.

Yenə də qarşı-qarşıya olan iki yaşıl rəngli şüşə biri böyük, digərləri kiçik ölçülü çiçək naxışlıdır.

Qəndilin üst hissəsi alt tərəfdən diametri 17 sm olan çevrəli hissə və üçyaruslu günbəz formasında düzəldilmişdir və 11,5 sm hündürlüyündədir. Diametri 12,4 sm, hündürlüyü 3,2 sm olan alt yarusun semi-medalyon formasındakı və yerdə qalan hissəsi ornamentlərlə nəqş edilmişdir. Diametri 9 sm, hündürlüyü 2,8 sm olan orta yarusda nəbati naxışlar fonunda ikiqat, haşiyə içində doğrama üsulu ilə süls elementli nəsx xətlə ərəb atalar sözü həkk olunmuşdur: سلامت إلانسان في حفظ السان “İnsanın salamat qalması dilini (dinc) saxlamasındadır” (1, s. 18). Bu yazı iki ədəd haşiyəyə alınmış naxışlarla ayrılır. Konusvari formada olan üst yarusun diametri 5,8 sm, hündürlüyü 5,3 sm, təpə hissəsi isə diametri 9 mm olan dairə şəklində deşiklidir.

Qəndilin alt və üst hissələri təpə hissəsi müxtəlif fiqurlu 5 sütun vasitəsilə birləşdirilmişdir. Sütunların təpə hissəsindəki tökmə üsulu ilə hazırlanmış fiqurlar açılıb bağlanır. Tökmə üsulu ilə formaya salınmış sütunların ölçüləri: təpə hissəsi ehtimal ki, “minarənin başı” formalı 8,7 sm, aypara şəklində olan 8,7-8,8 sm, quş fiqurlu 8,7-8,8 sm.

Qəndilin ümumi tərtibatı, üzərindəki naxışlar və ərəbcə yazıdan məlum olur ki, bu dekorativ sənət nümunəsi islam incəsənətinə məxsusdur. İncəsənət dünyasında öz layiqli yerini tutmuş islam sivilizasiyası istər memarlıqda, istər xalçaçılıqda, istər

şüşə sənətində və istərsə də metalişləmə və s. sənətlərdə öz nadir və inkişaf etmiş nümunələrini yaratmışdır. İslam sivilizasiyasına aid olan metal işlərinə baxarkən bir sənətkarın metalın formasının tələb etdiyi çətinliyə baxmayaraq, onu yüksək məharətlə hazırlamağı yaxşı bacardığını və onu müxtəlif metallarla bəzəməyi, nəqş etməyi böyük diqqətlə yerinə yetirdiyini görürük (2, s. 75,80).

Ərəb kalliqrafiyası islam incəsənətini özündən əvvəlki sivilizasiyaların incəsənətindən xüsusi şəkildə fərqləndirən ən bariz nümunədir. Sənətkarlar ərəb xəttini inkişaf etdirməyə başlamışlar, belə ki, yazı ornamentləri incəsənətdə xüsusi bir yer tutmuşdur və islam sivilizasiyası ruhunun əsas hissəsi olmuşdur. Bununla da, müsəlmanlar xətti mühüm ornament elementi kimi istifadə edən ilk insanlar olmuşlar (2, s. 80).

Qəndillərin, məscid lampalarının təsvirinə orientalist Qərb rəssamlarının rəsm əsərlərində rast gəlmək mümkündür. Bu tərzə maraq Napoleonunn 1798-ci ildə Misiri işğalından sonra oyanmışdır. Bundan sonra bu ərazilərin mədəniyyətinə kifayət qədər maraq oyanmışdır ki, bir sıra rəssamlar (əsasən fransız) Şimali Afrika, Levant (Aralıq dənizinin şərqindən Mesopotamiyaya qədər uzanan tarixi ərazinin bəzi qaynaqlardakı adı) və Orta Şərqə etdikləri səfərləri nəticəsində orientalist janrda öz rəsm əsərlərini yaratmağa başlamışlar (21). Bu üslubda çəkilmiş ən məşhur əsərlərdən biri 1871-ci ilə aid kətan üzərində yağlı boya ilə rəsm edilmiş "Məsciddə ibadət" adlı Jan-Leon Jerom (əsərlərinin üçdə ikisindən çoxu orientalist mövzulara həsr etmiş fransız rəssam) imzalı əsərdir ki, rəssam burada Qahirədəki Əmr ibn əl-As məscidi və oraya ibadətə gəlmiş insanları təsvir etmişdir. Rəsmdə məscidin interyerinə çoxsaylı metal qəndillərin quraşdırıldığı görünür. Dünyanın bir çox şəhərlərində nümayiş olunan əsər Metropoliten İncəsənət Muzeyinə hədiyyə edilmişdir (11).

XIX-XX əsrlərdə fəaliyyət göstərmiş italyan rəssamı Cuzeppe Siqnorininin ön planda qəndil və onun yanacaqla doldurulmuş konteynerlərini dəyişdirən adamın olduğu "Məscid lampalarının işıqlandırılması" isimli rəsmində isə qəndil iri ölçüdə metaldan hazırlanmış və üç zəncirlə yüksək tavandan asılmış şəkildə təsvir edilmişdir. Əsərdə divarları sütun və tağ ilə bəzədilmiş məkanda ibadətlə məşğul olan bir nəfər və qəndilin şüşə konteynerlərini dəyişdirən adamın azyaşlı köməkçisini də görmək mümkündür (10).

Ən xarakterik orientalist janr rəssamı kimi tanınan yunan mənşəli fransız rəssamı Teodoros Rallisin bu üslubda çəkdiyi əsərlərindən birində – "Şərqli keşikçi" adlı tablosunda tikilinin giriş portalı önündə dayanmış, silahla yaraqlanmış şəkildə məkanı mühafizə edən keşikçi durur. Rəsmdə çox sayda şüşə konteynerləri olan, üst hissəsi günbəz formalı, alt hissəsi ondan çox böyük ölçüdə konusa bənzər formada altı üzlü metaldan hazırlanmış qəndil təsvir edilmişdir (18).

Yunan əsilli Osmanlı rəssamı və arxeoloqu Osman Hamdi Beyin 1910-cu ilə aid "Quran oxuyan adam" adlı əsərində isə yaşlı bir adam divarları çinilərlə

örtülmüş məsciddə Quran oxuyur və yan tərəfdə başqa kitablar var. Başı üzərində ensiz metal boru üzərindən asılmış 2 ədəd şüşə lampa və şüşə konteynerləri olan 1 ədəd konusa bənzər formada metaldan hazırlanmış qəndil təsvir edilmişdir (17).

Məscid lampalarının ən qədim nümunəsi İraq və ya İrana məxsus X əsr oyma işi olan sarı misdən hazırlanmış qəndildir. Qəndilin dekorasiyası oyma işi, iri ölçüdə Quran yazılı monumental kufi xətti ilə yazılmış mətndən ibarətdir. Bu qəndil Danimarkada David Kolleksiyası adlanan muzeydə saxlanılır (6).

XI-XII əsrlərə aid bürüncdən hazırlanmış məscid lampasının üzərində isə ərəbcə "əl-mülk lillah" – "hər şey Allaha məxsusdur" sözləri yazılmışdır. 1910-cu ildə Metropoliten İncəsənət Muzeyinə hədiyyə edilmişdir (15).

Başqa bir misal olaraq sarı mis (latun) materialdan olan, qızıl suyu ilə işlənmiş, həndəsi oyma naxışlı və üzərində kitabə həkk olunmuş vaza formalı XIII əsrə aid qəndili göstərmək olar. Qəndil Məmlük sultanı I Baybarsın türbəsi üçün hazırlanmışdır və hazırda Qətərdə İslam İncəsənəti Muzeyində saxlanılır (16).

Sonrakı dövrlərdə məscidlər üçün şüşə materialdan da işıqlandırma vasitələri düzəldilməyə başlanmışdır. Dünyanın bir çox ölkələrində islam incəsənətinə məxsus olan muzeylər bu nümunələrlə zəngindir. Mina ilə bəzədilmiş şüşə lampalar, əsasən Məmlük dövründə (1250-1517) Misir və Suriyada düzəldilmişdir. Onlar Məmlük sultanları adına hazırlanırdı və Qahirə məscidlərinə hədiyyə edilirdi. Belə məscid lampalarına Almaniyada Berlində İslam İncəsənəti Muzeyində saxlanılan XIV əsrin I yarısına aid, üzərində Məmlük sultanı Nasir Məhəmmədin adı qeyd olunmuş iki friz yazısı olan məscid lampasını misal göstərmək olar. Bu məscid lampası məscid və ya türbəsi olan məktəb üçün düzəldilmiş ola bilər. Göyrəngli yazılar və qızılla boyanmış arxa fon xüsusilə məscid lampası üçün uyğundur. Belə ki, onun mətni Quran ayəsinin bir hissəsidir. Hər iki yazı Məmlük dövrünə xas olan süls yazı ilə yazılmışdır (7).

Təxminən 1325-ci ilə aid rəngarəng minalı və qızılı kalliqrafik dizaynı ilə diqqəti çəkən və 1324-1325-ci illərdə Misirdə inşa edilən mədrəsəyə hədiyyə edilmiş şüşə məscid lampası Məmlük dövründə Misir və ya Suriyada istehsal olunmuşdur. Üzərində Qurandan mətnlər, çiçəklərlə bəzədilmiş xeyir-dualar nəqş edilmişdir. Lampa 1891-ci ildə Metropoliten İncəsənət Muzeyinə hədiyyə edilmişdir (12).

İran əsilli Britaniyalı alim, kolleksiyaçı və xeyriyyəçi Nasir David Xəlilinin kolleksiyasına daxil olan, təxminən 1385-ci ilə aid Misirdə düzəldilmiş minalı və qızılı dekorasiyalı, tutacaqlarından zəncirlə asılmış, içərisində neft doldurmaq üçün konteyneri olan şüşə lampa daha bir məscid lampası nümunəsidir. Lampanın yuxarı kənarında Quran mətnindən bir hissə yazılmış, gövdə hissəsində isə Məmlük hökmdarı Sultan Barquqa ünvanlanmış naxışlarla işlənmiş süls xətti ilə dualar yazılmışdır (9).

Başqa bir misal 1346-1347-ci illərə aid minalı və qızılı bəzəkli şüşə materialdan Misirdə hazırlanmış məscid lampasıdır ki, hazırda Rusiyanın Sankt-Peterburq

şəhərindəki Dövlət Ermitajında saxlanılır. Burada, həmçinin, şüşə materialdan hazırlanmış, mina bəzəkli və Suriyada düzəldilmiş digər bir məscid lampası nümunəsi saxlanılır (8).

Sonrakı dövrlərdə isə çini materialdan hazırlanmış məscid lampalarını Metropoliten İncəsənət Muzeyində görmək mümkündür. Misal olaraq XVI əsrin sonuna aid nəbati ornamentli, vaza formasında çini materialdan hazırlanmış İznik (Türkiyə) keramika istehsalının gözəl bir nümuməsini qeyd edə bilərik. Bu tip məscid lampaları işıqlandırma üçün istifadə edilməmiş, ancaq türbələrdə və məscidlərdə estetik keyfiyyət və interyerin akustik imkanlarınının artırılmasına xidmət etmişdir. Lampa 1913-cü ildə Metropoliten İncəsənət Muzeyinə hədiyyə edilmişdir (14). Daha sonra isə 17-ci əsr Suriya istehsalı, metal və çini materialdan hazırlanmış, şəffaf şirlə örtülmüş məscid lampasını misal göstərə bilərik. Dəbilqəyə oxşar formada hazırlanmış bu qəndilin üzərindəki naxışlar Osmanlının əsas dulusçuluq mərkəzi olan İznikdə inkişaf etdirilmiş nəbati motivlərə uyğunlaşdırılmışdır. Qəndil 1915-ci ildə Metropoliten İncəsənət Muzeyinə hədiyyə edilmişdir (13).

Sonrakı dövrlərdə – XIX-XX əsrin əvvəllərində də məscidlər üçün qəndillərin hazırlanması davam etdirilmişdir. Hazırda həmin dövrdə düzəldilmiş qəndillərə onlayn antikvar alış-veriş saytlarında rast gəlmək mümkündür. Misal olaraq təsvirini verdiyim qəndilə görünüşcə ən çox bənzəyən XX əsrin əvvəllərinə aid Mərakeşə aid olduğu ehtimal edilən asma qəndildir ki, sarı mis (latun) materialdan hazırlanmış, oyma naxışlar və 6 ədəd rəngli şüşə lövhələrlə bəzədilmişdir. Üç hissədən ibarət olan bu qəndilin üçyaruslu günbəz formalı üst hissəsinin alt tərəfdən çevrəli hissəsinə aypara, ehtimal ki, "minarə başı" şəklində tökmə bəzək quraşdırılmışdır və alt yarusuna kitabə həkk olunmuşdur. Təpə hissəsində tökmə stilizə edilmiş quş fiqurunu görmək olar. Yuxarıdan asılmaq üçün 3 ədəd oymalı tökmə zəncirləri var (3).

Digər görünüşcə çox bənzərliyi olan qəndil XX əsrin əvvəllərində Suriyada Osmanlı bazarı üçün düzəldilmiş, tökmə misdən hazırlanmış və 6 ədəd şüşə lövhədən ibarət qəndildir. Yuxarıda təsviri verilmiş qəndil kimi bu nümunədə də üç hissədən ibarət olan qəndilin günbəz formalı üst hissəsinin alt tərəfdən çevrəli hissəsinə ulduz və aypara şəklində tökmə bəzək quraşdırılmış, misdən düzəldilmiş stilizə edilmiş quş fiquru və sütunlar isə mərkəzi hissəni əhatə edir. Alt hissəsinə isə bəzək ucluğu olaraq tökmə bəzək əlavə edilmişdir. Alt hissə rəngarəng çini mina və oyma işi ilə bəzədilmişdir. Təpə hissəsində tökmə aypara daxilində beşguşəli ulduz və tavandan asılması üçün mərkəzində tökmə bəzəyi olan 3 ədəd zəncir quraşdırılmışdır (22).

Başqa bir misal yenə Suriyaya aid oyma işi olan və XIX əsrin sonlarında sarı mis materialdan düzəldilmiş məscid qəndilidir ki, görünüşcə klassik məmlük dizaynına məxsusdur. Belə ki, qəndilin yuxarı və aşağı hissəsi 5 ədəd kartuşla – oxşar pastoral heyvanlar qrupu ilə birlikdə çarpaz cizgili oymalı zolaqlarla dekorasiya edilmişdir. Misdən düzəldilmiş stilizə edilmiş quş formasına bənzər fiqur və sütunlar isə

mərkəzi hissəni əhatə edir (19).

XIX əsrin əvvəlləri Mərakeş istehsalı olan 3 hissədən ibarət qəndilin ikiyaruslu üst hissəsindəki oyma üsullu naxışlı fonunda kitabə işlənmişdir və təpə hissəsinə tökmə bəzək ucluğu əlavə edilmişdir. Sarı misdən hazırlanmış qəndilin mərkəzi hissəsi rəngli şüşə lövhələr və qəndilin alt və üst hissələrini birləşdirən təpə hissəsi aypara şəklində olan buğumlu sütunlardan ibarətdir. Həmçinin, burada stilizə edilmiş tökmə quş fiqurlarını və "minarənin başını" xatırladan tökmə fiquru görmək mümkündür. Qəndilin alt hissəsi isə ikiyaruslu günbəzşəkilli formadadır və alt bəzək ucluğu quraşdırılmışdır. Qəndil zəncirlə asılmaq üçün nəzərdə tutulmuşdur (4).

Həmçinin, XIX əsrə aid klassik günbəz formalı və bəzək ucluğu konusvarı formada olan, yuxarı və aşağı zolaqları oymalı, gümüş və mis inkrustasiyalı, arabesk motivlərlə bəzədilmiş məscid qəndilini nümunə göstərə bilərik. Misirdə düzəldilmiş bu qəndilin üzərinə qıvrımlı yarpaqlı naxışlarla birgə işlənmiş oymalı arxa fonda altıgüşəli gümüş ulduz işləməli "Süleymanın möhürü" – Xətmi-Süleyman dairələr şəklində çərçivə içərisində bəzək olaraq nəqş edilmişdir (20).

XIX əsrə aid yerli müsəlmanlar üçün nəzərdə tutulmuş Çin istehsalı məscid lampası ənənəvi Çin-müsəlman sənətkarlıq ənənənəsinin maraqlı qarışığını özündə birləşdirir. Üzərində ərəbcə yazısı olan bu qəndil forma və yazı mətninə görə birbaşa ərəb dünyasının məscid lampaları ilə əlaqəli olsa da, lotus çiçəyi ilə bəzədilməsi Çin mədəniyyətinə xarakterikdir. Lampa Danimarkada David Kolleksiyası adlanan muzeydə saxlanılır (5).

Yuxarıda adları çəkilən tablolarda rəsm edilmiş qəndillərin sarı misdən hazırlanması, onların tavandan zəncirlə asılmaq üçün nəzərdə tutulması bu işıqlandırma vasitələrinin Muzeyin Etnoqrafiya elmi fond şöbəsinə məxsus qəndil ilə bənzərliyini göstərməkdədir. Bu rəsmlərdəki qəndillərin Yaxın və Orta Şərqdə, əsasən, məscidlərdə təsadüf edilməsini nəzərə alsaq, təsvirini verdiyim qəndilin məhz bu regiona aid olduğunu güman etmək olar. Həmçinin,bu qəndilin XIX-XX əsrlərin əvvəllərinə aid Suriya və ya Mərakeşdə düzəldilmiş üç hissəli qəndillər ilə müəyyən detal fərqlilikləri olmaqla əhəmiyyətli dərəcədə bənzərliklərinin olması, üzərindəki ərəb kalliqrafik yazısı, klassik məmlük dizaynı onun Suriya və ya Mərakeş istehsalı qəndil olduğudunu ehtimal etməyə əsas verir.

Mənbələr və ədəbiyyat

1. Əliyeva H.M. Azərbaycanda orta əsrlərə aid metal əşyalar üzərində ərəb-fars-türkdilli kitabələr// Tarix üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı. Bakı, 2013.

2. Usama Abdul Rəhman Abdul Əlim Səid Əhməd. Metalişləmə sənətində islam incəsənəti fəlsəfəsinin izi / Təsviri və dekorativ-tətbiqi sənət məsələləri № 1 (9). Bakı, 2012.
3. https://www.1stdibs.com/furniture/lighting/lanterns/moorish-hanging-lantern-brass/id-f_506284/.
4. https://www.1stdibs.com/furniture/lighting/lanterns/moroccan-lantern/id-f_616472/?utm_medium=cpc&utm_source=criteo&utm_campaign=display_uk-pdp-criteo-non-exclusive&utm_content=d&currency=gbp.
5. http://www.davidmus.dk/en/collections/islamic/cultural-history-themes/islam-in-china/art/42-1966.
6. https://www.davidmus.dk/en/collections/islamic/dynasties/abbasiderne/art/17-1970.
7. http://www.discoverislamicart.org/database_item.php?id=object;ISL;de;Mus01;30;en.
8. http://www.hermitagemuseum.org/wps/portal/hermitage/digital-collection/08.+applied+arts/32603.
9. https://www.khalilicollections.org/collections/islamic-art/khalili-collection-islamic-art-mosque-lamp-gls572/.
10. http://www.mathafgallery.com/Guiseppe-Signorini-1857-1932-Lighting-the-Mosque-Lamps-Watercolour-signed-Image-size-inches-9cm-SOLD DesktopDefault.aspx?tabid=6&tabindex=5&objectid=599109.
11. https://www.metmuseum.org/art/collection/search/436482.
12. https://www.metmuseum.org/art/collection/search/444713.
13. https://www.metmuseum.org/art/collection/search/448433.
14. https://www.metmuseum.org/art/collection/search/454630.
15. https://www.metmuseum.org/art/collection/search/457712.
16. http://www.mia.org.qa/en/textiles/237-metalwork/407-object303.
17. https://tr.wikipedia.org/wiki/Kur%27an_Til%C3%A2veti_(tablo).
18. https://www.tuttartpitturasculturapoesiamusica.com/2015/05/Theodoros-Rallis.html.
19. http://www.theoldbazaar.com/items/1102319/19th-Syrian-Tier-Carved-Brass-Mosque-Lamp.
20. https://www.trocadero.com/stores/101antiques/items/1347452/Antique-Silver-Inlaid-Brass-Islamic-Mosque-Lamp-Turkish.
21. http://www.visual-arts-cork.com/history-of-art/orientalist-painting.htm#orientalists.
22. http://www.wjmantiques.com/495369/a-syrian-cuerda-seca-enamelled-copper-brass-mosque-lamp-chain-suspended-ottoman-form/.

Gunel Eminova
An example of Islamic decorative-applied art - chandelier

Summary

Key words: *chandelier, mosque candelabrum, Mamluk art, islamic decorative-applied art*

The presented article is devoted to determining the date and purpose of the chandelier kept in the Fund of Ethnography of the National Museum of History of Azerbaijan (inv. № 2467). The chandelier made of brass is 28 cm high and has decorated with carved floral and geometric elements, inscriptions, ornaments, colored glass, crescent figures. The chandelier, one of the unique exhibits of the museum, has not been the subject of research so far. In order to determine the region and period of the chandelier, it was compared with the chandeliers and mosque lamps in museums around the world, and the works of orientalist Western artists of the time were used. The fact that the chandelier bears a striking resemblance to three-piece chandeliers made in Syria or Morocco in the early 19th-20th centuries, with Arabic calligraphic inscriptions and a classic Mamluk design, suggests that the chandelier under study is the work of Syrian or Moroccan master.

Гюнель Эминова
Образец исламского декоративно-прикладного искусства – светильник

Резюме

Ключевые слова: *светильник, канделябр мечети, мамлюкское искусство, исламское декоративно-прикладное искусство*

Представленная статья посвящена определению даты и назначения светильника хранящего в Фонде этнографии Национального музея истории Азербайджана (инв. № 2467). Светильник из латуни высотой 28 см украшен резными растительными и геометрическими элементами, надписями, орнаментом, цветным стеклом, полумесяцем. Светильник, один из уникальных экспонатов музея, до сих пор не была предметом исследований. Чтобы определить регион и время создания светильника, было проведено сравнение со светильниками и лампами мечетей, хранящихся в музеях мира, а также использованы работы западных художников-ориенталистов эпохи. Тот

факт, что светильник имеет поразительное сходство с трехкомпонентными светильниками, сделанными в Сирии или Марокко в начале XIX-XX веков, с арабскими каллиграфическими надписями и классическим дизайном мамлюков, позволяет предположить, что исследуемый светильник является работой сирийского или марокканского мастера.









Esmira Rəhimova*

Bakı Kommersiya məktəbinin tarixindən (Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında)

UOT 94 (479.24)

Açar sözlər: *Azərbaycanda ixtisas təhsili, Kommersiya məktəbi, Məhəmmədbağır Tağıyev, Ağadadaş Dadaşov, "Kaspi" qəzeti*

Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondunda mühafizə edilən zəngin kolleksiyalardan biri təhsil tariximizin öyrənilməsində böyük əhəmiyyət kəsb edən Bakı Kommersiya məktəbinin materiallarıdır. Bu məktəbin məzunlarının şəxsi işlərini vərəqləyərkən məktəbin Azərbaycan təhsilinin inkişafındakı xidmətlərini aydın şəkildə görmək olar.

XIX əsrin sonunda Rusiyada ticarət, sənaye və bank sahələrində kapitalist münasibətlərin inkişafı ilə yüksək ixtisaslı kadrlara ehtiyac yarandı. Bu dövrdə Bakıda yaradılmış qısamüddətli kommersiya kursları əsasən yaşlılar üçün nəzərdə tutulmuşdu. Lakin bu kurslar hazırlıq və savad səviyyəsinə görə mövcud tələbatı ödəyə bilmirdilər. Artıq bu sahədə tam ixtisaslı tədris müəssisəsinin yaradılması zərurəti ortaya çıxdı.

Ticarət və manufaktura departamentinin müdiri V.İ.Kovalevski, maliyyə naziri S.Y.Vittenin hazırladıqları "Kommersiya məktəbləri haqqında Əsasnamə" layihəsində deyilirdi: "kommersiya təhsilinin düzgün formalaşdırılması daxili və xarici ticarətimizin uğurlu inkişafı üçün ən vacib tədbirlərdən biri kimi qəbul edilməlidir" (14, s. 16). Beləliklə, 1896 -cı il aprelin 15-də, maliyyə naziri S.Y.Vittenin təklifi ilə 1917-ci ilə qədər qüvvədə olan "Kommersiya təhsil müəssisələri haqqında Əsasnamə" çar II Nikolay tərəfindən təsdiqləndi (14).

*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələrin elmi fond şöbəsinin müdiri; esmirarahimova@mail.ru

Bütün bunlar, XIX əsrin sonunda imperiya ərazisində sosial-iqtisadi proseslərin, sənayenin və ümumilikdə iqtisadiyyatın inkişafı fonunda yaranmış bir zərurət idi. Maliyyə naziri S.Y.Vittenin təşəbbüsü ilə kommersiya qanunvericilik bazasının təkmilləşdirmə prosesi başlandı.

Bu zaman imperiyanın işgüzar dairələri, ticarət məktəblərinin idarəçiliyini, maliyyələşdirilməsini və sərəncam hüququnu sahibkarların və fiziki şəxslərin korporativ təşkilatlarına verən islahatı dəstəklədilər. Əsasnamənin hazırlanması zamanı, dövlət nümayəndələri ilə yanaşı, sahibkarlar arasından böyük xeyriyyəçilərin daxil olduğu təhsil müəssisələri Qəyyumlar Şurası da iştirak edirdilər.

Bu Əsasnaməyə görə, kommersiya məktəbləri, şagirdlərə ümumi və kommersiya təhsili vermək məqsədi daşıyan orta ümumtəhsil müəssisələrinə çevrildi. Məktəblərdə 7 və ya 8 illik təhsil kursu nəzərdə turulmuşdu.

Yuxarı siniflərdə tədris saatlarının bir hissəsi xüsusi fənlərə (texnologiya elementləri olan əmtəəşünaslıq, mühasibat, kommersiya mühasibatı, ticarət coğrafiyası, rus, fransız və alman dillərində ticarət yazışmaları və s.) aid olunurdu. Məktəbi bitirən məzunlar ticarət institutlarına və texniki universitetlərə daxil ola bilərdilər.

İmperiyanın kommersiya istiqamətində yeni təhsil islahatının həyata keçirilməsində əsas məqsəd dövlət və özəl kommersiya məktəblər şəbəkəsini yaratmaq idi. Bu baxımdan, 1903/04 tədris ilində kommersiya məktəblərinin sərəncamında olan 3.159.282 rubl məbləğin yalnız 16 mini dövlət tərəfindən verilmişdir (14, s. 18). Sahbkarların bu sahəyə ayrırdıqları böyük maliyyə vəsaitləri Əsasnamənin uğurla həyata keçirilməsindən xəbər verirdi. Göründüyü kimi, məktəb iri sahibkarların vəsaiti hesabına təşkil olunmaqla aparıcı təhsil müəssisəsinə çevrildi.

XX əsrin əvvəllərində ticarət məktəblərinin maliyyə idarəçiliyi şəffaflıq prinsiplərinə əsaslanırdı.Kommersiya məktəblərinin Qəyyumlar Şurasının ümumi yığıncağında, hər bir maddəyə görə diqqətlə tərtib edilmiş maliyyə hesabatı hazırlanırdı. Məqalənin hazırlanmasında tarixi mənbə kimi istifadə etdiyimiz bu hesabat daha sonra Kommersiya məktəbinin illik hesabatı (11; 12) şəklində nəşr olunurdu. Təhsil müəssisələrinin büdcələrinə daxil olan gəlir mənbələri müxtəlif idi. Məktəbdə təhsil haqları 100-300 rubl arasında dəyişirdi, məktəbin ehtiyacları sahibkarların birdəfəlik ianələri, nağd depozitləri hesabına ödənilirdi. (10, s. 16).

Kommersiya məktəbləri bütün təbəqədən olan nümayəndələr üçün açıq idi. Kasıblar üçün təqaüd və müavinət fondunun formalaşdırılması ölkə sahibkarlarının Rusiyada xüsusi təhsilin demokratikləşməsinə töhfə verdiyini göstərirdi. Təbii ki, təhsil islahatı Bakıya da öz təsirini göstərdi.

Belə ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Bakı imperiyanın böyük bir sənaye mərkəzinə çevrildi və burada çoxlu ticarət evləri, ofislər, mağazalar,

maliyyə - kreditor, birjalar və digər qurumlar meydana çıxdı. Həmin qrumlarda prikazçikə (mülkədar mülklərini idarə edən şəxsə), mühasiblərə, katiblərə, komissiya nümayəndələrinə və digər işçilərə böyük ehtiyac var idi.Bakıda bu sahələr üzrə mütəxəssislər olmadığı üçün həmin vəzifələrə Rusiyanın mərkəzi əyalətlərindən və hətta xaricdən mütəxəssislər dəvət olunurdu. Əksər hallarda, özəl mühasibat və ya kommersiya kurslarında təhsil almış yerli kadrlardan istifadə olunurdu. Xaricdən dəvət olunan mütəxəssislər olduqca yüksək məvacib tələb edirdilər, halbuki onlar yerli şəraitlə, xüsusən də neft sənayesi ilə tanış deyildilər. Bu baxımdan, yüz mindən çox əhalisi olan şəhərin orta kommersiya təhsilli mütəxəssislərə olan ehtiyacı göz qabağında idi (15, s. 450).

1899-cu ilin oktyabr ayında yuxarıda qeyd olunan Əsasnamənin müəlliflərindən biri V.İ.Kovalevski Bakıya rəsmi səfər etdi. Məhz V.İ,Kovalevski 1899 -cu il oktyabrın 4-də Bakıda sahibkarlara və himayədarlara Bakıda Kommersiya məktəbinin yaradılmasının zəruriliyi fikrini irəli sürdü.


V.İ. Kovalevskinin təklifini ilk qəbul edənlər arasında böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev də var idi (7). Həmin il bakılı iş adamları tələbə müavinəti üçün təxminən 140.500 min rubl bağışladılar. Bunların arasında Bakı 1-ci gildiya taciri Hacı Zeynalabdin Tağıyev 50 min, A.E.Nobel 20 min, A.İ.Mantaşev 20 min, Xəzər-Qara dəniz Neft Sənayesi və Ticarət Cəmiyyəti 20 min, Rusiya neft və maye yanacaq istehsalı cəmiyyəti 12 min, P.O.Qukasov 10 min, A.S.Melikov 3 min, ilk azərbaycanlı mədən mühəndisi Fərrux bəy Vəzirov 2 min, Qoldlist 2 min, A.M.Feyql 1000, yardım etdilər (7). Ən çox yardım göstərən Hacı Zeynalabdin Tağıyev 1918-ci ilə qədər Bakı Kommersiya məktəbinin Fəxri Qəyyumu olmuşdu (11, s.20). Bundan əlavə Hacı Zeynalabdin Tağıyev həmin məktəbdə kabinet və laboratoriyaların yaradılmasına da yardım göstərmişdir.

Rotşildin Xəzər-Qara Dəniz Neft Sənayesi və Ticarət Cəmiyyəti məktəbin fəaliyyəti üçün böyük məbləğdə vəsait bağışlamışdır. Cəmiyyətin idarə heyətinin üzvləri şəhər gimnaziyalarının və Kommersiya məktəblərinin qəyyumları kimi çıxış edərək, hər zaman Bakı şəhərində yerləşən təhsil müəssisələrinə təmənnasız maliyyə vəsaiti verirdilər.

Qısa müddət ərzində məktəbin yaradılması üçün ümumilikdə 170 min rubl toplanmışdır. Beləliklə, 1901-ci il oktyabrın 14-də səkkiz illik Bakı Kommersiya məktəbinin təntənəli açılışı oldu. Məktəbin ilk binası Suraxanı və Stanislav (indiki Dilarə Əliyeva və Azadlıq) küçələrinin kəsişməsində yerləşən Mövsümovun evi idi.

Muzeyin Sənədli mənbələr fondunda qorunan Kommersiya məktəbinə aid foto və sənədlər məktəbin fəaliyyətini izləməyə imkan verir.Onlar arsında 1912-ci il mayın 28-i tarixində Bakı Kommersiya məktəbini bitirən Məhəmmədbağır Tağıyevin 395 saylı attestatı da var. Məktəbin 8 illik olmasını bir daha sübut edən bu sənəddə Məhəmmədbağır Tağıyevin 1903-1912-ci ildə məktəbdə təhsil aldığı və tam kursu bitirdiyi qeyd edilir (2, SMF inv. 634/9).

Görkəmli tədqiqatçı alim, professor Ədalət Tahirzadənin şəxsi arxivində saxlanılan Məhəmmədbağır Tağıyevin tərcümeyi halından və Zaqafqaziya Şiə Ruhani İdarəsi tərəfindən verilmiş şəhadətnamədən məlum olur ki, o, 1891-ci il fevralın 9-da Bakı şəhərində anadan olmuşdr. 1900-1903-cü illərdə Bakıdakı 4-cü rus-türk məktəbində təhsil almış,1903-cü ildən isə təhsilini Bakı Kommersiya məktəbində davam etdirmişdi. 1912-ci ildə məktəbi bitirdikdən sonra Moskva



Бакинское Коммерческое Училище.

СВѢДѢНІЯ

об успѣхахъ и поведеніи ученика 6го пр. класса реал. отд.

Таиева Магомедъ

за 1903/4 учебный годъ.

Предметы	Годовыя отмѣтки	Экзаменныя отмѣтки	Постановленіе педагогическаго Комитета.
Законъ Божій	5		
Русскій яз.	4		
Нѣмецкій яз.			
Французскій яз.			
Ариѳметика	5		
Алгебра			
Геометрія			
Космографія	5		
Географія			
Исторія			
Рисованіе	4		
Чистописаніе	4		
Армянскій яз.			
Татарскій яз.	5		
Пѣніе	5		
Гимнастика	5		
Поведеніе	5		
Число пропущенныхъ уроковъ	4		

Директоръ

№ 395

Аттестатъ

Дано сей отцу имущества Магомедъ Багиру Таиеву сыну Магометанскаго вѣроисповѣданія родившемуся въ городѣ Баку мусульманину въ томъ, что онъ обучался въ Бакинскомъ Коммерческомъ Училищѣ 12-ти лѣтъ съ 1903 года при отличномъ поведеніи обучался по 1-е мая 1912 года и окончилъ полный курсъ ученія.

При переходѣ ученаго курса, а также на первомъ и второмъ испытаніяхъ онъ, Таиевъ, держалъ слѣдующія испытанія:

Въ Законѣ Божіемъ	пять	(5)
русскаго языка и словесности	четыре	(4)
нѣмецкаго языка	пять	(5)
французскаго языка	пять	(5)
исторіи	пять	(5)
географіи	пять	(5)
математики, а именно:		
ариѳметики	пять	(5)
алгебры	пять	(5)
геометріи	пять	(5)
тригонометріи	пять	(5)
Въ космографіи	пять	(5)
естественной исторіи	пять	(5)
физики	пять	(5)
коммерческой ариѳметики	пять	(5)
бухгалтеріи	пять	(5)
коммерческой корреспонденціи	пять	(5)
политической экономіи	пять	(5)
законовѣдѣнія	пять	(5)

SMF inv. 634/5. Bakı Kommersiya məktəbinin şagirdi Məhəmmədbağır Tağıyevin 1903-1904-cü tədris ili üçün qiymət cədvəli. 1904-cü il.
SMF inv. 634/9. Bakı Kommersiya məktəbini bitirən Məhəmmədbağır Tağıyevin 395 saylı attestatı. 28 may 1912

Kommersiya İnstitutuna daxil olmuşdu.O,1917-ci ildə institutun tam kursunu bitirmişdir (3).

Beləliklə, Bakı Kommersiya məktəbi 1901-ci ildə imperiyanın ticarət və sənaye nazirliyi nəzdində kommersiya məktəbi kimi təsis edildi. Kommersiya məktəbi əsasən müəyyən peşələr üzrə çatışmayan mütəxəssislər hazırlamalı idi. İbtidai məktəb məzunlarını qəbul edən məktəbin (hazırlıq sinifindən başqa) 8 sinifi var idi (1, s.234).

Kommersiya məktəbi birja komitəsi tərəfindən maliyyələşdirilirdi.Təhsili dəstəkləyən Bakı neft sənayeçiləri Kommersiya məktəbinə əvvəlcə 17 min rubl, daha sonra isə 25 min rubl məbləğində vəsait ayırdılar. Bununla yanaşı hər il, işçilərin uşaqlarının təhsili üçün fərdi təqaüdlər də təyin edilirdi. Ümumiyyətlə, 1897 -ci ildən 1912 -ci ilədək, təşkilatın 15 illik fəaliyyəti dövründə Komersiya məktəbinə ayrılan vəsaitlərin həcmi 1,7 milyon rubldan çox idi ki, bu da təşkilatın

büdcəsinin təxminən 7% -ni təşkil edirdi (13, s. 16-17).

Ticarət məktəbinin fəaliyyətə başladığı il Bakı sahibkarları tələbə müavinətləri üçün təxminən 30 min rubl vəsait ayırdılar . 1901-ci ildə Fərrux bəy Vəzirov Bakı Kommersiya məktəbinin açılması üçün 2000 rubl bağışladı. Qeyd etmək istərdim ki, F.Vəzirov həm də Bakı Kommersiya məktəbinin Qəyyumlar Şurasının üzvü olmuşdur.

Bakı Kommersiya məktəbində təlim-tərbiyə prosesi ticarət məktəbləri üçün müəyyən edilmiş proqramlara uyğun olaraq həyata keçirilirdi. Bundan əlavə, məktəbdə tələbələrin bədən tərbiyəsinə, gigiyenasına, düzgün qidalanmasına və yeniyetmələrin gündəlik həyatının digər məsələlərinə çox diqqət yetirilirdi.

Məktəbin yaradılması və tədris ilinin yekun nəticələri haqqında "Kaspi" qəzetinin 1902-ci ilin 1 sayında yazılırdı: "Şəhərimiz mədəniyyət sahəsində tərəqqi etmişdir. Bu baxımdan, 1901-ci il Bakı tarixinin ən parlaq səhifələrindən birini yaşamışdır. Bu il ölkəmizdə təhsil xarakterli yeni açılan məktəblərin bolluğu ilə seçildi. Bir sıra təhsil müəssisələrinin - iki şəhər məktəbinin, bir müsəlman qadın təhsil müəssisəsinin, bir ticarət məktəbinin və ümumi təhsil kurslarının açılması, şübhəsiz ki, şəhərimizin maarifçilik tarixində bir dövr təşkil etməlidir. Xüsusi əhəmiyyət kəsb edən odur ki, bütün bu mədəniyyət və təhsil müəssisələri dövlət idarəçiliyi vasitəsi və ya şəxsi hesablar vasitəsilə toplanan ianələr vasitəsilə açılır. Cəmiyyətimizin müxtəlif təbəqələrinin maariflənməsində bu təhsil müəssələrinin açılması böyük bir tarixi hadisədir" (9).

1901-ci ildə bu məktəblərdə 166 şagird, o cümlədən 11 nəfər azərbaycanlı (6,6 faiz) təhsil alırdı. 1908/09-cu tədris ilində Bakı Kommersiya məktəbinin şagird kontingenti 498 nəfərə qədər idi. 1910 -cu il üçün "Qafqaz təqvimi" ndə nəşr olunan statistik məlumatda bu məktəbdə 89 kəndli və 14-ü irsi zadəgan ailələrindən olan uşağların təhsil aldığı göstərilir. 1916-cı ildən sayı 472 nəfər olmuş şagirdlərin 65-i (13,9 faizi) azərbaycanlı idi. Bütün təhsil alanlardan 349-u, yaxud 73,9 faizi ticarət və sənaye müəssisələrində çalışan qulluqçuların övladları olmuşdur (6). Eyni zamanda məktəbdə təhsil alanlar arasında 6 xarici ölkə vətəndaşı da var idi (11, s. 176). Bu, birmənalı olaraq Bakı Kommersiya məktəbinin verdiyi yüksək təhsil səviyyəsindən xəbər verirdi.


Бакинское Коммерческое Училище.

СВѢДѢНІЯ

Дадашова Ага Дадаша

за 1903 - 1904 учебный годъ.

SMF inv. 116/2. Bakı Kommersiya məktəbinin şagirdi Ağadadaş Dadaşovun 1903-1904-cü tədris illəri üçün qiymət cədvəli

Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondunda məktəbin ilk məzunlarından olan Ağadadaş Dadaşova məxsus qiymət cədvəli qorunur.

Cədvəldəki bütün qiymətlərin əla olması məktəbdə azərbaycanlı şagirdlərin böyük həvəslə təhsil aldığını göstərir (2, SMF inv. 116).

Muzeyin Sənədli mənbələr fondunda qorunan Bakı Kommersiya məktəbinin IX buraxılışının 1917-ci il mayın 6-da məktəb salonunda, xeyriyyə vəsaitinin toplanması məqsədilə baş tutan bal gecəsini əks etdirən proqram qiymətli mənbə kimi böyük əhəmiyyət kəsb edir. Tədbirdə simfonik orkestin müşayəti ilə "İki boğulmuş adam" tamaşası göstərilməli idi. Əldə edilən xalis qazancın əsgər ailələrinin nəfinə verildiyi qeyd edilir (2, SMF inv. 231/46).


Зал Бакинского Коммерческого Училища.

ВЕЧЕРЪ-БАЛЪ

ПРОГРАММА

Симфонический оркестръ.

ДВА УТОПЛЕННИКА

Концертное отдѣленіе

ТАНЦЫ

SMF inv. 231/46 Bakı Kommersiya məktəbinin IX buraxılışının 1917-ci il mayın 6-da təşkil etdiyi bal gecəsinin proqramı

Məktəbin Qəyyumlar Şurasının üzvü olan Əlimərdan bəy Topçubaşov təhsil alan kontingentin milli və dini xüsusiyyətlərini nəzərə almağın zəruriliyini irəli sürürdü. Bu baxımdan, Əlimərdan bəy Topçubaşov Rusiyanın Şərqlə ticarət əlaqələrinin genişlənməsini nəzərə alaraq məktəbdə Şərq dillərini, həmçinin qonşu ölkələrin iqtisadi coğrafiyasını tədris etməyin vacibliyini bildirirdi.

Məktəbin kasıb şagirdlərinin təhsil alması üçün yardımların edilməsinin vacibliyi ilə bağlı Əhməd bəy Ağaoğlu "Kaspi" qəzetində yazırdı: "Bu yaxınlarda Bakı Kommersiya məktəbinin bir müsəlman şagirdi kömək üçün yerli varlılardan birinə müraciət etdi. Bu şagird məktəbdə əxlaqi keyfiyyətləri və uğurları baxımından ən yaxşılarından biridir. Yetimdir və çox kasıb olduğu üçün bir karvansaray kompleksində yaşayır. Məktəb onu ödənişdən azad etdi, ona kostyum, məktəb ləvazimatı və yaşayış yerinin təmini məqsədilə ayda 10 rubl verdi. Halbuki bu 10 rubl üçün həmin şagird daha əvvəl bir varlıya üz tutmuşdu.Lakin qəddar zəngin adam ona bu məbləğin yalnız yarısını verə biləcəyini söyləmişdi.

Siz zəngin müsəlman bəylər çox qəribəsiniz. Sizi başa düşmək olduqca çətindir. Sən kimsən, hansı millətdənsən, hansı dinə mənsubsan? Tatarlar və müsəlmanlar, siz cavab verin. Yazıq tatarlarınıza kömək edin. Heç həyat haqqında düşünmüsünüzmü? Son mənzilə nə aparacaqsınız? Hər birinizin əlbəttə ki, qohumları, dostları öldü. Özləri ilə nə götürdülər? Bir parça kəfən, bir kilo pambıq və bir neçə taxta parçası. Var-dövlətinizi, sahib olduğunuz sərvəti, milyonlar dəyərində olan şəxsi mülkləri axirətə aparmaq mümkün deyil" (4). Görkəmli mütəfəkkirin azərbaycanlı uşaqların təhsil alması üçün etdiyi bu çağrışlar, millətini sevən hər kəs üçün bir örnək idi.

Beləliklə, məktəbin yüksək kommersiya təhsili sahəsində əldə etdiyi nailiyyətlər onun qısa müddətdə tanınmasına və ildən-ilə şagirdlərinin sayının

artmasına gətirib çıxartdı. Lakin bu zaman Bakı Kommersiya məktəbinin Qəyyumlar Şurası müəyyən çətinliklərlə üzləşdi. Məktəb böyük kontinget üçün nəzərdə tutulmadığına görə artıq istifadəyə yararsız idi. Bunun nəticəsində 1903 -cü ildə Qəyyumlar Şurası şəhər məclisindən Merkuryevskaya, Birzevaya və Kaspiyskaya küçələri arasında (indiki Z.Əliyeva, Üzeyir Hacıbəyov və Rəşid Behbudov küçələri arasında) yeni məktəb binasının tikilməsi üçün şəhər torpağının ayrılması haqqında Dumaya müraciət etdilər. Məkan çox yaxşı seçildi, demək olar ki, bütün tələblərə cavab verirdi.

Şuranın tikinti şöbəsi tərəfindən mövcud vəziyyət nəzərdən keçirildi və Dumanın iclasında müzakirə edilərək məsələ öz həllini tapdı. Bakı Kommersiya məktəbinin binasının tikintisi üçün 2300 kvadratmetrlik torpaq sahəsi ayrıldı. Qəyyumlar Şurası 800 tələbənin təhsil almasını nəzərdə tutan Bakı Kommersiya məktəbinin binasının tikintisi üçün müsabiqə elan olunması məqsədilə Sankt-Peterburq Memarlar Cəmiyyətinə müraciət etdi.

1904-cü il oktyabrın 8-də 20 layihənin təqdim olunduğu müsabiqə keçirildi. Münsiflər Komissiyasının rəyinə əsasən üç ən yaxşı layihəyə mükafat verildi.

Birinci mükafatın qalıbi, rus inşaat mühəndis-memarı Stepan (Stefan) Qalenzovskinin də daxil olduğu Sankt-Peterburqdakı bir çox binaların müəllifləri olan memar İosif Padlevski və Kazimir Skolimovski idi.

İkinci mükafat inşaat mühəndisi və memar Qavril Ter-Mikelova verildi. Üçüncü mükafat, inşaat mühəndisi və memar Aleksey Bubırya (1876-1919) və şəhər memarı, XX əsrin 30-cu illərdə Bakının baş planını hazırlayanlardan biri olan Dağüstü parkın müəllifi Lev İlyinə (1880-1942) təqdim edildi.

Lakin sonda Tbilisi və Bakıda memarlıq layihələrinin müəllifi Qabriel Ter-Mikelovun (1874-1949) Kommersiya məktəbi üçün hazırladığı layihə qəbul olundu.



SMF inv. 293/2. Bakı Kommersiya məktəbi. XX əsrin əvvəli.

Beləliklə, 1908-ci ildə inşaat mühəndisi, memar Aleksandr Dubov (1877-1964), Ter-Mikelov və Qasımov qardaşlarından biri podratçı Hacı Qasımovun (1867-1937) birgə əməkdaşlığı ilə binanın tikintisinə başlanıldı. Tikinti təxminən 1913-cü ildə tamamlandı. "Baku" qəzetin səhifələrində yeni ünvanda yerləşən Bakı Kommersiya məktəbindən bəhs edilərək yazılırdı: "Məktəbdə tikinti davam edərkən təhsil prosesi bir an belə dayanmadı - dərslər köhnə binada keçirilirdi" (5).

Bakı Kommersiya məktəbində təhsil kursu 8 sinifdən ibarət idi ki, onlardan

iki sinif ixtisas kursu hesab olunurdu. Hazırlıq sinifləri rus dilini bilməyənlər üçün idi. Xüsusi fənlərdən ən çox diqqət kommersiya haqq- hesabına, mühasibata, əmtəəşünaslığa, siyasi iqtisada verilirdi. Xarici dillərdən fərqli olaraq, Azərbaycan dili mütləq fənn hesab olunmurdu. Bakı Kommersiya məktəbində doğma dilin tədrisinə göstərilən etinasızlıq nəticəsində onun qeyri-icbari fənn olması Ə.Ağayevin ciddi etirazına səbəb olmuşdur (12, s. 57).

Bakı Kommersiya məktəbi Rusiya ali məktəblərini bitirmiş ixtisaslı müəllimlərlə komplektləşdirilmişdir. Ştatdankənar işə götürülmüş Ə.Ağayev (1901-1909-cu illər) və N.Nərimanov (1906-cı ildə) burada Azərbaycan dili və şəriət dərslərini tədris etmişdilər (11, s. 61, 63).

Muzeyin fondunda Məhəmmədbağır Tağıyevin Moskva Kommersiya məktəbində oxuduğu illərdə çəkdirdiyi fotoşəkl qorunur. 1912-ci ildə çəkilmiş fotoşəklin arxa hissəsində rusca "Əziz qardaşım Ağatağı Tağıyevə yadigar olaraq. 20/III. 12-ci il" yazısı əks olunmuşdu (2, SMF inv. 359/17).

1915-ci ilədək Bakı Kommersiya məktəbini 191 nəfər bitirmişdi. İlk məzunlardan (1909-cu il) Qasım



SMF inv. 359/17. Fotoşəkil (paspartu üzərində). Moskva Kommersiya məktəbinin tələbəsi M. Tağıyev. Moskvada çəkilmişdir. Arxasında rusca "Əziz qardaşım Ağatağı Tağıyevə yadigar olaraq. Bakı, 20/III. 12-ci il" yazısı var. 1912-ci il.



SMF inv. 359/18.Fotoşəkil (paspartu üzərində). Müsəlman ziyalıları və gəncləri, habelə Moskva ali məktəblərində təhsil alan tələbələri. İkinci sırada soldan 4-cü Üzeyir Hacıbəyli, 7-ci İsmayıl Qaspiralı, sağdan 1-ci . 1912-ci il.

2.Məhəmmədbağır Tağıyevr Moskva ali məktəblərində təhsil alan tələbələr arasında. Soldan oturanlar: Paşa bəy Poladxanov, Ağa bəy Bağırbəyov, Mustafa ağa Vəkilli, Məhəmməd)bağır Tağıyev. 1912-ci il. Professor Ədalət Tahirzadənin şəxsi arxivi.

bəy Cəfərov və İskəndər Hacıyev təhsilini davam etdirmək hüququndan istifadə edərək, sonralar Rusiyada ali təhsil ala bilmişdilər (13, s. 96).

Sənədli mənbələr fondunda qorunan qiymətli mənbələrdən biri Bakı Kommersiya məktəbinin məzunu Məhəmmədbağır Tağıyevin müsəlman ziyalıları və gəncləri, habelə Moskva ali məktəblərində təhsil alan tələbələri ilə 1912-ci ildə çəkdirdiyi fotoşəkildir. Fotoşəkildə Məhəmmədbağır Tağıyevlə (sağdan 1-ci) birlikdə dövrün görkəmli şəxsiyyətləri - ikinci sırada soldan 4-cü Üzeyir Hacıbəyli, 7-ci İsmayıl Qaspiralı da əks olunmuşdur (2, SMF inv.359/18).

1917-ci il Oktyabr çevrilişindən sonra məktəb binası bir neçə dəfə sahiblərini dəyişdi. 1919 -cu il sentyabrın 1-də Bakıda Dövlət Universiteti açılanda, Bakı Kommersiya məktəbinin binasında patoloji və bakterioloji laboratoriyalar istisna olmaqla iki fakültənin mühazirə zalları, bir kitabxana Bakı Dövlət Universitetinə verildi.

Beləliklə, XX əsrin əvvəllərindən Azərbaycanda ümumi və peşə-texniki təhsil şəbəkəsinin qismən də olsa inkişafı müxtəlif istiqamətli bir çox orta və ali təhsil müəssisələrinin yaradılması, milli təhsil və elmi kadrların yetişdirilməsi üçün zəmin yaratmış oldu.

Mənbələr və ədəbiyyat

1. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi (Dərs vəsaiti). I hissə. Bakı, 2001.
2. Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondu, inv. № 116, 231, 280, 293, 334, 356, 359, 393, 634.
3. Professor Ədalət Tahirzadənin şəxsi arxivi.
4. Агаев Ахмед бек. Открытое письмо к богачам-мусульманам//«Каспий», 1902 г.
5. «Баку» 5 мая 1913 г., № 123.
6. Кавказский Календарь 1910 г. Тифлис, 1909, 928 с.
7. «Каспий», 5 октября 1899 г., № 213.
8. «Каспий», 21 июня 1901, № 175.
9. «Каспий» 1 января 1902 г., № 1.
10. Материалы по коммерческому образованию. Вып. 4, Санкт-Петербург, 1904.
11. Отчет Бакинского коммерческого училища за 1915/1916 учебный год. Баку, 1917.
12. Отчет Бакинского коммерческого училища за 1912-1913 учебный год. Баку, 1913.
13. Памятная книжка Бакинского коммерческого училища 1904-1912 гг.

Баку, 1912.
14. Положение о коммерческих учебных заведениях // Полное собрание законов Российской империи. Собр. III. Т. XVI. № 12774, Санкт-Петербург, 1898.
15. Таирзаде Н. Из истории коммерческого образования в Азербайджане (конец XIX – начало XX вв.) // Milli Azərbaycan Tarixi Muzeyi – 2016. Bakı, 2016.

Esmira Rahimova
From the history of Baku Commercial school

Summary

Keywords: *special education in Azerbaijan, Commercial school, Mamed Baqir Tagiev, Agadadash Dadashev, «Caspian» newspaper*

The article covered the history of the school by involving materials on the graduates of the Baku Commercial school preserved in the Documentary Sources Fund of the National Museum of History of Azerbaijan.

Baku Commercial school was established in 1901 as a commercial school under the imperial Ministry of Trade and Industry. The commercial school was to train mainly specialists in certain professions.

The materials of the Baku Commercial school, which began operating in the early twentieth century, are of great importance as a valuable source in the study of the history of education in Azerbaijan. The role of the school in the development of education in Azerbaijan can be clearly seen in the personal files of the graduates of this school.

However, since the beginning of the twentieth century, the development of the general and vocational education network in Azerbaijan, albeit partial, begun to lay the groundwork for the establishment of many secondary and higher education institutions in various fields, national education and training of scientific personnel.

Эсмира Рагимова

Из истории Бакинского Коммерческого училища

Резюме

Ключевые слова: *специальное образование в Азербайджане, Коммерческое училище, Мамед Багир Тагиев, Агададаш Дадашев, газета «Каспий»*

В статье исследуется история Бакинского Коммерческого училища с привлечением материа лов выпускников Училища, хранящиеся в фонде документальных источников Национального Музея Истории Азербайджана.

Бакинское Коммерческое училище было учреждено в 1901 году при Министерстве Торговли и Промышленности Российской империи. Коммерческое училище должно было подготавливать недостающих специалистов по отдельным профессиям.

Материалы Бакинского Коммерческого училища, начавшего действовать в начале XX века, имеют большое значение как ценные источники по изучению истории образования в Азербайджане. Листая личные дела выпускников учебного заведения, можно ясно увидеть роль этого училища в развитии азербайджанского образования.

Вместе с тем, частичное развитие сети профессионально-технического образования в Азербайджане в начале XX века, создание средних и высших учебных заведений в разных отраслях подготовило почву для формирования национального образования и воспитания научных кадров.

Севиль Казиева *

Первые женщины-композиторы Азербайджана

UOT 94 (479,24)

Ключевые слова: *Агабаджи Рзаева, Адиля Гусейнзаде, Эльмира Назирова, Узеир Гаджибейли, женщина-композитор*

В начале XX века в Азербайджане происходили изменения в политической, экономической и культурной жизни страны. Дальнейшее развитие получает музыкальное искусство. С созданием первой на Востоке оперы «Лейли и Меджнун» Узеира Гаджибейли в 1908 году, организацией музыкальных учебных заведений, в том числе, созданием высшего очага музыкального образования в Баку – консерватории в 1921 году, столетие которой отмечается в этом году, начинается воспитание национальных кадров музыкантов в республике. В 1930-40 годы появляются первые исполнители: инструменталисты, певцы и композиторы. Звучат произведения Асафа Зейналлы, сочинения тогда еще юных Гара Гараева, Джевдета Гаджиева. Растет число музыкантов Азербайджана. Наряду с известными композиторами, появляются в области сочинительства и женские имена. Они остались в истории национального музыкального искусства как первые женщины-композиторы, ученики, воспитанники и последователи творчества классика азербайджанской профессиональной музыки Уз.Гаджибейли, являясь воплощением его идей и взглядов.

Агабаджи Рзаева, Шафига Ахундова, Адиля Гусейнзаде, Эльмира Назирова – каждая по-своему талантливы и неповторимы.

А.Рзаева, внучка прославленного музыканта-тариста Мирза Фараджа и

*Научный сотрудник научно-фондового отдела документальных источников Национального музея истории Азербайджана НАНА; sevil.kazieva.50@mail.ru

дочка известного исполнителя на таре Исмаила Рзаева, продолжила традиции семьи, став профессиональным исполнителем на таре.

В 1934 году Мирза Фарадж, близко знавший Уз.Гаджибейли, согласился по настоянию маэстро привести Агабаджи и ее сестру к нему на прослушивание, чтобы проверить их музыкальные способности. Отметив хорошую игру на таре и голосовые данные, Уз. Гаджибейли записал сестер в музыкальный техникум, при этом сказав: «У нас нет хороших женских голосов, вообще, нет певиц. Вы должны заниматься музыкой первыми, а другие девушки, смотря на вас загорелись бы желанием также заниматься музыкой» (1, с.65-66). В этих словах заключалось стремление и главная идея великого маэстро о необходимости музыкального обучения именно девушек, что и делал он в профессиональной жизни, вовлекая и поощряя А.Рзаеву, Ш.Ахундову, А.Гусейнзаде, Э.Назирову и многих других в их пути к достижениям музыкального искусства.

Окончив в 1940 году полный курс «Азербайджанские народные инструменты» музыкального училища по специальности – «нотная тара» (так написано в аттестате – С.К.) в классе Сеида Рустамова, она получила квалификацию педагога по указанной специальности (7, №386/28), т.е. когда преподавание ведется по нотам, тогда как раньше народные исполнители играли на слух. Обучение игры на таре по нотной системе было разработано Узеиром Гаджибейли, но, по словам великого композитора, идея о переходе на нотную систему игры на народных инструментах была впервые выдвинута знаменитым таристом Мирзой Мансуром Мансуровым (4).

А.Рзаева работает в оркестре азербайджанских народных инструментов, становится музыкальным редактором Азербайджанского радио, преподает по классу тара в музучилище. Она также начинает пробовать себя и в написании музыкальных произведений. В 1941 году сочиняет «Патриотический марш» для оркестра народных инструментов, получивший хороший отзыв и одобрение Уз.Гаджибейли, поступает на историко-теоретический факультет Азербайджанской Государственной Консерватории и обучается по композиции в его классе. Будучи студенткой, она продолжает писать свои сочинения. «Произведения А.Рзаевой отличает простота, напевность и непосредственность. Положительными сторонами ее творчества являются красивая мелодия и явная национальная окрашенность» (3, с.271). Ее перу принадлежат музыкально-сценические, камерно-инструментальные и хоровые сочинения. Но наиболее выдающиеся достижения композитора связаны с жанрами песни и романса. Она – автор значительного количества вокальных произведений, ставших классикой азербайджанской музыки (2).

В Национальном музее истории Азербайджана хранится большая коллекция материалов композитора Агабаджи Рзаевой. Значительное количество экспонатов находится в Фонде документальных источников.

Они рассказывают о ее учебе в музыкальных заведениях, о педагогической и творческой деятельности, а также о событиях музыкальной жизни республики. Самым важным, наиболее ценным экспонатом является письмо выдающегося композитора Гара Гараева А.Рзаевой, проникнутое искренним дружелюбием и теплотой, с поздравлением в связи с 50-летием со дня ее рождения и награждением Почетной Грамотой. В письме он отмечает: «Я знаю тебя более 25 лет. Это немалый срок – целая жизнь. И я всегда восхищался твоей преданностью музыке, трудолюбием, скромностью, а главное – твоим замечательным талантом, который ты отдала своему родному народу. Твой великолепный мелодический дар, верность заветам Узеира Гаджибекова, знание народной музыки украшают твои замечательные песни, которые так любит наш народ, и я вместе с ним.

Желаю тебе счастья, творческих радостей, а главное здоровья. Твой Кара Караев 13 февраля 1964» (7, №386/53). В этих строках как нельзя лучше переданы заслуги композитора и подчеркнута ее верность принципам Уз.Гаджибейли. Среди материалов коллекции интересны фотографии первых композиторов-женщин совместно с Агабаджи ханым – А.Гусейнзаде, Э.Назировой, запечатлевших их за творческой работой (7, № 386/45,50).

Документами общественно-творческой деятельности А.Рзаевой в коллекции являются: членский билет №845 Музыкального Фонда СССР, выданный А.Рзаевой с 29 ноября 1943 г. (7, №386/33); членский билет №657, выданный А.Рзаевой в том, что она является членом Союза композиторов СССР с 1944 г.(7,№386/34); удостоверение №12, выданное А.Рзаевой, члену Союза композиторов Азербайджанской ССР (1947 год) (7, №386/36).

Надо отметить, что именно 1940-е годы, являются периодом появления и исполнения первых произведений творчества композиторов-женщин Азербайджана.

Ш.Ахундова, будучи студенткой Уз.Гаджибейли, пишет в 1943 г. первое произведение – песню «Zəfər bizimdir» (Победа за нами) и в том же году становится членом Союза композиторов Азербайджана (10).

А.Гусейнзаде, полюбившая с детства музыку, особенно народные песни, с 6 лет обучается игре на фортепиано в Тюркском музыкальном техникуме (5, л.18). В дальнейшем, увлекшись математикой, поступает в 1932 году в индустриальный техникум, а затем в индустриальный институт. Став инженером-технологом, она, однако, вернулась все же к музыкальному образованию, так велико было стремление к музыкальному творчеству. Обладая хорошим голосом, А.Гусейнзаде в 1942 году становится студенткой АГК по классу пения у профессора Бюль-Бюля, благодаря участию и содействию Уз.Гаджибейли, который поддерживал ее и в композиторских устремлениях. Одобрив ее первое сочинение – песню «Yadigar» (На память), исполненную

самой Адилей ханым, он начинает заниматься с ней по композиции, а в 1947 году она переходит на теоретико-композиторский факультет в класс профессора Уз.Гаджибейли. В 1953 году окончила АГК по классу композиции у Бориса Зейдмана. В 1944 году, еще в студентческие годы, А.Гусейнзаде была принята в члены Союза композиторов СССР (6, с.8).

В Декаде музыки республик Закавказья (в декабре 1944 – январе1945 гг.) в Тбилиси прозвучали вокальные произведения А.Рзаевой, А.Гусейнзаде, Ш.Ахундовой, а ученица 9 класса специальной музыкальной школы при АГК Э.Назирова выступила, исполнив впервые свои сочинения – фортепианные прелюдии. Адиля ханым участвовала в декаде и как композитор, и как исполнитель своих сочинений и песен Агабаджи Рзаевой. Газета «Заря Востока» от 16 декабря 1944 года в связи с Декадой писала: «Крупное и радостное событие музыкальной жизни Азербайджана за последние годы – это появление композиторов-женщин, произведения которых включены в программу концертов Декады советской музыки республик Закавказья. Вокальные произведения Шафиги Ахундовой, Агабаджи Рзаевой, Адили Гусейнзаде («Жду тебя любимый», «Память», «Сон») написаны просто, искренне, чаруют изящным мелодическим рисунком» (6, с. 8).

В творчестве азербайджанских композиторов-женщин объединяющим началом является любовь к песенному жанру, к камерной вокальной музыке – лирический романс и песня. Многие из произведений композиторов, особенно ранние, написаны под непосредственным влиянием Уз.Гаджибейли, его песен и газелей (3, с.253). А.Гусейнзаде, начав свою музыкальную жизнь как певица, осталась верна вокальному жанру. Но она пробовала писать и в других жанрах – произведения крупной формы: сонатина для виолончели и фортепиано, струнный квартет и другие. А.Гусейнзаде – первая композитор-женщина в истории азербайджанской музыки, написавшая симфоническую поэму (6, с.15). А.Рзаева – первая женщина-композитор Азербайджана. Ш.Ахундова – первая, написавшая оперу и музыкальную комедию. Среди них композитор Э.Назирова стоит несколько особняком. В отличие от них, она получила высшее образование по двум специальностям: фортепианное (класс Г.Шароева) и композиторское (класс Б.Зейдмана) в АГК, училась в Московской консерватории и являлась ученицей Дмитрия Шостаковича.

Незаурядное музыкальное дарование ее проявилось уже в детском возрасте. Воспитываясь в музыкальной семье, она начинает играть на фортепиано, пробует сочинять отдельные мелодии, продолжив занятия в музыкальной школе, где именно Уз.Гаджибейли, разглядев способности и талант будущей пианистки и композитора, разрешил и поощрял ее к обучению по двум специальностям и в школе, и в консерватории. Продолжив, также по настоянию Уз.Гаджибейли, учебу в Московской консерватории, где занималась

в классе известного педагога, пианиста Я.Зака и композитора Д.Шостаковича, Э.Назирова, совершенствуя свое мастерство, становится великолепной пианисткой, гастролирует во многих странах. Ее композиторский талант проявился в произведениях самых различных жанров: струнный квартет, скрипичная и виолончельная сонаты, увертюра для симфонического оркестра. Будучи пианисткой, она пишет много произведений для фортепиано, являясь первой исполнительницей этих сочинений – пять прелюдий, соната-поэма, вариации, а также четыре этюда, являющиеся первыми в азербайджанской музыке образцами этого жанра (8). В соавторстве с Фикретом Амировым была написана сюита на албанские народные темы для двух фортепиано. Откликом на это произведение является хранящеея в Музее истории Азербайджана письмо первого секретаря ЦК Албанской партии Труда Энвера Ходжи от 1956 г. со словами благодарности Э.Назировой и Ф.Амирову за творческий труд в создании сюиты на албанские народные темы и за внимание к албанским песням (7, №569/6).

Одним из самых ярких и успешных произведений, которое также было написано в соавторстве с Ф.Амировым, является Концерт для фортепиано с оркестром на арабские народные темы, исполненный впервые Э.Назировой в 1957 году с оркестром Азербайджанской Государственной Филармонии под руководством Ниязи и, в дальнейшем, исполняемый ею во многих странах, а также многими другими пианистами. Среди них особое место занимает всемирно известная грузинская пианистка Хатия Буниатишвили, сыгравшая Концерт в Баку на XI Международном музыкальном фестивале Узеира Гаджибейли 22 сентябре 2019 года, а также на сцене оперы в Монако с Филармоническим оркестром Монте Карло под руководством Рауфа Абдуллаева 12 мая 2019 года (9).

Наряду с композиторской и исполнительской деятельностью Э.Назирова успешно занималась педагогической деятельностью в музыкальной школе и в АГК, воспитывая и обучая с детства учеников и студентов профессионализму пианиста и педагога-музыканта. А.Гусейнзаде, являясь преподавателем музыкальной школы при АГК, обучала детей основам композиции, прививая им любовь к музыке и творчеству, а А.Рзаева работала педагогом по классу тара в музучилище.

Первые женщины-композиторы были последователями Узеира Гаджибейли и в творческой работе, и в воспитании будущих музыкантов. В своих произведениях они продолжили заложенные великим композитором традиции в музыке – синтез европейской и народной музыки, перенесение классических форм на национальную основу. Являясь преподавателями подрастающего поколения, они учили их прекрасному делу – постижению музыкального искусства, будь то игры на таре или фортепиано, или

распознавание и раскрытие в них композиторского таланта.

Своей творческой деятельностью первые женщины-композиторы Азербайджана внесли весомый вклад в развитие музыкального искусства и культуры республики XX века. Материалы о них бережно хранятся и экспонируется в Национальном музее истории Азербайджана.

Источники и литература:

1. Rzayeva – Bağırova R.İ. Tarzən Mirzə Farəc haqqında xatirələrim.Bakı, 1986.
2. Багирова С. Мелодии, простые и прекрасные. Газета «Азербайджанские Известия», 2007, 26 декабря, с.3.
3. Бурштейн Г. Массовая песня в Азербайджане. // Азербайджанская музыка. Сборник статей. Москва,1961.
4. Газета «Баку», 1969, 18 сентября.
5. Государственный Архив Азербайджанской Республики, ф.329, оп.2, д.13, л.18.
6. Николаева Р.Р. Адиля Гусейнзаде. Баку, 1985.
7. Фонд Документальных Источников Национального Музея Истории Азербайджана.
8. Юсуфова Марьям. Видная пианистка, композитор и педагог. Газета «Зеркало», 2013, 16 ноября, с.23.
9. https://www.aveclassics.net/news/2019-09-22-8310
10. См.статью Казиевой С. Шафига Ахундова – одна из первых женщин-Композиторов Азербайджана// Milli Azərbaycan Tarixi Muzeyi. Bakı, 2018.

Sevil Qazıyeva
Azərbaycanın ilk qadın bəstəkarları

Xülasə

Açar sözlər: *Ağabacı Rzayeva, Ədilə Hüseynzadə, Elmira Nəzirova, Üzeyir Hacıbəyli, qadın bəstəkar*

Məqalədə Azərbaycan peşəkar musiqisinin banisi Üzeyir Hacıbəylinin şagird və yetirmələri olan ilk azərbaycanlı qadın bəstəkarlar – Ağabacı Rzayeva, Adilə Hüseynzadə və Elmira Nəzirovadan bəhs edilir.

1920-ci illərin əvvəlində musiqi tədris müəssisələrinin təşkili və Azərbaycan Dövlət Konservatoriyasının təsisatı ölkədə ilk musiqiçi kadrlarının meydana

gəlməsinə rəvac verdi. 40-cı illərdə bəstəkarlıq sənətinin təmsilçiləri sırasında əsərləri ilk dəfə 1944-cü ildə Tbilisidə keçirilmiş Zaqafqaziya respublikalarının musiqi ongünlüyündə səsləndirilən qadın müəllifləri də var idi. A.Rzayeva və Ə.Hüseynzadənin yaradıcılığı, əsasən, lirik romans və nəğmələrdə öz əksini tapan kamera vokal musiqisində tapır. Həm pianoçu, həm də bəstəkar olan E.Nəzirova isə müxtəlif janrlı əsərlər yaratsa da, başlıca olaraq fortepiano əsərlərləri ilə daha çox tanınırdı.

Azərbaycanın ilk bəstəkar qadınları musiqi yaradıcılığı ilə yanaşı pedaqoji və ifaçılıq fəaliyyəti ilə də məşğul olmuş, XX əsrdə respublikamızın musiqi sənəti və mədəniyyətinin inkişafına sanballı töhfələr vermişlər.

Sevil Gaziyeva
The first female composers of Azerbaijan

Summary

Keywords: *Agabadzhi Rzayeva, Adila Huseynzadeh, Elmira Nazirova, Uzeyir Hajibeyli, female composers*

The article deals with the first Azerbaijani female composers - *Agabadzhi* Rzayeva, Adila Huseynzadeh and Elmira Nazirova, who are students and pupils of the founder of Azerbaijani professional music Uzeyir Hajibeyli.

In the early 1920s, the establishment of music schools and the establishment of the Azerbaijan State Conservatory facilitated the emergence of the first musicians in the country. In the 1940s, the names of women authors whose works were first performed during the Decade of Music of the Transcaucasian Republics in Tbilisi in 1944 became especially prominent among the representatives of the art of composition.

The works of A.Rzayeva and A.Huseynzadeh are mainly embodied in lyrical romance and song underlying chamber vocal music. E. Nazirova, who was both a pianist and a composer, created works of various genres, but mainly piano works.

The first women composers of Azerbaijan, along with music creation, were engaged in pedagogical and performance activities and made a significant contribution to the development of music art and culture of our republic in the XX century.

Fikrət Bağırov *

Azərbaycan tarixinə dair qiymətli xəritələr məcmusu

UOT 94 (479.24)

Açar sözlər: *Azərbaycan, xəritələr atlası, məcmuə, qədim dövr, orta əsrlər*

2019-cu ildə muzeyin Sənədli mənbələr fonduna 2012-ci ildə Sankt-Peterburqda rus dilində nəşr edilmiş "Qədim xəritələr toplusu. Azərbaycan" adlı atlas daxil olmuşdur. Həmin atlas orta əsr Avropa xəritəçəkənləri – Frederik Blau, Jan Batist d'Anvil, H.Mol, Frederik de Vit, həmçinin rus mütəxəssisləri – Aleksey İlyin, Vasili Pyadışev, Nikita Zuyev, İvan Kirillov, Aleksandr Ryabçenkonun XVI – XIX əsrlərdə ərsəyə gətirdikləri 64 dəyərli təsvirin faksimile surətlərindən ibarətdir. Bu məlumat yazısında daha çox Rusiyada işıq üzü görmüş xəritələrə nəzər salınacaq. Qərbi Avropada orta əsrlərdə meydana gəlmiş xəritələr demək olar ki, illüstrativ şəkillərə bənzəyir. XVII – XIX əsrlərdə xəritəçəkmə işi burada əhəmiyyətli dərəcədə inkişaf etsə də, həmin dövrdə tərtib edilən xəritələr ölkəmizin və bölgəmizin tarixinin araşdırılması baxımından kifayət qədər yararlı deyil. Məsələn, XIX əsrdə fransız xəritəçəkəni Frederik Dübuanın nəşrdə çap olunan xəritələrində e.ə. I əsrin son illərində və eramızın əvvəllərində yaşamış yunan tarixçisi və coğrafiyaşünası Strabonun, Roma yazıçısı və filosofu Qay Plini Sekundun, yaxud da Böyük Plininin, həmçinin özünün müasiri olan alman şərqşünası Henrix Yulius Klaprotun məlumatları və digər məxəzlər əsasında qədim dünyanın təsvirlərini ortaya qoymaq cəhdləri kafi və etibarlı deyil. F.Dübuanın 1832-1835-ci illərdə tərtib etdiyi "Qafqaz və Türkiyənin ümumi geoloji xəritəsi" bu sahədə çalışan mütəxəssislərin müəyyən marağını oyada bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, Rusiyada nəşr edilən xəritələr arasında ilk

*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələrin elmi-fond şöbəsinin baş mütəxəssisi

olaraq Qafqaz Hərbi Topoqrafiya şöbəsində ərsəyə gələn "Qafqaz Diyarının müfəssəl xəritəsi"dir. Bu xəritə düz 45 il ərzində 1869-cu ildən 1914-cü ilədək dərc edilirdi. Üç hissədən (№№8-10) ibarət olan bu fiziki-coğrafi xəritənin ancaq bir vərəqində müasir Azərbaycan Respublikasının şimal bölgələri öz əksini tapıb.

Məcmuədə yer alan digər xəritə on üçüncü sırada çap olunmuşdur. İlk dəfə Hərbi Topoqrafiya Deposunun icazəsi ilə 1830-cu ildə işıq üzü görən və 1835-ci ildə əlavələrlə birlikdə təkrar dərc edilən bu nəşrin tam adı belədir: "Rusiya imperiyasının 51 quberniya, 4 vilayət, Polşa Çarlığı və Finlandiya Knyazlığını ehtiva edən və böyük və kiçik poçt yollarının, ara yolların vyorst məsafəsini göstərilən xəritəsi. Rusiyanın coğrafiyasını öyrənən və yol vasitəsilə səyahət edən gənclərin karına çatan vəsait". Həmin sanballı topluya həmçinin "Rusiyaya qatılan İrəvan vilayəti ilə birgə Gürcüstanın xəritəsi" salınmışdır. Burada Rusiyanın istila etdiyi Şimali Azərbaycanın bir hissəsi Dağıstanın ərazisi kimi göstərilmişdir. Eyni zamanda İrəvan vilayətindən savayı Şirvan bölgəsinin, Qarabağ və Talış xanlıqlarının adları çəkilir. Qeyd hissəsində İrəvan vilayətinin 1827-ci ildə İrandan, Axalsıx dairəsinin isə 1829-cü ildə Türkiyədən qoparılıb Rusiyaya ilhaq edildiyi bildirilir.

Nəzərdən keçirdiyimiz nəşrin 14-23 saylı xəritələri Rusiyanın müasir tarix elminin banisi Nikolay Karamzinin əsərləri əsasında tərtib edilmiş və adlarından bəlli olduğu kimi, dərs vəsaiti rolunu oynamışdır. Aşağıda 1831-ci ildə Sankt-Peterburqda nəşr olunan 71 vərəqlik "İvan Axmatovun Karamzinin tarix əsəri əsasında tərtib etdiyi Rusiya dövlətinin tarixi, xronoloji və coğrafi atlası"nda yer almış həmin xəritələrin müxtəsər icmalını verməyə çalışacağıq. İlk öncə bütün bu təsvirlərin qeyri-dəqiq və qarışıq olduğunu bildirmək lazımdır. Bu naqislik, yəqin ki, rus tarixçi aliminin yazısında rəvayət və əsatirlərə əsaslanan müəmmalı, bəzən isə uydurma xəbərlərin çoxluğundan irəli gəlir. Bu fikri təsdiqləmək üçün sadəcə olaraq göstərilən xəritələrin adlarına nəzər salmaq kifayətdir: "Amazonkaların mənşəyi, yayılması və əməlləri haqqında", "Sarmatların skiflərə qarşı yürüşü. Sonuncuların əsas qəbilələri Agiq, Roksolan və Alan adlanırdı", "Qotların Sarmatlar üzərinə yürüşü. Vestqotlar və ostqotlar, onların əsas qəbilələri", "Hunların qotlar və alanlar üzərinə yürüşü", "Şərqdə uqorlar və bulqarlar, qərbdə Antlar və Slavyanlar haqqında. Birincilər Miladın 474-cü ilində, sonuncular isə 327-ci ildə meydana gəlir", "Avarların Cənubi Rusiyaya, germanlara, illiriyaların vilayətlərinə basqısı. Türklər Cənubi Sibirdə və Altay dağları arasında hökmranlıq edir", "Hökmdar Olqa", "Knyaz Svyatoslav", "Teymurçin, və ya Çingiz xanın Rusiyaya doğru yolu", "Böyük knyaz Dmitri Aleksandroviç". Nəzərdən keçirdiyimiz həmin xəritələrdə Xəzər dənizinin cənub-qərb hissəsinin necə təsvir edildiyi daha əhəmiyyətlidir. Qeyd edilməlidir ki, hər bir xəritədə həmin bölgədə məskunlaşmış etnoslar fərqli göstərilir. Onlar bəzən tarixi həqiqətə uyğun gəlir, gah da şübhə doğurur. Çingiz xanın yürüşlərini əks etdirən xəritədə şimaldan cənuba doğru bir-birinin ardınca

"Şirvan", "Arran" və "Azərbaycan" istilahların işlənməsi xüsusilə vurğulunmalıdır.

Nikita Zuyevin tərtib etdiyi və 1860-cı ildə Sankt-Peterburqda çapdan çıxmış "Rusiya imperiyasının müfəssəl atlası"na salınmış 1853-cü ildə ərsəyə gələn "Rusiyaya məxsus qırğız çölünün – Kiçik, Orta, Böyük Ordalar, Bögəy Ordası, Orenburq və Sibir İdarələrinin xəritəsi" araşdırdığımız nəşrdə 31-ci sayda yer almışdır. Bu xəritəyə Qərbi Xəzər bölgəsi qismən daxil edilsə də, burada Bakı, Şamaxı, Quba, Salyan, Lənkəran, Şuşa, Nuxa (Şəki – F.B.), Zaqatala kimi Azərbaycan şəhərləri göstərilmişdir.

1876-cı ildə Aleksey İlyinin Peterburqdakı "Xəritəçəkmə müəssisəsi"ndə 72 xəritədən ibarət olan "Rusiya imperiyasının əsas şəhərlərinin planlarını ehtiva edən müfəssəl atlası" işıq üzü gördü. Buradakı "Qafqaz diyarının xəritəsi" nəzərdən keçirdiyimiz məcmuədə 34-cü sırada yer almışdır. Toponimiya baxımından olduqca təfsilatlı olan bu xəritənin daha bir məqamı xüsusi əhəmiyyət kəsb edir. "Qafqazın əhalisi" adlı sorğu məlumatında bölgə xalqlarının etnik və irqi mənşəyinə görə bölünməklə sayı göstərilir.

Toplunun 61-64-cü saylarında da A.İlyinin müəssəsinin məhsulu təqdim edilmişdir. Bu nüfuzlu xəritəçəkən 25 il ərzində, 1859-cu ildən 1884-cü ilədək tərtib etdiyi xəritələri 1886-cı ildə "Bütün qitələrin müfəssəl atlası" şəklində təkrarən ortaya qoymuşdur. Təsvir etdiyimiz məcmuədə yenə də "Qafqaz diyarının xəritəsi"nin bir qismini, "Avropa Rusiyasının nəqliyyat rabitəsi xəritəsi"ni, Avropanı əks etdirən bir xəritənin hissəsini və "Asiya Türkiyəsi, İran, Ərəbistan, Əfqanıstan və digər Orta Asiya müstəmləkələri" adlı xəritəni görmək olar.

Maraq doğuran bir neçə başqa xəritəyə də nəzər salaq. 36-39 nömrəli xəritələr dənizçilik tarixi baxımından əhəmiyyət kəsb edir. Bu xəritələr Dövlət Hərbi Dənizçilik Departamentinin cizgiçəkmə şöbəsində 1809-1817-ci illərdə 8-ci dərəcəli şturman Aleksey Kolodkinin tutduğu geodeziya siyahısı və astronomiya müşahidələri əsasında tərtib edilən Xəzər dənizinin atlasının ayrı-ayrı hissələridir. Bu nəşr 1826-cı ildə Sankt-Peterburqda, "Dənizçilik Mətbəəsi"ndə çapdan çıxmışdı. Topluda həmin atlasın aşağıdakı xəritələri yer almışdır: "Xəzər dənizinin orta hissəsinin sağ kompasa yönəlik orta paralel üzrə enin 40'15''-dən 44'-dək çəkilən yastı xəritəsi. Futla ölçülən dərinliyi sahilə doğru punktir xətlə göstərilmişdir", "Xəzər dənizinin cənub hissəsinin sağ kompasa yönəlik orta paralel üzrə enin 36'15''-dən 40'30''-dək çəkilən yastı xəritəsi. Futla ölçülən dərinliyi sahilə doğru punktir xətlə göstərilmişdir", "Sarı adasının Kür dili ilə birlikdə sağ kompasa yönəlik daxilolma yastı xəritəsi. Dərinliyi sajenlə ölçülür, punktir xətdən sonra isə sahilə doğru futla qeyd edilir", "Abşeron yarımadasının və Bakı körfəzinin sağ kompasa yönəlik daxilolma yastı xəritəsi. Sıx nöqtələrlə örtülmüş dayazlıqlarda dərinlik futla, başqa yerlərdə sajenlə ölçülür". Əlavə olaraq qeyd etmək istərdik ki, birinci və axırıncı xəritədə 1820-ci il tarixi göstərilmişdir.

Nəhayət, iki xəritəyə də diqqət yetirmək lazım bilirik. Aleksandr Ryabçenkonun

tərtib etdiyi və Sankt-Peterburqda 1913-cü ildə işiq üzü görən "Rusiya. Rusiya imperiyasının quberniya və vilayətlərinin xəritələrlə təchiz edilən coğrafi təsviri. I. Avropa Rusiyası. II. Asiya Rusiyası" kitabında Bakı quberniyasının xəritəsi (topluda 42-ci xəritə) dərc edilmişdir. Dağıstan vilayəti, Yelizavetpol quberniyası və İranla həmsərhəd olan bu diyarın ayrı-ayrı inzibati vahidləri müxtəlif rənglərlə boyanmışdır.

Nəzər salacağımız sonuncu xəritənin çap olunduğu nəşrin adı həmin məcmunun çox sanballı bir məxəz olduğuna işarədir. "Rusiya imperiyası, Polşa çarlığı və Böyük Finlandiya knyazlığının quberniyalarının şəhərləri, qəsəbələri, kənd, oba və bütün nəzərəçarpan yerlərin göstərildiyi, poçt və böyük nəqliyyat yolları, stansiyaları arasında və digər məntəqələrə qədər vyorst məsafələri qeyd edilməklə işarələndiyi, habelə baş xəritəsinin və ən məhşur şəhərləri arasında poçt yolları üzrə vyorst məsafələri cədvəlinin qoşulduğu iki dildə tərtib edilən 83 vərəqlik coğrafi atlası" adlı bu əyani qaynaqda əlavə olaraq Baş qərargahın Hərbi Topoqrafiya Deposunda qulluq edən 6-cı dərəcəli məmur Vasili Pyadışevin üzərində 1820-ci ildə işləməyə başladığı, 1827-ci ildə bitirdiyi və 1834-cü ildə təshih etdiyi bildirilir. Məhz burada rus və fransız dillərində 1829-cu ildə ərsəyə gələn "Gürcüstanın baş xəritəsi" (topluda 46-cı xəritə) dərc edilmişdir. Bizim üçün onun əhəmiyyəti bu təsvirdə Şimali Azərbaycanın bütövlüldə əks etdirilməsindədir. Şərti işarələr siyahısında "Ələ keçirilmiş əsas mahallar və dairələr" sərlövhəsi altında diyarın bütün inzibati vahidləri qeyd olunmuş və rum rəqəmləri ilə sıralanmışlar.

Qədim zamanlardan bəşər övladı yaşadığı məkanın dar hüdudlarını aşmağa, yaxın və uzaq torpaqları və xalqları tanımağa can atırdı. Bir çox ulu sivilizasiyanın beşiyi olan yurdumuz əcnəbi səyyahların nəzərini cəlb etmiş, hər zaman tarixçilərin, habelə elmin bir çox digər sahələrində çalışan tədqiqatçı və mütəxəssislərin diqqətini çəkmişdir. Təsadüfi deyil ki, yerləşdiyi bölgə ayrı-ayrı vaxtlarda ərsəyə gəlmiş müxtəlif səpkili xəritələrdə əksini tapmışdır. Bu yazıda biz, zənnimizcə, həmin tarixi sənədlərin bir qisminin yer aldığı "Qədim xəritələr toplusu. Azərbaycan" atlasının bəzi xəritələrini təhlil etməklə barəsində dolğun məlumat verə bilmişik.

Fikret Bagirov
A collection of maps that serve as a visual aid on the study of the history of Azerbaijan

Summary

Keywords: *Azerbaijan, atlas of maps, collection, ancient, medieval*

In 2019, the collection of documentary sources of the museum received the atlas

"Collection of ancient maps. Azerbaijan". This collection contains facsimile copies of maps compiled by famous Western European - Frederic Blau, Jean-Baptiste d'Anville, G. Mol, Frederic de Wit and Russian cartographers - Alexei Ilyin, Vasily Pyadyshev, Nikita Zuev, Ivan Kirillov, Alexander Ryabchenko and other famous specialists during the 16th - 19th centuries. The purpose of this message is to familiarize researchers and a wide range of readers, and in some cases, to analyze the unique historical documents presented here.

Фикрет Багиров
Ценное собрание карт по истории Азербайджана

Резюме

Ключевые слова: *Азербайджан, атлас карт, собрание, древний период, средневековье*

В 2019 году в Фонд документальных источников музея поступил изданный в 2012 году в Санкт-Петербурге атлас «Собрание древних карт. Азербайджан». В этом сборнике опубликованы факсимильные копии карт, составленных в XVI-XIX вв. известными западно-европейскими картографами Фредериком Блау, Жан-Батистом д'Анвилем, Г.Молом, Фредериком де Витом, а также русскими картографами Алексеем Ильиным, Василием Пядышевым, Никитой Зуевым, Иваном Кирилловым, Александром Рябченко и другими знаменитыми специалистами. Целью данного сообщения является ознакомление исследователей и широкого круга читателей с представленными в сборнике уникальными историческими картами.

*Nüşabə Əsədova**

Azərbaycan səhiyyə təşkilatçısı – Əlibəy Qayıbov

UOT 94 (479.24)

Açar sözlər: *Azərbaycan səhiyyəsi, Xarkov Universiteti, Naxçıvan, Qayıbovlar, Əlibəy Qayıbov, cərrah*

Azərbaycanın zəngin mədəniyyətinin və tarixinin təbliği və tədqiqi kimi mühüm bir funksiyanı yerinə yetirən Milli Azərbaycan Tarixi Muzeyi həmçinin görkəmli şəxsiyyətlərin fəaliyyətini araşdırır, onların muzey kolleksiyasında qorunan əşyalarını geniş auditoriyada populyarlaşdırır.



Əlibəy Qayıbov . Bakı şəhəri. SMF inv. 448/20.


Belə şəxsiyyətlərdən biri, görkəmli alim, həkim, cərrah, Azərbaycan səhiyyəsinin təşkilatçılarından biri, tibb elmləri namizədi, Naxçıvan MSSR Səhiyyə Nazirliyinin baş cərrahı, Ali Sovetinin deputatı Əlibəy İsmayıl oğlu Qayıbovdur. Muzeyin Sənədli mənbələr fondunun zəngin kolleksiyaları içərisində 448 nömrəli saxlama vahidində Əlibəy İsmayıl oğlu Qayıbova aid xeyli sayda material mühafizə edilir. Elmi ədəbiyyatda onun haqqında məlumatlar az olduğu üçün bu məqaləni yazarkən Əlibəy Qayıbovun muzeydə mühafizə edilən kolleksiyasına əsasən Azərbaycan səhiyyə sahəsindəki xidmətlərini işıqlandırmağa çalışmışıq.

*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Beynəlxalq əlaqələr və ictimaiyyətlə iş şöbəsinin baş mütəxəssisi; asadova.nushaba@mail,ru

Əlibəy Qazaxın məşhur Qayıboğulları (Qayıbovlar, Qayıbzadələr) nəslindən idi. Bu nəsildən olan ziyalılar, alimənsəb ruhanilər, maraqlı peşə sahibləri, hərbçilər, elm adamları Azərbaycanın ictimai, elmi və mədəni həyatında dərin iz buraxmışlar.

Əlibəy Qayıbovun babası Molla Yusifin oğullarından Molla Həsən 1874-cü ildən Qazax qəzası üzrə Salahlı nahiyəsinin ruhani mollası idi. Oğlu - praporşik İsmayıl ağa Qayıbov 1880-ci illərdə bir müddət Salahlı nahiyəsi üzrə polis rəisi işləmişdir. İsmayıl ağanın oğlu Əlibəy Qayıbov (1889–1960) da Xarkov Universitetinin məzunu, Azərbaycanın əməkdar həkimi idi. Bakıda 4 saylı xəstəxanada cərrah işləyirdi, ömrünün sonlarında Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyinin baş cərrahı olmuşdu (13).

Ə.Qayıbovun muzeydə saxlanılan kolleksiyasında onun hansı gimnaziyanı bitirməsi haqqında məlumata rast gəlmədik. Muzeyin Sənədli mənbələr fondunun materialları içərisində Əlibəy Qayıbova 1916-cı ildə verilən 756 saylı şəhadətnaməyə əsasən, o, həmin il avqust ayının 11-də Xarkov Universitetinin tibb fakültəsinin tam kursunu bitirmişdir. Bu sənədlə ona, Rusiya imperiyasının bütün ərazisində öz ixtisasına uyğun olaraq işləmək hüququ verilirdi (1). Lakin şəhadətnamədə onun neçənci ildə Universitetə daxil olması qeyd edilməmişdir. O dövrdə Universitetin tibb fakültəsində təhsilin 6 illik olması nəzərə alınsa, Ə.Qayıbovun 1909-cu ildə ali məktəbə daxil olmasını söyləmək mümkündür.



SMF inv. 448/19 Əlibəy Qayıbovun Xarkov Universiteti tibb fakültəsinin bitirməsi haqqında 756 saylı şəhadətnamə

Araşdırma zamanı məlum oldu ki, Ə.Qayıbov Universiteti tam təhsilli başa vurduqdan sonra Bakıya qayıtmış, öz peşəsinə uyğun muxtəlif xəstəxanalarda çalışmışdır.

İnternet mənbələrin birində Azərbaycan Xalq Cümhuriyyəti dövründə Əlibəy Qayıbovun Bakı yerli lazaretində (hərbi xəstəxanada) kollej asessoru (çar Rusiyasında mülki rütbə - N.Ə.), kiçik ordinator (xəstəxaada palata və ya şöbəyə rəhbərlik edən həkim - N.Ə.) vəzifəsində çalışdığı qeyd edilmişdir (14).

Həkim Qayıbov Əlibəy İsmayıl oğluna aid muzeydə saxlanılan xidməti xasiyyətnamədə yazılırdı: *"Həkim Qayıbov Əlibəy İsmayıl oğlu 1916-cı ildə Xarkov Universitetini bitirmişdir. Doktor Ə.İ.Qayıbov 1960-cı ildən bu günə qədər respublikanın baş cərrahı olaraq Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Səhiyyə Nazirliyi sistemində fasiləsiz çalışır.*

Ə.İ.Qayıbov intizamlı bir işçidir, Naxçıvan MSSR Səhiyyə Nazirliyinin ona

həvalə etdiyi bütün tapşırıqlar və göstərişlər vaxtında və dəqiq şəkildə yerinə yetirilir. Rəsmi vəzifələrinin icrasına vicdanla yanaşır.

O, respublika əhalisinə etibarlı şəkildə ixtisaslı cərrah kimi yardım göstərir. O, həm tibb işçiləri arasında, həm də əhali arasında böyük nüfuza və hörmətə malikdir. Azərbaycan SSR-nin əməkdar həkimidir. Tibb elmləri namizədi və Azərbaycan Tibb Cəmiyyətinin Naxçıvan bölməsinin sədridir. 1959-cu ildə respublika əhalisi Ə.İ.Qayıbova böyük etimad göstərərək onu Naxçıvan MSSR Ali Sovetinin deputatı seçdi.

Çalışdığı müddət ərzində Dr.Qayıbov heç bir inzibati cəzaya məruz qalmamışdır" (2).

Bildiyimiz kimi, İkinci Dünya müharibəsində əsgərlərlə yanaşı, tibb işçiləri də qəhrəmanlıq nümayiş etdiriblər. Faşizm üzərində qələbədən danışarkən həkimlərin göstərdiyi fədakarlığı da unutmaq olmaz. 1941-ci ildə İkinci Dünya müharibəsi başlananda azərbaycanlılar da SSRİ-nin tərkibində olan digər xalqlarla birlikdə müdafiəyə qalxdılar. Bu dövrdə ön və arxa cəbhənin tibb işçiləri silahlı qüvvələrin yüksək döyüş hazırlığını təmin etmək üçün mühüm işlər gördülər. Sovet səhiyyəsi və tibbi müharibə illərində yaralıların 90 faizindən çoxunun yenidən ordu sıralarına qayıtmasını təmin etdi. Müharibə sovet Azərbaycanının səhiyyəsi və tibb elmi qarşısında da çox məsul vəzifələr qoymuşdu. Sovet Azərbaycanın bacarıqlı həkimləri minlərlə insanı yenidən həyata qaytarmışdı. Belə həkimlərdən bir də Əlibəy Qayıbov olmuşdur.

Əlibəy Qayıbov Böyük Vətən müharibəsi illərində həkim kimi minlərlə döyüşçüyə yeni həyat bəxş etmişdir.

Muzeydə mühafizə olunan fotoşəkillərin birində Ə.Qayıbov 1942-ci ildə Bakıda fəaliyyət göstərən hospitalda müalicə alan yaralılar arasında əks olumuşdur (3).

Həmin dövrdə bu xəstəxanalarda cərrah işləyən Əlibəy Qayıbov minlərlə insanın həyatını xilas etmişdir.



Fotoşəkil SMF inv. 448/23

Müharibə illərində Ə.Qayıbovun evakuasiya hospitallarında fədakarlığı layiqincə qiymətləndirilmiş və o, 1944-cü il mayın 1-də "Qafqazın qəhrəmancasına müdafiəsində iştirakına görə" (4), "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medallarla təltif olunmuşdur (5).

Əlibəy Qayıbovun hərbi həkim kimi çalışması Bakının Caparidze rayonu (indiki Yasamal rayonu) hərbi komissarlığı tərəfindən 13 oktyabr 1948-ci ildə verilmiş 33605 saylı hərbi biletdə də qeyd edilmişdir (6).


ЗА НАШУ СОВЕТСКУЮ РОДИНУ!

СССР

УДОСТОВЕРЕНИЕ

За участие в героической обороне

КАВКАЗА

ГАЙБОВ

ИСМАИЛОВИЧ

Указом Президиума Верховного Совета СССР от 1 мая 1944 года награжден медалью

„ЗА ОБОРОНУ КАВКАЗА"

От имени Президиума Верховного Совета СССР медаль „За оборону Кавказа" вручена 24 октября 1944 г.

А № 006659

Председатель Президиума Верховного Совета Азербайджанской ССР

Секретарь Президиума Верховного Совета Азербайджанской ССР


„ЗА ПОБЕДУ НАД ГЕРМАНИЕЙ В ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЕ 1941—1945 гг."

УДОСТОВЕРЕНИЕ

За участие в Великой Отечественной войне

Гаибов

Али Исмаил

Указом Президиума Верховного Совета СССР от 9 мая 1945 года награжден медалью

„ЗА ПОБЕДУ НАД ГЕРМАНИЕЙ В ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЕ 1941—1945 гг."

От имени Президиума Верховного Совета СССР медаль вручена

мая 1946 г.

Начальник Эвакоотделения 3687

(должность, воинское звание и подпись лица, вручившего медаль)

MATM SMF 448/25 *MATM SMF 448/27*

Muzeyin Sənədli mənbələr fondunda həmçinin Ə.Qayıbovun 1952-ci ildə tibb elmləri namizədi alimlik dərəcəsini almaq üçün yazdığı "Efir yağı iynələri vurmaqla öd kisəsi daşlarının əridilməsi məsələsinə dair" dissertasiya işinin avtoreferatı (7) və 15 oktyabr 1955-ci ildə Ali Attestasiya Komissiyasının qərarı ilə tibb elmləri namizədi alimlik dərəcəsini təsdiq edən 001555 nömrəli diplomu mühafizə edilir (8).

Müharibə illərindən sonra Naxçıvan MSSR-də tibb müəssisələrinin şəbəkəsi inkişaf etdi və böyüdülməsi üçün yeni kadrlara ehtiyac var idi. Bu məqsədlə Ə.Qayıbov Naxçıvanda baş cərrah kimi fəaliyyətini davam etdirmişdir.

..... Muzey materiallarından məlum olur ki, Əlibəy Qayıbov elmi fəaliyyətini daha da təkmilləşdirmək üçün keçmiş SSRİ-nin mərkəzi şəhərlərində keçirilən konfranslarda iştirak etmişdir. O, 1955-ci ildə Moskvada keçirilmiş cərrahlar qurultayının iştirakçısı olmuşdur.



SMF in.№ 448/33. Moskvada keçirilmiş cərrahlar qurultayının iştirakçıları tibbi alətlərin nümayiş etdirildiyi salonda. Soldan 5-ci Əlibəy Qayıbovdur. 1955-ci il

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə 1956-cı ildə Əlibəy Qayıbova Əməkdar həkim adı verilmişdir (9).

Fond materialları içərisində qorunan Naxçvanda çıxan "Şərq qapısı" qəzetinin

12 mart 1959-cu il "Şərq qapısı" qəzetinin 48№-də Naxçıvan MSSR Səhiyyə nazirliyinin baş cərrahı Əlibəy İsmayıl oğlu Qayıbovun muxtar respublikasının Ali Sovetinə deputat seçildiyi qeyd edilir (12). Digər bir sənəddə - Naxçıvan MSSR Ali Sovetinin deputatı Əlibəy Qayıbova Naxçıvan rayonu kolxozçuları adından Mustafa Quliyevin 3 dekabr 1959-cu ildə yazdığı məktubda "pambıq tədarükü üzrə planın yerinə yetirilməsi barəsində məlumat verilir və mal-qara üçün zənginləşdirilmiş yemin qıtlığından bəhs edərək" yem tədarükündə onlara köməklik göstərilməsi xahiş edilir (11).

Məktubdan da göründüyü kimi, həkim Ə.Qayıbov daimi xalqın sağlamlığının keşiyində fədakarlıqla durmaqla yanaşı, bir deputat kimi ictimai işdə də böyük fəallıq göstərmişdi. Muzey materialları içərisində 17 iyun 1959-cu ilə aid fotoşəkildə Əlibəy Qayıbovun Naxçıvanın Qıvraq kəndinin xəstəxanasında cərrahi əməliyyatı aparması əks olunmuşdur (10).

Görkəmli dövlət xadimi, bacarıqlı səhiyyə təşkilatçısı kimi yaddaşlara əbədi həkk olunan Əməkdar həkim Əlibəy Qayıbovun həyat və fəaliyyətinin zəngin irsi həm indiki, həm də gələcək nəsillərə örnəkdir. Özünün mənalı ömrünü Azərbaycanda tibb elminin inkişafına, yüzlərlə həkimin hazırlanmasına və minlərlə xəstələrin müalicəsinə həsr etmiş, görkəmli alim Ə.Qayıbovun irsini gələcək nəslə çatdırmaq üçün Milli Azərbaycan Tarixi Muzeyində mühafizə edilən materialların tədqiqata cəlb edilməsinin onun unudulmaz xatirəsinə sonsuz ehtiram kimi dəyərləndirmək olar.

Mənbələr və ədəbiyyat

1. Milli Azərbaycan Tarixi Muzeyi (MATM) (SMF) 448/əlavə I a.
2. ATM SMF 448/əlavə I b). Əlibəy Qayıbova iş yerində verilən arayışlar, xasiyyətnamələr, elmi əsərlərinin siyahısı. 10 vərəq.
3. MATM SMF 448/23. Fotoşəkil. Əlibəy Qayıbov Bakıda fəaliyyət göstərən hospitalda müalicə alan yaralılar arasında 1942-ci il.
4. MATM SMF 448/25. Əlibəy Qayıbovun təltif olunduğu "Qafqazın müdafiəsinə görə" medalının 096259 saylı vəsiqəsi. Rus dilindədir. 1944-cü il.
5. MATM SMF 448/27. Əlibəy Qayıbovun təltif olunduğu "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalının 0177611 saylı vəsiqəsi. Rus dilindədir. 1946-cı il.
6. MATM SMF 448/29. Bakının Caparidze rayonu hərbi komissarlığında Əlibəy Qayıbova verilmiş 33605 saylı hərbi bilet. 3x4 sm. ölçüsündə fotoşəkili var. Rus dilindədir. 13 oktyabr 1948.
7. MATM SMF 448/30. Əlibəy Qayıbovun tibb elmləri namizədi alimlik

dərəcəsini almaq üçün yazdığı "Efir yağı iynələri vurmaqla öd kisəsi daşlarının əridilməsi məsələsinə dair" dissertasiya işinin avtoreferatı. Rus dilindədir. 1952-ci il.
8. MATM SMF 448/32. Ali Attestasiya Komissiyasının qərarı ilə tibb elmləri namizədi alimlik dərəcəsini alan Əlibəy Qaylbova verilmiş 001555 saylı diplom. Rus dilindədir. 15 oktyabr 1955.
9. MATM SMF 448/36. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Əlibəy Qayıbova əməkdar həkim adının verilməsi haqqında 105 saylı fəxri fərmanı. Azərbaycan və rus dillərindədir. Qırmızı liderin qovluqdadır. 1956-cı il.
10. MATM SMF 448/37.
11. MATM SMF 448/38.
12. MATM SMF 448/39.
13. Umudlu İ.B. Qayıboğulları // Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri. Səkkizinci buraxılış, 2012, s. 90-100.
14. https://ria1914.info/index.

Nushaba Asadova
The organizer of the Azerbaijani healthcare Alibek Gaibov

Summary

Keywords: *healthcare of Azerbaijan, Kharkiv University, Nakhchivan, Gaibovs, Alibek Gaibov, surgeon*

The article, based on the materials of the National Museum of History of Azerbaijan, is devoted to the scientific and labor activity of an outstanding scientist, doctor, surgeon, one of the organizers of healthcare in Azerbaijan, Candidate of Medical Sciences, chief surgeon of the Ministry of Health of the Nakhchivan ASSR, deputy of the Supreme Council Alibek Ismail oglu Gaibov.

In the Fund of Documentary Sources materials related to Alibek Gaibov are stored. The article written on the basis of the materials stored in the museum sheds light on the merits of Alibek Gaibov in the formation of Azerbaijani healthcare.

Нушаба Асадова
Организатор азербайджанского здравоохранения - Али бек Гаибов

Резюме

Ключевые слова: *здравоохранение Азербайджана, Харьковский Университет, Нахчыван, Гаибовы, Алибек Гаибов, хирург*

Статья, основанная на материалах Национального музея истории Азербайджана, посвящена научной и трудовой деятельности выдающегося ученого, врача, хирурга, одного из организаторов здравоохранения в Азербайджане, кандидата медицинских наук, главного хирурга Министерства здравоохранения Нахчыванской АССР, депутата Верховного Совета Алибека Исмаил оглы Гаибова.

В Фонде документальных источников НМИА хранятся материалы Алибека Гаибова. Написанная на основе хранящихся в музее материалов статья проливает свет на заслуги Алибека Гаибова в становлении азербайджанского здравоохранения.

Elmira Əliyeva*

II Qarabağ müharibəsinin şəhid həkimləri (MATM materialları əsasında)

UOT 94 (479.24)

Açar sözlər: *Azərbaycan, II Qarabağ müharibəsi, şəhid, həkim*

"Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur" (1, s.1).

2020-ci ilin 27 sentyabr bazar günü səhərini bütün Azərbaycan xalqı bu cümlələrlə başlayan Azərbaycan Respublikası Prezidentinin xalqa müraciəti ilə açdı. Ermənistan tərəfi növbəti təxribat xarakterli addımını atmış, Azərbaycan ərazisinə silahlı hücuma keçmişdir.

Azərbaycan tərəfi dərhal adekvat addımlar atdı, 27 Sentyabrda başlayan müharibə düz 44 gün çəkdi və Azərbaycanın şanlı tarixinə "44 günlük Vətən Müharibəsi" olaraq yazıldı. Vətən müharibəsi iştirakçılarının, qəhrəmanlarının, bir sözlə, müharibədə əməyi keçən hər kəsin həyatını, döyüş yolunu araşdırıb öyrənməyə və gələcək nəsillərə çatdırmağa çox böyük ehtiyac var. Döyüşlərin getdiyi günlər sözün əsl mənasında Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Bu günlərdə bütöv Azərbaycan xalqı bir yumruq kimi birləşdi. Azərbaycan Respublikası Prezidentinin diplomatik mübarizəsindən başlamış, ən sıravi Azərbaycan vətəndaşının arxa cəbhədə döyüşçülərimizə köməyinə qədər atılan hər bir addım qələbəyə köklənmişdi. Prezident 44 günlük müharibə dövründə dəfələrlə xarici jurnalistlərə müsahibələr verməklə Azərbaycanın haqlı mövqeyinin dünyaya çatdırılmasında misilsiz rol oynadı. Xarici dövlətlərin Azərbaycana olan təzyiqlərinin qarşısını almaq üçün dəfələrlə Azərbaycanın müharibə tərəfdarı olmadığını, BMT tərəfindən tanınan ərazisində hərbi əməliyyatlar apardığını bəyan etdi.

*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Azərbaycan tarixinin elmi tədqiqi və təqdimi şöbəsinin böyük laborantı; elmirakberova@mail.ru

Vətən müharibəsində səngərdə vuruşan döyüşçülərimizlə yanaşı, tibb işçilərimiz də misilsiz qəhrəmanlıq və şücaət göstərərək öz adlarını şərəfli qələbə tariximizə yazmışlar. Onların peşəkarlığı və vətənpərvərliklə dolu fədakar fəaliyyəti də yüksək qiymətləndirilməlidir. Müharibə zamanı ümumilikdə 159 hərbi tibb işçisi yaralanmış, 42 tibb işçisi isə xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur (3, s. 3).

Vətən müharibəsinin yeganə xanım şəhidi Arəstə Baxışova da tibb işçisi olub. O, 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Baş Hərbi Hospitalında, 2019-cu il iyulun 12-dən isə Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir. Azərbaycan Ordusunun çavuşu, hərbi feldşer Arəstə Baxışova Füzuli, Zəngilan və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət göstərərək yaralı hərbçilərə elə döyüş meydanında tibbi yardım göstərmiş, xeyli sayda əsgər və zabitimizin həyatını xilas etmişdir. Arəstə Baxışova 2020-ci il oktyabrın 23-də Qubadlı uğrunda gedən döyüşlərdə növbəti dəfə yaralı əsgəri döyüş meydanından çıxararkən aldığı güllə yarasından şəhid olmuşdur. O, 15 dekabr 2020-ci il tarixdə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir .

Vətən müharibəsində şəhid olmuş həkimlərimizdən biri də tibb xidməti polkovnik-leytenantı Rasim Abdullayevdir. O, 2016-cı ilin Aprel döyüşləri zamanı da yaralı hərbçilərə döyüş meydanında tibbi yardım göstərmişdir. 2020-ci il sentyabrın 27-dən başlayan döyüşlərdə hərbi tibb qulluqçusu kimi iştirak edən Rasim Abdullayev Hadrut və Şuşa istiqamətində 100-dən artıq ağır yaralı zabitə ilk tibbi yardım göstərmişdir. Vətən müharibəsinin son dəqiqələrində Şuşa istiqamətində ağır yaralı zabitlərə ilk tibbi yardım göstərdiyi zaman Xocalı rayonunun Çanaqçı kəndində Ermənistan Ordusunun zabitləri tərəfindən pusquya salınaraq şəhid olmuşdur. O, Azərbaycanın hərb tarixində və həmçinin, Vətən müharibəsi tarixində şəhid olan ən yüksək rütbəli tibb xidməti qulluqçusu sayılır.


Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Rasim Abdullayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə, 29 dekabr 2020-ci il tarixində "Şuşanın azad olunmasına görə" medalı ilə, 24 iyun 2021-ci ildə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Rasim Abdullayevə məxsus şəxsi geyim nümunələri, o cümlədən, kitel, papaq, həkim xalatı, həkimə məxsus plaş, eləcə də, ona məxsus Fəxri fərmanlar və sertifikatlar Milli Azərbaycan Tarixi Muzeyinin Vətən Müharibəsi Fondunda qorunub saxlanır. Həmçinin muzeydə Rasim Abdullayevin özünün müəllifi olduğu şeirlərin fotosurətləri saxlanılır (2, DK 12870).

Azərbaycan Ordusunun tibb xidməti leytenantı Azər Şəmilov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan və Talışın azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçiləri döyüş meydanından çıxararaq ilk

tibbi yardım göstərmişdir. Azər Şəmilov oktyabrın 14-də Talış döyüşləri zamanı qəhrəmancasına həlak olmuşdur.

Döyüş əməliyyatlarında vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün 15 dekabr 2020-ci il tarixində Azər Şəmilov ölümündən sonra "Vətən uğrunda" , 29





Rasim Abdullayevin özünün yazmış olduğu şeir və ona məxsus həkim xalatı.

dekabr 2020-ci il tarixində "Suqovuşanın azad olunmasına görə" və 30 dekabr 2020-ci ildə "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir. Şəhidin şəxsi geyim nümunələri, tibbi ləvazimatları, qaytan, ANAMA və təcili yardım xidməti tərəfindən verilmiş Sertifikatlar və fotoşəkillər Milli Azərbaycan Tarixi Muzeyinin Vətən Müharibəsi Fondunda saxlanılır (2, DK 12906).

Vətən müharibəsi zamanı vəzifə borcunu şərəflə yerinə yetirən həkimlərimizdən biri də Turqut Xəlilbəylidir. Vətən müharibəsinin ilk şəhid həkimi leytenanat Turqut Xəlilbəyli müharibənin ilk günlərindən ön cəbhədə yaralı əsgər və zabitlərin həyatını xilas etmək üçün var gücü ilə çalışmış, öz vəzifəsini layiqincə yerinə yetirmişdir. Oktyabr ayının 7-də Turqut yaralı əsgərlərimizi xilas etmək məqsədilə birbaşa atəş zonasına üç dəfə giriş etmişdir, lakin dördüncü dəfə düşmənin atdığı artilleriya mərmisi Turqutun yaxınlığına düşür. Bu zaman Turqut özünü yaralı əsgərimizin üzərinə atır və öz həyatı bahasına onu xilas edir. Aldığı ağır qəlpə yaraları səbəbindən leytenanat Turqut Xəlilbəylinin həyatını xilas etmək mümkün olmur.

Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Turqut Xəlilbəyli ölümündən sonra "Vətən uğrunda" medalı ilə,

"Azərbaycan Bayrağı" ordeni ilə, "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir .

Turqut Xəlilbəylinin şəxsi əşyaları ailəsi tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir. Ona məxsus hərbi kitel, hərbi mərasim şalvarı, hərbi köynək, hərbi çəkmə, qalstuk və digər geyim nümunələri, eləcə də, fotoşəkillər Muzeyin Vətən Müharibəsi Fondunda qorunub saxlanılır (2, DK 12927).

Şəhid həkim Adil Əfəndiyev 2018-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsinin Hərbi həkim işi ixtisasını bitirmişdir. Təyinatla Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda həkim kimi hərbi xidmətə başlamışdır. "N" saylı hərbi hissənin qərargah və təchizat bölüyünün tibb məntəqəsinin rəisi, tibb xidməti leytenantı Adil Əfəndiyev 22 oktyabr 2020-ci il tarixində Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 25 yaşında Şəhidlik zirvəsinə yüksələn tibb xidməti leytenantı Adil Əfəndiyevin döyüş meydanında göstərdiyi igidlik ölkə Prezidenti tərəfindən yüksək qiymətləndirilmiş, o, ölümündən sonra 15 dekabr 2020-ci il tarixdə "Vətən uğrunda" və 29 dekabr 2020-ci ildə "Şuşanın azad olunmasına görə", 30 dekabr 2020-ci ildə isə "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur .

Şəhid hərbi tibb qulluqçusu Adil Əfəndiyevin şəxsi əşyaları, qol saatı, üst geyimi, fotoşəkilləri və bir neçə tibbi ləvazimatları, o cümlədən, fonendoskop və tonometri ailəsi tərəfindən AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinə təqdim olunmuşdur. Şəhidin materialları Muzeyin Vətən Müharibəsi Fondunda saxlanılır (2, DK -12897) .



Adil Əfəndiyevə məxsus əşyalar.

Mirlətif Ağayev 1990-cı ildə Cəlilabad rayonunun Göytəpə qəsəbəsində anadan olub. Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsində təhsil alıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda könüllü surətdə cəbhəyə yollanan Mirlətif Ağayev həm həkimlik, həm də insanlıq borcunu yerinə yetirərək 247 yaralını döyüş meydanından çıxararaq onları həyata qaytarıb. O, təkcə həkim kimi deyil, həm də fəal döyüşçü kimi də şücaət göstərmiş, Füzuli, Cəbrayıl və Qubadlı uğrunda döyüşlərdə iştirak etmiş və oktyabrın 26-da Qubadlının Balasoltanlı kəndində şəhid olmuşdur. O ölümündən sonra Prezident İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda" medalı, "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Şəhid həkim Mirlətif Ağayevə məxsus bəzi şəxsi əşyalar, geyim nümunələri, o

cümlədən, papaq, "Quru qoşunları" yaxa nişanı və bir neçə fotoşəkil AMEA Milli Azərbaycan Tarixi Muzeyinə təqdim edilib, şəhidin materialları Muzeyin Vətən Müharibəsi Fondunda saxlanılır (2, DK -12882).

Bir çiynində silah, o biri çiynində isə tibb çantası olan digər şəhid həkim Aqşin Ənvərlidir. O, müharibə başladıqdan sonra xüsusi təyinatlı döyüşçülərə tibbi yardım göstərmək üçün Füzuli şəhərinə yollanıb. Daha sonra Cəbrayıl, Füzuli, Qubadlı, Şuşa və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə yaralanan hərbçilərə yerindəcə yardım edib. Noyabrın 6-da Xocavənd döyüşləri zamanı qolundan üç yara alan və bir barmağını tamamilə itirən döyüşçü-həkimi geriyə təxliyə etmək istəyiblər, lakin o, razı olmayıb. Yaralarını sarıyaraq yenidən döyüşə qatılıb. Son cəhdi yaralı komandiri xilas etmək olub, amma qəfil snayper gülləsinə tuş gəlib və şəhidlik zirvəsinə yüksəlib. O, ölümündən sonra 15 dekabr 2020-ci il tarixində "Vətən uğrunda" medalı və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir. Aqşin Ənvərliyə məxsus bəzi əşyalar, o cümlədən, gödəkçə və portmanat AMEA Milli Azərbaycan Tarixi Muzeyinə təqdim edilib, şəhidin materialları Muzeyin Vətən Müharibəsi Fondunda saxlanılır (2, DK-12868).



Aqşin Ənvərliyə məxsus portmanat.

Ermənistan-Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsi XX əsr tarixinə ən qanlı münaqişələrdən biri kimi daxil oldu, onun nəticələri milyonlarla azərbaycanlının taleyində acınacaqlı izlərini qoyub. Ermənistanın Azərbaycan ərazilərinə açıq şəkildə ərazi iddiaları və etnik zəmində törətdiyi təxribatları yekun olaraq Azərbaycana qarşı hərbi təcavüzlə nəticələndi.

90-cı illərin əvvəlindən başlayan müharibə, fasilələrlə on illər davam etdi və hər iki tərəf bu illərdə böyük itkilər verdi. Nəhayət, 2020-ci ilin 27 sentyabrında başlayan 44 günlük müharibənin nəticəsi olaraq Azərbaycan öz igid oğullarının hesabına uzun illər işğal altında qalmış torpaqlarını azad etdi. Bu gün həmin torpaqlarda həyat yenidən dirçəldilməkdə, ermənilərin uzun illər xaraba qoyduğu şəhərlər, yollar bərpa olunmaqdadır. Ən qısa zamanda həmin torpaqların köklü sakinləri yenidən o torpaqlara qayıdacaq və Qarabağda həyat dirçələcək.

Prezident İlham Əliyevin də dediyi kimi "...Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik".

Mənbələr:

1. "Azərbaycan" qəzeti, 29 sentyabr 2020, N 198(8514) .
2. Milli Azərbaycan Tarixi Muzeyinin Vətən Müharibəsi Fondunun daxil olma kitabı.
3. "Təbib" qəzeti, 15 yanvar 2021-ci il, N 01 (1718).

Elmira Aliyeva
Medical heroes of the Second Karabakh War

Summary

Keywords: *Azerbaijan, II Karabakh war, martyr, doctor*

The article is about the doctors who died in the 44-day Patriotic War, which started on September 27, 2021. İt also sheds light on how they fought and briefly brings their heroism to the readers' attention. The National History Museum of Azerbaijan also collected materials about a large number of soldiers who fought in the Great Patriotic War, as well as the materials about our doctors who died in the war and is keeping them in the Museum's Patriotic War Fund. Most of these materials are displayed at the exhibition " Anadır arzulara hər zaman Qarabağ " ("Karabagh – mother of all dreams") which was organized at the Museum.

Эльмира Алиева
Врачи-шехиды Второй Карабахской войны

Резюме

Ключевые слова: *Азербайджан, II Карабахская война, шехид, врач*

В статье рассказывается о медиках-шехидах 44-х дневной Отечественной войны, начавшейся 27 сентября 2021 года. Вниманию читателей вкратце представлены факты о героизме и боевом пути медиков-шехидов. В Национальном музее истории Азербайджана собраны материалы участников Отечественной войны, в том числе и врачей. Эти материалы бережно хранятся в Фонде Отечественной войны музея. Большая часть этих материалов представлена на выставке «Anadır arzulara hər zaman Qarabağ», организованной в музее.

*Nəcəf Müseyibli**

Xocalı-Gədəbəy mədəniyyətinə aid Tavatəpə yaşayış yeri

UOT 902

Açar sözlər: *Xocalı-Gədəbəy mədəniyyəti, Tavatəpə, keramika, daş alətlər, yaşayış yeri*

Son Tunc-İlk Dəmir dövrü – e.ə. II minilliyin ikinci yarısı-I minilliyin əvvəlləri Azərbaycanın qədim tarixində iqtisadi, sosial-mədəni həyatın yüksək inkişafı ilə səciyyələnir. Arxeoloji mənbələr əsasında tədqiq edilən bu dövr abidələri Şimali Azərbaycanın böyük ərazilərini – Qarabağ, Gəncə-Qazax, orta Kür hövzəsi bölgələrini, və s. əraziləri əhatə etmiş Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinə aiddirlər. Gəncə-Qazax bölgəsində bu mədəniyyətə aid müxtəlif tipli yaşayış yerləri və qəbir abidələri tədqiq edilmişdir. Son 20 ildə bu bölgədə Xocalı-Gədəbəy mədəniyyətinə aid çoxsaylı arxeoloji abidələr aşkar edilmişdir. Bunlardan biri də Tavatəpə yaşayış yeridir.

Bu abidə 2005-ci ildə Ağstafa rayonu ərazisində apardığımız çöl tədqiqat işləri zamanı yerli sakinlərin verdiyi məlumata əsasən qeydə alınmışdır (1). Abidə Aşağı Kəsəmən kəndindən təqribən 3 km şimalda, Kür çayına doğru uzanan torpaq yolun kənarında 30-35 m hündürlüyə malik təbii təpənin üstündə yerləşir. Onun ümumi sahəsi 2 hektara yaxındır. Abidənin yerləşdiyi təbii təpə şərqdən və şimaldan nisbətən çətin çıxılandır. Qərbdən və cənub tərəfdən isə təpənin zirvəsindən başlanan maillilik tədricən ətraf düzən sahə ilə qovuşur.

Tavatəpənin qeydə alınması zamanı abidənin sahəsində çoxsaylı maddi mədəniyyət qalıqları müəyyən edilmişdir. Keramika məmulatından ibarət arxeoloji

*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor: necef_museibli@mail.ru

materiallar geniş ərazidə səpələnsə də onlara abidənin mərkəzində - təpənin zirvəsində daha çox rast gəlinir. Abidədən yerüstü materiallar qismində müxtəlif gil qablara aid fraqmentlər və daş məmulatı qalıqları götürülmüşdür. Keramika məmulatı küp, küpə, kasa və s. tipli qabların fraqmentlərindən ibarətdir. Saxsı qablar əsasən tünd boz rəngli olsalar da az hallarda qara və qonur rəngli qab hissələrinə də rast gəlinir. Qablann bütün naxışlanma işləri bişirilmədən əvvəl həyata keçirilmişdir.

Təsadüfi istisnalarla bütün saxsı qablar dülüs çarxında formalaşdırılmışdır.

Küplər (Şəkil 1. 1-3) dar boğazlı, geniş gövdəlidirlər. Onların ağız kənarı xaricə qatlanmışdır. İri qum qatışıqlı gildən hazırlanmışlar. Fraqmentlərdən birinin üzərində naxışlar saxlanmışdır. Ağız kənarı içəri tərəfdən bir neçə nazik, paralel dalğalı xətlərlə əhatələnmişdir. Çiyin hissədə isə belə dalğalı xətlər yuxarıdan aşağı yönəlmişdir.

Küpələri (Şəkil 1. 4-6; Şəkil 2. 1-4) dar və geniş ağızlı olmaqla iki qrupa bölmək olar. Hər iki qrupa aid qablar həm iri, həm də kiçik ölçülüdürlər. Geniş ağızlı küpələr iri qum qatışıqlı gildən hazırlanmışdır. Onların ağız kənarı xaricə meyllidir. Kiçik ölçülü belə küplərdən birinin ağız kənarı daxildən kanalvari xətlə əhatələnmişdir. Dar boğazlı küpələr şar gövdəlidir. Küpələrdən biri tünd boz rəngli, dar ağızlı, qabarıq gövdəlidir. Dulus çarxında səliqəli formalaşdırılmış küpə nazik divarlı hazırlanmışdır. Qabın çiyin hissəsini bişirilmədən əvvəl çəpinə vurulmuş uzunsov batıqlar əhatələyir (Şəkil 2. 1). Digər bir küpənin daxildən batıqla dövrələnmiş ağız kənarının sonluğu aşağıya doğru "sallanmışdır". Təmiz gildən boz rəngdə keyfiyyətlə bişirilmiş başqa bir kiçik həcmli küpənin isə çiyin hissəsini kanalvari xətt əhatələyir.

Qazanlar (Şəkil 2. 5-6) qonur və boz rəngli olub əksər hallarda iri qum qatışıqlı gildən hazırlanıblar. Onlardan birinin çiyin hissəsini nazik paralel xətlər dövrələyir.

Kasalar (Şəkil 3. 1-3) əsasən təmiz gildən hazırlanmışlar. Onların ağız kənarının üstü bir qayda olaraq düz və hamardır. Kasaların çiyin hissəsi silindrik formada düzəldilmişdir. Xaricə açılmış ağız kənarı daxildən qabın divarından içəriyə doğru azacıq qabarıq olmaları ilə seçilirlər. Kasalardan biri qara rənglidir.

Tava tipli qaba aid bir fraqment aşkar edilmişdir. Bu, tavanın ağız kənarının sonluq hissəsidir. Ağzının yuxarı hissəsi həm xaricə, həm də daxilə azacıq qalınlaşdırılmışdır. Ağız kənarının üstü yastıdır. Qab əldə formalaşdırılmışdır.

Abidədən boz rəngli qablara aid lentvari qulp fraqmentləri götürülmüşdür. Onlardan birinin üstü uzununa qoşa batıqlar formasında düzəldilmişdir.

Yaşayış yerinin keramika məmulatının naxışlanmasında müxtəlif motivlərdən istifadə edilmişdir. Yuxarıda qeyd edilən ornamentlərdən əlavə, üzərində maraqlı təsvir komponentləri olan fraqmentlər tapılmışdır. Onlardan birinin səthi bütövlükdə daraqvari alətlə çarpaz çəkilmiş xətlərlə doldurulmuşdur. Ümumiyyətlə, qabların səthinin bu qayda ilə işlənməsi hallarına son tunc - ilk dəmir dövrü qablarında tez-tez rast gəlinir.

Qonur rəngli bir fraqment üzərində qabarıq "kəmərin" üstü çəpinə çərtmələrlə bəzədilmişdir. Şar gövdəli küpənin çiyin fraqmenti üzərində üfüqi çəkilmiş sünbülvari naxış saxlanmışdır.

Qalın divarlı bir qab fraqmenti üzərində ornament daha maraqlıdır. Yuxarıda dalğalı xətt, ondan aşağıda isə enli hamar zolaq çəkilmişdir. Bu zolaqdan aşağıda 2,5 sm enində qabarıq "kəmər", daha sonra isə yenə də hamar zolaq düzəldilmişdir. "Kəmərin" bütün səthi kəsmə üsulu ilə təsvir edilmiş torşəkilli ornamentlərlə örtülmüşdür. Ən sonda isə bütün bu naxışların üzərində daraqvari alətlə üfiiqi istiqamətdə xətlər çəkilmişdir.

Yaşayış yerindən qırmızı, tuf daşından düzəldilmiş qayıqvari dən daşının bir hissəsi götürülmüşdür. Onun hündür sonluğunun üstü üfüqi şəkildə hamarlanmışdır.

Qara rəngli qum daşından olan bir daş əşya diqqəti cəlb edir. Yastı - armudvari formalı bu daşın bütün səthi hamarlanmışdır. Yuxarı nazik tərəfi sınmışdır. Bir tərəfi nisbətən qabarıqdır. Həmin qabarıq hissənin üstündə iti uclu alətlə vurma izləri vardır. Aşağı, enli hissədə isə bəzi qopmalar müşahidə edilir. Bu daşın hansı məqsədlə istifadə edilməsi məlum deyil.

Daş məmulatına aid maraqlı tapıntılardan ağ əhəngdaşından düzəldilmiş üç ədəd yastı-dairəvi formalı əşyalardır (Şəkil 3. 4-6). Onların ortasından ikitərəfli, divarları hamar deşiklər açılmışdır. Bu əşyalar çox güman ki, ağırlıq daşları kimi istifadə edilmişdir.

Keramika məmulatı əsasında Tavatəpə yaşayış yerini e.ə. XI-IX əsrlərə, Xocalı-Gədəbəy mədəniyyətinin inkişaf etmiş mərhələsinə aid etmək olar. Tavatəpə yaşayış məskənində ilkin müşahidələr və yerüstü materialların təhlili əsasında bəzi mülahizələr irəli sürmək mümkündür.

İlk növbədə Tavatəpə yaşayış məskəninin relyefdə yerləşmə mövqeyi, tipi diqqəti cəlb edir. Belə ki, abidə, yuxarıda qeyd edildiyi kimi, ətrafı düzənlikdən ibarət olan təbii təpənin üzərində yerləşir. Bu isə yaşayış yerinin qədim sakinlərinin məhz müdafiə məqsədi ilə hündür təpə üzərində məskunlaşdığını göstərir. Gəncə-Qazax bölgəsinin düzənlik ərazilərində bu tip yaşayış yerlərinə nadir hallarda rast gəlinir. Tavatəpədə aparılacaq geniş arxeoloji qazıntılar nəticəsində müdafiə divarlarının da aşkar ediləcəyi istisna deyildir.

Bölgənin düzənlik ərazilərində Son Tunc-İlk Dəmir dövrünə aid çoxsaylı yaşayış yerləri aşkar edilmişdir. Bunlardan bəzilərində geniş arxeoloji qazıntılar aparılmışdır. Belə yaşayış yerlərindən Qazax rayonunda Babadərviş (2), Sarvantəpə (5), Ağstafa rayonunda Yastıtəpə (6) və s. Yaşayış yerlərini göstərmək olar. Lakin həmin abidələrdə müdafiə divarları aşkar edilməmişdir. Hərçənd belə divarların aşkar ediləcəyi ehtimalı çox böyükdür. Bu baxımdan Tavatəpə yaşayış yerində aparılacaq arxeoloji qazıntılar perspektivli görünür.

Tavatəpə yaşayış yerinin də aid olduğu, e.ə. II minilliyin ikinci yarısı I minilliyin əvvəlləri-nə aid Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti Azərbaycanın

erkən dövlətçilik tarixində mühüm mərhələlərdən birini təşkil edirlər. Bu dövrdə insanların iqtisadi həyatında əkinçiliklə yanaşı maldarlıq da xüsusi mövqe tuturdu. Maldarlığın yüksək inkişafı ilə əlaqədar olaraq hələ İlk Tunc dövründən başlanmış yüksək dağlıq ərazilərin məskunlaşması prosesi daha geniş vüsət almışdır. Bu dövrdə aran və dağlıq zonalarda bəzən təbii mühafizə edilən yerlərdə ətrafı müdafiə qalaları ilə möhkəmləndirilmiş və belə divarların olmadığı yaşayış məskənləri meydana çıxır. Belə yaşayış məskənlərindən qərb bölgəsi dağlıq əraziləri üçün səciyyəvi olan "təpəgöz" ("siklop") tikililərini xüsusilə qeyd etmək lazımdır (7; 9). Əlbəttə, belə möhtəşəm qalaların inşa olunduğu e. ə. II minilliyin axırları-I minilliyin əvvəllərini əhatə edən Son Tunc-İlk dəmir dövrü-nün bu vaxtadək ənənəvi olaraq "ibtidai icma quruluşunun son mərhələsi" və yaxud "dağılma mərhələsi" kimi təqdim edilməsi doğru deyil. Müdafiə və digər məqsədli belə tikililər yalnız sosi-al təbəqələşməyə əsaslanan, qədim dövlət qurumunun mövcud olduğu iyerarxik cəmiyyət zəmi-nində inşa edilə bilərdi. Arxeoloji qazıntılar nəticəsində bu dövrdə Şimali Azərbaycanda artıq siyasi qurumların varlığına dəlalət edən maddi mədəniyyət qalıqları aşkar edilmişdir (1; 4).

İqtisadiyyatın sürətli inkişafı, istehsal məhsullarının artımı e.ə. II minilliyin ikinci yarısı - I minilliyin əvvəllərində xüsusi mülkiyyət sisteminin formalaşması üçün hərtərəfli zəmin yaratmışdır. Azərbaycanın qərb bölgəsində Qazax, Ağstafa, Gədəbəy, Qax və Mingəçevirdən bu dövrə aid pintaderlər – gildən hazırlanmış iri ölçülü möhürlər aşkar edilmişdir. Azərbaycanın qərb bölgəsində, xüsusilə Qazax rayonundakı abidələrdə belə möhürlər daha çoxlu sayda əldə edilmişdir (8; 5; 6). Bu tapıntılar Xocalı-Gədəbəy mədəniyyəti cəmiyyətində xüsusi mülkiyyət münasibətlərinin əsaslı yer tutduğunun, dövlətin yaranması prosesinin ilk mərhələsinin bariz nümunəsidir.

Tavatəpə yaşayış yeri də görünür bu prosesin əhatə etdiyi abidələrdən biridir. Onun düzənlik zonada, lakin təbii mühafizə olunan təpənin üzərində yerləşməsi artıq cəmiyyətdə iyerarxik quruluşun, hərbi dəstələrin (qoşunun), silahlı toqquşmaların, qədim siyasi qurumun mövcudluğunun göstəriciləridir. Əlbəttə, abidədə aparılacaq geniş tədqiqatlar bu məsələlərə daha ətraflı aydınlıq gətirəcəkdir.

Ədəbiyyat:

1. Cəfərov H. İbtidai icma quruluşu, yoxsa sinifli cəmiyyət // 2006-2007-ci illərdə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları. Bakı, 2007.
2. Əliyev V. Babadərvişdə son tunc və ilk dəmir dövrü yaşayış yerləri // Azərbaycanın maddi mədəniyyəti. VIII cild. Bakı, 1976.
3. Müseyibli N. Tavatəpə son tunc-ilk dəmir dövrü yaşayış məskəni haqqında

// 2006-2007-ci illərdə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları. Elmi sessiyanın materialları. Bakı, 2007.
4. Müseyibli N. Azərbaycanın dövlətçilik tarixi arxeoloji tədqiqatlarda // "Elm və həyat", 2016, № 2.
5. Nəcəfov Ş. Sarvantəpə yaşayış yerində 2010-cu ildə aparılmış arxeoloji tədqiqatların yekunlarına dair // Azərbaycanda arxeoloji tədqiqatlar-2010. Bakı, 2011.
6. Nəcəfov Ş. Yastıtəpə son tunc-ilk dəmir dövrü yaşayış yerində aparılmış arxeoloji qazıntıların yekunları // Azərbaycanda arxeoloji tədqiqatlar-2011. Bakı, 2012.
7. Джафарзаде И. Циклопические сооружения Азербайджана // Труды Азербайджанского филиала АН СССР. Том 55. Баку, 1938.
8. Нариманов И.Г. Глиняные штампы из западного Азербайджана // Материальная культура Азербайджана. Том VII. Баку, 1973.
9. Расулоглы Т. Циклопические сооружения на терри¬тории Азербайджана. Баку, 1993.

Najaf Museibli
Tavatepe settlement of Khojaly-Gedabey culture

Summary

Keywords: *Khojaly-Gedabey culture, Tavatepe, ceramics, stone tools, place of residence*

Over the past 20 years numerous archaeological monuments of Khojaly-Gedabey culture have been discovered in the western region of Azerbaijan. One of them is Tavatepe place of residence.


This monument was registered in 2005 in the territory of Aghstafa district based on the information provided by local residents during our field research. The settlement is located on a natural hill. On the basis of the ceramic items collected on the surface, Tavatepe settlement can be attributed to the 11th-9th centuries BC. The location of the monument in a naturally protected relief suggests that the first political structures, armed organizations and military clashes took place in the region during this period.

Наджаф Мусеибли
Поселение Таватепе – памятник ходжалы-гедабекской культуры


Резюме

Ключевые слова: *ходжалы-гедабекская культура, Таватепе, керамика, каменные орудия, поселение*


В течении двух десятилетий XXI в. в западном регионе Азербайджана выявлено значительное количество памятников, относящихся к периоду ходжалы-гедабекской культуры. Одним из них является поселение Таватепе. Памятник был выявлен в 2005 г. в период археологических работ, проводившихся на территории Акстафинского района. Поселение расположено на естественном холме. На основании подъемного керамического материала памятник датирован XI-IX вв. до н.э. Расположение памятника в зоне рельефа, обеспечивающего естественную, оборонительную защиту, позволяет предложить, что в указанный период в этой зоне уже сформировались политические союзы, вооруженные организации и происходили военные столкновения.



Şəkil 1. Tavatəpə. Küp və küpə tipli saxsı qablar



Şəkil 2. Tavatəpə. Küp və qazan tipli saxsı qablar



Şəkil 3. Tavatəpə. Kasa tiplı saxsı qablar (1-3) və daş məmulatı (4-6)

Qafar Cəbiyev*

Klassik poeziyadan praktiki arxeologiyaya

UOT 902

Açar sözlər: *küp, kuzə, boyaqçı küpü, çıraq, şərab, saxsı qab*

Böyük xalqlar əhalisinin sayı ilə deyil, daha çox bəşər elminə və mədəniyyətinə bəxş etmiş olduqları düha və tarixi şəxsiyyətlərlə tanınır. Nə xoş ki, Azərbaycan xalqı da zaman-zaman dünyanın elm və mədəniyyət xəzinəsini və ictimai fikir tarixini zənginləşdirmiş olan çoxsaylı nadir dühalar yetirmişdir. Əzəməti və böyüklüyü dünyanın hər tərəfindən görünən, qəbul və səcdə olunan belə dühalarımızdan birisi də bu il anadan olmasının 880 illiyi qeyd olunan ulu şairimiz Nizami Gəncəvidir. Etiraf edək ki, bu dahi söz ustadının zəngin irsini öyrənmək və xatirəsini əbədiləşdirmək istiqamətində həm sovet dönəmində, həm də müstəqillik illərində Azərbaycanda və respublikanın hüdudlarından kənar yerlərdə olduqca böyük və yaddaqalan işlər görülmüşdür. Məsələn, bir neçə il öncə elmi ezamiyyət ilə bağlı Romada olarkən şəhərin lap mərkəzi hissəsində yerləşən məşhur Borgezi parkının ən görkəmli yerində Nizami Gəncəvinin tuncdan çox böyük zövqlə hazırlanmış möhtəşəm abidəsini görəndə bir anlığa sanki ürəyim dağa döndü. Həmin missiyanı uğurla həyata keçirmiş olan Heydər Əliyev Fonduna, onun rəhbəri, çox hörmətli Mehriban xanıma qəlbimin dərinliklərdən gələn nidalarla bəlkə də min yol «əhsən» dedim [8, s.254].

Bu cür qürurverici misalların sayı istənilən qədərdir. Bundan da daha artıq qürurverici məqam isə odur ki, ölkə prezidenti cənab İlham Əliyevin «Azərbaycan Respublikasında 2021-ci ilin «Nizami Gəncəvi ili» elan edilməsi haqqında» 05

*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru, professor; qafar.cebiyev2021@icloud.com

yanvar 2021-ci il tarixi Sərəncamı qarşıdakı dönəmdə dahi söz ustadının elmi-nəzəri və bədii irsinin öyrənilməsi və xatirəsinin əbədiləşdirilməsi istiqamətində yeni üfüqlər açmış oldu. Bəli, Prezident Sərəncamında deyildiyi kimi «Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir səlnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır» [2]. Ümid edək ki, Prezident Sərəncamından irəli gələn vəzifələrə uyğun olaraq ölkəmizdə Nizami irsi bundan belə daha dərindən və hərtərəfli araşdıralacaqdır. Hesab edirəm ki, bunun üçün ilk növbədə Nizami Gəncəvinin əsərlərinin ana dilimizdə tam külliyyat halında, əhatəli elmi şərhləri də daxil olmaqla yenidən nəşri olduqca aktualdır. Nəzərə alınmalıdır ki, Nizaminin əsərləri sadəcə kamil bədii əsər nümunələri deyil. Bu əsərlər həm də demək olar ki, bütün elm sahələrinə dair çox qiymətli məlumat toplusudur. Odur ki, Nizami əsərlərinin elmi-tənqidi nəşrinə şərhlərin hazırlanmasına ədəbiyyatşünas alimlərlə yanaşı digər sahələrə aid elm adamlarının da cəlb olunması məqsədəuyğun olardı.

Təbiidir ki, tarixçi alimlər Nizami irsinə hər şeydən öncə məhz tarixi mənbə kimi yanaşır və hesab edirlər ki, bu külliyyat Azərbaycanın Orta əsrlər tarixini daha dolğun və daha dəqiq araşdırmaq baxımından olduqca dəyərli elmi mənbədir [4, s.39-61]. Bu dövrə aid yazılı qaynaqların qıt olduğunu da nəzərə almış olsaq, onda Nizami yaradıcılığının məhsulu olan əsərlərin Orta əsrlər tariximizin önəmli bir dövrünün araşdırılması baxımından nə dərəcədə mühüm elmi əhəmiyyəti olduğunu daha aydın hiss etmiş olarıq [5, s.95-96]. Bu yerdə dahi söz ustadının əsərlərinin həm də dəyərli tarixi mənbə olduğuna dair yuxarıda söylənilən tezisə dair konkret misallar üzərində dayanmaq istərdim. Məsələn, Azərbaycanın Orta əsr şəhərlərində sənətkarlığın durumunu araşdırmaq məqsədi ilə Nizami əsərlərini ötəri vərəqləyərkən təkcə dulusçuluq sənəti ilə, dulus məmulatının hazırlanması, istifadəsi, reallaşdırılması, dulusçu ustaların sosial-məişət şəraiti ilə bağlı son dərəcə mühüm elmi dəyəri olan məlumatlarla rastlaşırıq. Onlardan bəzi nümunələri təqdim edirik. Məsələn, məşhur «İskəndərnamə» poemasından götürülmüş aşağıdakı beytlərdə o dövrün məclislərində «kəhrəba rəngli» şərabın saxsı qədəhlərlə içildiyindən bəhs edilir:

Saqi, ol xəyallı şərab ilə dur,
Kəhrəba rəngli bu saxsını doldur.
Bu qara torpaqdan süzülən gövhər
Şənlətsin qəlbimi, qalmasın kədər [13, s.364].

Azərbaycanın Orta əsr şəhərlərində aparılan arxeoloji tədqiqatlar zaman aşkar olunan çoxsaylı və rəngarəng çeşidli keramika nümunələrinin böyük bir hissəsi məişət və təsərrüfatda istifadə olunan su qablarıdır. Onlar içərisində daha çox bulaq

və ya hovuzdan su götürmək, süfrəyə su, meyvə şirələri və ya şərab qoyulması üçün istifadə olunan kuzə tipli qablardır. Bu qablar adətən yaxşı ələnmiş, qum qatışıqlarından tam olaraq təmizlənmiş narın və yağlı gildən istifadə edilməklə dulus dəzgahında hazırlanırdı. Bu qəbildən olan süfrə qabları yüngül və nəfis olsun deyə ustadlar onların mümkün qədər nazik divarlı olmalarına xüsusi diqqət yetirirdilər. Saxsı kuzələr ustanın və ya sifarişçinin zövqündən asılı olaraq şirli və ya şirsiz ola bilirdi. «İskəndərnamə» poemasından götürülmüş aşağıdakı beytlərdə də məhz elə saxsı kuzələrdən bəhs olunur:

Boş, quru kuzənin ağzını açdı.
Doldurmaq fikrilə vurdu daş hövzə,
Əlində qırıldı o saxsı kuzə [13, s.301].

Arxeoloji tədqiqatlar zamanı aşkar olunan keramika nümunələrinin böyük bir qrupunu saxsı küplər təşkil edir. Küplər ölçüsünə, formasına və təyinatına görə müxtəlif olurdu. Bu cür qablar adətən, taxıl, un, meyvə qurusu, şərab və turşular saxlanması üçün istifadə olunurdu. Küplər irihəcmli olduğundan onları hazırlamaq və kürədə yerləşdirərək bişirmək o qədər də asan olmurdu. Bu səbəbdən saxsı küplərin istehsalı ilə daha çox məhz peşəkar ustalar məşğul olurdu. Həcmi iri olduğundan evdə, anbarda və mətbəxdə çox yer tutmasın deyə, küpləri adətən divarların kənarı boyunca ağzının kənarına qədər yerə basdırır və ağzını da döşəmə ilə eyni səviyyədə olan xüsusi qapaq və ya yastı daşla örtürdülər. Bu isə onların həm də təsadüfi xətalar ucbatından sındırıla bilmək ehtimalını tam azaltmış olurdı. Bu baxımdan ölməz şairin «Yeddi gözəl» poemasında yer alan və iri təsərrüfat küplərindən həm də mətbəxdə içməli su ehtiyatı saxlanılmasında istifadə olunduğundan xəbər verən aşağıdakı beyti xüsusi maraq doğurur:

Küp demə, küp demə, quyudur quyu,
Kərpic divarlara qalxmışdı suyu [12, s.177].

Şair burada «quyudur, quyu» deməklə sözsüz ki, küplərin həcmcə iri və dərin olmasını nəzərdə tuturdu.

«Yeddi gözəl» poemasında yer alan «Boyaq dükanında dörd küpsən ancaq», «Gecə boyaqçı tək küpünü atdı» və bu kimi beytlərindən aydın olur ki, Orta əsrlərdə saxsı küplərdən ərzaq məhsulları saxlamaqdan əlavə, həm də boyaqçılıq üzrə ixtisaslaşmış dükan və emalatxanalarda da geniş istifadə olunurmuş. Xatırladaq ki, Orta əsr Ağsu şəhərində tədqiqatlar zamanı boyaqçı emalatxanası və onun içərisində boyaq məhlulu saxlanılması məqsədi ilə istifadə olunmuş 4 ədəd küp aşkar olunmuşdur ki, onların da birində qırmızı, digər üzündə isə çəhrayı boya qalıqları aşkar olunub [1, s.82]. Tədqiqatlar zamanı o da aydın olmuşdur ki, həmin

küplərdən aşkar olunan çəhrayı boya regionda geniş yayılmış boyaqotu bitkisindən alınıb.

«Yeddi gözəl» poemasından götürdüyümüz aşağıdakı beytdən isə belə məlum olur ki, Orta əsrlərdə saxsı qabların satışı ilə xüsusi adamlar məşğul olurmuş:

Çox iti zehinlər yatan oldular,
Axırda saxsı qab satan oldular [12, s.10].

Məlum olduğu kimi, arxeoloji qazıntılar nəticəsində tapılmış zəngin keramika məmulatı müxtəlif ornamentlərlə bəzədilmişdir. Bu sözlər həm şirsiz, həm şirli, həm də inşaat keramikasına aiddir. Saxsı qablar üzərindəki təsvirlər bir çox hallarda elə məharətlə işlənmişdir ki, onların yüksək peşə hazırlığına malik rəssamlar tərəfindən çəkildiyi əsla şübhə doğurmur. Ola bilsin ki, Nizaminin «Yeddi gözəl» poemasından götürülmüş aşağıdakı beytlər də məhz dulusçu rəssamların əməyinə işarədir:

On naxış vursa da bir nəqqaş əgər,
Əsas bir cizgidən sanma əl çəkər
Bir cizgi naxışdan çıxarsa kənar
Başqa cizgilər də bütün pozular [12, s.28].

Aşağıdakı misralar isə Nizaminin yaşadığı dövrdə əhalinin güldan tipli qablardan da istifadə etdiyindən, həmin qabların zəngin nəbati elementlərlə bəzədildiyindən xəbər verir:

Saxsı güldan reyhanla bəzənmiş,
Ancaq bu reyhanlar meşədən gəlmiş [12, s.213].

Ölməz şair daim torpaqla, su ilə əlləşən, min bir əzab və zəhmətə qatlaşan kərpickəsən ustanın işini hələ halal zəhmətin tamı dadmayan bir gəncin dilindən belə qələmə alıb:

Bu nə əzab, zəhmətdir, çəkirsən,
Saman və torpaq daşımaq uzunqulağın sənətidir.
Kəsəklərlə özünə nə qədər əziyyət verəcəksən,
Torpaq və su ilə nə qədər qurdalanacaqsan [11, s.106].

Əlbəttə, zəhmətkeş kütlələr hesabına yeyib-içib şənlənən, bütövlükdə təmtəraqlı həyat tərzi yaşayan varlı təbəqələrin nümayəndələri orta əsr dulusçusuna da kərpickəsən ustaya baxdıqları gözlə baxmışlar. Lakin nə ağır iş və məişət şəraiti,

nə də onları əhatə edən qeyri-humanist mühit dünya mədəniyyəti xəzinəsinə solmaz sənət inciləri bəxş etmiş Orta əsr Azərbaycan dulusçularını bu qədim xalq sənətindən yayındıra bilməmişdir. Yeri gəlmişkən onu da xatırladaq ki, Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı demək olar ki, bütün Orta əsr şəhərlərimizdən tapılmış gildən hazırlanmış mətbəx qablarında Nizaminin «Yeddi gözəl» poemasından məlum olan Bəhram Gurun ov səhnəsinin təsviri verilmişdir. Maraqlıdır ki, Nizami əsərlərindən götürülmüş bənzər motivlərlə bəzədilmiş keramika nümunələri Türkmənistan, Qazaxıstan, Özbəkistan və Volqaboyu abidələrindən də məlumdur.

Azərbaycan xalqının XII əsrdə yaşamış digər böyük mütəfəkkir şairi Xaqani Şirvaninin yaradıcılığında da dulusçuluq sənətilə bağlı motivlərə tez-tez təsadüf edirik. Dodağı saxsıya bənzədən Xaqani saxsı kasanı özünə dərman bilir:

Dodağım saxsı, üzüm torpağa dönmüşdü mənim,
Daş olub canım inan, saxsı kasa dərmanım [9, s.114]

Saxsı kasanı qızıl camdan üstün tutmaqla Xaqani özünün yoxsullar şairi olduğunu bir daha təsdiq edir. Bu cəhətdən onun aşağıdakı beytləri xüsusi maraq doğurur:

Almaram yar mənə versə qızıl camda mey
Öpərəm saxsı saxsı kasa, versə əgər cananım.
Torpağam, saxsı qədəhlə içərəm qırmızı mey,
Az qızıl cam adını çək, o deyil imanım [9, s.114].

Bu sətirlərdən aydın olur ki, istər Nizaminin, istərsə də Xaqaninin yaşayıb yaratdığı XII əsrdə saxsı qablar metal qablarla müqayisədə xeyli ucuz olmuş və təbiidir ki, onların əsas alıcısı və istifadəçisi də əhalinin yoxsul təbəqələri olmuşdur.

Saxsı çanaqlar əsrlər boyu əhali üçün bir növ ölçü vahidi olub. Bu baxımdan aşağıdakı misralar bədii düşüncə məhsulu olmaqdan əlavə həm də qiymətli tarixi mənbə kimi dəyərləndirilə bilər:

Mən cəvahirci müqəm, saxsı küp isə mücrüm,
Ölçülür saxsı çanaqla gövhərim, mərcanım [9, s.115]

Ölməz şairin aşağıdakı beyti isə saxsı qədəhlərdən içki qabı kimi geniş istifadə olunduğunu yəqinləşdirmək baxımdan diqqət çəkir:

Torpaq ətrini duyub saxsı qədəhlər tükümün

Hər biri ətir saçar, sanki güli reyhanım [9, s.115].

Orta əsrlərdə, xüsusən də XI-XII əsrlərdə çıraqlarda yanacaq kimi yağdan, yoxsa neftdən istifadə olunduğuna dair tədqiqatçılar arasında müxtəlif mülahizələr var. Xalq məişətinə dərindən bələd olan Xaqani isə yanacaq kimi yalnız yağın adını çəkərək belə yazır:

Fitil nazik olsa, tükənərsə yağ,
Titrəyib sönməzmi bir anda çıraq? [9, s.92]

Arxeoloji qazıntılar zamanı tapılmış şarkonusvarı qablar barədə çox yazılıb. Bu tip qabların təyinatı ilə bağlı tədqiqatçılar arasında fikir ayrılığı bu gün də davam etməkdədir. Belə ki, bəziləri həmin qablardan içərisində partlayıcı maddə doldurub düşmən mövqelərinə atmaq üçün, bir başqaları isə bu qablardan ətir saxlamaq üçün istifadə olduğunu güman edirlər. Tədqiqatçılardan bir qismi isə bu qabların civə qabı olduğunu bildirirlər. Bizcə, Xaqaninin «civə qabı ağzı kimi bərk bağlanıb ver əlləri» beyti də sonuncu mülahizəyə haqq qazandırır.

Arxeoloqlar üçün elmi cəhətdən əhəmiyyətli olan məsələlərdən biri də Azərbaycan ərazisində gil qəlyanların nə vaxtdan meydana gəldiyini müəyyənləşdirməkdir. Hələlik tədqiqatçılar gil qəlyanların Azərbaycan ərazisində yalnız XVI əsrin sonlarından etibarən meydana çıxdığını güman edir və bunu tütünün məhz XVI əsrdə Amerikadan Avropaya, oradan Rusiyaya və nəhayət, Azərbaycana gətirilməsi ilə əlaqələndirirlər. Lakin görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin

Çıxdı içimdən tütün, çərxi boyadı bütün,
Gör ki, nə atəşdəyəm, gör nə qədər yanaram [10, s.127],

beytindən aydın olur ki, Azərbaycanda tütündən istifadə indiyədək güman edildiyindən ən azı iki əsr qabaq məlum imiş. Bu da öz növbəsində gil qəlyanların meydana gəlməsi tarixini xeyli qabağa çəkmək barədə düşünməyə əsas verir.

Dulusçuluq sənətilə bağlı motivlərə XVII əsr Azərbaycan şairi Saib Təbrizinin yaradıcılığında da rast gəlirik. Aşağıdakı misralar bu cəhətdən xarakterik nümunə hesab edilə bilər:

Ya kuzə, ya qədəh, ya mey üçün cam düzələr,
Bir ovuc torpağı getməz hədərə meygədənin [3, s.154].

Burada şair gildən hazırlanan kuzə, qədəh və camın adını çəkməklə sanki sonrakı nəsillərə bildirir ki, həmin qablardan onun yaşadığı dövrdə də geniş istifadə

olunmuşdur.

Tariximizdən, onu özündə yaşadan abidələrimizdən bəhs edən yüzlərlə məqalə, çoxsaylı əsərlərin adını çəkmək olar ki, onların əksəriyyəti ölməz şairimiz Səməd Vurğunun aşağıdakı misraları ilə başlayır və ya bitir.

Kim bilir neçədir dünyanın yaşı,
Hər saxsı parçası, hər məzar daşı
Nəsildən-nəsilə bir yadigardır...

Şair "Bakının dastanı" poemasında Şirvanşahlara aid muzey və fondlarda mühafizə olunan zəngin və rəngarəng çeşidli keramika nümunəlini belə tərənnüm edib:

Hələ qablar, saraydakı saxsı qablar
Tufan görüb dəyişməmiş rəngini....
O qablarda nə lövhələr, surətlər var! [14, s.223]

Burada şairin çox incə bir məqama toxunduğunu xüsusilə qeyd etmək yerinə düşər. Yəni, söhbət yüz illər, min illər öncə ulu babalarımızın istehsal etdiyi saxsı qablar əvvəl necə olubsa, bu gün arxeoloji qazıntılar nəticəsində tapdığımız zaman da eyni vəziyyətdədir. Bu da məmulatın yüksək keyfiyyətlə hazırlandığından xəbət verir.

«Muğan» poemasında Mingəçevir qəhrəmanlarından ürəkdolusu söhbət açan şair orada yorulmaq bilmədən elmi axtarış aparan arxeoloq alimlərin işini də nəzərdən qaçırmayıb:

Külək əsir, qum sovrulur, gözə girir toz-torpaq,
Qoca alim Yer altından ayrılmayır hələ ancaq
Gah tər basır vücudunu, gah büdrəyir, gah yıxılır
Yer darısqal, hava tozlu, nəfəs durur, can sıxılır
Alim yenə qucaq-qucaq yığır qədim saxsıları,
Yer altındakı hər kərpicin üzərindəki yazıları [14, s.402-403].

Yeri gəlmişkən onu da bildirək ki, S.Vurğunun «Muğan» poeması hələlik Azərbaycan poeziyasında arxeoloq alimlərin işindən təfsilatı ilə bəhs olunan ilk və sonuncu əsər olaraq qalır.

Yuxarıda deyilənlərdən belə bir nəticəyə gələ bilərik ki, Azərbaycanın klassik söz ustaları öz əsərlərində dulusçuluq sənətilə bağlı məsələlərə bu və ya digər dərəcədə toxunmuşlar. Bu da sözsüz ki, arxeoloqların tapıb üzə çıxardığı zəngin

keramika məmulatının dərindən və hərtərəfli öyrənilməsi baxımından çox böyük elmi əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

1. Ağsu şəhəri orta əsrlərdə. Kitab-albom, I kitab. Bakı, 2010.
2. Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı. Xalq qəz., 7 yanvar, 2021-ci il.
3. Balaş Azəroğlu. Saib Təbrizinin sənət dünyası. Bakı, 1981.
4. Cəbiyev Q.C. Arxeologiya və romantika. Bakı,1985.
5. Cəbiyev Q.C. Klassik Azərbaycan poeziyasında dulusçuluq sənəti ilə bağlı motivlərə dair // Azərbaycan SSR EA-nın Məruzələri. 1986, №11, s.95-98.
6. Cəbiyev Q.C. Azərbaycan keramikası. Bakı, 2003.
7. Cəbiyev Q.C. Girdiman. Tarixi və tarixi coğrafiyası. Bakı, 2015.
8. Cəbiyev Q.C. Düşüncələr. Bakı, 2021.
9. Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı, 2004.
10. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. Bakı, 1977.
11. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı, 1981.
12. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı, 1982.
13. Nizami Gəncəvi. İskəndərnamə. Bakı, 1982.
14. Səməd Vurğun. Əsərləri. 3-cü cild, Bakı, 1961.

Gafar Jabiyev
From classical poetry to practical archeology

Summary

Keywords: jug, *jug, dyeing jug, sanctuary, wine, ceramic dishes*

The poetic samples used in the article testify to the knowledge of the masters of the classical poetic style Khagani Shirvani, Nizami Ganjavi and others about the production of handicrafts in the cities of Azerbaijan, including pottery, about the level of skill of people employed in this area and about the level of consumption among the population.

Based on these data, archaeologists have the opportunity to study in more depth the artistic and artistic and technical features of the samples of medieval ceramics revealed during the excavations. In other words, the presented poetic samples can be used as a valuable scientific source in the study of household jugs, household

items, a lamp, as well as plant and geometric ornaments carved on them, revealed during archaeological research.

Khagani Shirvani considers ceramic ware more expensive than a golden bowl, which in turn indicates that in medieval Azerbaijan, ceramic ware was not available to everyone.

The poetry of Khagani Shirvani and Nizami Ganjavi contains information about the area of distribution of ceramic products, which allows us to revise the history of the emergence of ceramic hookahs and the use of tobacco in Azerbaijan. In the poetry of the great Azerbaijani poet of the twentieth century, Samad Vurgun, we find an interesting poetic assessment of the profession of an archaeologist.

Гафар Джабиев
От классической поэзии к практической археологии

Резюме

Ключевые слова: *кувшин, кувшинчик, красильный кувшин, светильник, вино, керамическая посуда*

Поэтические образцы, использованные в статье, свидетельствуют о знаниях мастеров классического стихотворного слога Хагани Ширвани, Низами Гянджеви, Имадеддина Насими, Арифа Ардабили и Самеда Вургуна, о производстве в городах Азербайджана ремесленных, в том числе, гончарных изделий, об уровне мастерства людей, занятых в этой области и об уровне потребления среди населения.

На основании этих данных ученые археологи имеют возможность более глубоко изучить художественные и художественно-технические особенности выявленных во время раскопок образцов средневековой керамики. Другими словами, представленные поэтические образцы могут быть использованы как ценный научный источник при изучении выявленных во время археологических изысканий хозяйственных кувшинов, предметов быта, светильников, а также высеченных на них растительных и геометрических орнаментов.


Хагани Ширвани керамическую посуду считает дороже золотой чаши, что в свою очередь свидетельствует о том, что в средневековом Азербайджане керамическая посуда была доступна не каждому.

В поэзии Хагани Ширвани и Низами Гянджеви имеется информация об ареале распространения керамических изделий, что позволяет пересмотреть историю возникновения керамических кальянов и использование табака

на территории Азербайджана. В поэзии великого азербайджанского поэта XX века Самеда Вургуна мы встречаем интересную поэтическую оценку профессии археолога.






















Aslan Qasımov*, Rəhman Abdullayev**,
Sevinc Şirinli, Aybəniz Əhədova, Əhməd Əhədov*******

Qobustanda yeni arxeoloji araşdırmalarda dəqiq dövrləşdirmə metodlarının tətbiqi

UOT 902
Açar sözlər: *Qayaüstü incəsənət, radiokarbon, artifakt, termolüminesens, keramika*

Giriş. 1966-cı il sentyabrın 9-da Qobustanda qədim qayaüstü təsvirlər və düşərgələr saxlanmış Böyükdaş, Kiçikdaş, Cingirdağ-Yazılıtəpə ərazisi Dövlət Tarix-Bədii qoruğu elan edilmişdir. Hazırda qoruğun ərazisinə Böyükdaş, Kiçikdaş, Cingirdağ dağları (ümumi sahəsi 4535 hektardır), Şonqardağ, Şıxqaya qayaüstü təsvirlər kolleksiyaları daxildir. 1989-cu ildə Bakı şəhərinin cənub qurtaracağında yerləşən Şıxov çimərliyində Qobustan qoruğunun sərhədlərinə daxil olmayan qayaüstü təsvir kolleksiyalarından biri qeydə alınmışdır (6, 36).

2007-ci ildə Yeni Zellandiyanın Kristcorc şəhərində keçirilən UNESCO-nun 31-ci Sessiyasında Qobustan Mədəni Landşaftı "Ümumdünya Mədəni İrs" siyahısına daxil edilmişdir.

Qobustan abidələrinin tədqiqi tarixi. Qobustan təsvirlərinin ilk tədqiqatçısı görkəmli arxeoloq İshaq Cəfərzadə 1939-cu ildə bu abidənin öyrənilməsinə başlamışdır. O, qələmə aldığı kitabında Qobustan qayaüstü rəsmlərini təqdim etmiş və onların xronologiyasına dair mülahizələrini yürütmüşdür (2). Qobustan abidələrinin xronologiyası haqqında bir çox alimlər tədqiqat aparmışdır. C. Rüstəmov və F. Muradova (5; 6), M. Fərəcova (3; 11), N. Müseyibli (4) burada yerləşən qayaüstü təsvirlərin dövrləşməsi haqqında öz əsərlərində bir çox məlumatlar verirlər. Yerli arxeoloqlarla yanaşı Qobustan qayaüstü incəsənəti barədə E.Anati (9), A.Formozov (7; 8) və başqa əcnəbi mütəxəssislər əsərlərində məlumat vermişdirlər.

*AMEA Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya elmi fond şöbəsinin kiçik elmi işçisi, aslangasumov@gmail.com
**Qobustan Milli Tarix-Bədii Qoruğu, elmi katib, rehmanabdullayev@hotmail.com
***Qobustan Milli Tarix Bədii Qoruğu, kişik elmi işçi, shirinova-sevinc@mail.ru
****AMEA Radiasiya Problemləri İnstitutu Ətraf Mühitin Radiasiya Kimyası Laboratoriyasının kiçik elmi işçiləri, aybaniz.ahadova@gmail.com , radioloq@mail.ru

2016-cı ildən Qobustan qoruğu tərəfindən "Qayaüstü təsvirlərin rəqəmsal məlumat bazasının yaradılması" layihəsinin 1-ci mərhələsi həyata keçirilmişdir. 3 il davam edən tədqiqat işi Qobustan Cingirdağ-Yazılıtəpə kolleksiyasını əhatə etmişdir. Tədqiqat nəticəsində əvvəllər 877 təsvirin qeydə alındığı Cingirdağ-Yazılıtəpə ərazisində 541 yeni təsvir qeydə alınmışdır. Onlardan 440-ı əvvəllər qeydə alınmış təsvirli daşlar üzərində, 101-i isə tədqiqat müddəti ərzində aşkar olunmuş 18 yeni təsvirli qayada aşkar edilmişdir. Beləliklə Cingirdağ-Yazılıtəpə ərazisində 169 təsvirli daşda (tədqiqata qədər 151) 1347 (tədqiqata qədər 877) qayaüstü təsvir, işarə, dəlmə və çapma sənədləşdirilərək qeydiyyata alınmışdır.

Bundan başqa Cingirdağ dağı ilə Torağay palçıq vulkanı arasında yerləşən düzənlikdə yerli əhalinin Sona Qaya adlandırdığı qayalıqda üzərində müxtəlif işarələr, çapmalar və bir maral təsviri olan 29 daş aşkar olunaraq sənədləşdirilmişdir (1).

Dəqiq dövrləşmə metodlarının qayaüstü incəsənətə tətbiqi. Qayaüstü təsvirlərin dövrləşdirilməsi müasir arxeologiya elminin qarşısında duran əsas problemlərdən biridir. Petroqliflərə dəqiq dövrləşdirmə metodlarının tətbiqinin tarixi 1980-ci illərdən başlayır və zaman keçdikcə dövrləşdirmədə xronometrik metodların əhəmiyyəti artmaqda davam edir (13). Qayaüstü təsvirlər əsasən iki növə - piktoqraf və petroqliflərə ayrıldığından onların yaşının müəyyən olunmasında tətbiq olunan elmi metodlar da fərqlənir.

Ənənəvi ikonoqrafik, stilistik və arxeoloji obyektlərlə müqayisəyə əsaslanan dövrləşdirmə metodlarının çatışmazlıqları elmi ədəbiyyatda kifayət qədər müzakirə mövzusu olmuşdur (11). Lakin hər bir təsvirin yaşını dəqiq metodlarla müəyən etmək texniki olaraq mümkün olmadığından ənənəvi və xronometrik yanaşmanın qarışıq tətbiqi, həmçinin, dəqiq dövrü müəyyən edilmiş təsvirləri arxeoloji konteksdə dəyərləndirməklə etibarlı xronoloji matrikslər qurmaq mümkündür. Qayaüstü incəsənətin öyrənilməsi sahəsində radiokarbon dövrləşdirmə metodu ilk dəfə piktoqraflar üzərində tətbiq olunsa da, ötən əsrin 90-cı illərində petroqliflərin yaşının müəyyən olunmasında da bu metoddan geniş istifadəyə başlanıldı (14).

Radiokarbon analizi metodunun qayaüstü təsvirlərə tətbiqi qaya səthində illər keçdikcə formalaşmış və təsvirləri örtən kalsium oksalat və kalsium karbonat minerallarının tərkibində olan karbon izotoplarını ölçməklə mümkün olur (15). Qobustan kimi arid bölgələrdə bol günəş işığı və vaxtaşırı yağışlar nəticəsində qaya səthində minillər ərzində inkişaf edərək "ölmüş" mamır və şibyə kütləsi dövr təyinetmə üçün yararlı karbon izotoplarının mənbəyi ola bilər. Bu metod hələlik qayaüstü təsvirlərin yaşının təyin olunmasında tətbiq olunmasa da, mamır və şibyə kütləsi radiokarbon analizi üçün potensial mənbə kimi öyrənilmişdir (10).

Radiokarbon metodundan başqa termolüminesens (TL) metodu da qayaüstü təsvirlərin yaşının təyin olunmasında istifadə olunur (16). Arxeoloji qazıntılar zamanı tapılmış keramik qabların tərkibində, həmçinin yanmış əhəngdaşında kvars və çöl şpatının kristallarının hissəcikləri olur.

Qobustanda bəzi təsvirli qayalar yaxınlığında yandırılmış ocağın təsirindən yanaraq qırmızı rəng almışdır. Bu cür yanmış təsvirli qayalar yüksək temperatura məruz qaldığından kövrəkləşir və zaman-zaman qayaların səth qatı qoparaq tökülür. Bu cür yanmış və qopmuş təsvirli qaya parçalarının yüksək temperatura məruz qaldığı dövrü termolüminesens metodu ilə təyin etmək olar ki, bu da yanmış və rəngi qızarmış təsvirlər üçün mininmum yaş deməkdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq "Qobustan qayaüstü təsvirlərinin xronologiyasının dəqiq dövrləşmə metodları ilə müəyyən edilməsi" layihəsi 2021-ci il iyul ayından öz işinə başladı. Layihə Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən keçirilən qrant müsabiqəsinin qalibi olmuşdur. Layihənin məqsədi Qobustan petroqliflərinin yaşının radiokarbon analizləri vasitəsilə öyrənilməsi, beləliklə mövcud bir sıra problemlərin həllinin tədqiqidir. Bununla əlaqədar bir sıra yoxlama analizləri artıq həyata keçirilmişdir. Təəssüflə qeyd etməliyik ki, bəzi texnoloji çatışmazlıqdan, həmçinin kimyəvi reaksiyaların aparılması üçün lazım olan reaktivlərin və azot maddəsinin çatışmazlığından analizləri istədiyimiz sürətdə davam etdirə bilmirik. Buna baxmayaraq əldə etdiyimiz ilkin nəticələr araşdırmaların gələcək nəticələrinin bizdə qayaüstü təsvirlərin xronologiyasını müəyyən etməyə kömək edəcəyinə əminlik yaradır.

Dəqiq dövrləşmə metodlarının tətbiqi ilə yaş təyini üçün ilk olaraq sınaq analizləri aparılmışdır. Bu məqsədlə Qobustan ərazisində 2019 - 2021-ci illərdə aparılmış qazıntılar zamanı əldə edilmiş bir neçə artifakt və ekofaktlardan istifadə edilmişdir. Çapmalı düşərgəsi 111 nömrəli qayanın yaxınlığında aparılan qazıntılar zamanı aşkar edilmiş keramika parçaları ilk olaraq analizə cəlb olunmuşdur. Termolüminesens (TL) metodu ilə aparılmış analiz aşağıdakı formada həyata keçirilmişdir.

Əvvəlcə, keramikanın udduğu ümumi dozadan β-şüaların təsirini ləğv etmək üçün onun üzərindən 2 mm-lik xarici qat qaşınıb götürüldü. Alınmış keramika parçaları sonra aqat həvəngdəstədə ehmalla əzildi. Alınmış tozun maqnitləşmiş hissələri maqnitlə ayrıldı. 200 μm-dən böyük olan dənəciklər laboratoriya ələyi vasitəsi ilə ayrılıb çıxarıldı. TL yaş təyini üçün ölçüsü 90-150 (və yaxud 100-160) μm arasında olan kvars dənəcikləri istifadə olundu. Alınmış kristalları digərlərindən təmizləmək üçün alınmış toz bir gün ərzində 10%li xlorid(HCl) turşusunda, sonra isə iki saat ərzində 30%li hydrogen peroksiddə (H2O2)saxlanıldı. Yerdə qalan kristalları təmizləmək üçün xüsusi ağır mayedən *natrium polivolfromatdan (xüsusi çəkisi 2.5-3 g/sm3) istifadə olundu. Uran və Torium elementlərinin emissiya etdiyi alfa şüaların təsirini ləğv etmək üçün yerdə qalan kristallar bir normal (1N) florid turşusunda 100 dəqiqə saxlanıldı. Bu mərhələdə hələ də qarışıq kimi qalmış kalsit və çöl şpatı mineralları da sıradan çıxdı. TL ölçmələri üçün nümunədən 2.1 q təmiz kvars kristalları ayrıldı. Kvars dənələri 8 bərabər hissəyə bölündü və şüalanma üçün şüşə qablara dolduruldu. Şüalanma 60Co qamma şüa mənbəyi vasitəsi ilə hayata

keçirildi. 60Co qamma şüa mənbəyinin doza gücü Magnette Miniscope MS400 EPR spektrometr vasitəsi ilə Eastman Kodak firması tərəfindən hazırlanmış BioMax alanine dosimetr lentləri istifadə etməklə ölçülmüşdür. Mənbəyin ətrafında fiksasiya edilmiş üç müxtəlif nöqtələrdə doza gücü 0.194 Gy / san, 0.0144 Gy / san və 0.0098 Gy / san. təşkil edir. TL ölçmələri Harshaw TLD 3500 Manual Reader vasitəsi ilə həyata keçirildi.

Nəticə: 5655±233 il (BP age)

Növbəti mərhələdə qazıntılar zamanı aşkar edilmiş xırdabuynuzlu heyvanlara məxsus müxtəlif dişlər analiz edilmişdir. Dişlər orqanik tapıntı olduğundan onların analizi Elektron paramaqnit rezonans (EPR) metodu ilə aparılmışdır. Yaşı təyin edilmiş ilk diş qalığı Böyükdaş dağı aşağı səki ərazisində Çapmalı düşərgəsi yaxınlığında 111 nömrəli daş ətrafında aşkar edilmişdir.

Əvvəlcə diş nümunəsinin üzərindəki emal qatı su altında soyudulmaqla stomotoloji burğu (bor maşını) vasitəsi ilə dentindən ayrıldı. Qalınlığı təxminən 2 mm olan emal qatı dezinfeksiya edilmək məqsədi ilə bir gün ərzində 30 %li NaOH məhlulunda saxlanıldı. Bu proses yerdə qalan dentini də ləğv etməyə kömək edir. Ətraf mühitdən gələn alfa radiasiyanın təsirini yox etmək üçün emalın iç və çöl tərəfindən daha 50±5 µm-lik qat da stomotoloji burğu vasitəsi ilə yonulub çıxarıldı. Alınmış emal nümunəsi üç gün ərzində açıq havada qurudulduldu. Alınmış mina qatı parçaları sonra aqat həvəngdəstədə ehmalla əzildi. 200 µm-dən böyük olan dənəciklər laboratoriya ələyi vasitəsi ilə ayrılıb çıxarıldı. EPR yaş təyini üçün ölçüsü 100-160 µm arasında olan kristallar istifadə olundu. Ölçmələr üçün ümumilikdə 1.8q təmiz mina qatının kristalları ayrıldı. Nümunə 8 bərabər hissəyə bölündü və şüalanma üçün şüşə qablara dolduruldu. Şüalanma 60Co qamma şüa mənbəyi vasitəsi ilə hayata keçirildi. EPR ölçmələr Bruker EMXplus(X-band) spektrometr vasitəsi ilə həyata keçirildi. Təbii doza gücünü təyin etmək üçün diş nümunəsinin yaxın ətrafından torpaq götürülərək radioaktiv Uran, Torium və Kalium elementlərinin miqdarı Canberra GR4520 qamma spektrometri vasitəsi ilə təyin edilir. Bu spektrometrin 15 sm-lik qurğuşun örtüyü ifrat təmiz GeHP germanium detektoru 661.6 keV enerjili qamma şüaları 43.5 % effektivliklə ölçməyə imkan verir.

Nəticə: 1894±297 il (BP age)

Yaş təyini üçün analizə cəlb edilən digər diş nümunəsi isə Kiçikdaş dağının şərq hissəsində "Ceyranlar" düşərgəsindən təxminən 600 m qərbdə aparılan qazıntılar zamanı əldə edilmişdir. Analizin aparılması prosesi bir öncəki diş nümunəsinin analizinə demək olar ki, yaxın olduğundan təkrara yol verməmək üçün onun təsvirini təqdim etmirik. Təyin edilən dövr isə aşağıdakı kimidir:

Nəticə: 2620.54±304.24 il (BP age) (Cədvəl 1)

Nəticə. Aparılan analizlər sonunda əldə edilmiş nəticələr "Qobustan qayaüstü təsvirlərinin xronologiyasının dəqiq dövrləşmə metodları ilə təyin edilməsi" layihəsi çərçivəsində irəliyə atılmış addım sayıla bilər. Layihənin ilk mərhələsində

qarşıya qoyulmuş məqsəd yoxlama işləri aparmaq və sınaqlar edərək Qobustanda radiokarbon və termolüminesens analizlərinin həyata keçirilməsi olmuşdur. Görülən işlər bu məqsədə çatdığımızın göstəricisidir. Belə ki, kəmiyyətinin az olmasına baxmayaraq əldə olunmuş nəticələr Qobustan abidələrində dəqiq dövrləşmə metodlarının tətbiqinin mümkünlüyünü təsdiq edir. Həmçinin, aşkar edilən dövrləşmə qazıntıda tapılan artifaktların dövrü ilə də uyğunluq təşkil etməkdədir. Qeyd etmək yerinə düşər ki, Qobustan arxeoloji kompleksində azərbaycanlı mütəxəssislər tərəfindən radiokarbon və termolüminesens analizləri ilk dəfə bizim layihə çərçivəsində aparılmışdır.

Layihə çərçivəsində radiokarbon analizlərinin sayının artırılması və nəticədə daha dəqiq dövrləşmənin əldə olunması nəzərdə tutulur. Bu məqsədlə Qobustanda yerləşən üç əsas dağda (Böyükdaş, Kiçikdaş və Cingirdağ) yayılmış qayaüstü təsvirlərin monitorinqi, onların üzərində yığılmış mamır və şibyə örtüyünün öyrənilməsi, onlardan nümunələrin götürülməsi və həmin nümunələrin analiz olunması perspektiv işlərdə yer almaqdadır.

Qeyd: Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – Qrant № EİF-GAT-5-2020-3(37)-12/05/12-M-12

Ədəbiyyat

1. Abdullayev R., Şirinli S. Qobustan.Cingirdağ-Yazılıtəpə və Sona qaya petroqliflərinin korpusu. Bakı. 2020.
2. Cəfərzadə İ.M. Qobustan qayalarında təsvirlər. Bakı. 1999.
3. Fərəcova M.N. Azərbaycan qayaüstü incəsənəti. Bakı. 2009.
4. Museyibli N.Ə. Qobustan və Gəmiqaya təsvirlərində işarə və damğalar // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 2003, s. 25-31.
5. Rüstəmov C. N. Qobustan petroqlifləri. Qobustan - Azərbaycanın qədim mədəniyyət ocağı. I kitab. Bakı. 2003
6. Rüstəmov C.N., Muradova F.M. Qobustan petroqlifləri. Şonqardağ və Şıxqaya qayaüstü rəsmləri. I c., II kitab. Bakı. 2003.
7. Формозов А.А. Очерки по первобытному искусству. Москва. 1969.
8. Формозов А.А. Памятники первобытного искусства на территории СССР. Москва 1980.
9. Anati E. Gobustan-Azerbaijan. Capo di Ponte, Brescia. 2001
10. Beazley, M., Rickman, R., Ingram, D., Boutton, T., & Russ, J. Natural Abundances of Carbon Isotopes (14C, 13C) in Lichens and Calcium Oxalate Pruina: Implications for Archaeological and Paleoenvironmental Studies. Radiocarbon, 44(3), 675-683, 2002
11. Bednarik R.G. The dating of rock art, in Rock art science. The scientific study of palaeoart: 115–52. New Delhi. 2007

12. Farajova, M. Gobustan, Rock Art Cultural Landscape // Adoranten. Scandinavian Society for Prehistoric Art, 2010, p. 41-66 p.
13. Ruiz J.F., Rowe M.W. Dating Methods (Absolute and Relative) in Archaeology of Art. In: Smith C. (eds) Encyclopedia of Global Archaeology. New York 2014.
14. Lorbanchet, M. & P. Bahn. Rock art studies: the post-stylistic era or where do we go from here? Papers presented in Symposium A of the 2nd AURA Congress, Cairns 1992 (Oxbow Monographs 35). Oxford 1993.
15. Juan F. Ruiz, et all. Calcium oxalate AMS 14C dating and chronology of post-Palaeolithic rock paintings in the Iberian Peninsula. Two dates from Abrigo de los Oculados (Henarejos, Cuenca, Spain) / Journal of Archaeological Science, Volume 39, Issue 8, pp. 2655-2667, 2012.
16. Sohbati, R. Luminescence, Rock Surfaces. Encyclopedia of Scientific Dating Methods. pp. 1-7, 2013

Aslan Gasimov, Rahman Abdullayev, Sevinj Shirinli,
Aybaniz Ahadova, Ahmad Ahadov
Application of precise periodization methods in new archaeological researches in Gobustan
Summary

Key words: *Rock art, radiocarbon, artifact, thermoluminescence, ceramics*

One of the major problems before modern archaeology is the periodization of petroglyphs. The history of applying precise periodization methods begins from 1980's and as time passes by, the importance of chronometric methods in periodization continues to increase. The project "Determining the chronology of Gobustan petroglyphs by precise periodization methods" launched in July 2021 envisages employing modern methods in identifying the age of Gobustan petroglyphs. Analyses were carried out by electric paramagnetic resonance and thermoluminescence methods to this end and initial results have been achieved.

Аслан Гасымов, Рахман Абдуллаев, Севиндж Ширинли,
Айбениз Ахадова, Ахмед Ахадов
Применение точных метолов периодизации в новых археологических исследованиях в Гобустане
Резюме

Ключевые слова: *Наскальные изображения, радиокарбон, артифакт, термолюминация, керамика*

Периодизация наскальных рисунков - одна из основных проблем, стоящих

перед современной археологической наукой. История применения точных хронологических методов к петроглифам восходит к 1980-м годам, и со временем важность хронометрических методов в периодизации продолжает расти. Запущенный в июле 2021 года проект «Определение хронологии наскальных изображений Гобустана точными хронологическими методами» предусматривает применение современных методов определения возраста наскальных изображений Гобустана. Для этого были проведены анализы методами электрического парамагнитного резонанса и термолюминесценции и получены предварительные результаты.

COMMENTS

********** ROSY VER 2.0 *****
NAME OF SAMPLE: qobustan__chene_dish
NAME OF FILE: qobustan
SITE NAME:
SQUARE:
LEVEL:
TAXON:
ELEVATION [m]:
DATE: 22/07/2021
EQUIVALENT DOSE [Gy]: 3.90 0.60
CALCULATING: Ages
RATIO OF U234 TO U238: 1.40 0.00 Initial Ratio
ALPHA EFFICIENCY: 0.15 0.00 Varies with energy, Eref=5.3MeV

		SEDIMENT		CEMENTUM		ENAMEL		DENTINE	
U	[ppm]	1.80	0.00	0.00	0.00	0.00	0.00	0.00	0.00
TH	[ppm]	6.00	0.00	0.00	0.00	0.00	0.00	0.00	0.00
K	[wt%]	1.60	0.00	0.00	0.00	0.00	0.00	0.00	0.00
DENSITY	[g/cc]	2.00	0.00	2.54	0.00	3.00	0.00	2.82	0.00
FR. OF RADON		1.00	0.00	1.00	0.00	1.00	0.00	1.00	0.00
% WATER	(Dry)	0.00	0.00	5.00	5.00	5.00	0.00	5.00	5.00
THICKNESS [microns]		--		0.	0.	1000.	0.	2000.	0.

UPTAKE 1=EARLY/2=LINEAR 2 1 2
ENAMEL STRIPPED FROM OUTSIDE [microns]: 0.00 0.00
ENAMEL STRIPPED FROM INSIDE [microns]: 0.00 0.00
OPTION 3: COMPUTE GAMMA DOSE AND COSMIC DOSE
DEPTH & DENSITY FOR COSMIC [m & g/cc]: 0.30 0.00 2.13 0.00
********** ROSY VER 2.0 *****
*** EARLY UPTAKE ***
Calculated Dose (Gy) = 3.90
ROSY V2.0 EU Age Estimate (years) = 2620.54 +/- 304.24
Breakdown of dose rates (microGy/a):
(“ - “ if not calculated or applicable)

	Alpha	Beta	Gamma	Cosmic	Gamma+Cosmic
Dentine	0.00	0.00	-	-	-
Enamel	0.00	0.00	-	-	-
Cementum	0.00	0.00	-	-	-
Sediment	3.58	239.77	877.80	-	-
Uranium	1.65	38.55	203.40	-	-
Thorium	1.93	22.57	285.60	-	-
Potassium	-	178.65	388.80	-	-
Total	3.58	239.77	877.80	224.59	1102.39

(Alpha+beta) dose rate (microGy/a) = 244.35
Total dose rate (microGy/a) = 1742.74
********** ROSY VER 2.0 *****
*** LINEAR UPTAKE ***
Calculated Dose (Gy) = 3.90
ROSY V2.0 LU Age Estimate (years) = 2620.54 +/- 304.24
Breakdown of dose rates (microGy/a):
(“ - “ if not calculated or applicable)

	Alpha	Beta	Gamma	Cosmic	Gamma+Cosmic
Dentine	0.00	0.00	-	-	-
Enamel	0.00	0.00	-	-	-
Cementum	0.00	0.00	-	-	-
Sediment	3.58	239.77	877.80	-	-
Uranium	1.65	38.55	203.40	-	-
Thorium	1.93	22.57	285.60	-	-
Potassium	-	178.65	388.80	-	-
Total	3.58	239.77	877.80	224.59	1102.39

(Alpha+beta) dose rate (microGy/a) = 244.35
Total dose rate (microGy/a) = 1742.74
********** ROSY VER 2.0 *****
*** COMBINATION UPTAKE ***
Calculated Dose (Gy) = 3.90
ROSY V2.0 CU Age Estimate (years) = 2620.54 +/- 304.24

Cədvəl 1

Breakdown of dose rates (microGy/a):
(“ - “ if not calculated or applicable)

	Alpha	Beta	Gamma	Cosmic	Gamma+Cosmic
Dentine	0.00	0.00	-	-	-
Enamel	0.00	0.00	-	-	-
Cementum	0.00	0.00	-	-	-
Sediment	3.58	239.77	877.80	-	-

Ceyhun Eminli*

Xımbəpoçə küp qəbirlər məzarlığı (Lerik rayonu, Boykəndil kəndi)

UOT 902
Açar sözlər: *cənub-şərq dağlıq ərazi, Parfiya dövrü, küp qəbirlər, qəbir avadanlığı.*

Giriş:

Azərbaycanın cənub-şərq dağlıq ərazilərinin antik dövr yaşayış yerləri və qəbirləri zəif tədqiq olunduğundan, həm tarixi, həmçinin ərazi baxımından bu boşluq hələ də qalmaqdadır. Elmi dövriyyəyə daxil olmuş bəzi təsadüfi tapıntılar da nəzərə alınmaqla, ötən əsrin 80-ci illərindən başlayaraq qeyd olunan regionda aparılmış qısa müddətli tədqiqatlar nəticəsində xeyli abidələr, xüsusən də antik dövrə aid qəbirstanlıq sahələri qeydə alınmışdır (3; 6, c.174,178). 2012-ci ildən "Antik dövr üzrə Lerik Arxeoloji Ekspedisiyası" tərəfindən eyni adlı rayon ərazisində genişmiqyaslı tədqiqatlara başlanılmış (12), 2016-cı ildən isə "Azərbaycan-Amerika Lerik Beynəlxalq Arxeoloji Ekspedisiyası" tərəfindən tədqiqat arealı genişlənərək arxeoloji qazıntı işləri ilə yanaşı yeni abidələr qeydiyyata alınaraq xəritələşmişdir (14). 2019-cu ildə "Antik dövr üzrə Lerik Arxeoloji Ekspedisiyası" Boykəndil (Xımbəpoçə sahəsi) və Buruq (Halasa yeri sahəsi) kəndləri ərazisində, "Azərbaycan-Amerika Lerik Beynəlxalq Arxeoloji Ekspedisiyası" isə Kiravud kəndi ərazisində (Nəsir kolat sahəsi) küp qəbirlərin tədqiqi istiqamətində işlərə başlamışdır. Təqdim olunan məqalə yalnız Xımbəpoçə adlı sahədə aparılmış tədqiqatların ilkin nəticələrinə həsr edilmişdir. Kənd ərazisində müxtəlif vaxtlarda təsərrüfat işləri zamanı antik dövrə aid maddi mədəniyyət nümunələri aşkar edilmişdir ki, onların tapıldığı sahələr haqqında dəqiq məlumat olmasa da, bəziləri Lerik Rayon Tarix və Diyarşünaslıq Muzeyində saxlanılır (inv.A-48, A-63). Kənd ərazisində "Boykəndil

*AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Antik dövr Arxeologiyası şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru ceminli@mail.ru

I" adı altında küp qəbirlər məzarlığı qeydə alınsa da, onun yerləşdiyi sahə və dəqiq koordinatları haqqında məlumat yoxdur (6, c.178). Ekspedisiya tərəfindən 2012 və 2014-cü illərdə antik dövr qəbirlərinin tədqiqi məqsədi ilə Boykəndil kəndi ərazisində bir çox sahələr nəzərdən keçirilmiş, gələcəkdə bunlardan Xımbəpoçə və Tülnədərə sahələrində arxeoloji qazıntıların aparılması nəzərdə tutulmuşdur. Xımbəpoçə sahəsi Boykəndil kəndinin şimal-şərqində, dağ silsiləsinin döşündə yerləşir. Sahə şimaldan Tülnədərə (talışcadan tərcümədə palçıqlı dərə), cənubdan terraslı enişlərlə, şərq və qərb tərəflərdən isə dağların ətəyi ilə axan Kolkənçay çayına istiqamətlənən dərin qobularla əhatələnib. Tarixən bu ərazilər həm təbii, həmçinin antropogen faktorlar təsirindən landşaft dəyişikliyinə məruz qalmışdır. Xımbəpoçə sahəsi daxil olmaqla, dağın cənub enişinə doğru yaranmış terraslar da antropogen faktorlar səbəbindən formalaşmışdır. Belə ki, 1973-1996-cı illər ərzində üzümçülük təsərrüfatı məqsədi ilə baş vermiş relyef hamarlamaları və dərin torpaq şumlamaları nəticəsində xeyli sayda arxeoloji abidələr dağıdılaraq üzə çıxmışdır. Tədqiqata cəlb olunmuş sahə də üzümçülük təsərrüfatı zamanı dağıntılara məruz qaldığından ərazidə kütləvi sayda iri təsərrüfat küplərinin hissələrinə rast gəlmək mümkündür. Sahənin adının da ərazidə olan kütləvi sayda küp qırıqları ilə əlaqələndirilməsi təsadüfi deyildir. Belə ki, Xımbəpoçə talışcadan tərcümədə xım - küp, bə - qədər (məsafə və ölçü), poçə - paça, ayaq mənasını verərək, ayaqa qədər küp anlamına gəlir. Xım - xum və ya xumb kimi hind-iran dillərinə aid olmaqla qab mənasını verir (5, c.201). İlk dəfə "xum" sözü Yeni Nisadan aşkar edilmiş Parfiya dövrünə aid 1 N-li sənəddə müəyyən edilmişdir (7, c.91). Daha sonralar "xum" və "xumça" sözləri türk dillərində də geniş istifadə olunaraq Orta Asiyada taxıl, şərab və su ehtiyyatı saxlamaq üçün nəzərdə tutulan iri həcmli qab mənasında işlədilmişdir (7, c.91-95).

Tədqiqatın metodologiyası və qəbirlərin təsnifatı:

2019-cu ilin tədqiqat mövsümündə Xımbəpoçə sahəsində iki qazıntı yeri seçilmiş, ümumilikdə 6 küp qəbir müəyyən edilərək, onlardan 5-i tam tədqiq olunmuşdur. 1-ci qazıntı yeri sahənin mərkəzində, 2-ci qazıntı yeri isə birincidən 15 metr şimal-şərqdə olmaqla, ərazinin şimal sərhəddinə yaxındır. Bu qazıntı yerində 4 və 5N-li küp qəbirlər tədqiq olundu. Belə ki, seçilmiş arxeoloji qazıntı yerlərinin ərazinin relyefinə əsasən maililiyi şimaldan cənuba doğru hər 20 cm. məsafədə 17-25 cm. arasında dəyişir. Qeyd edim ki, yerin maililiyi nəzərə alınaraq, qəbir küplərinin ilkin aşkarlanma dərinliyi müasir yer səthindən küpün gövdəsinə qədər, qəbir küplərinin basdırıldığı dərinlik isə müasir yer səthindən qəbir kamerasının döşəməsinə qədərki məsafə hesablanmışdır. Qəbirlərin təsviri aşkarlanma ardıcıllığına əsasən aşağıdakı kimi verilmişdir.

Qəbir N.1 (**tablo 1**). Yer səthindən 80 cm. dərinlikdə qeydə alınmış qəbir küpü 180 cm. dərinlikdə basdırılmışdır. Küpün ağzı cənub-şərqə, oturacağı şimal-qərbə olmaqla üfüqi istiqamətdə, nisbətən maili qoyulmuşdur. Parçalanmış vəziyyətdə

aşkarlanmış küpün bütün hissələri yerində olduğundan onun ilkin formasını və ölçülərini müəyyən etmək mümkün oldu. Qəbir küpü qabarıq gövdəli olmaqla, oturacağa doğru daralır. Dabanlı oturacaqlı küpün geniş diametrli silindr formalı boynu və yanlara açılan düz və geniş səthi olan ağızı vardır. 170 cm. uzunluqda olan küpün gövdəsinin maksimal diametri 110 cm., oturacağın diametri 38cm., boyun diametri 42 cm.-dir. Küpün kəsiyi qırmızı, üzəri ağ anqob qatı ilə örtülmüşdür. Ağzının kənarları çəpinə dərin çərtmələrlə bəzədilmişdir. Eyni cür naxışlanma küpün boyun hissəsində relyef əmələ gətirilmiş kəmər üzərində də tətbiq edilmişdir. Küpün boyun hissəsinə yapma üsulu ilə xaç işarəsi vurulmuşdur. Qeyd edildiyi kimi, qəbir küpünün ağız hissəsi cənub-şərqə, yerin enişinə doğru istiqamətlənmişdir ki, bu da ağız hissənin yer səthinə yaxın olmasını təmin edir. Dəfn icra olunduqdan sonra küpün ağzı düzbucaqlı formada işlənmiş daşla örtülmüşdür. Küpün içərisi dağılmış gövdə fraqmentləri və zamanla dolmuş torpaqdan təmizləndikdən sonra skelet və qəbir avadanlıqları aşkar edildi. Skelet sağ yanı üstə, başı cənub-şərqə, ayaqları şimal-qərbə olmaqla, ayaqlar dizdən bükülü, qollar isə dirsəkdən bükülərək başı istiqamətə idi. Antropoloji tədqiqatlara əsasən onun 16-17 yaşlarında olması müəyyən edilsə də, cinsini təyin etmək mümkün olmadı . Skeletlə birlikdə dəfn küpünün içərisində 2 kasa (inv.N.1, 2)1, tək qulplu qab (inv.N.3), döyüş baltası (inv.N.4), nizə başlığı (inv.N.5), qolbaq (inv.N.6), müxtəlif tərkibli və formalı muncuqlar (inv.N. 7-10) aşkar edildi. Qablar skeletin qabırğaları və çanaq sümüyü üzərində aşmış vəziyyətdə olduğundan, onların dəfn zamanı ilkin qoyuluş vəziyyətini müəyyən etmək çətindir.

Qəbir N.2. Bu qəbir 1N-li küp qəbirdən 160 cm. cənubda, yer səthindən 45-50 cm. dərində qeydə alındı. Qəbir yer səthinə yaxın olduğundan torpaq siyrilməsi nəticəsində ciddi dağıntıya məruz qalmışdır. Cənub-şərqdən şimal-qərb istiqamətdə olan dəfn küpünün formasını tam müəyyən etmək mümkün olmasa da, əhatəsinə görə kiçik ölçülü olmüşdür. Küp fraqmentləri içərisində körpəyə məxsus kəllə, dağınıq vəziyyətdə qabırğa və fəqərə sümükləri vardır. Sümüklər içərisində 6 ədəd şüşə muncuq (inv.N.11) və iki ədəd sırğa (inv.N.12, 13) aşkar edildi. Dağınıqlar içində kiçik ölçülü dəmir bıçağa aid iki fraqment də vardır ki, inventara salınmadı.

Qəbir N.3 (**tablo 1**). Bu qəbir 1N-li dəfn küpünün şimal-qərbindən 40 cm. məsafədə, yer səthindən 90 cm. dərinlikdə aşkar edilmişdir. Yer səthindən 198 cm. dərinlikdə basdırılmış dəfn küpünün ağzı cənub-şərqə, oturacağı şimal-qərbə olmaqla üfüqi istiqamətdə, nisbətən maili qoyulmuşdur. Küpün ağız hissəsi yerin enişinə doğru mail istiqamətlənmişdir. Dəfn küpünün gövdəsi ellips formada

[1] Skeletlər Oksford Brookes Universitetinin antropoloqu Selin Nugent tərəfindən tədqiq olunmuşdur.

Tapıntıların inventarlaşmasında - Rayon (Lerik),kənd (Boykəndil) və abidənin adının (Xımbəpoçə) baş hərfləri və aşkar edildiyi il olaraq - "LBX.2019.inv.N. .." - kimi qəbul edilmişdir. Məqalənin həcmini nəzərə alaraq, mətnin içində qısa şəkildə yalnız "inv.N. .." kimi qeyd edilib.

olmaqla, oturacağa və boyuna doğru bərabər daralır. Qısa və geniş diametrli boğaz yanlara açılan ağızla tamamlanır. Küpün uzunluğu 145 cm., gövdənin maksimal diametri 108 cm., oturacağın diametri 30 cm., boğazının diametri 35 cm.-dir. Bu küpün ağızı da düzbucaqlı daşla örtülmüşdür. Dəfn küpündə insan skeleti ilə yanaşı qəbir avadanlıqları da aşkar edildi. Sümüklər dağınıq və kövrək olsa da skeletdə anatomik quruluş qalmaqdadır. Belə ki, 55-60 yaşlarında qadına məxsus skelet küpün mərkəzi hissəsində sağ yanı üstə olmaqla, başı cənub-şərqə, ayaqları şimal-qərbədir. Ayaqlar dizdən bükülü, qollar isə dirsəkdən bükülərək əllər kəllənin altına qoyulmuşdur. Skeletin üzərində, qarşısında və arxasında müxtəlif formalı saxsı qablar vardır (inv.N.14, 15, 17, 18, 19, 20). Dəfn küpünün hissələri ilə birlikdə qəbir avadanlığı skeletin üzərində dağınıq və aşmış vəziyyətdə olduğundan qabların ilkin düzülüşünü müəyyən etmək mümkün olmadı. İri qabların altında skeletin qolları qarşısında da içərisinə bıçaq (inv.N.22) qoyulmuş kiçik ölçülü qab (inv.N.16), kəllə, boyun və əl sümükləri arasında isə üzük (inv.N.23), yarımdairə formada əşya (inv.N.24), bıçaq (inv.N.25), sancaq (inv.N.26), üzəri naxışlı halqa (inv.N.27) vardır.

Qəbir N.4 (**tablo 2**). Yer səthindən 80 cm. dərinlikdə qeydə alınmış dəfn küpü 173 cm. dərinlikdə basdırılmışdır. Küpün ağzı cənub-şərqə, oturacağı şimal-qərbə olmaqla üfüqi istiqamətdə, nisbətən maili qoyulmuşdur. Qabarıq gövdə oturacağa doğru daralır. Dabanlı oturacaqlıdır. Qısa və geniş diametrli boğaz yanlara açılan ağızla tamamlanır. Ağzının üstü düz, kənarları çəpinə dərin çərtmələrlə bəzədilmişdir. 173 cm. uzunluqda olan küpün gövdəsinin maksimal diametri 93 cm., oturacağın diametri 37 cm., boğazının diametri 50 cm.-dir. Küpün kəsiyi qırmızı, üzəri ağ anqob qatı ilə örtülmüşdür. Küpün ağzına düzbucaqlı daşdan qapaq qoyulmuşdur. Dəfn küpünün mərkəzi hissəsində 25-28 yaşlarında qadına məxsus skelet sol yanı üstə, zəif bükülü vəziyyətdə qeydə alındı. Ayaqları dizdən bükülü, qollar isə dirsəkdən bükülərək kəllə istiqamətə qaldırılmış vəziyyətdə olan skelet cənub-qərb şimal-şərq istiqamətədir. Anatomik quruluş saxlanılsa da, kəllə ciddi dağıntıya məruz qalıb. Dəfn küpü içərisində insan skeleti ilə yanaşı qablar (inv. N.31-34), xeyli sayda bəzək əşyaları və geyim aksessuarları (inv.N.29-30, 35-56), dağınıq qabın içində isə bıçaq (inv.N.28) qeydə alındı.

Qəbir N.5 (**tablo 2**). Bu qəbir 4N-li dəfn küpünün cənub-qərbindən 45 cm. məsafədə, yer səthindən 100 cm. dərinlikdə aşkar edilmişdir. Yer səthindən 176 cm. dərinlikdə basdırılmış dəfn küpünün ağzı cənub-şərqə, oturacağı şimal-qərbə olmaqla üfüqi istiqamətdə, nisbətən maili qoyulmuşdur. Bu küpün ağzına da düzbucaqlı formada kəsilmiş daş qoyulmuşdur. Küpün uzunluğu 112 cm., gövdənin maksimal diametri 72 cm., oturacağın diamteri 28 cm., boğazının diametri 44 cm.-dir. Qabarıq gövdə oturacağa doğru daralır. Dabanlı oturacaqlıdır. Qısa və geniş diametrli boğaz yanlara açılan ağızla tamamlanır. Kəsiyi qırmızı, üzəri ağ anqob qatı ilə örtülüb. Küpün çiyin hissəsi üzəri dərin çərtmələrlə bəzədilmiş relyef kəmərlə əhatələnib (*kəndir ornamenti*). Dəfn küpünün içərisində 22-23 yaşlarında

dağınıq vəziyyətdə kişi skeleti vardır. Bədən və ayaq sümükləri biri birindən aralı olduğundan ölünün qəbirdə ilkin qoyuluş istiqamətini izləmək çətindir. Mövcud vəziyyətə əsasən skeletin sağ yanı üstə bükülü olması görünür. Skeletin ayaqları arasında (inv.N.57) və küpün dibinə yaxın yerdə kasa (inv.N.58), həmçinin iri ölçülü tək qulplu novçalı qab fraqmenti (inv.N.59) vardır. Boyun və bədən sümükləri içərisində qolbaq (inv.N.60), sancaq (inv.N.61), bıçaq (inv.N.62), asma bəzək fraqmentləri (inv.N.63) və xeyli sayda muncuqlar (inv.N.64-69) vardır.

Qəbir avadanlıqlarının təsnifatı və təhlili:

Qəbir avadanlığını dəfn hədiyyəsi və yaxud ölünün şəxsi əşyaları kimi ayırmaq mümkün olmasa da, bu əşyalarla dəfn olunan axirət dünyasına yola salınmışdır. Bütün qəbirlərdə saxsı qablara təsadüf edildiyindən təsnifatı ilk olaraq keramika nümunələrindən başlayırıq:

Keramika nümunələri: Saxsı qablar qapalı (dibi görünməyən) və açıq (geniş ağızlı və dibi görünən) formalı olmaqla, iki qrupa bölünür. Birinci qrupa daxil olan qablar say etibarilə azlıq təşkil edir (**tablo 3**). Qablardan iki nümunə forma, tərkib və naxışlanmasına görə oxşardır. Belə ki, sferik gövdəli və geniş oturacaqlı olan qabın novçalı ağzının əks tərəfində, ağzının kənarı ilə çiyinə birləşən tək qulpu vardır (inv.N.3). Qab fraqmentlərdən bərpa edildiyindən qulpu çiyinə bərkidən saxsı mil aydın izlənilir. Qırmızımtıl-qəhvəyi rəngdə olan qabın çiyin ilə gövdəsi qəhvəyi boya ilə tor əmələ gətirən romblarla naxışlanıb. Oxşar qab fraqmentar halda 4 N-li küp qəbirdə də aşkar edilmişdir (inv.N.31). Əvvəlkindən fərqli olaraq, bu qabın naxışlanma əhatəsi yalnız gövdənin mərkəzi çevrəsi ilə məhdudlaşır. Əhəməni dövründən başlayaraq bu tip naxışlanma müəyyən dəyişikliklərlə Parfiya dövründə də davam edilmişdir (15; 9). Erkən mərhələdə iç-içə çəkilmiş bucaqlar və içərisi tor əmələ gətirən romblarla doldurulmuş üçbucaq təsvirlər üstünlük təşkil etdiyi halda, sonrakı mərhələdə boya ilə tor əmələ gətirən romb naxışlanma əsasən açıq səthdə təsvir edilməyə başlanır. Xımbəpoçə küp qəbirlərindən aşkar edilmiş bu tip naxışlanma Mingəçevir küp qəbirlərindən də məlumdur (2, tablo XI.1). Lerik (Xımbəpoçə) və Mingəçevir küp qəbirlərindən məlum olan boya naxışlı qabların xronoloji çərçivəsini e.ə. 1 - b.e. 2-ci əsrləri daxilində uyğunlaşdırmaq məqsədə uyğundur. Xımbəpoçənin 5N-li küp qəbirindən də oxşar qabın fraqmentar nümunəsinə təsadüf edilmişdir ki, bu qabın da gövdə hissəsinin boya təsvirli olmasını ehtimal etmək olar (inv.N.59). Keramika nümunələri içərisində geniş boğazlı küpə də aşkar edilmişdir ki, sadə formaya malik olan bu qabın erkən variantlardan fərqi şaquli istiqamətdə çiyin ilə gövdəyə bərkidilmiş ilgək qulpunun olmasıdır (inv.N.14). Qabarıq gövdəli və geniş oturacaqlı olan bu tip qabların ilkin variantları e.ə. 4-2-ci əsrlərə aid Piboztəpə torpaq qəbirlərindən məlumdur ki, həmin qabların çiyin və yaxud gövdə hissələri şiş çıxıntılarla bəzədilmiş olurlar. Eramızın ilk əsrlərinə doğru şiş çıxıntılı variantlarla yanaşı, gövdə və çiyində ilgək qulpla təchiz olunmuş nümunələr yayılmağa başlayır. Bu qabın içərisində iy başlığına oxşar bikonik

formalı saxsı əşya vardır (inv.N.21). Birtərəfli deşiyi olan əşya ehtimal ki, ipəyirmə milinin altlığı olmuşdur. Bikonik formalı oxşar əşyalar və iy başlıqlarını küpələrin içərisinə qoyma adəti daha erkən dövrlərə aid Piboz qəbirlərindən məlumdur. Xımbəpoçə küp qəbirlərində xronoloji baxımdan daha erkən nümunələrə də təsadüf edilir ki, tək qulplu qara rəngli cilalı qabı misal göstərmək olar (inv.N.19). Bu qab həm forma, həmçinin morfoloji xüsusiyyətlərinə görə seçilir. 32.5 cm. hündürlüyə malik olan qabın sferik gövdəsi alt hissəsinə doğru yuvarlaq şəkildə davam edərək, konus formalı üç ayaqla təchiz edilmişdir. Uzun və silindr boğaz dairəvi ağızla tamamlanır. Kəsiyi tünd qəhvəyi, üzəri isə bozumtul-qara və qara rəngdədir. Qabın boğazı relyef əmələ gətirən boğmalarla və konsentrik dairələrlə bəzədilib. Çiyinləri üfüqi istiqamətdə kənarları sünbül təsvirli paralel xəttlərlə əhatələnib. Oxşar naxış dalğalı şəkildə gövdəyə doğru düşür. Bu tip qablara ilkin olaraq Son Dəmir dövrü qəbirlərində təsadüf edilir (19, fig.6:33,37). Son Dəmir dövrü ənənəsinin davamı olaraq Prafiya dövründə, xüsusən də həmin dövrün ikinci yarısında da oxşar formalı üçayaqlı qablara təsadüf edilir (11, Pl.XLVII,16, XLIX,46; 20, fig.27.12-13). İkinci qrupa aid olan qablar əsasən kasa və piyalələrlə təmsil olunurlar (*tablo 4*). Kasalar iri qum qatqılı olmaqla, qalın divarlı və kobud hazırlanmışlar (inv.N. 2, 15, 18, 32, 57, 58). Sadə formaya və assimetrik gövdə divarlarına malik olan bu kasalar e.ə. 5-ci əsrdən eramızın 3-cü əsrinə qədər geniş xronoloji çərçivəni əhatə edir. Kasalar içərisində qırmızımtıl-qəhvəyi saxsılı və üzəri tünd qəhvəyi rəngli, nazik divarlı nümunələr də vardır ki, bunlar son Əhəməni və erkən Parfiya dövrünə aid qəbirlərdən məlumdur (inv.N.1, 20). Ölçülərinə görə kasalardan kiçik olan piyalələr də iri qum qatqılı, qalın və assimetrik divarlı hazırlanmışlar (inv.N.16, 17, 34). İkinci qrup saxsıları içərisində 1 ədəd fincan vardır ki, nazik divarlı, geniş ağız və oturacağa malikdir (inv.N.33). Fincanın piyalələrdən fərqləndirən yegənə fərqi ağzının kənarı ilə çiyinə birləşən ilgək qulpunun olması və ağzının kənarının qulpa əks tərəfində nisbətən hündür hazırlanmasıdır.

Qəbir avadanlığı içərisində silahlara da təsadüf edilmişdir ki, bütün silahlar dəmirdən olmaqla döymə texnikası ilə hazırlanmışlar (tablo 5). Silahlar içərisində bıçaqlar çoxluq təşkil edir ki, hamısı bir tiyəlidir. Bıçaqların sap hissəsindəki qalıqlara əsasən tutacaqları dəmir pərçimlər vasitəsilə bərkidilmiş ağac tutacaqlı olmuşlar. Yalnız bir nümunənin üzərində də ağac qalıqlarına təsadüf edilir ki, həmin bıçaq ağacdan hazırlanmış qın içərisində qəbirə qoyulmuşdur (inv.N.22). Qəbir avadanlığı içərisidə 1 ədəd nizə başlığı və 1 ədəd balta da vardır ki, hər iki nümunə 1N-li küp qəbirə məxsusdur. Nizə başlığı yarpaq şəkilli, enli qanadlı və boruludur (inv.N.5). Balta kəsər hissəyə doğru nisbətən əyilmiş formada olan uzun boyunludur (inv.N.4). Kəsər hissənin alt və üst küncləri arxaya əyintili olmaqla, qövs şəkildə işlənmişdir. Boyunun arxa hissəsi sap keçirmək üçün ellips formalı deşiklidir. Məhz bu hissəyə yaxın yerdə, balta boynunun arxası düzbucaqlı formada əlavə çıxıntılıdır. Balta boynunun uzun olması və arxasındakı çəkic zərbəsi funksiyasını əks etdirən

hissə baltanın atılması zamanı arxa ağırılığı hesabına hədəfə doğru fırlanmasına təkan verir. Oxşar formalı baltalar Dəmir dövrünün 3-cü mərhələsindən İran ərazisində mövcud olsa da Dəmir dövrünün 4-cü mərhələsinə doğru azalaraq, xüsusən də qəbirlərdə çox nadir hallarda təsadüf edilir (16, ill.37.64-5; 18, Pl.13.9). E.Ə. 1-ci əsrin sonlarından başlayaraq qəbir avadanlığı içərisində dəmir baltalara yenidən təsadüf edilir. Xımbəpoçə küp qəbirindən aşkar edilmiş baltaya həm ərazi, həmçinin xronoloji baxımdan yaxın olan nümunələr İran Azərbaycanının Ərdəbil əyalətindən aşkar edilmiş küp qəbirlərində təsadüf olunur (17, s.11; 10, fig.6.1).

Küp qəbirlərindən toplanmış materiallar içərisində bəzək əşyaları və geyim detalları da vardır ki, bunlardan muncuqlar çeşid və say etibarilə çoxluq təşkil edir (tablo 6). Muncuqlar serdolik (inv.N.10, 46, 56, 66) və şüşə tərkibli olmaqla iki böyük kateqoriyaya bölünürlər. Göy şüşə üzərində ağ və sarı inkrustasiyalı göz muncuğu (inv.N.7) və kanelyur naxışlı ağ pasta-şüşə muncuqlar (inv.N.50, 51) daha erkən dövr nümunələri kimi istisna olmaqla, digərləri eramzın ilk əsrlərində geniş coğrafi regionda yayılmağa başlayır (4, c.237-239)[1]. Metal bəzək əşyaları və geyim detallarının oxşarları Ərdəbil əyalətinin Germi ərazisində küp qəbirlərdən məlumdur (**tablo 7**). Qolbaqlar kəsiyi dairəvi mis məftildən əyilərək, başları aralı hazırlanmışlar. Bir nümunədə baş hissələr dərin kəsmələrlə bəzədilib (inv.N.6). Sırğalar kəsiyi dairəvi gümüş məftildən halqa formada əyildikdən sonra baş hissələr şaquli istiqamətdə yastılaşdırılaraq zoomorf formaya salınıb (inv.N.12-13, 35, 37). 4N-li küp qəbirdə olan sırğaların yanında iki hissədən hazırlanmış gümüş kürələr də vardır (inv.N.36, 38). Gümüş kürə hissələri 3 və 5 N-li qəbirlərdən də məlumdur (inv.N.24, 63). Gümüş sırğaların tuncdan hazırlanmş oxşarları Germi küp qəbirlərindən aşkar olunmuşdur (10, fig.8.5, 11.9). Xımbəpoçə küp qəbirlərindən sırğaya oxşar daha iki nümunə də tapılmışdır ki, bunlardan biri yastı mis lövhədən halqa formada kəsilmişdir (inv.N.27). Digər əşya nazik mis lövhədən aypara formada kəsilmiş, üzəri bir tərəfdən döymə üsulu ilə dairəvi qabartılarla bəzədilmişdir (inv.N.30). Əşyanın ensizləşən hissələri qırıldığından təyinatı barədə dəqiq fikir yürütmək çətindir. Aypara təsviri böyük xronoloji çərçivəni və coğrafi arealı əhatə etməklə xalqların inancında və sənətkarlığında ikonoqrafik təsvirlərdən tutmuş, keramika, silah, geyim detalları və zərgərlik nümunələrinin bəzədilməsində tətbiq edilmişdir. Təqdim olunan aypara formalı əşyanın xronoloji və analoji nümunələrinə Germi küp qəbirlərində təsadüf edilmişdir (10, fig.11.7). Xımbəpoçə küp qəbirlərindən kəsiyi dairəvi misdən hazırlanmış uzunsov formalı sancaqlara da təsadüf olunmuşdur. Uc hissəyə doğru daralan sancaqların yastılaşmış baş hissələri çərtmə və çəpinə cızmalarla bəzədilib (inv.N.26, 61). Qeyd olunan sancaqlardan əlavə 4N-li küp qəbirdən yastılaşmış baş hissənin yuxarısında buynuzu əks etdirən qoşa haçalı sancaq da aşkar edilmişdir ki (inv.N.29), bu nümunənin də oxşarları

[1] Məqalənin həcmini nəzərə alaraq, muncuqların ətraflı təhlili üzərində dayanmırıq.

Germi ərazisində Himmət təpə küp qəbirlərindən məlumdur (17, s.95, şək.121). Bəzək əşyaları içində mis üzüklər də vardır ki, hamısı qadına məxsus qəbirlərdən tapılıb. Üzüklərdən 1 nümunə istisna olmaqla, digərləri 4N-li qəbirə aiddir. Nazik mis lövhədən hazırlanmış üzüklərin üzəri döymə və cızma üsulu ilə cınağı naxışla bəzədilib. Üzüklərin bəziləri kəsim və qatlanma üsulu ilə hazırlandığından səthi iki hissəli və aralıdır (inv.N.41, 42). Yalnız bir nümunə üzərində basma üsulu ilə zəif oxunaqlı insan təsviri vardır (inv.N.40). Təqdim olunan üzüklər nazik metaldan sadə texniki üsulla hazırlandığından dağınıqdır.

Qəbirlərin xronologiyası və nəticə

Dəfn küpləri daxil olmaqla qəbir kameralarının ölçülərini nəzərə alaraq, ortalama hesabalamaya görə Xımbəpoçə sahəsisində hər 9 m2 -lik bölgüyə paralel şəkildə 2 küp qəbir düşür ki, bu da ərazidə qəbir sıxlığının olduğunu göstərir. Dəfn küplərinin hamısının ağızı cənub-şərqə, oturacağı şimal-qərbədir. Küplər qəbir çalasına horizontal və nisbətən maili qoyulmuşdur. Bütün küplərin ağızı yer səthinə yaxın olmaqla, düzbucaqlı formada kəsilmiş daşla örtülü idi. Dəfn küpləri içərisində ölülərin sağ və yaxud sol yanı üstə qoyulması cinsə və yaşa görə tənzimlənməmişdir. Küp qəbirlər və yaxud küpdə dəfn adətinin geniş yayıldığı xronoloji çərçivəyə nəzər yetirsək, e.ə. IV - b.e. III əsrləri aralığında Cənubi Qafqaz üçün eyni inkişaf mərhələsinin şahidi oluruq (8, c. 126). Azərbaycanda erkən dövr küp qəbirlərinin yayılması e.ə. VI-III əsrlər (6, c.42), inkişafının ən yüksək səviyyəsi isə e.ə.II - b.e. II əsrləri kimi qəbul edilsə də (1, s.116), bu bütün ölkə ərazisi üçün eyni olmamışdır. Son illərin çöl tədqiqat işlərinə əsasən Azərbaycanın cənub-şərq dağlıq və dağətəyi ərazilərində küp qəbirlərin geniş yayıldığının izləmək mümkündür. Oxşar vəziyyət İranın şimal-qərb və qərb hissəsində də nəzərə çarpır. İran ərazisində ölünü müxtəlif formalı küplər və iri saxsı qablarda dəfn etmə adəti daha erkən dövrlərdən məlum olsa da, şimal-qərb və qərb ərazilərində küpdə dəfn Parfiya dövrünə təsadüf olunur (13, p.17). Məhz Xımbəpoçə küp qəbirlərinin analoji xüsusiyyətlərini İranın şimal-qərb və qərb ərazilərindən aşkar edilmiş küp qəbirlərində izləmək mümkündür. Göründüyü kimi bəzi erkən nümunələr istisna olmaqla, qəbir avadanlığının əksəriyyətinin analogiyasını Ərdəbil əyalətinin Germi ərazisindəki küp qəbirlərində görmək mümkündür. Germi küp qəbirlərindən aşkar edilmiş numizmatik materiallar qəbirlərin dövrünün dəqiqləşdirilməsində böyük əhəmiyyətə malikdir. Belə ki, qəbir küplərinin birində II Qotars (b.e.41-51), digərlərində I Voloqez (b.e.51-78) və IV Artabana (b.e.80-81) məxsus draxmalar, iki küpdə isə III Voloqezin (b.e.147-191) adına zərb olunmuş draxmalar aşkar edilmişdir (17, s.110-111). Xımbəpoçənin qəbir materiallarının müqayisəli təhlilinə əsasən, həmçinin onlara ərazi baxımından yaxın olan Germi küp qəbirlərinin analoji avadanlıqlarını nəzərə alaraq və yekun olaraq Germi küp qəbirlərindəki numizmatik nümunələrə əsaslanaraq Xımbəpoçə küp qəbirlərini də eramızın 1-2-ci əsrlərinə aid etmək olar.

Ədəbiyyat

1. Əsədov V. Azərbaycanın küp qəbirləri. Bakı, 2018.
2. Qazıyev S.M. Mingəçevir Küp Qəbirləri Albomu. Bakı, 1960.
3. Osmanov F.L. Yardımlı rayonu Yolocaq kəndində küp qəbri tapıntısına dair / Az.SSR E.A. Məruzələri. Tom XXIX, N.6. 1973. s.73-77.
4. Античные Государства Северного Причерноморья. Археология СССР. (отв. ред: Кошеленко Г.А., Кругликова И.Т., Долгоруков В.С). Москва, 1984.
5. Герценберг Л.Г. Морфологическая структура слова в древних Индоиранских языках. Ленинград, 1972.
6. Гошгарлы Г.О. Типология погребальных памятников античного периода на территории Азербайджана. Баку, 2012.
7. Керамика Хорезма. (ред. Толстов С.П., Воробьев М.Г.). Москва, 1959.
8. Нонешвили А.И. Погребальные обряды народов Закавказья. Тбилиси, 1992.
9. Castelluccia M. Some remarks on Achaemenid era pottery assemblages from Transcaucasia./ Ceramics and the archaeological horizon Near East, Iran and Central Asia. (eds. Genito B., Maresca G.). Napoli, 2019. pp. 89-108.
10. Curtis S.V., Simpson St.J. Archaeological news from Iran and Central Asia: Third Report: Germi. / Iran - Journal of the British Institute of Persian Studies, Vol.38, 2000. pp.151-160.
11. Egami N., Fukai S., Masuda S. Dailaman II. Tokyo, 1966.
12. Eminli J., Iskenderov E. Archaeological Investigations at Piboz Tapa Necropolis. Lerik, Southern Azerbaijan (Preliminary report 2012-2013) / Proceedings of the 9th International Congress on the Archaeology of the Ancient Near East. Vol.3. 2016. pp.699-708.
13. Farjamirad M. Mortuary practice in Ancient Iran from the Achaemenid to the Sasanian period. BAR International Series 2747. Oxford, 2015.
14. Fishman S., Eminli J., Fabian L., Iskenderov E. Report from the field - In the mountains, between empires. Notes from the Lerik in Antiquity Archaeological Project / Expedition: The Magazine of the University of Pennsylvania. Vol.59, N.1, 2017. p.48-50
15. Haerinck E. Painted pottery of the Ardabil style in Azerbaidjan (Iran) / Iranica Antiqua 13, 1978. pp. 75-92.
16. Haerinck E., Overlaet B. Djub-i Gauhar and Gul Khanan Murdah Iron Age III graveyards in the Aivan plain. Luristan Excavation Documents. Vol. III. / Acta Iranica 36, 1999.
17. Kambakhsh F. Parthian Pithos-Burials at Germi (Azarbaijan) / Iranian Journal of Archaeology and History. Supplement No.1, 1998. (Farsca. Xülasə İngiliscə)

18. Overlaet B. The Chronology of the Iron Age in the Pusht-i Kuh, Luristan. / Iranica Antiqua XL, 2005. pp. 1-33.
19. Arimatsu Y. Evolution fonctionelle des pratiques funeraires de l'age du fer dans l'Iran Septentrional / Archaologische Mitteilungen aus Iran und Turan. Band 48, 2016. pp.121-141.
20. Haerinck E. La Ceramique en Iran Pendant la Periode Parthe (ca. 250 av. J.C. a ca. 225 apres J.C.). Gent, 1983.

Jeyhun Eminli

Khimbapocha jar burial cemetery (Lerik district, Boykandil village)

Summary

Keywords: *Southeastern highlands, Parthian era, jar burials, burial assemblage.*


In 2019, the "Lerik Archaeological Expedition of Antiquity" investigated 5 jar burials at the site of Khimbapocha, located in the village of Boykandil. The Khimbapocha terrain, translated from its name in the Talysh language - khim - big jar, ba - up to, pocha - leg, got its name due to the massive number of fragments of large jars found there. The burial jars, identified at a depth of 178-198 cm, were oriented with the neck toward the southeast, and the bottom toward the northwest, and laid in a horizontal position with the neck in the direction of the slope of the terrain. The location of the neck of the jars closer to the surface of the earth and the covering of the mouth with a lid made of worked stone is interpreted as an established sign of burial. The deceased were buried in the jars in a contracted position, with their heads towards the neck of jars, although the position on the right or left side, did not depend on gender and age. Single inhumations are observed in the jars, for example, an infant was identified in grave No. 2, women in graves No. 3 and No. 4, and a man in grave No. 5. The burial inventory consists of ceramic vessels, iron weapons, glass and carnelian beads, jewelry made of non-ferrous metals and decorative elements of garments. Among the grave goods, there are samples of the Achaemenid and early Parthian periods (inv.NN.1,19,20). With a few exceptions from the early specimens from Khimbapocha, the inventory finds parallels in jar burials from the territory of Germi in the province of Ardabil. The coins found in Germi burial jars, minted in the name of the Parthian kings who ruled between 41-191 C.E., are of great importance in the dating of graves. On the basis of a comparative analysis of materials from the Khimbapocha burials and taking into account the parallels of the grave goods with geographically closely related Germi jar burials, the Khimbapocha burial ground can be dated to the 1st-2nd C.E.


Джейхун Эминли
Хымбапоча - Могильник кувшинных погребений (Лерикский р-н, деревня Бойкендиль)


Резюме


Ключевые слова: *Юго-восточное нагорье, Парфянский период, кувшинные погребения, погребальный инвентарь*


В 2019 году «Лерикская археологическая экспедиция по изучению античного периода» исследовала 5 кувшинных погребений на территории Хымбапоча, расположенной в деревне Бойкендиль. Местность Хымбапоча, в переводе с талышского хым - кувшин, ба -до, поча - нога (вся), получила свое название в связи с массовым количеством фрагментов больших кувшинов. Погребальные кувшины, выявленные на глубине 178-198 см. в горизонтальном положении, были ориентированы горловиной к юго-востоку, дном к северо-западу. При этом горловины были направлены в сторону склона рельефа местности. Расположение горловин кувшинов ближе к поверхности земли и накрытие крышкой из обработанного камня трактуется как наземный признак погребения. Усопших хоронили в кувшинах скорченно, головой по направлению к горловине. Положение на правом или левом боку не зависело от пола и возраста. В кувшинах наблюдаются одиночные захоронения: так, в могиле №2 был установлен младенец, в могилах №3 и №4 - женщины, в могиле №5 - мужчина. Погребальный инвентарь состоит из керамических сосудов, железного оружия, стеклянных и сердоликовых бус, украшений из цветных металлов и деталей одежды. Среди погребального инвентаря прослеживаются образцы Ахеменидского и раннего Парфянского периода (inv.N.1,19,20). За исключением некоторых ранних образцов из кувшинных погребений Хымбапоча, инвентарь этих погребений находит параллели в кувшинных погребениях Герми в провинции Ардебиль. Монеты, найденные в погребальных кувшинах Герми и отчеканенные от имени парфянских царей, правящих между 41-191 гг., имеют большое значение в датировке могил. На основе сравнительного анализа материалов погребений Хымбапоча, а также учитывая параллели инвентаря с территориально близко расположенными кувшинными погребениями Герми, могильник Хымбапоча можно датировать I-II вв. н.э.



D
Qəbir N.3
Qəbir N.1
A
C
B



B
Qəbir N.4
Qəbir N.5
A
C



5 cm
LBX.2019.inv.N.21
LBX.2019.inv.N.14
LBX.2019.inv.N.59
LBX.2019.inv.N.19
LBX.2019.inv.N.3
LBX.2019.inv.N.31


LBX.2019.inv.N.16
LBX.2019.inv.N.34
LBX.2019.inv.N.33
LBX.2019.inv.N.17
LBX.2019.inv.N.2
LBX.2019.inv.N.18
LBX.2019.inv.N.15
LBX.2019.inv.N.32
LBX.2019.inv.N.57
LBX.2019.inv.N.58
LBX.2019.inv.N.1
LBX.2019.inv.N.20


LBX.2019.inv.N.22
LBX.2019.inv.N.25
LBX.2019.inv.N.28
LBX.2019.inv.N.62
LBX.2019.inv.N.5
LBX.2019.inv.N.4


LBX.2019.inv.N.6
LBX.2019.inv.N.60


LBX.2019.inv.N.6
LBX.2019.inv.N.60


inv.N.54
inv.N.49
inv.N.47
inv.N.7
inv.N.11
inv.N.45
inv.N.9
inv.N.55
inv.N.69
inv.N.64
inv.N.67
inv.N.50
inv.N.53
inv.N.44
inv.N.48
inv.N.51
inv.N.52
inv.N.10
inv.N.56
inv.N.66

Nərmin Qasımlı*

İnteraktiv vasitələrin "Suraxanı" tanker-muzeyinin ekspozisiyasındakı roluna dair

UOT 069

Açar sözlər: *"Suraxanı" tankeri, interaktiv ekspozisiya, 360º kinoteatr, oyun manipulyatoru, elmi-texniki muzey*

Ölkəmizdə gəmiçiliyin inkişafı ilə yanaşı, dənizçilik ənənələrinin qorunması, tarixinin araşdırılıb öyrənilməsi və yaşadılması istiqamətində də bir sıra tədbirlər həyata keçirilib və keçirilməkdədir. Azərbaycanın qədim tarixə malik dənizçilik tarixini, onu dünyada tanıdan neftinin digər ölkələrə su nəqliyyatı vasitəsi ilə daşınma yollarını, bu gününü və gələcəyini dünya ictimaiyyətinə göstərmək və tanıtmaq üçün dünyada ilk olan "Suraxanı" gəmi-muzeyinin 2021-ci ildə yaradılması bu istiqamətdə atılan mühüm addımlardan biridir.

Məlumat xarakterli bu yazının məqsədi yeni yaradılan muzeyin ekspozisiyasında istifadə edilən interaktiv vasitələrə diqqəti cəlb etmək, muzeyin faktiki olaraq elmi-texniki muzeylər kateqoriyasına aid edilməsinin mümkünlüyünü vurğulamaq, muzeyin açılışı ilə respublikada muzeyşünaslıq sahəsində baş vermiş əsaslı yeniliyi qeyd etməkdi. Bu baxımdan məlumatda muzeyin ekspozisiyası və ona aid olan yüzlərlə eksponat barəsində deyil, interaktiv vasitələr haqqında məlumat verilir.

"Suraxanı" gəmisinin muzey kimi seçilməsi təsadüfi deyil. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "Suraxanı" gəmisi ölkəmizin dənizlə neftdaşıma tarixində mühüm rol oynayıb. Uzunluğu 123.5 metr, dedveyti isə 4696 ton olan "Suraxanı" tankeri Xəzər dənizində 1957-ci ildən istismara verilən "Mühəndis A.Pustoşkin" tipli gəmilərdən biridir. Son dövrlər bu gəmi Gəmiçiliyin

*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin kiçik elmi işçisi; nerminqasimli@yahoo.com

tərkibində neft təmizləyici stansiya kimi istismar edilib (3). 2017-ci ildə tankerin muzeyə çevrilməsi haqqında qərar verildi. Muzeyin yaradılmasında Böyük Britaniya, Niderland, Türkiyə kimi qədim gəmiçilik ənənələri olan ölkələrin təcrübəsindən istifadə olunub və 100-dən artıq yerli və xarici şirkətlərlə əməkdaşlıq edilib (2, p. 49).

Tankerin muzey kimi fəaliyyət göstərməsi üçün gəmidə əsaslı təmir və yenidənqurma işləri həyata kerilib. Bu məqsədlə ASCO-nun "Bibiheybət" Gəmi Təmiri Zavodu, eləcədə "Xəzər Gəmi Təmiri Zavodu" MMC-nin insan və texniki resursları işə cəlb olunub. Gəminin gövdə və digər hissələrində yenidənqurma və təmir işlərinə ümumilikdə 2000-dən artıq yerli gəmi təmirçisi səfərbər olunub (2, s. 6).

Muzeydə ən müasir texnoloji avadanlıqlardan istifadə edilməklə, bir sıra innovativ yeniliklərə imza atılıb. Burada Xəzərin tarixi, Abşeronda neft hasilatı, gəmiçiliyin inkişafı, dünyada ilklərdən sayılan gəmilər, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illik şanlı və zəngin tarixi, dənizdə üzən nəhənglər, dənizçilikdə unikal hesab olunan eksponatlar sərgilənir.

Muzey 11 sərgi zalından ibarətdir. Birinci otaq "Qarşılama" otağıdır. Bu otaqda da ziyarətçini monitorlar vasitəsi ilə virtual kapitan və baş köməkçi qarşılayır. Daha sonra yenə də monitorlar vasitəsilə, heyətin digər üzvləri və onların vəzifələri barədə məlumat verilir. Zalda təhlükəsizlik texnikası üzrə əsas tələb və normativlərlə də tanış olmaq olur. Zal mövzuya aid ekponatlarla zəngindir. Kollektiv xilasedici vasitəsi olan salın daxilində yerləşdirilmiş ekranda dənizdə xilasetmə əməliyyatları barədə 10 dəqiqəlik videoçarx nümayiş olunur.

İkinci zal "Yanalma və lövbərləmə" otağıdır. Bu zalda lövbərin və zəncir mexanizminin gəmidəki rolu, yanalma prinsipləri barədə məlumat əldə etmək olur. Bu zalın ən diqqət çəkən tərəfi burada quraşdırılan xüsusi oyun manipulyatorudur ki, onun vasitəsilə yanalma əməliyyatını müstəqil şəkildə yerinə yetirmək olar. Yəni, ziyarətçi özünü kapitan sükanı arxasında hiss edərək, interaktiv şəkildə gəmini sahilə yaxınlaşdıra bilər. Həmçinin zalda məşhur dəniz düyünləri haqqında da məlumat almaq və kəndirlərdən istifadə etməklə, müxtəlif düyünləri bağlamaq imkanı da yaradılır. Zalın divarına verilmiş videoproeksiya lövbərin qaldırılma əməliyyatını nümayiş etdirir.

İki hissədən ibarət olan 3-cü zal "Xəzər ruhu" adlanır. Burada Xəzər və bütün Xəzər regionunun milyon illər əvvəldən müasir dövrümüzə qədər olan inkişaf tarixi, həmçinin hər bir dövrə aid artefaktlarla tanış olmaq olur. Azərbaycanda bir ilk olan unikal 360° kinoteatr tamaşaçılara ekranda baş verənlərin birbaşa "iştirakçısı" olmaq imkanı yaradır. Kinoteatrda 10 dəqiqə ərzində bütün Azərbaycan tarixi animasiyalı film şəklində nümayiş olunur.

4-cü zalda ziyarətçi dünyada uzunluğuna, qədimliyinə və unikallığına görə seçilən gəmilərin maketləri ilə də tanış olur, ən əsası isə sensorlu ekranlar vasitəsilə

istənilən gəmi haqqında ətraflı məlumat əldə edə bilir. Burada iriölçülü ekranda nümayiş olunan videofilmdə isə gəmi-muzeyinin yaradılmasını anbaan əks etdirən qeyri-adi kadrları görmək mümkündür. Zalın maraqlı interaktiv vasitələrindən biri quru tərsanənin simulyatorudur. Belə ki, ziyarətçi kompyuter vasitəsilə özünün "idarə etdiyi" gəmini tərsanəyə yaxınlaşdırıb, ora daxil edib təmirə başlaya bilər.

"Naviqasiya və kommunikasiya" zalında isə gəmiçilikdə keçmiş və müasir dövrdə istifadə edilən naviqasiya və kommunikasiya vasitələri, həmçinin qədim dünyada ən böyük mayak olan İsgəndəriyyə mayakı, Xəzər dənizi mayakları arasında ən böyük mayak olan Abşeron mayakının və 234 pillədən ibarət olan Herkules mayakının maketləri ilə tanış olmaq olar. Əvvəllər gəmilərdə məlumat ötürmək üçün istifadə olunan Morze əlifbası interaktiv simulyatora salınmış və onun vasitəsilə, ziyarətçilər elə zalda olaraq bir-birlərinə məlumat ötürmək imkanı əldə edirlər. Burada naviqasiya aləti olan sadə kompas və üstürlardan tutmuş, müasir ötürücülərə, radarlara və istiqamətləndiricilərə qədər müxtəlif texniki vasitələr də nümayiş olunur. Zalın mərkəzində naviqasiya masası yerləşir ki, bunun vasitəsi ilə Xəzər dənizində üzən gəmiləri görə bilərik.

İnteraktiv masa vasitəsilə ziyarətçi dəniz bayraqlarının ifadə etdiyi hərflərlə sözlər yaza bilər. Bu zalda həmçinin gəmini idarə etməyi öyrənmək üçün simulyator da quraşdırılıb. Onun vasitəsi ilə tamaşaçılara əyani formada gəmini idarə etmək imkanı yaradılır. Təsadüfi deyil ki, məhz bu simulyator muzeyə gələn uşaqları ən cəlb edən interaktiv vasitədir.

Növbəti zal "Yükdaşıma zalı" adlanır. Zalda yük gəmilərinin təyinatı, konteyner daşınmasının xüsusiyyətləri barədə məlumat əldə etmək olar. Burada monitorda müasir beynəlxalq Ələt limanının tikintisi mərhələli şəkildə əks olunub. "Oil Wall" instalyasiyasında Xəzər Neftinin tarixi, interaktiv eksponat vasitəsilə neftin yüklənməsi/boşaldılması əməliyyatının müxtəlif üsulları ilə tanış olmaq olar.

"Dəyərlərdə həmrəylik, inkişafa sadiqlik" adlanan növbəti zalda ziyarətçi Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illik şanlı tarixinə ekskursiya etmək imkanı əldə edir. Burada həmçinin, 1990-ci ilin 20 yanvar hadisələri zamanı dənizçilərin göstərdiyi qəhrəmanlıq nümunəsi ziyarətçilərin diqqətinə çatdırılır. Bundan başqa bu zalda 44 günlük "Vətən müharibəsi"ndə erməni vandallarının törətdikləri vəhşiliklər və qələbələrimiz haqqında məlumat verilir, ekranda müvafiq videoçarxlar nümayiş olunur. Zalda Ümummilli lider Heydər Əliyevin Xəzər Dəniz Gəmiçiliyinin inkişafındakı xidmətlərini əks etdirən "Ulu öndər Heydər Əliyev və milli gəmiçilik siyasəti" kitabı elektron formada nümayiş olunur. Onu interaktiv şəkildə vərəqləyib oxumaq imkanı var.

"Maşın şöbəsi" zalında gəminin funksionallığını təmin edən əsas qurğular yerləşdirilib. Burada gəminin "ürəyi" sayılan baş mühərrik, köməkçi mühərriklər, nasoslar, bir sözlə, gəmini hərəkətə gətirən qurğularla yaxından tanış olmaq olar. Həmçinin buraya gələn izləyicilərə 3D eynəkləri təqdim olunur ki, onun vasitəsi ilə

bu mühərrikləri gəmi heyətinin necə idarə etdiyini əyani formada görmək imkanı yaranır (1, s.22).

"Dənizçilər qalereyası" zalında heyət üzvlərinin vəzifələri, yaşayışı ilə yaxından tanış olmaq imkanı yaradılır. Həmçinin bu zalda Xəzərdə üzmüş tanınmış kapitanlar haqqında məlumatlar öz əksini tapıb.

Körpü/radio və naviqasiya bölməsində isə kapitan körpüsü, naviqasiya və radio otaqları-gəminin idarə edilməsi üçün vacib olan yerlərdəndir.

Muzeyin ərazisində 85 nəfərlik qapalı restoran və 65 nəfərlik açıq kafeteri də fəaliyyət göstərir. Bu da gələn izləyicilərə istirahətlərini burada davam etmək imkanı yaradır (3).

"Suraxanı" gəmi-muzeyinin ən üstün cəhətlərindən biri də ziyarət üçün biletlərin onlayn şəkildə satılmağıdır. Ziyarətçi bilet alarkən ona uyğun saatı öncədən planlaşdıra bilər. Beləliklə, "Suraxanı" tanker-muzeyi Azərbaycanın ən müasir, interaktiv avadanlıq vasitələri baxımından ən cəlbedici muzeyi sayıla bilər. Təsadüfi deyil ki, 2021-ci ilin mart ayında açılışı olan muzey fəaliyyətinin ilk 6 ayı ərzində 90 mindən artıq tamaşaçı qəbul etmişdir (məlumat müəllifə tanker-muzeyin administrasiyası tərəfindən verilmişdir). Ümidverici amil ondan ibarətdir ki, muzeyin ziyarətçilərinin böyük əksəriyyətini Azərbaycan vətəndaşları, xüsusilə gənc nəslin nümayəndələri təşkil edir. Beləliklə, təqdim olunan muzey gənc nəslə elmi-texniki biliklərin verilməsində və hətta müəyyən vərdişlərin aşılanmasında əhəmiyyətli rol oynayır.

Ədəbiyyat:

1. Suraxanı gəmi muzeyi-Dünyada ilk tanker muzey. Bakı, 2021.
2. Ahmadov S. "Surakhany" world`s first-ever tanker museum //İrs-Heritage №48, 2021, p. 49-53.
3. https://surakhanishipmuseum.az/az/page/about-us.

Narmin Gasimli
On the role of interactive means in the exposition of the tanker museum "Surakhani"
Summary

Keywords: *Tanker "Surakhani", interactive exposition, 3600 cinema, game manipulator, scientific and technical museum.*

The presented information is devoted to the analysis of interactive means used in the exposition of the world's first tanker museum "Surakhani". Analysis of all types of interactive means (multi-media screens, 3600 cinemas, game manipulators, touch screens, monitors) placed in the halls of the museum shows that modern interactive technologies are invaluable in the presentation of the subject to visitors,

as well as in the display of historical exhibits. The application of interactive means in the ship-museum in the form of a single complex exposition allows to accept this museum as the first scientific and technical museum of the republic.

Нармин Гасымлы
О роли интерактивных средств в экспозиции танкер-музей «Сураханы»
Резюме

Ключевые слова: *Танкер «Сураханы», интерактивная экспозиция, 3600 кинотеатр, игровой манипулятор, научно-технический музей*

Представленное сообщение посвящено анализу интерактивных средств, использованных в экспозиции первого в мире танкер музей «Сураханы». Анализ всех видов интерактивных средств (мультимедийных экранов, 3600 кинотеатров, игровых манипуляторов, сенсорных экранов, мониторов), размещенных в залах музея, показывает, что современные интерактивные технологии неоценимы в представлении предмета посетителям, а также в экспозиции исторических экспонатов. Применение интерактивных средств в корабле-музее в виде единой комплексной экспозиции позволяет признать этот музей первым научно-техническим музеем







Ramiyə İsmayılova*

"Nizami Gəncəvi və Azərbaycan Atabəyləri dövləti" sərgisi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli sərəncamı ilə 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan edilmişdir. Həmçinin 2021-ci ildə Azərbaycan dövlətçiliyinin inkişafında böyük rol oynamış Azərbaycan Atabəyləri dövlətinin yaranmasının 885 yaşı da tamam olur. Yuxarıda deyilənləri nəzərə alaraq, Milli Azərbaycan Tarixi Muzeyində "Nizami Gəncəvi və Azərbaycan Atabəyləri dövləti" adlı sərgi təşkil olunmuşdur. Sərginin məqsədi dahi Nizami Gəncəvi və onun yaşadığı dövlətin həyatını tarixi eksponatlar vasitəsilə nümayiş etdirməkdir. Sərgi Milli Azərbaycan Tarixi Muzeyi daimi ekspozisiyasının ən böyük zallarından birində - H.Z.Tağıyevin evinin Avropa zalında təşkil olunmuşdur. Sərgidə Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya, Etnoqrafiya, Köməkçi tarixi fənn materialları, Numizmatika, Xüsusi, Silahlar və bayraqlar fondlarında və kitabxanada qorunan 248 ədəd tarixi eksponat nümayiş olunmuşdur. Sərgi muzeyin baş direktoru akademik Nailə Vəlixanlının rəhbərliyi altında Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin əməkdaşları tərəfindən tərtib edilmiş, konsepsiya və mövzu-ekspozisiya planının müəllifi şöbə müdiri, t.ü.f.d., dosent Səbuhi Əhmədov olmuşdur. Qeyd etmək lazımdır ki, sərgidəki eksponatların 20 %-i ilk dəfədir ki, nümayiş olunur.

Muzey tərəfindən "Nizami Gəncəvi və Azərbaycan Atabəyləri dövləti" sərgisi" adlı buklet nəşr olunmuş və sərginin açılış mərasimi zamanı qonaqlara paylanılmışdır.

Sərginin mərkəzi elementi Nizami Gəncəvinin mərmər sütun üzərində nümayiş olunan büstüdür. Nizami Gəncəvinin ölməz "Xəmsə"sinin poemalarından parçalar və müvafiq miniatürlər ekspozisiyanın baş tərəfində böyük paneldə göstərilir. Panelin mərkəzi elementi Xalq rəssamı Qəzənfər Xalıqovun müəllifi olduğu "Nizami Gəncəvi" portertinin surətidir. Buradakı iki vitrində Nizami Gəncəvinin məqbərəsindəki qazıntılar zamanı aşkar edilmiş parçanın replikası, həmçinin

Nizami Gəncəvinin XIV, XV və XVI əsr miniatürlərində təsvirləri, əlyazmalarından səhifələrin surətləri, Nizami Gəncəvinin məqbərəsinin orta əsrlərdə, XX əsrin əvvəlləri və axırlarında, eləcə də müasir dövrdə görünüşünü əks etdirən rəsm və fotoları göstərilir. Nümayiş olunan eksponatlar sırasında 1909-cu ildə Gəncədə əski əlifba ilə nəşr olunmuş "Şeyx Nizami Tərcümeyi-halı" kitabçası (müəllifi Mirzə Məhəmməd Axundov) xüsusi maraq doğurur.

Ekspozisiyanın girişində qurulmuş informasiya panelində Azərbaycan Atabəyləri dövlətinin yaranmasına aid məlumat, həmçinin dövlətin tərtib olunmuş xəritəsinin (tərtibatçı – akademik Ziya Bünyadov) böyüdülmüş variantı nümayiş olunur. Buradaca muzeyin rəssamı Əjdər Qafarovun çəkdiyi "Şəmsəddin Eldəniz", "Məhəmməd Cahan Pəhləvan", "Qızıl Arslan" portretləri dövlətin yaradıcıları və ən qüdrətli hökmdarlarını canlandırır. Qeyd etmək lazımdır ki, adları çəkilən dövlət xadimlərinin portretləri ilk dəfədir ki, tərtib edilmişdir. Portretlər tərtib olunarkən yazılı mənbələrin məlumatları, dövrün miniatürlərinin təsvirləri, Türkiyə muzeylərində saxlanılan Səlcuq dövrü geyim və silahları nəzərə alınmışdır.

Ekspozisiyanın sol divarı boyunca altı vitrində tarixi eksponatlar göstərilir. Birinci vitrində Azərbaycan Atabəyləri dövlətinin müxtəlif zərbxanalarında kəsilmiş və Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı aşkar olunmuş 41 ədəd gümüş sikkə nümayiş edilir. Sikkələr dövlətdə hökmdarların hakimiyyət illərinin, fəaliyyət göstərmiş zərbxanaların, ölkədə sikkə zərbi sənətinin inkişaf səviyyəsinin müəyyən edilməsində müstəsna əhəmiyyətə malikdir.

Növbəti vitrində dövlətin qoşunlarının istifadə etdikləri müdafiə və hücum silahları (14 eksponat) və "Vərqa və Gülşah" əlyazmasına XIII əsrdə əslən Azərbaycanlı olan rəssam Əbdül Mömin Xoylu tərəfindən çəkilmiş miniatürlərdəki döyüşçü təsvirləri nümayiş olunur.

Növbəti dörd vitrində Azərbaycan Atabəyləri dövlətində ticarətin inkişafı, Böyük İpək Yolu ilə Azərbaycana gətirilən mallar, həmçinin xarici dövlətlərin Azərbaycan ərazisində tapılmış qızıl və gümüş sikkələri göstərilir. Qeyd etmək lazımdır ki, muzeyin kolleksiyasında İran, Anadolu, Çin, Hindistan, Orta Asiya şəhərlərində istehsal olunaraq Azərbaycana gətirilən malların zəngin kolleksiyası mövcuddur, onlardan 22 unikal eksponat sərgidə nümayiş olunur. Xüsusi vitrində Azərbaycan ustalarının əl işi olan 8 qızıl qadın bəzək əşyası göstərilir. Azərbaycan Atabəyləri dövləti ərazisində dövriyyədə olmuş xarici pullar sırasında Şirvanşahlar dövləti, Böyük Səlcuqlar imperiyası, Bizans imperiyasının pulları çoxluq təşkil edir ki, onların müxtəlif nümunələri ilə (21 eksponat) sərgidə tanış olmaq mümkündür.

Ekspozisiyanın sağ divarı boyunca altı vitrin qurulmuşdur. Onlarda XII – XIII əsrin əvvəllərində Azərbaycanda memarlığın inkişafı, elm və təhsilin səviyyəsi, şirli və şirsiz keramika istehsalı, metalişləmə sənətini nümayiş etdirən və Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı aşkar olunan eksponatlar göstərilir. Gəncə, Beyləqan, Bərdə, Mingəçevir, Şabran şəhərlərində aşkar olunan eksponatlarla

bərabər vitrinlərdə müvafiq miniatürlərdən təsvirlər nümayiş olunur.

Ekspozisiyanın mərkəzində iriölçülü şüşə vitrinlərdə Azərbaycan sənətkarlığının bu dövrdə yüksək inkişaf səviyyəsini nümayiş etdirən, sözün əsl mənasında, incilər yer almışdır. Bunların sırasında çini və fayans qablar, şirli və şirsiz keramika nümunələri, minai üslubunda rənglənmiş süjetli, zoomorf və antropomorf təsvirli minalı qablar çoxluq təşkil edir. Naxçıvanın Xarabagilan arxeoloji abidəsindən aşkar olunmuş XII-XIII əsrə aid ipək parça nümunələri dövrün toxuculuq sənətinin bariz nümunələridir. Bir vitrində "şirvan-işıq" növünə aid unikal tunc camlar, eləcə də dayaqlı tunc şamdanlar, Azərbaycan Atabəyləri dövlətinin dünya mədəni irsinə verdiyi töhfə hesab olunan bəzi eksponatların fotoşəkilləri nümayiş olunur.

Nizami dühası hər zaman dünya rəssam və ustalarının diqqət mərkəzində olmuşdur. Onun əsərlərinin qəhrəmanlarına bir çox sənət əsərlərində rast gəlmək mümkündür. Sərgidə Nizaminin ölməz "Xəmsə"sinin süjetləri ilə bəzədilmiş XVII əsrə aid polad qalxan, XIX əsrə aid "Xosrov və Şirin" xalçası və eyni dövrün "Leyli və Məcnun" tikməsi xüsusi maraq doğurur.

Hər zaman elm və mədəniyyətin inkişafına böyük diqqət yetirilmiş Azərbaycan Atabəyləri dövlətində bir sıra görkəmli xadimlər yaşayıb-yaratmışlar. Sərgidə şairə Məhsəti Gəncəvi, şair və mütəfəkkir Əbül-ula Gəncəvi, şair və salnaməçi Mücirəddin Beyləqaninin rəssam Ə.Qafarov tərəfindən işlənmiş portretləri nümayiş olunur.

Sərgidə ənənəvi (vitrin və panellər) nümayiş vasitələri ilə bərabər müasir texniki vasitərdən də istifadə edilmişdir. Belə ki, ekspozisiyada qurulmuş sensorlu ekran vasitəsilə ziyarətçi Azərbaycan Atabəyləri dövlətinin tarixi ilə bağlı ətraflı məlumat əldə edə bilər.

Həmçinin sərgidə qurulmuş iki qoloqram aparatında hazırda dünya muzeylərində qorunan XII – XIII əsr Azərbaycan sənətkarlarının əl işi olan şedevr eksponatların qoloqrafik təsvirləri canlandırılır. Bu təsvirləri "canlandırmaq" üçün Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin əməkdaşları çoxsaylı elmi və populyar ədəbiyyatla tanış olmuş, eksponatların orijinallarının saxlanıldığı Dövlət Ermitajına (Sankt-Peterburq ş., Rusiya Federasiyası) səfərləri zamanı çəkdikləri fotoşəkillərdən istifadə etmişdilər.

Beləliklə, Milli Azərbaycan Tarixi Muzeyində təşkil olunmuş "Nizami Gəncəvi və Azərbaycan Atabəyləri dövləti" sərgisi ziyarətçiləri Azərbaycan tarixinin ən şanlı səhifələrindən biri olan dövr və bu dövrün dahi şair və mütəfəkkirinin həyat və yaradıclığı ilə tanış edir.

AMEA Milli Azərbaycan Tarixi Muzeyində "Nizami Gəncəvi və Azərbaycan Atabəyləri dövləti" adlı sərginin açılış mərasimi 2021-ci il iyunun 17-də baş tutub. Tədbirdə Milli Azərbaycan Tarixi Muzeyinin baş direktoru, akademik Nailə Vəlixanlı, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, akademiklər Nərgiz Axundova, Gövhər Baxşəliyeva, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov və başqaları iştirak etmişlər.

Kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılan sərgi 2021-ci ilin sonunadək davam etmişdir.

Ramiya Ismailova

Exhibition "Nizami Ganjavi and the State of Atabeks of Azerbaijan"

Summary

2021 marks the 880th anniversary of the birth of the famous Azerbaijani poet and philosopher Nizami Ganjavi, as well as the 885th anniversary of the creation of the Atabek state of Azerbaijan. In this regard, an exhibition "Nizami Ganjavi and the state of the Atabeks of Azerbaijan" was organized at the National Museum of the History of Azerbaijan. The exhibition from the funds of the museum presented 248 exhibits of the era, some of which were shown for the first time. Some of the historical information was presented in an interactive form: by means of holographic devices, and by means of a touch screen. The article gives a brief description of the exhibition, its structural elements, a number of unique exhibits.

Рамия Исмаилова

Выставка «Низами Гянджеви и государство Атабеков Азербайджана»

Резюме

В 2021 году исполняется 880 лет со дня рождения гениального азербайджанского поэта и мыслителя Низами Гянджеви, а также 885 лет со дня создания государства Атабеков Азербайджана. В связи с этим в Национальном Музее истории Азербайджана была организована выставка «Низами Гянджеви и государство Атабеков Азербайджана». На выставке из фондов музея было представлено 248 экспонатов эпохи, часть из которых демонстрировалась впервые. Часть исторической информации была преподнесена в интерактивной форме: посредством голографических аппаратов и сенсорного экрана. В сообщении даётся краткая характеристика выставки, её структурных элементов, ряда уникальных экспонатов.

Firuzə Ağayeva*

Muzeyin kağız əsaslı eksponatlarının ikinci həyatı

Açar sözlər: *kağızın bərpası, sənədlərin konservasiyası, qrafika, xəritə, "İstiqlal Bəyannaməsi"*

Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında qorunan, daimi ekspozisiyada və müxtəlif sərgilərdə nümayiş etdirilən eksponatlar, ehtiyac olduqca, muzeyin bərpa laboratoriyasında bərpa və konservasiya olunurlar. Milli Azərbaycan Tarixi Muzeyinin spesifikasına uyğun olaraq arxeoloji, etnoqrafik, numizmatik və s. materiallarla yanaşı kağız üzərində olan, daha dəqiq desək, kağız əsaslı tarixi sənədlərin qorunması da xüsusi dəyər və əhəmiyyət kəsb edir. Bərpa və konservasiya edilən materiallar içərisində ən davamsız material kağızdır, çünki kövrək və hiqroskopikdir. Kağız əsaslı eksponatlara misal olaraq müxtəlif texnikada işlənmiş qrafika əsərləri, sulu boyalarla kağızda işlənmiş bədii əsərlər, eskizlər, çertyojlar, xəritələr, planlar, sənədlər (əlyazma, makina çapı və mətbəə çapı), afişalar, proqramlar, broşürlər, kitablar və s. ola bilər (1, səh.5). Kağızda işlənmiş bədii əsərlərin və tarixi sənədlərin bərpasını konveyer üsullu bir proses kimi təsəvvür etmək mümkün deyil. Fərqli dövrlərdə, fərqli kağız növləri üzərində icra olunmuş, fərqli şəraitdə saxlanmış eksponatlara yanaşma da, təbii ki, fərqli olmalıdır. Elə bu fərqlilik də bərpaçı sənətinin əsas özəlliklərindəndir. Bərpa proseslərinin hər birinin düzgün icrası üçün bərpaçı rəssamdan dəqiq elmi biliklər, peşəkar səriştə, böyük məharət tələb olunur. Uzun illərin təcrübəsi bu bilikləri, səriştəni, məharəti cilalayaraq daha da zənginləşdirir. Peşəkar bərpaçının bilik və bacarığı ilə yanaşı, yaradıcı hissiyatı da güclü olmalıdır ki, hər bir eksponat üçün fərqli bərpa üsulunu seçə bilsin.

Milli Azərbaycan Tarixi Muzeyinin Bərpa laboratoriyasının kağız üzrə bərpaçı-rəssamları üç əsas istiqamətdə iş aparırlar:

*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Bərpa laboratoriyasının bərpaçı-rəssamı

1.Preventiv, yəni qabaqlayıcı bərpa istiqaməti işin birinci və daha böyük qismini təşkil edir. Bu zaman bərpa və konservasiya tədbirlərinin təxirəsalınmazlığı rəhbər tutularaq seçilib ayrılan eksponatların üzərində əsaslı bərpa işləri aparılır. Ümumiyyətlə, bütün zədələnmiş eksponatların bərpaya ehtiyacı vardır, lakin dövrünə görə daha köhnə, məhv olmaq üzrə olan eksponatlar bərpaya növbədənkənar qəbul edilirlər. Onların da içərisindən görkəmli şəxsiyyətlərə mənsub olmuş, xüsusi tarixi əhəmiyyətə malik, eləcə də yeganə orijinalı muzeydə mühafizə olunan eksponatlar ilk növbədə "müalicə" olunurlar.

2. Təcili olaraq, qısa müddət ərzində yerinə yetirilən bərpa işləri ikinci istiqamətə aiddir. Bu zaman həm muzeydə, həm də ölkədən xaricdə müxtəlif sərgilərdə nümayiş olunmaq üçün seçilən eksponatlar bərpa və konservasiya olunurlar. Əlbəttə, işin qısa müddət ərzində, təcili yerinə yetirilməsi də öz təsirini göstərməyə bilməz. Buna görə də çox zaman təcili işlərdə yalnız konservasiya ilə kifayətlənməli oluruq. Sərgilərdən sonra isə əsər çox vaxt təkrar olaraq laboratoriyamıza, əsaslı bərpa üçün qayıdır.

3. Bərpa işinin üçüncü istiqamətini tədqiqatlar, araşdırmalar, atributika təşkil edir. Bunlarsız nə peşəkar inkişaf, nə də irəliləyişlər mümkün deyildir. Bu istiqamətin özü də bir neçə şaxəyə ayrılır. Elmi ədəbiyyatda, xüsusi bərpa saytlarında, elmi konfranslarda və seminarlarda yerli və xarici həmkarlarlarımızla təcrübə mübadiləsi aparılır. Kağız bərpası və konservasiyası sahəsində bir sıra yeniliklər eləcə də səmərələşdirmələr və təkmilləşdirmələr işlənib hazırlanmışdır. Həm öz təkliflərimiz, həm də öyrəndiyimiz yeniliklər yalnız analogiyaların (muzey eksponatlarının deyil) üzərində uğurla sınaqdan keçirildikdən sonra bərpa olunan eksponatlara da tətbiq olunmağa başlayır.

Kağız əsaslı eksponatlar üzərində bərpa əməliyyatları aşağıdakı ardıcıllıqla aparılır:

Görüləcək tədbirlərin ilkin planı tutulur və bu plan əsasında iş başlayır. Əgər iş prosesində gözlənilməz amillər meydana çıxarsa, iş planında dəyişikliklər edilir. Bütün bunlar bərpa pasportunda mütləq qeydə alınır.


Muzeyin Bərpa laboratoriyasının əməkdaşları tərəfindən təklif olunan yeniliklər, təkliflər müzakirə edilir və optimal qərarlar qəbul olunur. İstənilən bərpa prosesinin onlarla işlənmə variantı ola bilər ki, onların heç biri səhv deyildir. Nəticə etibarı ilə hər bir konkret hala uyğun bir variant seçilir.

Bərpaya qəbul olunan eksponatların bərpadan əvvəl fotosu çəkilir. Bu proses görülən işlərin miqyasını real olaraq dəyərləndirmək üçün çox vacibdir, çünki təmiz, səliqəli halda bərpadan çıxmış eksponata baxarkən, həmin əsərin əvvəlki vəziyyətindən məlumatsız olan adam üçün bərpaçının nə dərəcədə böyük və çətin iş gördüyünü real dəyərləndirmək qeyri-mümkündür. Bu səbəbdən də, ehtiyac olarsa, bərpa prosesində və mütləq bərpadan sonra eksponatın fotosu çəkilir. Bu fotolar laboratoriyanın rəqəmsal arxivində saxlanılır.

Eksponatlar ilk mərhələdə mexaniki üsulla təmizlənir. Bu proses zamanı kağızın səthi üzərindəki toz və çirk ehtiyatla təmizlənir. Əgər ehtiyac varsa və laboratoriya tədqiqatları buna müsaidə edərsə, eksponatlar dezinfeksiya və kimyəvi təmizləmə proseslərinə məruz qalırlar. Yenə də laboratoriya tədqiqatları yol verirsə, eksponatlar distillə olunmuş su, yaxud yumşaq yuyucu vasitə və su ilə yuyulur. Yuyulmuş kağız eksponatlar hamarlandırılaraq mexaniki pressdə ya da vakuum masasında qurudulur.

Yalnız bu işlərdən sonra cırıqlar və qopuqlar yapışdırılır, itən fraqmentlər tamamlanıb bərpa olunur. Lazım gələrsə, bərpa olunan fraqmentlər və ya eksponatın bütün səthi yapon kağızı ilə konservasiya edilir. Bütün bərpa və konservasiya tədbirləri yekunlaşdıqdan sonra kağız eksponatlar yenidən fondlara təhvil verilir.

Həm eksponatın özünün, həm də bərpa prosesinin maraqlılığı və yaddaqalanlığı ilə seçilən eksponatlardan biri də Azərbaycan Cümhuriyyətinin "İstiqlal Bəyannaməsi"nin bədii tərtibatlı fotosurətidir. 2005-2007-ci illərdə muzeyimizdəki əsaslı təmirdən sonra Cümhuriyyətin İstiqlal muzeyinin materialları araşdırılarkən haşiyələri bədii tərtibatlı bir sənədin fotosurəti aşkar edilmişdir (3, s.442). Diqqətlə baxış keçirdikdən sonra bunun Azərbaycan Cümhuriyyətinin İstiqlal bəyannaməsinin ilk fotosurəti olduğu, sağ aşağı küncdə müəllifin əski əlifba ilə çəkilmiş qırmızı rəngli imzası oxunduqdan sonra bədii tərtibatın Əzim Əzimzadəyə aid olduğu məlum oldu (2, s.207-208). 2011-ci ildə eksponatın bərpası bu məqalənin müəllifinə tapşırılır. Sənədin fotosu bir yerdə deşilmiş, kənarları bir neçə yerdə cırılmışdı. Lakin fotosurət kağıza yapışdırıldığından kifayət qədər möhkəm idi. Yapışdırıldığı kağız aşağı keyfiyyətli və bir zamanlar ağ rəngli idi, indi isə çox saralmış, aşırı quruluqdan kövrəkləşmişdi, əl vurduqca sınır, qırılıb hissələrə bölünürdü. Haşiyəsinin yuxarı və sağ tərəfi ümumiyyətlə, qopub itmişdi. Qalan hissələrində də qopuqlar, itkilər vardı. Bərpadan əvvəl fotosu çəkildikdən sonra eksponatın üzərində çətin və maraqlı iş başladı. Eksponatın ümumi tozu və çirki mexaniki yolla təmizləndikdən sonra yapışdırıldığı kağız fotosurətin arxasından cərrah bıçağının vasitəsi ilə ehtiyatla ayrıldı, xarrat yapışqanı fotokağızdan isti tamponla təmizləndi. Rənginə görə uyğun seçilmiş möhkəm kağızın üzərinə əvvəlcə foto, sonra isə bədii tərtibatlı haşiyənin



***Ş**əkil 1. İstiqlal Bəyannaməsinin Əzim Əzimzadənin tərtibatında fotosurəti (SMF, inv №1443). Bərpadan əvvəl.*

salamat qalan hissələri uyğun şəkildə dubl edildi (xüsusi metodika ilə yapışdırılıb preslənmə). Bundan sonra haşiyənin itən fraqmentləri analogiya üsulu ilə bərpa edilib tonlaşdırıldı. Bərpa edilmiş eksponat paspartuya, sonra isə şüşəli çərçivəyə montaj olundu. Bir zaman muzey ekspozisiyası üçün hazırlanmış bu əyani vəsait bu gün muzeyimizin daimi ekspozisiyasında həm tarixi ("İstiqlal Bəyannaməsi"nin ilk fotosu), həm də bədii cəhətdən (Əzim Əzimzadənin orijinal əl işi) böyük maraq və dəyər kəsb edir.



Şəkil 2. İstiqlal Bəyannaməsinin Əzim Əzimzadənin tərtibatında fotosurəti. Bərpadan sonra.

Bərpadan sonra eksponatların necə mühafizə olunması da vacib məqamlardandır. Elmi cəhətdən düzgün təşkil olunan mühafizə eksponatın ömrünü əhəmiyyətli dərəcədə uzada bilər. Bərpa pasportunda hər bir eksponatın mühafizəsinə dair tövsiyələr mütləq qeyd olunur. Bərpa olunmuş eksponatları, mübaliğəsiz olaraq, cərrahiyyə əməliyyatlarından, reanimasiya tədbirlərindən çıxmış xəstələrə bənzətmək olar. Eksponat bərpa olunmuşsa, bu heç də o demək deyildir ki, o tam sağlamdır və bir də bərpaya ehtiyacı olmayacaqdır. Əfsuslar olsun ki, zaman acımasızdır. Bərpaya qəbul etdiyimiz eksponatların içərisində bizdən öncə bərpa edilmiş eksponatlara tez-tez rast gəlirik. Əlbəttə, öncəki bərpanın səviyyəsi heç də həmişə qənaətbəxş olmayıb, çox vaxt kobud və səriştəsiz təmir səviyyəsində olur. "Abşeronun neftli torpaqları planı"nın bərpasını səriştəsiz bərpaya misal kimi göstərmək olar. Elmi araşdırmalar, nəşrlər üçün zəruri, ümumiyyətlə milli tariximiz, deməli muzeyimiz üçün çox dəyərli olan bu eksponat bərpaya qəbul olunarkən, rəhbərlik bu işi mümkün dərəcədə təcili görməyi tövsiyə etmişdi. Lakin eksponata vizual baxışdan sonra bunun mümkün olmayacağı məlum oldu. 1907-ci ilə aid olan bu plan yüksək keyfiyyətli kağız üzərində rəngli çap olunmuşdur. Kağız qatlandığından qat kəsən xəttlər boyu sınmalar əmələ gəlmiş, kağız bölünüb-ayrılmış, kənarlarında çoxsaylı əziklər, cırıqlar, qopuqlar, hətta kağız itkiləri əmələ gəlmişdir. Təxminən XX əsrin 40-50-ci illərində



Şəkil 3. "Abşeronun neftli torpaqlarının planı" bərpadan əvvəl (SMF, inv.№ 545/9).

naməlum şəxs tərəfindən xəritə divar kağızının (oboy) üzərinə yapışdırılmışdır. Daha sonra divar kağızının özü də hissələrə bölünmüşdür. Divar kağızının növü və plana xarrat yapışqanı ilə yapışdırılması kobud təmiri bu dövrə aid etməyə imkan verir.

Eksponat üzərində bərpa prosesi uzun və mürəkkəb bir yol keçdi. Planın yapışdırıldığı oboy kağızı mexaniki yolla, çox ehtiyatla ayrılıb təmizləndikdən sonra, orijinal kağızın qat kəsən xətlər boyu tamamilə ayrılıb bölündüyü, hər dörd küncünün qopub itdiyi, çoxsaylı cırıqları və itkiləri aşkar görünmüşdür.


Xarrat yapışqanı oboy kağızına deyil, orijinal kağıza çəkildiyindən bu yapışqanı təmizləmək üçün daha bir proses - isti tamponla xarrat yapışqanının təmizlənməsi həyata keçirilmişdir.

Bu proses də uğurla bitdikdən sonra plan neytral sabun köpüyü və su ilə yuyulmuş, pressdə qurudulmuşdur. Yalnız bunlardan sonra hissələrə bölünmüş olan planın kağızı möhkəm kağıza dubl edilmiş (xüsusi metodika ilə yapışdırılmış), bütöv hala gətirilmişdir. Qopub itən hissələr tamamlanıb bərpa olunduqdan sonra planın haşiyəsi və əsas təsvirdə olan fraqmentlər maksimum bərpa edilmişdir.

Bu eksponatın ekspozisiyada yalnız qısa müddət ərzində sərgilənməsi və fondda bərpaçıların tövsiyələrinə əməl etmək şərti ilə saxlanılması qərara alındı. Onu da xüsusi olaraq qeyd etmək istərdim ki, bərpaya başlamazdan öncə bu dəyərli eksponat skan edilmişdir. Laboratoriya və Sənədli Mənbələr fondunun rəqəmsal arxivində saxlanılan eksponatın elektron variantından elmi araşdırmalar, yaxud daimi ekspozisiya üçün istifadə oluna bilər.

Xüsusi olaraq onu da vurğulamaq istəyirəm ki, eksponata tətbiq olunan bərpa proseslərinin hər birinin mütləq geriyə dönüşü mümkün olmalıdır. Bu ona görə vacibdir ki, gələcəkdə eksponatın təkrar olaraq bərpaya ehtiyacı olarsa, ixtisaslı kadrlar zəruri tədbirləri yerinə yetirə bilsinlər.

Köhnə kağızlarla işləyərkən, adətən, xüsusi materialların əldə olunması ilə əlaqədar çətinliklər yaranır. Bu problemləri mən özünəməxsus şəkildə həll edirəm, yəni, əlimdə olanları hər bir konkret eksponata uyğunlaşdırıram. Məsələn, İtaliyadan sifarişlə gətirilən, bərpada çox geniş istifadə olunan, şərti olaraq “yapon kağızı” adlandırılan kağız növünün heç də həmişə lazımi rəng çalarlarını tapmaq olmur. Məlum məsələdir ki, müxtəlif rəngli kağız eksponatların bərpası üçün dümağ “yapon kağızı”ndan istifadə etmək



Şəkil 5. “Abşeronun neftli torpaqlarının planı” bərpadan sonra

düzgün olmazdı. Ona görə də mən 2017-ci ildə laboratoriyada ilk dəfə "yapon kağızı"nın lazımi tonda boyanması metodunu təklif etdim. Öz sadəliyi ilə seçilən bu metod kağız əsaslı sənədlərin bərpası zamanı ortaya çıxan bir çox problemləri həll etməyə imkan verdi. Belə ki, maili vəziyyətdə bərkidilmiş orqanik şüşənin üzərinə lazımi ölçüdə "yapon kağızı" sərilir. Əvvəlcədən hazırlanmış sulu boya məhlulu (biz adətən özümüz hazırladığımız bitki dəmləmələrindən istifadə edirik) aramla, üfüqi xətt boyunca, tədricən "yapon kağızı"nın bütün səthinə çəkilir. Maye "yapon kağızı"na hopduqca şüşənin üzərinə hamar yapışır. Ehtiyac olarsa, mayenin artığı filtr kağızı ilə hopdurulmaqla alınır. "Yapon kağızı" elə orqanik şüşənin üstündə, havada qurudulur, yəni, pressin köməyi olmadan da hamarlanmış olur. Əgər daha tünd rəng çalarını almaq lazımdırsa, proses təkrar olunur.

Əvvəl istifadə etdiyimiz boyama üsulu zamanı kağız bütövlükdə sulu boyaq məhluluna salınır, sonra çıxarılıb pressdə qurudulur, yalnız bundan sonra istifadə edilirdi. "Yapon kağızı"nı isə suya (və ya məhlula) salmaq, sudan çıxarmaq, təkqat pressləmək olmaz, çünki "yapon kağızı"nın deformasiya olunmaq, cırılmaq, üzülüb-ayrılmaq riski çox böyükdür. Buna səbəb "yapon kağızı"nın strukturunun adi kağızdan fərqli olmasıdır. Mənim təklif etdiyim və işləyib hazırladığım boyama üsulu hal-hazırda laboratoriyada kağız əsaslı sənədlərin bərpasında uğurla tətbiq olunur.

Elmin və texnikanın inkişafı ilə əlaqədar olaraq həyatımızın digər sahələrində olduğu kimi kağız bərpası sahəsində də yeni alət və cihazlar tətbiq olunmağa başlayır (4, s.444). Bu xüsusda Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin Bərpa laboratoriyası üçün 2013-cü ildə alınmış180 sm x 120sm ölçülü vakuum masasında kağızın təmizlənməsi, qurudulması və hamarlanması proseslərində uğurla tətbiqini göstərmək olar. 57sm x 50sm ölçülü mexaniki pressə sığmayan, daha iri ölçülü kağız eksponatların presləmə, hamarlama, qurudulma proseslərini vakuum masası daha asan və daha rahat yerinə yetirməyə imkan verir. Hal-hazırda vakuum masasının üzərində kağız əsaslı eksponatların bərpa və konservasiyası üzrə digər proseslərin icrasının yeni imkanları öyrənilmək və sınaqdan keçirilmək üzrədir. Ətrafda baş verənlərdən asılı olmayaraq Bərpa şöbəsində bərpaçılar kənardan diqqəti cəlb etməyən, lakin çox vacib və məsuliyyətli iş görürlər. Kağız üzrə bərpaçılar da istisna deyil. Bir-birindən maraqlı sənədlər bərpaçıların şəfalı əllərində canlanaraq yenidən muzeyin ekspozisiyasına, yaxud fondlarına qayıdır. Eksponatları bərpa edə-edə mütəxəssislər özləri də təkmilləşirlər. Təcrübə mübadiləsi daim davam edir. Artıq tərəfimizdən muzeyimizin Bərpa laboratoriyasında kağız əsaslı eksponatların bərpası sahəsində ixtisaslaşan gənc bərpaçılar yetişdirilmiş və onlar hal-hazırda bizimlə çiyin-çiyinə çalışırlar. Lakin biz, təcrübəli bərpaçılar da, öz peşəkar səviyyəmizin yüksəldilməsi üzərində çalışır, yeni bilik və bacarıqlara yiyələnirik.

Ədəbiyyat:

1. Ağayeva F. XIX əsrin sonu – XXəsrin əvvəlinə aid çap məmulatlarının bərpası və konservasiyası // "Muzeylərin müasir durumu və inkişaf perspektivləri" Beynəlxalq elmi konfransın materialları. Bakı, 2011.
2. Azərbaycan tarixi 100 eksponatda. Bakı, 2020.
3. Дулаева З. Краткий исторический очерк 95 летней деятельности Национального музея истории Азербайджана //Milli Azərbaycan Tarixi Muzeyi-2015, стр. 365-461.

Фируза Агаева

Вторая жизнь музейных экспонатов на бумажной основе

Резюме

Ключевые слова: *реставрация бумаги, консервация документов, графика, "Декларация независимости"*

В статье повествуется об основных направлениях работы реставраторов по бумаге: превентивной и срочной реставрации и консервации, а также, о научно -исследовательской деятельности. Вкратце описываются основные процессы реставрации и консервации на примере двух экспонатов: фотокопии «Декларации независимости» в художественном оформлении А.Азимзаде (1918- ый год) и «План нефтяных земель Апшеронского полуострова в июле 1907 года»

Firuza Aghayeva

The second life of paper-based museum exhibits


Summary

Key words: *paper restoration, conservation of documents, graphics, map, Declaration of independence*

The article is about the main directions of work of restorers on paper: preventive and urgent restoration and conservation, as well as scientific-research activities. The main processes of restoration and conservation are briefly described using the example of two exhibits: photocopies of the "Declaration of independence " in the artistic design of A.Azimzade and "The plan of the oil lands of the Absheron Peninsula in July 1907".

Tamilla Kərimova-Kocayeva*

Zelik İosifoviç Yampolskinin (Lənkəranlının) əsərlərində Azərbaycanın qədim tarixi məsələləri



2021-ci ildə Azərbaycanın görkəmli tarixçilərindən biri, qədim dövr tarixinin tədqiqatçısı, tarix elmləri doktoru, professor Zelik İosifoviç Yampolskinin (1911-1981) anadan olmasının 110 ili tamam olur. Zelik Yampolski özünün bilik və bacarığını, elmi yaradıcılıq istedadını Azərbaycanın, başlıca olaraq qədim Albaniya dövlətinin tarixinin tədqiqinə yönəltmişdi. Z.İ.Yampolskinin həyat və yaradıcılığının yarım əsrdən artıq dövrü (1937-ci ildən ömrünün sonuna qədər) Azərbaycan MEA A.Bakıxanov adına Tarix İnstitutu və Milli Azərbaycan Tarixi Muzeyi ilə bağlı olmuş, o, burada müxtəlif vəzifələrdə çalışmışdır.

Z.Yampolski Lənkəran şəhərində anadan olmuşdur. Orta məktəbi 1927-ci ildə Bakı şəhərində bitirmişdir. 1927-1928-ci illərdə Bakı şəhər Komsomol Komitəsində, 1928-1932-ci illərdə Bakı şəhər Partiya Komitəsində işləmişdir. Həmin vaxtlar "Vışka" qəzetində müxbir və redaktor kimi fəaliyyət göstərərək, maarifləndirici səpgidə məqalələrlə ictimai həyata atılmışdır.

1932-1937-ci illərdə Moskva Tarix, Fəlsəfə və Ədəbiyyat İnstitutunda təhsil almışdır. 1937-ci ildə bu elm ocağını bitirdikdən sonra Z.İ.Yampolski Bakıya qayıdır və tarixçi ixtisası üzrə qədim yunan və latın dillərinin mütəxəssisi kimi elmi fəaliyyətə başlayır. 1937-1938-ci illərdə SSRİ EA Azərbaycan filialının Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun kiçik elmi işçisi, 1939-1940-cı illərdə isə baş elmi işçisi vəzifələrində işləmişdir. 1939-cu ildə Moskvada dərc olunan

*A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent;tomakerimova50@gmail.com

"Vestnik drevney istorii" jurnalında onun ilk sanballı elmi işi - çoxcildli "SSRİ tarixi" əsərinə rəyi dərc olunur. Z.İ.Yampolski institutun apardığı etnoqrafik və arxeoloji ekspedisiyalarında yaxından iştirak etmişdir. 1940-cı ildə institutun "Yeni tarix" şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Böyük Vətən müharibəsi illərində Z.İ.Yampolski təbliğatçı və mühaziräçi qismində fəal ictimai iş aparmışdır. Lakin Böyük Vətən müharibəsi, bütün ölkə vətəndaşları kimi, onun da həyatında əhəmiyyətli dəyişikliyə səbəb olur. Milyonlarla sovet gənci kimi Z.Yampolski də Vətənin müdafiəsinə qatılmaq üçün silaha sarılır. Müharibənin ilk vaxtlarında yaralanaraq, Qızıl Ordu sıralarından tərxis olunsa da, ön cəbhə ilə əlaqəsini kəsmir. Partiya funksioneri qismində ezam olunduğu döyüş bölgələrində ordunun döyüş ruhunun yüksəldilməsi, vətənpərvərlik və alman faşizminə qarşı nifrətin təbliği istiqamətində fəaliyyət göstərməkdə davam edir. Müharibənin ağır illərində o, "Kommunist", "Vışka", "Boyevoy Listok", "Təbliğatçı" kimi kütləvi nəşrlərdə Qafqaz xalqlarının yadelli düşmənlərə qarşı birgə mübarizəsinə həsr olunmuş elmi faktlara əsaslanan təbliğat-təşviqat səpgili yazılarla çıxış edir.

Müharibə illərində ideoloji sferadakı fəaliyyət nə qədər ağır olsa da, onu elmi araşdırmalardan ayırmadı. Antik dövrdə və Erkən orta əsrlərdə Azərbaycan torpaqlarında mövcud olmuş Albaniya dövlətinin etno-siyasi və mədəni-iqtisadi tarixinin araşdırılması onun elmi yaradıcılığında prioritet mövzuya çevrilir. Qeyd etmək lazımdır ki, Z.Yampolskinin Qafqaz Albaniyasının tarixi və mədəniyyəti ilə ciddi maraqlanmağa başladığı dövrdə sovet elmində bu problemlə bağlı adekvat konseptual prinsiplər hələ işlənilməmişdir. Qafqaz Albaniyasının maddi mədəniyyət tarixinə dair aparıcı mütəxəssislərdən biri hesab olunan tanınmış qafqazşünas Kamilla Trever də öz əsərlərində Qafqaz Albaniyasının bədii mədəniyyətinin inkişafı ilə bağlı məsələlərə indiyə qədər heç kimin toxunmadığını bildirmişdi. Təbii ki, belə bir şəraitdə Z. İ.Yampolskinin tədqiqatlarının əhəmiyyəti xeyli artır, nəzərə alsaq ki, o, Treverdən əvvəl Azərbaycanın qədim tarixi problemləri ilə məşğul olmağa başlamışdır.

Şimali Azərbaycanın tarixi keçmişinin 1000 illik dövrü məhz Albaniyanın adı ilə bağlı olduğundan, Z.Yampolski Böyük Vətən müharibəsinə qədər rus və sovet tarixşünaslığında bu dövlət haqqında, xüsusilə, onun necə adlandırılması ilə bağlı formalaşmış qeyri-müəyyənliyə qarşı çıxır. Z.Yampolski dövlətçilik tariximizdə, milli-mənəvi dəyərlərimizin formalaşması prosesində önəmli yeri və rolu olan bu ölkənin zaman-zaman "Qafqaz Albaniyası", "Klassik Albaniya", "Antik Albaniya" və ya sadəcə "Albaniya" adlandırılmasının yanlış və qərəzli olduğunu dərk edirdi. Albaniyanın adı ilə bağlı elmi ədəbiyyatda tətbiq olunan siyasi-coğrafi terminologiyalar, mahiyyətcə, sovet ideologiyasına xidmət etdiyindən onların işlənməsinə qarşı çıxmaq böyük cəsarət tələb edirdi. Çünki müharibə illərində və sonralar da "Qafqaz Albaniyası" ifadəsinin saxlanması bölgənin "qardaş" xalqları

üçün süni surətdə ortaq tarixin, mədəni dəyərlərin yaradılmasına və bu yolla Albaniyanın yalnız (və ya təkcə) Azərbaycana aid olmadığı ideyasının aşılanmasına hesablanmışdı. Çoxsaylı qaynaqların təhlilindən Z.Yampolski belə qənaətə gəlmişdir ki, polietnik Qafqazda yalnız Azərbaycan xalqı özünü Albaniyanın tarixi varisi elan etmək hüququna malikdir. Bu inamla o, 1942-ci ildə Albaniya dövlətinin adı ilə bağlı qərəzli surətdə ortaya atılmış süni terminlərə qarşı çıxaraq, ölkənin elmi ədəbiyyatda "Azərbaycan Albaniyası" adı ilə tanınmasını təklif edir (bax: Две заметки к трактовке Страбонова текста об Азербайджанской Албании. - Известия Азерб. филиала Академии Наук СССР, 1942, № 7, с. 71-74).

Müharibə dövründə belə terminologiyanın ümumi düşmənə qarşı bir səngərdə döyüşən çoxmillətli sovet ordusunda həmrəyliyə zərbə vuracağından ehtiyatlanan sovet ideoloqları köhnə terminologiyaların saxlanmasına üstünlük verdilər və bununla kifayətlənməyib, ideyanın müəllifini Albaniya mövzusundan kənarlaşdırdılar. Yalnız Sovetlər Birliyinin dağılması və Azərbaycanın ikinci dəfə siyasi müstəqilliyə qovuşması nəticəsində 2010-cu ildə "Azərbaycan Albaniyası" məhfumu "vətəndaşlıq hüququ" qazandı.

Z.Yampolski bir müddət Albaniya mövzusundan uzaqlaşır, partiyanın Mərkəzi Komitəsinin sifarişi və institut rəhbərliyinin təlimatı ilə Bakı fəhlələrinin inqilabi hərəkatına həsr olunmuş dissertasiya üzərində çalışır. 1944-cü ildə İ.V.Stalin adına Tbilisi Dövlət Universitetində "Bakı və Bakı fəhlələrinin 1904-cü il dekabr tətili" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edir.

1948-1952-ci illərdə Moskva şəhərində doktoranturada olan Z.İ.Yampolski Azərbaycan tarixi üzrə apardığı elmi-tədqiqat işinin xarakterinə uyğun olaraq, 1958-ci ilin martında Azərbaycan Tarixi Muzeyindən Tarix İnstitutunun Azərbaycanın qədim tarixi şöbəsinə, sonra Azərbaycanın orta əsrlər tarixi şöbəsinə böyük elmi işçi vəzifəsinə keçirilmişdi. Azərbaycanın orta əsrlər tarixi şöbəsində işlədiyi dövrdə o, 20-dən çox Avropa səyyahının Azərbaycanla bağlı məlumatlarının rus dilində mətnlərini və mətnə yazdığı şərhləri hazırlamışdı. Azərbaycanın orta əsrlər tarixinin məhsuldar və yorulmaz araşdırıcısı olan Z.İ.Yampolski Albaniya (Şimali Azərbaycan), eləcə də Atropatena (Cənubi Azərbaycan) tarixinə dair müxtəlif məzmunlu qeydlər, məlumatlar, rəylər, məqalələr, monoqrafiyaların müəllifidir.

XX əsrin 40-50-ci illərinin ortalarında Azərbaycanın qədim tarixinin araşdırılması sahəsində ilk uğurlar qazanılmışdır. Bununla belə, Azərbaycanın qədim tarixi sahəsində aparılan tədqiqat işlərinə qiymət verərkən bu işlərdə birtərəfli yanaşmanın şahidi oluruq. Manna, Atropatena və Albaniya tarixinə əsaslı diqqət yetirilmədiyi nəzərə çarpır. Bundan başqa, Azərbaycan tarixində Midiyanın rolu və əhəmiyyəti mütləqləşdirilir. Əgər demək mümkündürsə, Azərbaycanın bütün qədim tarixi Midiya tarixi ilə əvəzlənir. Araşdırmalar və təhlillər göstərir ki, Vətən tarxinin qədim dövr tarixi məsələləri və problemləri Qafqazın və Qədim Şərqin digər xalqlarının tarixindən ayrılıqda işlənmişdir.Yuxarıda göstərilən dövrün tədqiqatlarının zəif

cəhətlərindən biri də, sinifli cəmiyyətin yaranması probleminin praktiki olaraq qoyulmamasıdır. Bəhs olunan dövrə dair əsərlərdə Azərbaycanın qədim sakinlərinin et-nik tarixi məsələləri birtərəfli işıqlandırılmışdır. Azərbaycanlıların midiyalıların nəsilləri olduğunu əsaslandırmağa cəhd edilmişdir. Azərbaycanın qədim dövr tarixinin bir sıra problemlərinin işlənilməsinin elmi səviyyəsi hələ yüksək deyildi, bir sıra müddəalar mübahisəli, bəziləri isə yanlış idi.

XX əsrin 50-60-cı illərində tarixçilər qədim tarixin əsas problemlərinin - aqrar münasibətlər, köləlik, mülkiyyət formaları, şəhər strukturu, sosial-sinfi mübarizə, böhran dövrlərinin, quldarlıq cəmiyyətinin, ideologiyanın inkişafındakı problemlərin öyrənilməsinə diqqəti artırdılar. 60-cı illərin əvvəllərində Azərbaycan SSR EA Tarix İnstitutunun alimləri Azərbaycanın qədim tarixinin öyrənilməsi sahəsində tədqiqat işlərinin xeyli genişləndirdilər.

Bəhs edilən dövrdə albanşünaslıq sahəsindəki araşdırmalar uğurla davam etdirilirdi. Albanşünaslıq problemlərinin araşdırılmasında tarixçilərlə yanaşı, müxtəlif maddi-mədəniyyət sahələrinin tədqiqatçıları da iştirak edirdilər. Bu prosesə Mingəçevir zonasında aparılan qazıntılar əhəmiyyətli təkan verdi. 1959-cu ildə SSRİ EA-nın müxbir üzvü Kamilla Treverin "Qafqaz Albaniyasının tarixi və mədəniyyəti üzrə oçerklər (e.ə. IV-b.e.VII əsri)" monoqrafiyası çap olundu. İndiyə qədər öz əhəmiyyətini itirməmiş bu sanballı əsərdə qədim və ilkin orta əsrlər Azərbaycan (Qafqaz) Albaniyası tarixinin və mədəniyyətinin, demək olar ki, bütün cəhətləri öz əksini tapmış, yazılı qaynaqlardan və xeyli sayda maddi-mədəniyyət abidələrindən istifadə olunmuşdur.

Lakin albanşünaslıqda da mübahisəli məsələlər mövcud idi. Şimaldan ilk türk tayfalarının Azərbaycana gəlişi, bu tayfaların ərazidə yayılma miqyası, yeni mühitdə hökmranlığı və təsir dərəcəsi kimi məsələlərin işıqlandırılması qarşıda duran daha çətin və mürəkkəb vəzifə idi.

50-ci illərin sonlarından Azərbaycan (Qafqaz) Albaniyası tarixinə dair Z.İ.Yampolskinin və digər yerli tədqiqatçıların məqalələri problemin geniş tədqiqat obyektinə çevrildiyini, Azərbaycan tarixçilərinin geniş tədqiqatlar apardığını sübut edirdi. Z.İ.Yampolski bir sıra məqalələrində və "E.ə. III-I əsrlərdə qədim Albaniya" monoqrafiyasında məbəd təsərrüfatına, hierodullara (məbəd qullarına), habelə Albaniya və Atropatenanın siyasi tarixinə, etnogenez problemlərinə yer ayırmış, mənəvi mədə-niyyət forması olan dini etiqadlardan geniş söhbət açmış, Azərbaycanda ilk dini etiqadlarla bağlı meydana gələn pir və ocaqların, müqəddəs yerlərin mənşəyinə dair orijinal fikirlər söyləmişdir. Albanşünaslıq problemlərinə marağın artmasını 1962-ci ildə Bakıda nəşr edilmiş "Qafqaz Albaniyası tarixi məsələləri" toplusu da göstərirdi. Azərbaycan tarixşünaslığının qədim tarix problemlərinin öyrənilməsi sahəsində əldə olan nailiyyətlər, sonrakı onillikdə müşahidə olunan bütün istiqamətlər üzrə tədqiqatların daha da inkişaf etdirilməsi üçün möhkəm zəmin yaratdı.

XX əsrin 50-70-ci illərinin ortalarında Azərbaycanın qədim tarixi sahəsində aparılan tədqiqatlara ümumi qiymət verərkən qeyd etməliyik ki, bu dövrdə Leninqradda yaxşı filoloji hazırlıq keçən yeni qüvvələr və Azərbaycan elminə gəldi və onların sayəsində Azərbaycanın qədim tarixi şöbəsini möhkəmləndirmək mümkün oldu. Bu illərdə tədqiqat mövzuları əhəmiyyətli dərəcədə genişləndi və dərinləşdi. Ən əsas uğur isə ölkənin qədim tarixinə olan münasibətin kökündən dəyişməsi oldu. Bu dövrün tədqiqatlarında yazılı mənbələrin - mixi yazıların, Avestanın, antik müəlliflərin məlumatlarının təhlilinə əhəmiyyətli yer ayrıldı, yazılı mənbələrin məlumatları arxeoloji axtarışların məlumatları ilə müqayisə edildi və əlaqələndirildi. Alban yazılarının açılması istiqamətində də iş aparılırdı. Bütün çətinliklərə baxmayaraq, alimlərin səyləri nəticəsində bu məsələnin həlli sahəsində bəzi nəticələr əldə olundu. Qeyd edək ki, alban yazısının öyrənilməsinə faktiki olaraq 1937-ci ildən başlanmışdı. Gürcü filoloq alimi, Gürcüstan Elmlər Akademiyasının müxbir-üzvü İlya Abuladze İrəvanda Matedaranın Eçmiədzin fondunda alban əlifbasını aşkar etmişdir. A.O.Şanidzenin, L.M.Məlikset-Bəyin, Q.A.Klimovun, Voroşil Qukasyanın və başqalarının alban yazısının açılması ilə bağlı maraqlı və gərgin işi həmin dövrdə başlamışdı və sonrakı illərdə də davam etmişdi.

50-60-cı illərdə milli tarix elmimizdə Azərbaycanın ən qədim əhalisinin - kutilər, lullubilər, hurilər və başqa tayfaların etnogenezi ilə bağlı problemlərə maraq artdı, midiyalıların etnik mənşəyi, Albaniyanın etnik mənzərəsinin tədqiqinə başlanıldı. 1964-cü ildə Respublika EA-nın Tarix İnstitutunda fəaliyyətə başlamış "Azərbaycan xalqının formalaşması və mənşəyi" üzrə seminar bu mühüm problemin araşdırılmasına təkan verdi. Belə bir mürəkkəb problemin həllinə Azərbaycan tarixçiləri, arxeoloqları və dilçiləri ilə yanaşı antropoloqlar, coğrafiyaçılar və sənətşünaslar da cəlb olundular.

1966-cı ildə Bakıda keçirilən seminarda Moskva və Leninqrad alimləri də iştirak etdilər. Seminarda İ.M.Dyakonovun metodoloji baxımdan düzgün qurulmuş və dəlillərlə zəngin olan "E.ə III-I minilliklərdə Şərqi və Cənubi Qafqaz əhalisinin qədim Şərqlə əlaqələri probleminə dair bəzi linqvistik məlumatlar" adlı məruzəsi maraqla qarşılandı. Z.İ.Yampolskinin "Azərbaycan zonasında türklər haqqında ən qədim məlumatlar", udin mənşəli Azərbaycan alimi Voroşil Qukasyanın Azərbaycan (türk) və udin dillərinin qarşılıqlı münasibətlərinə dair, Abdulla Fazilinin "Qədim Azər-baycanın etnik tərkibi məsələləri müasir İran tarixşünaslığında" məruzələri, Məşədixanım Nemətovanın XV-XVI əsrlərin qəbirüstü abidələrində öz əksini tapmış dini xüsusiyyətlərlə bağlı motivlər, orta əsrlərdə Azərbaycan əhalisinin bəzi xüsusiyyətlərinə dair maraqlı məlumatlar və şəkilli materiallar seminar iştirakçılarının marağına səbəb oldu.

"Azərbaycan xalqının formalaşması və mənşəyi" problemi üzrə seminarın materialları" ayrıca toplu şəklində dərc olundu və toplu respublikanın elmi ictimaiyyəti tərəfindən böyük maraqla qarşılandı.

Azərbaycan SSR EA-nın Ədəbiyyat və Dilçilik İnstitutunun əməkdaşı Mirəli Seyidov "Oğuz" sözünün və obrazının mənşəyi haqqında" məruzəsində türkdilli oğuz əhalisinin Azərbaycan ərazisinə gəlməsi məsələlərini qaldırdı. Z.İ.Yampolskinin "Azərbaycan ərazisində türklər haqqında ən qədim məlumatlar", N.Rzayevin "Qafqaz Albaniyası ərazisində qədim türk mədəniyyətinin incəlikləri", "Qədim Azərbaycan əhalisinin etnik tərkibi haqqında", M.Seyidovun "Oğuz" sözünün və surətinin mənşəyi", "Zaqafqaziyada oğuz versiyası", R.Qurbanovun "Azəri", "Atropaten", "Azərbaycan" sözləri haqqında məqalələrində, Ş.Cəmşidovun "Kitabi-Dədə-Qorqud"u vərəqləyərkən" kitabında Azərbaycanın qədim əhalisinin türkdilli olması haqqında fikirlər söylənilirdi. Təəssüf ki, seminar ümüdləri doğrultmadı, onun tribunası heç də həmişə elmi məqsədlər üçün istifadə olunmadı. Bu məqsədlər hətta bəzən elmdən uzaq ideyalara və müddəalara xidmət etdi.

1971-ci ildə institutda növbəti elmi-nəzəri seminar fəaliyyətə başladı. C.Xəlilovun "Qafqaz Albaniyasında şəhərlərin meydana gəlməsi", Z.Yampolskinin "Azərbaycan tarixində Atropatenanın yeri", M.İsmayılovun "Azərbaycanda XIX-XX əsrin əvvəllərində köçəri təsərrüfatın xarakteri haqqında", R.Hüseynovun "Azərbaycanda türk etnik plastı" mövzusunda məruzələri dinlənilmiş, elmi ictimaiyyətdə maraq doğurmuşdu.

1974-cü ildə növbəti elmi seminara V.A.Livşits, E.A.Qrantovski kimi məşhur tarixçi-şərqşünaslar dəvət olunmuşdular. İnstitut alimlərinin aşkar etdiyi qədim tarixi faktlar azərbaycanlıların ən qədim çağlardan son yüzilliklərədək fasiləsiz etnogenetik inkişafını sübut edəcək dəlillərin əsasını təşkil edirdi. Bununla da müasir azərbaycanlıların Azərbaycanın qədim əhalisinin varisləri olması haqqında tezisin möhkəm özülü qoyulurdu. Bu məruzələr qızğın diskussiyalara, qarşıdurmalara da səbəb oldu. Xalqın etnogenezi, mənşəyi problemi Tarix İnstitutunun araşdırdığı müasir tarix elminin mürəkkəb və çətin problemlərdən idi.

Z.Yampolski geniş erudisiyalı alim idi, o, bir neçə Avropa, qədim yunan və latın dillərini mükəmməl bilirdi. 1970-ci ilə qədər Z.Yampolski Albaniyanin etno-siyasi, mədəni-iqtisadi, sosial həyatına və tarixi coğrafiyasına dair irili-xırdalı onlarla elmi əsər nəşr etdirir. Təkcə 1949-cu ildə Moskvada «Из истории древней Кавказской Албании» və «Вопросы истории Атропатены и Кавказской Албании» adlı kitabları çapdan çıxır. Bu nəşr SSRİ EA Şərqşünaslıq İnstitutunda elədiyi məruzələrin avtoreferatıdır. Burada mərkəzi mövzu Qafqaz Albaniyasında yerodulların – qədim tanrıların şərəfinə qurban verilmiş məbəd qullarının mövcudluğu problemidir. Müəllif bu problemin fonunda Qafqaz Albaniyasının bədii mədəniyyətinin və estetik-fəlsəfi fikrinin qədim, xristianlıqdan əvvəlki dövrdə formalaşmasına səbəb olan ictimai-tarixi prosesləri təhlil edir. Əslində, Qafqaz Albaniyasının ictimai-siyasi həyatının və maddi mədəniyyətinin tarixi inkişafı problemi Z.Yampolski üçün elmi mövzu və həyatının əsas məsələsi olmuş¬dur. Alim 50-60-cı illərdə bu mövzuya həsr olunmuş bir neçə kitab buraxmışdır.

1952-ci ildə mövzu daha da genişləndirilərək «Атропатена и Кавказская Албания III-I веков до н.э.» adı ilə Leninqradda, ayrıca monoqrafiya kimi nəşr olunur. 1962-ci ildə Bakıda onun "Древняя (Кавказская) Албания III-I вв. до н.э. Часть I. Храмовая собственность" adlı kitabı çapdan çıxır. Ensiklopedik nəşrlərdə Atropatena və Albaniyaya həsr olunmuş mətnlərin yazılması, ənənəvi olaraq, Z.Yampolskiyə həvalə olunurdu.

Son 20 ildə Azərbaycanda tarixin öyrənilməsində qazanılan nailiyyətlər haqqında hesabatın Z.Yampolskiyə həvalə olunması təsadüfi deyildi (mətn 1940-cı ildə SSRİ EA Azərbaycan Filialının Xəbərlərinin 2-ci sayında dərc olunub). 1939, 1941 və 1943-cü illərdə dərc olunan ilk "Azərbaycan tarixi" əsərinin müəlliflərindən biri olan Z.Yampolskinin tədqiqat sferasında tarixi keçmişimiz ön plana çıxır. Z.Yampolski 3 cildlik "Azərbaycan tarixi" kitabının (cild I. B., 1958) məsləhətçisi olmuş, "Azərbaycanlılar" və "Azərbaycan etnoqrafiyası" (3 cilddə) kitablarının yazılmasında fəal iştirak etmişdir.

Z.İ.Yampolski "Qədim Albaniya m.ə. III-I əsrlərdə" mövzusunda doktorluq dissertasiyası üzərində işləyir və 1965-ci ildə həmin dissertasiya işini müdafiə edərək tarix elmləri doktoru elmi dərəcəsinə layiq görülür. Namizədlik dissertasiyası üzərində çalışan bir neçə gəncin elmi rəhbəri olmuşdur. O, antik və ilk orta əsr yazılı qaynaqlara əsaslanaraq Albaniyanın ictimai-iqtisadi quruluşunu, ərazisini, etnik tərkibini ilk dəfə olaraq tədqiq etmişdir. Z.İ.Yampolski digər bir əsərində də ilk dəfə olaraq Azərbaycan tarixşünaslığında Zaqafqaziya ərazisindən Xəzər dənizi, Kür və Rioni çayı vasitəsi ilə Qara dənizə gedən beynəlxalq ipək yolunun, su-quru ticarət yolunun olmasını hərtərəfli tədqiq etmişdir.

Erudisiyasının və maraq dairəsinin genişliyi ona tarix elminin müxtəlif sahələrində də söz deməyə imkan verirdi. Onun tədqiqat sferasında arxeoloji abidələrimiz, maddi mədəniyyət nümunələri ayrıca mövzu kimi yer tuturdu. Bir neçə məqalə itən şəhərlərimizin (Səbail, Ayniana, qədim Mingəçevir, Bərdə) lokalizasiyası, maddi mədəniyyəti ilə bağlı problemlərin həllinə, Qobustanın və Zəngəzurun (Sünikin) petroqliflərinə, qədim pirlərimizə və s. həsr olunub. Z.İ. Yampolski antik (qədim yunan-Roma) mənbələrin filoloji təhlili sahəsində tanınmış azsaylı alimlərimizdən idi. G.Stratanovskinin tərcüməsində Strabonun "Coğrafiya" əsərinə mətnşünaslıq baxımından etdiyi qeydləri (1969-cu ildə Tbilisidə keçirilən IV Klassik filologiya konfransında), Pomponi Melanın və Böyük Plininin əsərlərində türklərin etnonimi ilə bağlı düşüncələri, Homerin əsərlərində torpaq mülkiyyəti ilə bağlı fikirləri, Arrianın Madada baş verən Bariaksın üsyanı haqqında yazdıqlarının təhlili bu baxımdan diqqətəlayiqdir.

Z.İ.Yampolski Azərbaycan tarix elmini Ümumiittifaq və Beynəlxalq konfranslarda layiqincə təmsil edirdi. Onun Moskva, Leninqrad, Bakı, Kiyev, Tbilisi, Səmərqənd, Alma-Ata və digər şəhərlərdə keçirilən elmi məclislərdə yüksək səviyyəli məruzələri böyük maraqla qarşılanırdı. Z.Yampolski 1960, 1964

və 1970-ci illərdə xarici ölkələrdə keçirilmiş beynəlxalq konfranslarda SSRİ tarix elmini layiqincə təmsil etmiş, ən əsası, Azərbaycanın tarixçi kadrlarının yüksək elmi potensialı haqqında müsbət fikir formalaşdıra bilmişdir.

Z.İ.Yampolski öz tədqiqatlarının nəticələrini, eləcə də Azərbaycan qədim tarixinin geniş oxucu auditoriyasına çatdırmaq üçün elmin populyarlaşdırılması sahəsində də parlaq istedada malik olduğunu nümayiş etdirmişdir. Alman dilində yazdığı məqalələr 1959, 1960, 1963, 1965, 1967-ci illərdə "Bibliotheca classica orientalis", "Kongress für klassischen Philologie", "Acta archaeologica Carpathica" kimi mötəbər elmi jurnallarda dərc olunmuşdur. Onun "Elm və həyat" və «Литературный Азербайджан», «Пропагандист» jurnallarında vaxtaşırı çap etdirdiyi çoxsaylı elmi-kütləvi məqalələri oxucular arasında boyük şöhrət qazanmışdı.

Marksizm-Leninizm nəzəriyyəsi və partiya siyasəti (o, 1944-cü ildən Sov.İKP-nin üzvi idi) ilə bağlı keçirilən seminarların elmi katibi kimi Tarix İnstitutunun ictimai həyatında fəal iştirak edirdi. Fəal partiya funksioneri kimi o, eyni zamanda, ateizmin təbliğinə və mövhumata həsr olunmuş silsilə məqalələrin müəllifi idi. O, "Azərbaycanın qədim dinləri" (1958-ci ildə çap olunub) adlı kitabında qədim yazılı qaynaqlara, arxeoloji və etnoqrafik materiallara, məlumatlara əsaslanaraq Qafqaz Albaniyasının çoxsaylı dini məsələlərini hərtərəfli tədqiq etmiş və öyrənmişdir.

Z.İ.Yampolskinin tarixçi kadrların hazırlanmasında böyük xidməti var. O, Azərbaycan Dövlət Universitetinin və Azərbaycan Pedaqoji İnstitutunun tarix və filologiya fakültələrində ümumi tarix kursunu tədris etmişdir.

Möhkəm iradə, qeyri - adi əməksevərlik və ən müxtəlif maraqların geniş spektri - bütün bu keyfiyyətlər Z. İ.Yampolskinin tarix elmində mühüm uğurlar qazanmasına imkan vermişdir. Z.İ.Yampolski dövrünün yaradıcı intellektualı və mübaliğəsiz elm xadimi idi. Onun elmi irsi sözün ən geniş mənasında, akademik və yaradıcılıq axtarışların klassik nümunəsidir. Zelik Yampolskinin yaradıcılıq irsi zamanın sınağından çıxmışdır. Bu irs Vətən tarixinin əsl qiymətli nailiyyətləri sırasında qalmışdır və Azərbaycanın qədim dövr tarixinin öyrənilməsi sahəsində tədqiqat işlərinin sonrakı istiqamətlərini müəyyənləşdirib.

Əsərləri: Azərbaycan xalqının qədim keçmişinin bəzi məsələləri haqqında. – Пропагандист, 1940, №3, с. 61-65; Об итогах изучения истории Азербайджана за 20 лет. – Изв. АзФАН СССР, 1940, №2, с. 65-72 (в соавтор. с А.А.Климовым и И.М.Джафарзаде); Восстание Бабека. Б., 1941; təkrar nəşr: Bakı, 2010; Две заметки к трактовке Страбонова текста об азербайджанской Албании. – Изв. АзФАН СССР, 1942, № 7, с. 71-74; Mübarizə, tarix və bədii həqiqət romanı (V.Yanın «Çingiz xan» romanı haqqında). - Vətən uğrunda, 1942, №9, s.68-69; Azərbaycanlıların Roma işğalçılarına qarşı mübarizəsi. B., 1943, 16 s.; Создание Кавказской Красной Армии в Баку в 1918 г. - Изв. АзФАН СССР, 1944, № 5, с.107-

108; О древнейших свидетельствах обычая побратимства кровью и оружием на Кавказе. - Изв. АзФАН СССР, 1944, №1, с.89-92; О древнейших свидетельствах побратимства кровью и оружием на Кавказе. - Изв. АзФАН СССР, 1944, №1, с.89-92; Восстание Муканны - движение людей в белых одеждах. - Советское востоковедение, 1948, т.5; Вопросы истории Атропатены и Кавказской Албании. М., 1949, 7 с.; Из истории древней Кавказской Албании. М., 1949, 37 с.; Термин «мар» и топонимика Древней Кавказской Албании. - Краткие сообщения ИИМК, 1949, вып. 24, с. 22; О происхождении храмовой собственности древнего мира на основе первобытнообщинного строя (Постановка вопроса). – Тр. Института Истории АН Груз. ССР, т.4, вып. 2, 1952, с.89-99; Несколько слов о борьбе мидян против Александра Македонского и его преемников. – ДАН Азерб. ССР, т. X, 1954, №5, с. 379-381; К вопросу об одноименности древнейшего населения Атропатены и Албании. - Тр. Института Истории и Философии АН Азерб. ССР, 1954, т.4, с.100-108; Древние авторы о языке населения Азербайджана. - Изв. АН Азер. ССР, 1955, №8; Материалы о происхождении азербайджанского народа. - Изв. АН Азерб. ССР, 1955, №8, с.61-68; 1956, №1, с.93-101; О статуе, найденной на территории Кавказской Албании. - Краткое сообщение Института Истории Материальной Культуры, вып. 60, 1955; К изучению древнего пути из Каспийского моря по реке Куре через Грузию в Черное море. – Тр. Института Истории АН Груз. ССР, т. 2, 1956, с. 161-180; Материалы о происхождении азербайджанского языка. - Изв. АН Азерб. ССР, 1956, №1, с.93-101; К истории Атропатены (III в.до н.э.). – ДАН Азерб. ССР, 1956, т. XII, №10; К характеристике собственности в древнем Азербайджане. – ДАН Азерб. ССР, 1957, т. XIII, №12; К изучению летописи Кавказской Албании. - Изв. АН Азерб. ССР, 1957, №9; Древние религии в Азербайджане. Б., 1958; К вопросу о рабовладении в древнем Азербайджане. – Изв. АН Азерб. ССР. Серия общественных наук, 1958, №6, с. 27-34; Древняя история в научных изданиях Азербайджанской ССР (1952-1957 гг.). - Вестник древней истории, 1958, № 43, с. 214; О происхождении храмовой собственности древнего мира. (О порядке постановке вопроса). – Вестник древней истории, 1959, № 4, с. 153-157; Памятники Кавказской Албании на горе Бешикдаг. - Советская археология, 1960, №2, с.246-250; Атропатена и Кавказская Албания в III-I вв. до н.э. Вопросы общественного строя. Б.,1960; О сущности и происхождении первобытной магии. Б., 1960; Путешественники об Азербайджане, в 2-х томах. Б., 1960; О значении слова ВАН в имени Нахчыван. К анализу имени Нахчыван. - Изв. АН Азерб. ССР. Сер. общ. наук, 1961, №1; Древняя Албания в III-I вв. до н.э. Б., 1962, 380 с.; Об этногенетической непрерывности на почве Азербайджана. – Вопросы истории Кавказской Албании. Б., 1962, с. 32-43; К вопросу о происхождении ВАКФА. – Народы Азии и Африки, 1964, №4, с.109-112; К вопросу об одноименности древнего населения Атропатены и Кавказской Албании. – Тр. Института

Истории и Философии АН Азерб.ССР. Б., 1964, т. IV; Рисунки каменного века. - Баку, 1967, 14 июля; К изучению древнеазербайджанского города Юнана. – Материалы и исследования по архео¬логии СССР. М.-Л., 1969, №67; О тождестве Антарпатану и Атропатены. – Учен. зап. АГУ. Сер. истор. и филос. наук, 1972, №6, с.29-32; О возможных связях азербайджанского и латинских языков. - Учен. зап. АГУ им. С.М.Кирова. Серия языка и литературы, 1973, № 5, с.35-37; Об Атропатене современнике Александра Македонского. – Вестник древней истории, 1974, №2, с.176; К теории первобытной магии: По археологическим и этнографическим данным. - В кн.: Материальная культура Азербайджана. Б., 1973, т.7, с.202-207; Необоснованное утверждение о языковом облике древнего и раннесредневекового Азербайджана. - Учен. зап. АГУ им. С.М.Кирова. Серия языка и литературы, 1974, №6, с.72-76; К изучению номенклатуры физико-географических объектов Азербайджана: Топонимические заметки. – Учен. зап. Мин-ва Высшего и среднего специального образования Азерб. ССР. Серия геол. - географ. наук, 1975, №3, с.82-83; Z.İ.Yampolskinin AMEA TİEA-də mühafizə olunan elmi əsərləri və materialları: О зарождении феодализма в Азербайджане. - inv. №2532; Первоисточники по истории Кавказской Албании. - inv.№ 4766; Сообщения путешествен-ников XIII-XVIII вв. об Азербайджане. - inv.№ 3703; Историческое прошлое бакинской нефти. - inv.№1245; Замечания на путеводитель по Азербайджану, составленный Географическим сектором АзФАН СССР. - inv.968; Об эпохе Низами.-inv.№1733; Обзор древней истории Азербайджана (Текст отредактирован И.И.Мещаниновым и рекомендован к печати 31 мая 1944 г.) - inv.№1315; Справка об этнических и этнографи-ческих группах Азербайджана: талышах, татах, курдах, удинах, лезгинах и близких им по типу языках аварцах, ингилоях (1961). – inv. №4595; Религия древнего Азербайджана (47 с.). – inv. №6332; Древнее население Азербайджана и проблема происхождения азербайджанского народа (23 с.) (1968 г.). – inv. №6331; О дате возникновения и об истории г. Баку. Краткая справка (совм. с С.Ашурбейли, И.Гасановым, Б.Гурбановым, Р.Садыхзаде, И.Стригуновым и Е.Токаржевским). - inv.№4562; Замечание на брошюру «Нагорно-Карабахская автономная область». - f.1, siy.15, iş 6542.

Mənbə və ədəbiyyat:

1. И.Г.Алиев, Э.Алибекова. Из истории изучения античности в Азербайджанском государственном университете в 20-50-е годы XX в. – Учен. зап. АГУ им. С.М.Кирова, 1975, №1, с.113-114, 117.
2. Г.А.Гейбуллаев. памяти З.И.Ямпольского. – Азербайджанский этнографический сборник, 1985, № 5.

3. K.Şükürov. Demoqrafiya. Ensiklopedik lüğət. B., 2001, s.256.
4. А.Кикнадзе. Бакинская подкова. М., 2003.
5. Т.Керимова. Из истории Национальной Академии наук Азербайджана. Б., 2005, s.541.
6. Э.Алибекова. Вопросы древней истории Азербайджана в российской историографии XIX- начала XX вв. Б., 2009, 223 с.
7. A.Əlimirzəyev. Unudulmaz tarixçi-alim. (Zelik Yampolskinin anadan olmasının 105 illiyinə). Xalq qəz., 2016, 25 sentyabr, s. 10.
8. К.Тревер. Замечания по поводу автореферата и диссертации З.Ямпольского (1952 г.). - AMEA Tarix İnstitutunun Elmi Arxivi, inv.№2788.
9. AMEA RH Elmi İrs Mərkəzinin Arxivi, f. 39, siy. 1, qutu 45, v. 26-34 (şəxsi işi).
10. Rusiya Federasiyası Dövlət Arxivi, f. P9506, siy. 9a, iş 504 (şəxsi işi).





*Nasir Quluzadə**

"Lənkəranlı" tədqiqatçı və təbliğatçı: Zelik İosifoviç Yampolski-110

XX əsrdə Azərbaycan tarixinin tədqiqi, təbliği və tədrisi sahəsində nəhəng işlər görülmüş, bir çox uğurlara imza atılmışdır. Bu uğurların qazanılmasında Azərbaycan ziyalılarının, xüsusilə də tarixçilərinin müstəsna xidmətləri vardır. Onların məqsədyönlü axtarışları, gərgin əməyi, dərin bilikləri və ən əsası isə, Vətəninə, xalqına olan sonsuz bağlılıqları sayəsində tariximizin neçə-neçə qaranlıq səhifəsinə işıq salınmışdır. Bu gün həmin tarixçilərin tədqiqatlarından məhdudiyyətsiz şəkildə bəhrələnəndə unutmamalıyıq ki, sovet dövründə hər bir tarixi proses, hər bir müddəa qələmə alınarkən tarixçilərimiz çox ağır məhrumiyyətlərlə, təzyiqlərlə, hətta "qırmızı terror"la üzləşməli olublar. Bütün bunlara baxmayaraq tarixçilərimizin inadkarlığı, peşəkarlığı və mübarizliyi ilə tarixi həqiqətlər üzə çıxarılmış və qələmə alınmışdır. Belə tarixçilərimizdən biri də Zelik İosifoviç Yampolski olmuşdur.

Z.İ.Yampolski 1911-ci ilin avqustunda Lənkəran şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Uşaqlıq dövrü Lənkəranda keçən Z.İ.Yampolski əmək fəaliyyətinə 1930-cu ildə, respublikamızda gedən sosializm quruculuğu fonunda yerli savadlı kadrlara, xüsusilə də, rusdilli maarifçi gənclərə ehtiyacın yüksək olduğu vaxtlarda başlayır. İlk vaxtlar bilik və bacarığını jurnalistikada sınamağa qərar verir.

Ali təhsil almaq məqsədilə 1932-ci ildə Tarix ixtisası üzrə Moskva Tarix, Fəlsəfə və Ədəbiyyat İnstitutuna qəbul olmuşdur. 1937-ci ildə həmin ali təhsil müəssisəsini uğurla başa vurur. Aldığı diplomla o, elmi işçi və ali məktəbdə müəllim kimi çalışa bilərdi (1). Təsadüfi deyil ki, vətənə döndükdən sonra Z.İ.Yampolski akademik səviyyədə elmi, daha sonra isə pedaqoji fəaliyyətə başlayır. Belə ki, SSRİ EA Azərbaycan filialının Tarix İnstitutunda 1937-1938-ci illərdə kiçik elmi işçi, 1939-1940-cı illərdə böyük elmi işçi əvəzi, 1940-cı ildən isə böyük elmi işçi və

*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya elmi fond şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent; nasir_quluzade@yahoo.com

Müasir tarix şöbəsinin müdiri vəzifələrində çalışır (22, s. 541). Əmək fəaliyyətinə başladıqdan sonra o, qısa müddət ərzində erudisiyalı və işgüzar tədqiqatçı kimi nüfuz qazanır və tariximizin aktual problemlərinin həllinə qatılır (17). Milliyyətcə yəhudi olsa da, Z.İ.Yampolski Azərbaycana bağlı vətənpərvər ziyalı idi. Hələ müharibə illərində dövri mətbuatdakı yazılarını "Lənkəranlı" təxəllüsü ilə dərc etməkdən çəkinmirdi.

Onun həyatının gənclik dövrünün bir hissəsi müharibə illərinə təsadüf edir. Belə ki, İkinci dünya müharibəsi başladıqdan sonra milyonlarla sovet gənci kimi, o, da Vətənin müdafiəsinə qatılmaq üçün silaha sarılır. İlk olaraq alman faşistlərinin hücumuna qarşı nəzərdə tutulmuş müdafiə sədlərinin çəkilməsində iştirak edir (14). Daha sonra isə Qafqazın müdafiəsinə qatılır. Qafqazın müdafiəsində göstərdiyi qəhrəmanlığa görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 01.05.1944-cü il tarixli qərarı ilə "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif olunur (10). 1945-ci ildə dövlət tərəfindən "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalına layiq görülür (9).

Müharibədən sonra Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində pedaqoji fəaliyyətə başlayır. Gənc tarixçilərə Azərbaycan tarixinin müxtəlif dövrləri və nəzəri məsələləri ilə bağlı biri-birindən maraqlı mühazirələr oxuyur. Z.İ.Yampolski Ali Attestasiya Komissiyasının 24.11.1945-ci il tarixli qərarı ilə Azərbaycan tarixi kafedrasının dosenti elmi vəzifəsinə təsdiq edilmişdi (2).

İstər müharibə illərində, istərsə də ondan sonrakı dövrdə Z.İ.Yampolskinin elmi yaradıcılığında antik dövrdə və erkən orta əsrlərdə Azərbaycan torpaqlarında mövcud olmuş Albaniya dövlətinin etno-siyasi və mədəni-iqtisadi tarixinin araşdırılması prioritet mövzu olur. Lakin onun bu mövzuda apardığı tədqiqatlar qaragüruh tərəfindən narazılıqla qarşılanırdı. Ona görə də müəyyən təzyiqlərlə üzləşdiyindən bir müddət Albaniya mövzusundan uzaqlaşır. Sov.İKP Mərkəzi Komitəsinin sifarişi və institut rəhbərliyinin təlimatı ilə Bakı fəhlələrinin inqilabi hərəkatına həsr olunmuş dissertasiya mövzusu üzərində çalışmalı olur və 10 çap vərəqi həcmində tədqiqat işi ərsəyə gətirir (17). İ.Stalin adına Tbilisi Dövlət Universitetindəki uğurlu müdafiədən sonra elə həmin ali təhsil müəssisəsi Şurasının 07.03.1946-cı il tarixli qərarı ilə ona tarix elmləri namizədi elmi dərəcəsi verilir (3).

Z.İ.Yampolski bütün məhdudiyyətlərə və təzyiqlərə baxmayaraq Albaniya mövzusundan qətiyyən imtina etmir. Əksinə, bu istiqamətdə axtarışlarını daha da sürətləndirir. Təkcə 1949-cu ildə Moskvada "Из истории древней Кавказской Албании" və "Вопросы истории Атропатены и Кавказской Албании" adlı kitabları çapdan çıxır. Göründüyü kimi Qafqaz Albaniyası və Atropatena dövrünün nəzəri məsələləri onu daima düşündürmüş, onların həlli üçün bütün bilik və bacarığını əsirgəməmişdir. Qafqaz Albaniyası və Atropatenanın ictimai-siyasi və sosial-iqtisadi sisteminin tarixi inkişafına, eləcə də bu dövlətlərin cəmiyyətlərində mövcud olmuş mədəni proseslərə məqsədyönlü şəkildə işıq salmaq üçün o, 1946-cı

ildə SSRİ Elmlər Akademiyası Asiya Xalqları İnstitutunun doktoranturasına qəbul olunur. 1949-cu ildə isə həmin institutda çalışmaq üçün SSRİ EA Rəyasət Heyətinin 16.01.1945-ci il tarixli qərarına əsasən "Qafqaz və Şərq tarixi" ixtisası üzrə böyük elmi işçi dərəcəsini alır (5) (şəkil 1).

Uzunmüddətli araşdırmalardan sonra 1965-ci ildə Z.İ.Yampolski Albaniya və Atropatena mövzusu üzrə doktorluq dissertasiyanı uğurla müdafiə edir və ona Ali Attestasiya Komissiyasının 22.01.1966-cı il tarixli qərarı ilə tarix elmləri doktoru elmi dərəcəsi verilir (4). Atropatena və Albaniyanın qədim tarixinə, xüsusilə də etno-siyasi, mədəni-iqtisadi, sosial həyatına və tarixi coğrafiyasına dair irili-xırdalı onlarca elmi əsər nəşr etdirir. O, elmi araşdırmaları müddətində Azərbaycan əhalisinin etnik tərkibi, etnogenetik fasiləsizlik, əhalinin say dinamikası və s. əhali tarixi problemlərini də öyrənmişdir (20, s. 256).

Z.İ.Yampolskinin əmək fəaliyyətinin bir mərhələsi də Azərbaycan SSR EA-nın Azərbaycan Tarixi Muzeyi (indiki Milli Azərbaycan Tarixi Muzeyi) ilə bağlıdır. Belə ki, 50-ci illərdə Z.İ.Yampolski muzeyin Qədim dövr və orta əsrlər şöbəsinin baş elmi işçisi (18, s. 80-81), 1968-ci ildə isə rəhbəri təyin olunur (şəkil 2). O, tədqiqatlarında arxeoloji, antropoloji və epiqrafik mənbələrdən geniş istifadə etmişdir. Onun tədqiqat sahəsində arxeoloji abidələrimiz və maddi mədəniyyət nümunələri ayrıca mövzu kimi yer tuturdu. Bir neçə məqaləsi isə itən şəhərlərimizin (Səbail, Ayniana, qədim Mingəçevir, Bərdə) lokalizasiyası, maddi mədəniyyəti ilə bağlı problemlərinin həllinə, Qobustanın və Zəngəzurun (Sünikin) petroqliflərinə, qədim pirlərimizə və s. həsr olunub (17; 19, s. 67-68). Bundan başqa o, Azərbaycanın qədimdən müasir dövrədək tarixinə həsr olunmuş elmi ekspozisiyasının qurulmasında da fəal iştirak edib (21, s. 15).

Z.İ.Yampolski əmək fəaliyyətini ömrünün sonuna kimi Azərbaycan SSR EA Tarix İnstitutunda davam etdirir və 1979-cu ildən baş elmi işçi kimi fəaliyyət göstərir (şəkil 3). Burada çalışdığı müddətdə Azərbaycan tarixinə, xüsusilə Qafqaz Albaniyası dövrünə həsr olunmuş xeyli sayda elmi əsərin müəllifi olur. Uzun müddət qüsursuz işinə görə institut rəhbərliyi tərəfindən fəxri fərmanlarla təltif olunur (7; 8).

Z.İ.Yampolski elmi tədqiqatlar sahəsində olduğu kimi elmi-kütləvi və ideoloji təbliğat işlərində də çox fəal olmuşdur. Fəal partiya funksioneri kimi o, eyni zamanda, ateizmə və mövhumata həsr olunmuş silsilə məqalələrin və 1958-ci ildə işıq üzü görmüş "Azərbaycanın qədim dinləri" adlı kitabın müəllifi idi. Kütlələr arasında siyasi və elmi biliklərin təbliğində, habelə elmi ateizm və təbliğat-təşviqat işlərində fəal iştirakına görə o, dəfələrlə müvafiq olaraq təşəkkürnamə və fəxri fərmanlara layiq görülmüşdür (12; 13). Xüsusilə onun "Bilik" cəmiyyətinin xətti ilə təşkil olunan elmi ateizmə həsr olunmuş mühazirələri diqqətdən kənar qalmamış və Z.İ.Yampolski bu fəallığına görə həmin cəmiyyət tərəfindən fəxri fərmanlarla təltif edilmişdir (15; 16) (şəkil 4). Ona aid sənədlər kolleksiyası ilə tanış olduqda

hətta onun respublikanın iqtisadi və mədəni həyatında da fəal rol oynadığını deyə bilərik (6) (şəkil 5).

70-ci illərdə Z.İ.Yampolski istər elmi-tədqiqat, istərsə pedaqoji, istərsə də təbliğat-təşviqat işlərində yorulmadan çalışmaqda davam edirdi. Uzun illər onun qüsursuz və məhsuldar əmək fəaliyyəti ilə seçilməsi ali dövlət rəhbərliyinin də diqqətindən kənar qalmamışdı. Belə ki, o, SSRİ Ali Soveti Rəyasət Heyətinin 29.04.1977-ci il tarixli qərarı ilə "Əmək veteranı" medalı ilə təltif olunur (11).

Azərbaycanda tarix elminin akademik səviyyədə inkişafına və milli tarixçi kadrların yetişməsinə böyük töhfələr vermiş Zelik İosifoviç Yampolski 1981-ci ildə dünyamızla əbədi vidalaşır. Ömrünün 45 ilini Azərbaycan tarixinin və maddi mədəniyyətinin öyrənilməsinə həsr etmiş böyük alimin xidmətləri qədirbilən xalqımızın xatirində bu gün də yaşayır, əsərləri isə Vətən tariximizin öyrənilməsində əhəmiyyətini indi də saxlayır.

Mənbələr və ədəbiyyat:

1. AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondu (SMF), inv. 3913.
2. SMF, inv. 3914.
3. SMF, inv. 3915.
4. SMF, inv. 3916.
5. SMF, inv. 3917.
6. SMF, inv. 3918.
7. SMF, inv. 3919.
8. SMF, inv. 3920.
9. SMF, inv. 3921.
10. SMF, inv. 3922.
11. SMF, inv. 3923.
12. SMF, inv. 3924.
13. SMF, inv. 3925.
14. SMF, inv. 3926.
15. SMF, inv. 3927.
16. SMF, inv. 3928.
17. Əlimirzəyev A. Unudulmaz tarixçi – alim. Zelik Yampolski – 105 // Xalq qəzeti, 26.09.2016 http://old.xalqqazeti.com/az/news/culture/75997.
18. Əliyeva N. Azərbaycanın qədim və orta əsrlər dövrü tarixi Milli Azərbaycan Tarixi Muzeyinin elmi əməkdaşlarının əsərlərində (1920-50-ci illər) // Milli Azərbaycan Tarixi Muzeyi-2010, Bakı, 2010.
19. Hacıyeva Z. Azərbaycan Dövlət Muzeyi. Azərbaycanda elmin inkişaf tarixindən 1920-1960. Bakı, 2012.

20. Şükürov K. Demoqrafiya: Ensiklopedik lüğət. 3 cilddə. I cild. Əhali haqqında elm. Hissə 1. Əhali haqqında elm tarixi. Bakı, 2001.
21. Азизбекова П.А. Музей истории Азербайджана – детище Ленинской национальной политики // Материалы по истории Азербайджана (к 50 летию музея), т. VIII, Баку, 1973.
22. Керимова Т.С. Из истории Национальной Академии наук Азербайджана. Баку, 2005.



АТТЕСТАТ
СТАРШЕГО НАУЧНОГО СОТРУДНИКА

МСН № 08301


Москва 1949 г.

Решением
Президиума Академии Наук
Союза Советских Социалистических Республик
от 16 января 1945 (протокол № 1)
гражданин
Ямпольский Залик Исаакович
УТВЕРЖДЕН В УЧЕНОМ ЗВАНИИ
СТАРШЕГО НАУЧНОГО СОТРУДНИКА
ПО СПЕЦИАЛЬНОСТИ
"Историия Кавказа и Востока"
Президент Академии Наук
Главный Ученый Секретарь
президиума Академии Наук

Şəkil 1.



Şəkil 2.



Şəkil 3.



БЛАГОДАРСТВЕННАЯ
ГРАМОТА
ВСЕСОЮЗНОГО ОБЩЕСТВА
** ЗНАНИЕ **

ЯМПОЛЬСКОМУ
Зелику Иосифовичу
доктору исторических наук, лектору за активное участие в лекционной пропаганде и в связи с 50-летием Азербайджанской ССР и Компартии Азербайджана

Председатель Президиума Всесоюзного общества «Знание»

4 V 71 22197

Şəkil 4.



АЗӘРБАЈЧАН ССР АЛИ СОВЕТИНИН РӘЈАСӘТ ҺЕЈ'ӘТИ

ЗЕЛИК ИОСИФОВИЧ ЈАМПОЛСКИ Јолдаш

Азәрбајҹан ССР
Али Советинин Рәјасәт Һеј'әти
республиканын ичтисадијјатыны вә мәдәнијјатини инкишаф етдирмәкдә хидмәтләриниза көрә вә Азәрбајҹанын Русија тәркибинә дахил олмасынын 150 иллији мүнасибәтилә
1964 ил 29 ијун тарихли Фәрманы илә Сизи

Азәрбајҹан ССР Али Советинин
ФӘХРИ ФӘРМАНЫ *илә*
тәлтиф едир

ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА АЗЕРБАЙДЖАНСКОЙ ССР

Тов. ЯМПОЛЬСКИЙ ЗЕЛИК ИОСИФОВИЧ

Президиум Верховного Совета
Азербайджанской ССР
своим Указом от 29 июня 1964 г.
награждает Вас за заслуги в развитии экономики и культуры республики и в связи со 150-летием вхождения Азербайджана в состав России

ПОЧЕТНОЙ ГРАМОТОЙ
Верховного Совета Азербайджанской ССР

М. Искәндәров

З. Шүкүрова

Şəkil 5.

Məmməd Məmmədov

Nərmin Tahirzadə - 100



Nərmin xanımın rəhbərlik etdiyi şöbənin əməkdaşları olaraq, biz həmişə bu insanın mehribanlığı ilə yanaşı, nadir tədqiqatçılıq bacarığı sayəsində yiyələndiyi nəhəng elmi potensialını hiss etmişik.

Mən Muzey kollektivinə 1979-cu ildə ekspozisiyaların tam sürətlə yenidən qurulduğu bir dövrdə qoşulmuşam. Bu ərəfədə yaşlı həmkarlarım mənə deyirdilər: "Nə danışırsan, sən Nərmin xanımın şöbəsində işləyəcəksən?! Onun işə, intizama necə tələbkar olduğundan xəbərin varmı? Onunla işləmək asan deyil!". Onlar mənim elmi maraqlarıma bələd olsalar da bu xəbərdarlıqla məni fikrimdən daşındırmaq istəyirdilər. Mən isə asan yollar axtarmayaraq, öz istəyimdə israrlı oldum və indi otuz ildən artıq bir zaman ötdükdən sonra əminliklə deyə bilərəm ki. Nərmin xanımla rastlaşdığıma və onunla müştərək iş birliyimə görə taleyimə minnətdaram!

Yadımdadır, məni şöbəyə ilk dəfə həmkarım İnna Kostina lütfkarlıqla müşayiət etdi. Üçüncü mərtəbəyə qalxarkən məni nə isə bir həyəcan, narahatlıq bürümüşdü. Amma şöbənin kandarına ayaq basdığım andan, məni qarşılayan şöbə rəhbərinin xoş təbəssümü bu həyəcana son qoydu. Mənə münasibətdə bir ana qayğıkeşliyinə çevrilən bu xoş rəftarı Nərmin xanımın ömrünün sonuna kimi davam etdi.

On dəqiqəlik ilk söhbətimizim sonunda Nərmin xamın masanın üstünə "Muzeyşünaslığın əsasları" kitabını qoyaraq dedi: "İndi ki muzey işçisi olmağa qərar vermisiniz, gərək bu materialı nəzəri cəhətcə mənimsəyəsiniz. Əslində gələcəkdə həyatınız boyu onu mənimsəməkdə davam edəcəksiniz". Bilmirəm ötən illər ərzində mən bir muzey işçisi kimi formalaşa bildim, ya vox (bu, mənə aid sual deyil, həmkarlarım bilər), amma hələ o ilk söhbətimizdən belə qənaətə gəldim ki. Nərmin xanım üçün onun işi, sənəti həyatının əsas qayəsi, amalıdır. Beləliklə, mənim əmək fəaliyyətimin gündəlik qayğıları şöbə müdirinin və yaşlı həmkarlarım Sara

Cahangirova ilə İnna Kostiıanın nəzarəti altında başlandı. Bu qayğılar muzey işinin əlifbasının - ekspozisiya, fond, toplama işlərinin mənimsənilməsindən ibarət idi.

Özünə qarşı çox tələbkar olan Nərmin xanım, əməkdaşlarının işinə də eyni tələbkarlıqla, ciddiliklə yanaşırdı. Həftə sonu: "İş planından konkret bəndlər üzrə nə etmisiniz?"- deyə hər birimizdən hesabat tələb edərdi. Cavab onu qane etməyincə elə əsəbiləşirdi ki, üzünə baxmağa belə xəcalət çəkirdik. Belə hallar çox ciddi söhbətlə nəticələnirdi.

Nərmin xanım eyni zamanda bizim uğurlarımıza sevinər, ancaq bu sevincini qabarıq büruzə verməkdən çəkinərdi. Şəxsi təcrübəmdən deyə bilərəm ki, o, cəmi üç dəfə mənim uğuruma sevincini gizlədə bilməyib; görkəmli maarifçi pedaqoq və yazıçı Rəşid bəy Əfəndizadə barədə çox maraqlı materialları onun qızı Naimə xanım və nəticəsi Sevinc Tağızadənin vasitəsilə əldə etdiyim zaman, "Bibiheybətneft" NQÇİ-dən çox maraqlı bir eksponatı - hələ XX əsrin əvvəllərində qazılmış bir neft quyusunun özü) başlığını Muzeyə gətirdiyim zaman və bir dəfə də mərhum şeyxülislam Axund Ağa Ağaəlizadənin əbasını muzey eksponatı kimi əldə etdiyim zaman. Mənim Özüm bu uğurlarıma ikiqat sevinmişəm. Axı göstərdiyim eksponatlardan ikisinin Muzeyə cəlb edilməsi mənə gənclik çağlarımda müyəssər olmuşdu.

Mənim elmi işim də Nərmin xanımın köməyi və dəstəyi sayəsində ərsəyə gəlmişdir. Onun istiqamətverici rolu öz təzahürünü təkcə mənim elmi maraq seçimimdə deyil, həmçinin elmi rəhbərimin təyinatında da göstərdi. İnsani keyfiyyətləri ətrafdakılara nümunə olan. Nərmin xanımla işləmiş Marat İbrahimov və Vyaçeslav Səmədovla, əməkdaşlığım mənim elmi işçi kimi formalaşmağımda əsas amil oldu.


Elmi işimlə bağlı bir epizod barədə danışmaya bilmərəm. İki il şöbədə işləyəndən sonra mən Nərmin xanıma elmi araşdırmaya başlamaq istədiyimi bildirdim. O, müraciətimi dinləyib, kiçik fasilədən sonra dedi: "Sizcə, buna hazırsınız? Elmi araşdırmalara hazırlaşan hər kəs bir neçə il öz sahəsində işləməli, ümumi nəzəri materiallarla tanış olmalı, sonralar isə tədqiq elədiyi mövzuya aid xüsusi ədəbiyyatı da mənimsəməlidir".

Nərmin xanımın əməkdaşlarına bəslədiyi münasibət səmimiyyətdən da¬ha yüksək idi. Hər birimizin ailə işlərində onun şəxsən iştirakı barədə onlarca misal gətirmək olar. O, həmişə yanımızda olar, bizimlə xeyir- şər işlərimizi, uğur və uğursuzluqlarımızı bölüşərdi. Əfsuslar olsun ki, xəstəlik Nərmin xanımı uzun müddətə yatağa saldı. Onun ömrünün bu hissəsində nəinki təkcə biz, Muzeyin rəhbərliyi də Nərmin xanımın yanında olduq.

İnsan ürəyi ömrün son anına kimi döyünür. Nərmin xanımın ürəyi indi də bizim xatirimizdə döyünür. O, sanki zamanın nəbzi ilə vuran saatdır. Zaman isə əbədidir.

Эльмира Мурадалиева

Высший пилотаж в науке азербайджанского ученого Фарида Алекперли



7 апреля 2021 г. в расцвете своих сил в мир иной ушел Фарид Урхан оглу Алекперли – специалист в области истории медицины, доктор исторических наук, профессор, заведующий отделом международных связей Института рукописей им. М.Физули Национальной АН Азербайджана. Он достойно представлял азербайджанскую науку, был президентом Азербайджанской ассоциации истории медицины (ААИМ), национальным представителем Азербайджана в Международном обществе истории медицины (ISHM). Фарид Алекперли оставил большое научное наследие: более 200 научных и научно-популярных книг и брошюр на азербайджанском, русском, английском, немецком и итальянском языках, а также ряд художественных рассказов и повестей.

Говорят, нет незаменимых людей. С этим где-то можно согласиться. Но нет восполнимых людей. Ф.Алекперли из этой плеяды. Родился он 3 января 1964 г. в городе Гянджа в семье элитных ученых. Его мать, Рена Агахан гызы Агабейли, - доктор биологических наук, отец, Урхан Казым оглу Алекперов, - академик, ректор Академии государственного управления при Президенте Азербайджана. Оба его дедушки также внесли весомый вклад в науку Азербайджана: Агахан Алескер оглу Агабейли (1904-1980) - член-корреспондент Всесоюзной академии сельскохозяйственных наук им. Ленина (ВАСХНИЛ), был одним из первых азербайджанских генетиков и селекционеров. Дед по отцу, Казым Абдулманаф оглу Алекперов (1909-1987), - член-корреспондент АН, был крупным ученым в области почвоведения и картографии. Взращенный в такой научной среде Фарид выбрал очень специфический профиль науки – историю биомедицины. Окончив в 1986 г. биологический факультет Азербайджанского

Государственного Университета, он в 1992 г. защитил диссертацию на тему «Сравнительный анализ лекарственных растений средневекового (XIII-XVIII вв.) и современного Азербайджана», получив степень кандидата биологических наук. А в 1998 г. защитил диссертацию «Арабописьменные источники X-XVIII вв. об охране здоровья в средневековом Азербайджане» на соискание ученой степени доктора исторических наук.

Чем определялся выбор научных изысканий Фарида Алекперли? Дело в том, что в средневековом Востоке главным приоритетом человеческого творчества, наряду с богословием и поэзией, была медицина. Средневековые методы лечения писцами-каллиграфами заносились в свитки, а позже в книги. Среди 40000 средневековых манускриптов, хранящихся в Институте рукописей, 390 – из области медицины, написанные большей частью на тюркском, персидском и арабском языках. А названия лекарств в манускриптах – на 27 языках, в т.ч. на санскрите, арамейском, древнегреческом, китайском, хинди. И чтобы эта сокровищница далекой цивилизации заговорила, необходимы были универсальные знания по переводу и расшифровке этих источников. Без знания языков, параллельно медицины и фармацеи, минералогии, зоологии, философии и истории эта работа была бы невыполнима. Этот титанический труд взял на свои плечи Ф.Алекперли, назначенный в 2003 году заведующим отделом перевода и информации Института рукописей НАН Азербайджана.

Интерес Фарида к арабскому алфавиту возник еще в детстве, когда его внимание привлек из домашней библиотеки сборник стихов азербайджанского сатирика М.А.Сабира, опубликованный на арабской графике. В первых шагах изучения арабской графики помогла ему бабушка Рухсара ханым, врач по специальности. Позже, по окончании университета, он прошел двухгодичные курсы персидского языка при Азербайджанском педагогическом институте иностранных языков (1988). Знание восточных языков позволило ученому изучить древние рукописи, перевести их на азербайджанский и русский языки. В 2004-2005 гг. он работал над проектом включения рукописей из коллекции Института в программу ЮНЕСКО «Память мира». Эта работа завершилась внесением в реестр программы 3 уникальных средневековых арабских и персидских рукописей по медицине: один из томов «Канона» Ибн Сины, переписанный в 1143 г., примерно через столетие после смерти автора в 1037 г.; труд Рустама Джурджани XIII в. и один из томов книги о хирургии и инструментах Абулькасима Захрави[1] .

В 2005 г. вместе с коллегами Ф.Алекперли основал первую в Азербайджане Ассоциацию историков медицины (Azerbaijan Association of Medical Historians

[1] Medieval medical manuscripts from Baku in the Memory of the World Programme of UNESCO / bmijournal.org; Unique Medical Manuscripts from Azerbaijan Have Been İncluded in the Memory of the World Program of UNESCO / alakbarli.aamh.az

(ААМН)) и был избран ее президентом. С его именем связана организация и 1-й республиканской конференции «Проблемы истории медицины в Азербайджане». А спустя год, в 2006 г., был сопредседателем уже Первой международной конференции по истории медицины «Медицина и фармация в средневековых рукописях»[1].

Всю свою научную работу Ф.Алекперли строил системно. Впервые исследовав все медицинские рукописи, хранящиеся в бакинском Институте рукописей, он составил каталог 365 рукописей. В ходе этой работы им были сделаны открытия двух рукописей ранее неизвестных азербайджанских врачей – Муртузагулу Шамлу (XVII в.) и Абульхасана Марагаи (XVIII в.)

В процессе своих исследований ученый приподнял завесу над одним из актуальных вопросов современной науки – секреты долголетия, изложенные врачами древности. Оказалось, что средневековые азербайджанские врачи имели свои собственные теории о здоровом образе жизни. По мнению Ф.Алекперли, традиционная медицина владеет ключом к нераскрытым тайнам лечения и предотвращения заболеваний: «Если мы сумеем сочетать древние знания с современными научными достижениями, мы сможем сформировать новую концепцию превентивной медицины»[2]. Он выдвинул концепцию здорового образа жизни через защиту окружающей среды, охрану здоровья путем рационального устройства жилища, профилактики заболеваний (физкультура, правильное питание, регулирование эмоций, режим труда и отдыха, регулярное очищение организма от шлаков и пр.)[3]

Первая публикация медицинского средневекового труда в Азербайджане «Тиббнаме» принадлежит Ф.Алекперли[4]. «Тиббнаме» - краткая энциклопедия традиционной восточной медицины, в которой описаны лекарственные свойства сотен видов трав.

Проливая свет на забытые тайны древней медицины, Ф.Алекперли проявил не только неординарные источниковедческие способности. Через эти знания он выводит своего читателя на новый пласт культуры Востока, в т.ч. Азербайджана. Двухтомник «Тысяча и один секрет Востока» - яркое свидетельство тому[5]. В этой книге автор в популярной форме рассказывает о

[1]Alakbarli F. First International Medical Manuscript Conference / azeri.org

[2]Алекперли Ф. Тысяча и один секрет Востока. Т. 2. Баку, «Нурлан», 2008, с. 14.

[3]Алекперов Ф. Охрана здоровья в средневековом (X-XVIII вв.) Азербайджане. Баку, «Иршад», 1999.

[4]Средневековые азербайджанские трактаты по медицине. Мухаммед Юсиф Ширвани. Тиббнаме (Медицинская книга). Предисловие, перевод со староазербайджанского и персидского, комментарии и словарь Фарида Алекперли и Акифа Фарзалиева. Санкт-Петербург, Издательство Санкт-Петербургского Государственного Университета, 2002.

[5]Алекперли Ф. Тысяча и один секрет Востока. Т. 1. Баку, «Нурлан», 2008, 490 с. (второе, дополненное издание); Т. 2. Баку, «Нурлан», 2008, 464 с.

богатом наследии древней медицины, науки, философии и культуре Востока. С интересом читаются советы средневековых авторов о предотвращении и лечении различных заболеваний, описываются сотни лекарственных растений, лечебные ванны, бальзамы, массажи, ароматерапия, йога, правильное питание и др. Не меньший интерес представляют описанные в книге принципы средневековой азербайджанской диетологии. Приведены рецепты древних национальных блюд с указанием их лечебных свойств. Еще 700 лет назад азербайджанский ученый Юсиф ибн Исмаил Хойи (ибн Кабир) предложил теорию рационального питания (больше фруктов и зелени, меньше соли и животных жиров), которая перекликается с современными рекомендациями диетологических и медицинских организаций.

Отдельные главы посвящены целебным свойствам камней, средневековой магии и астрологии. Автор проявил широкий диапазон познаний и при анализе предписаний исламской религии, шариата и хадисов пророка Мухаммеда, эпического памятника «Китаби Дедем Горгуд», являющегося энциклопедией далекого прошлого и средневековой истории Азербайджана и в целом всего тюркского (огузского) мира. С интересом читаются и главы по истории и культуре Азербайджана[1]. Здесь фантастические сюжеты переплетаются с реалиями истории: Азыхская пещера, забытые письмена древнего Азербайджана, забытые ширваншахи, русско-тюркские языковые связи, как Азербайджан открывал Америку, реликвии Азербайджана в музеях мира, статус гочу и героический защитник Ичери шехер, бесстрашный Мамед Анифа Тагиев, организовавший оборону Ичери шехер от банд армян-дашнаков в марте 1918 г.

Анализ творчества ученого был бы не полным, если бы не отметили его книги и для детей – "Elmi nağıllar", "Flaminqo cənuba uçur", в которых в доступной форме излагаются законы природы.

В актив Фарида Алекперли, наряду с опубликованными трудами, входит и фильмография. Южнокорейская независимая телекомпания "İndependent Beta Grup" подготовила документальный фильм о долгожителях и их питании, в который вошли сюжеты из различных стран мира. Значительная часть фильма продолжительностью 60 минут была снята в Азербайджане. Среди консультантов фильма из разных стран был наш соотечественник Ф.Алекперли. Южнокорейские документалисты обратились к Фариду, прочитав в интернете на английском языке его статью о долгожителях Азербайджана, режиме их питания и его влиянии на здоровье и продолжительность жизни. Главная мысль Ф.Алекперли в этом фильме сводилась к тому, как молочные продукты и сыры, согласно средневековой медицине, способствуют долголетию.

[1] Алекперли Ф. Тысяча и один секрет Востока. Т. 2. Книга X, с. 369-457.

Пожалуй, высшим пилотажем в научной деятельности профессора Фарида Алекперли явились исследования в Апостольской библиотеке и секретных архивах Ватикана. Он выявил 80 средневековых рукописей и свыше 500 исторических документов, имеющих отношение к Азербайджану и соседним регионам, на тюркском, арабском, персидском, латинском, итальянском и других языках. Факсимильные копии этих рукописей были отправлены в архивы Баку. Была проведена работа и по составлению каталога ранее не исследованных и не включенных в каталоги средневековых тюркских рукописей Ватикана. Результаты исследований в архивах Ватикана были обобщены в виде монографии[1].

На вопрос «Что я сделал для Азербайджана?» ответ в многочисленных отзывах зарубежных ученых с широкой географией – из США, Великобритании, Бельгии, Норвегии, Аргентины, Чили, Германии, России, Канады, Уругвая, Бразилии2. В одном из них американским ученым японской и китайской медицины Джеффри Данном очень лаконично сказано о нашем Фариде: «Вы – замечательный историк медицины. Помимо того, я бы назвал Вас также этнографом медицины».

[1] Ələkbərli F. Vatikan arxivlərində saxlanan Azərbaycana aid əlyazmalar. Bakı, "Elm və təhsil", 2014.

[2] Алекперли Ф. Тысяча и один секрет Востока. Т. 2, с. 8-37.

MÜNDƏRİCAT

Tarix

Nailə Vəlixanlı. Zəngəzur bölgəsinin VII-XII əsrlər dövrü tarixinin tarixşünaslığına dair 3

Исмаил Умудлу. О генеалогическом аспекте средневековых азербайджанских источников по истории 20

Эльмира Мурадалиева. Кавказский маршрут Великого Шелкового пути и средневековые города Азербайджана 29

Tural Şiriyev. Səfəvi-Osmanlı münasibətlərində sufi təriqətlərinin roluna dair 47

Bəhman Kərimov. XX əsrin əvvəllərində Lənkəran şəhərində ictimai-siyasi vəziyyət 59

Фархад Джаббаров. Армянский террор в Шуше в 1905-1906 гг. 71

Əli Fərhadov. XX əsrin əvvəllərində din xadimlərinin Qacar İranındakı inqilabi hərəkatda rolu 83

Азиза Назарли. Действия XI Красной Армии в Нахчыване в 1920 году в воспоминаниях турецкого генерала Вейсала Унувара 93

Muzey materialları Vətən tarixinin öyrənilməsində mənbə kimi

Gülzadə Abdulova. Milli Azərbaycan Tarixi Muzeyinin Qarabağ irsinin tədqiqi və təbliği sahəsindəki fəaliyyəti 102

Али Раджабли, Ирада М.Наджафова, Айгюн Мамедова. К вопросу о монетах Юлия Цезаря в Национальном музее истории Азербайджана 117

Sevinc Nəsirova. Toxuculuq məmulatları üzərində quş motivi..... 125

Афет Рустамбекова. К атрибутации золотой диадемы из Хыныслы .. 133

Mircavid Ağalarov. Qədim Gəncənin şirli keramikasında heksoqram təsviri (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) 144

Nardanə Yusifova. Natiq Fərəcullazadənin "Şəmkir yaxınlığında döyüş" əsəri tarixi anlamda 155

Ramiyə İsmayılova. Səfər camının qabı 159

Fəridə Xəlilova. Kustar ipəkçilik
sənətində istifadə edilən alət və dəzgahlar haqqında
(MATM Etnoqrafiya fondunun materialları əsasında)..... 164

Aygün Quliyeva. Keçmiş Azərbaycan məişətində gəlinciklər,
onların mənşəyi və dini-mifoloji dünyagörüşündə yeri 175

Günel Eminova. İslam dekorativ-tətbiqi sənət nümunəsi - qəndil..... 186

Esmira Rəhimova. Bakı Kommersiya məktəbinin tarixindən
(Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında)..... 195

Севиль Казиева. Первые женщины-композиторы Азербайджана 206

Fikrət Bağırov. Azərbaycan tarixinə dair qiymətli xəritələr məcmusu..... 213

Nüşabə Əsədova. Azərbaycan səhiyyə təşkilatçısı – Əlibəy Qayıbov 218

Elmira Əliyeva. II Qarabağ müharibəsinin şəhid həkimləri
(MATM materialları əsasında)..... 225

Arxeologiya

Nəcəf Müseyibli. Xocalı-Gədəbəy mədəniyyətinə aid
Tavatəpə yaşayış yeri 231

Qafar Cəbiyev. Klassik poeziyadan praktiki arxeologiyaya..... 237

Aslan Qasımov, Rəhman Abdullayev, Sevinc Şirinli,
Aybəniz Əhədova, Əhməd Əhədov. Qobustanda yeni arxeoloji
araşdırmalarda dəqiq dövrləşdirmə metodlarının tətbiq 248

Ceyhun Eminli. Xımbəpoçə küp qəbirlər məzarlığı
(Lerik rayonu, Boykəndil kəndi) 257

Muzeyşünaslıq

Nərmin Qasımlı. İnteraktiv vasitələrin
"Suraxanı" tanker-muzeyinin ekspozisiyasındakı roluna dair 269

Ramiyə İsmayılova."Nizami Gəncəvi və
Azərbaycan Atabəyləri dövləti" sərgisi..... 274

Firuzə Ağayeva. Muzeyin kağız əsaslı eksponatlarının ikinci həyatı 278

Alimlərin xatirəsinə

Tamilla Kərimova-Kocayeva. Zelik İosifoviç Yampolskinin (Lənkəranlının) əsərlərində Azərbaycanın qədim tarixi məsələləri 285

Nasir Quluzadə. "Lənkəranlı" tədqiqatçı və təbliğatçı: Zelik İosifoviç Yampolski-110..... 296

Məmməd Məmmədov. Nərmin Tahirzadə - 100..... 302

Эльмира Мурадалиева. Высший пилотаж в науке азербайджанского ученого Фарида Алекперли..... 304

Milli Azərbaycan Tarixi Muzeyi
- 2021 -

Kompüter tərtibatı :
Aynurə İsmayılova
İİİ